COVİD-19 zamanı yaranmış nazal simptomlar bir neçə gün və ya bir neçə həftə ərzində adətən öz-özünə keçib gedir, ancaq bəzi simptomlar, o cümlədən, qoxu hissiyyatının zəifləməsi ehtimalı virusun yox olmasından sonra da uzun müddət qala bilər. COVİD infeksiyası burunda həmçinin bir çox – zökəm, burun tutulması, burun qanaxması kimi neqativ simptomlar törədə bilir.

Burunun selikli qişası infeksiyasının ötürülməsi və respirator virusların yayılması üçün əsas rezervuar kanal hesab olunur [5] və belə infeksiyalardan biri də SARS-CoV-2 viruslarıdır. Burun selikli qişasının kiprikli epiteli SARS-CoV-2-nin yoluxması üçün ilkin subhüceyrəvi sahə sayılır. Burada virusun makroorqanizmlə münasibətində mühüm rol oynayan zəngin spesifik reseptorlarda və burunun kiprikli epitelində tropizm baş verir [6]. Bundan başqa, COVİD-19-la yoluxmadan sonra, həmin hissədə qlükoproteinlər (spike) və nukleoprotein N, müvafiq olaraq virus kapsulunun struktur komponentləri və nukleokapsid [7] kimi zəngin virus markerlərinə rast gəlmək olar [8].

SARS-CoV-2 infeksiyasının burunun selikli qişasında törətdiyi sitopatik effektə (virusla zədələnmiş morfoloji dəyişiklik və hüceyrənin funksiyalarının pozulması) desiliasiya, kipriklərin qısalması və deformasiya olunması [9], habelə kiprik strukturunun dezorqanizasiyası və kiprikii qatın nazikləşməsi kimi

dəyişikliklər daxildir [10]. Bu dəyişikliklər nəticəsində mukosiliar klirensin azalması, selik toplanması və təkrar infeksiyaya meylilik halları müşahidə olunur. Kiprikli epiteldə baş verən dəyişikliyə əlavə olaraq qeyd olunur ki, SARS-CoV-2-yə yoluxduqdan sonra burunun selikli qişasında daimi mövcud olan virus hissəciklərinin təsiri nəticəsində uzunmüddətli yerli iltihab davamlı rinitin və qoxu hissiyyatının pozulmasına səbəb olur [11].

SARS-CoV-2 virusları burunun selikli qişası və qoxu epitelində tropizm törədir və onun antigenləri diaqnoz qoyulduqdan bir neçə ay sonra da qalmış olur, bunun nəticəsində xroniki iltihabi proses belə pasientlərdə persistəedici qoxu disfunksiyasının əmələ gəlməsinə gətirib çıxarır [12].

J.Costa dos Santos et al. [8] tədqiqatlarında müayinə olunan SARS-CoV-2 pasientlərin hamısında burun-udlağın selikli qişasında qlükoproteinlər (spike) və nukloproteinlərin (N) olması müəyyən olunmuşdur. Bu tədqiqat işində nazal endoskopiyanın analizi göstərmişdir ki, pasientlərin hamısında rinopatik fonlu xroniki iltihabi xəstəliklər baş verir, hətta ilkin yüngül dərəcəli COVİD-19 diaqnozu qoyulduqdan 80 gün sonra da, bu əlamətlərə rast gəlmək olar.

Virus hissəciklərinin yuxarı tənəffüs yollarının epitelindən xaric olması adətən 17 gün ərzində baş verir [13]. Bununla yanaşı, bəzi tədqiqatçıların məlumatlarına əsasən, SARS-CoV-2 virusları yuxarı tənəffüs yollarının selikli qişasında daha uzun müddətə – bəzən 83 günə qədər qalmış olurlar [14]. J.Costa dos Santos et al. [8] apardıqları tədqiqatlarda qeyd olunur ki, simptomların aşkar olunması və virus antigenlərinin təyin edilməsi arasındakı müddət 90 günə bərabərdir.

SARS-CoV-2 infeksiyalı pasientlərin burunun selikli qişasında virus antigenlərinin uzun müddət qalması, həmin nahiyədə iltihab sitokinlərinin səviyyəsinin yüksəlməsi ilə əlaqədardır [11].

Başqa qrup tədqiqatçıların məlumatlarına əsasən, SARS-CoV-2 infeksiyasına yoluxmadan 2-5 ay sonra 112 fransız pasientin burunun selikli şasında qalıcı iltihabi proses (qoxu hissiyyatının pozulması və pozulmaması ilə müşayiət olunan) aşkar edilmişdir [15].

Burun çəpərinin əyriliyi-otorinolarinqoloji praktikada ən geniş yayılmış yuxarı tənəffüs yolları xəstəliklərindən biri hesab olunur və bu patologiya zamanı tənəffüs yollarında obstruksiya baş verir. Çəpərin yerdəyişməsi qoxu hissiyyatının pozulmasına (xüsusən daha çox tıxac olan tərəfdə) səbəb olur [16]. Verilən məlumatlara görə, COVİD-19-la əlaqədar olaraq burun çəpərinin perforasiya hallarına rast gəlinir və güman edilir ki, bu vəziyyət burun-udlağın virusun birbaşa daxil olma yeri olaraq, həmin sahədə vaskulyarizasiyanın pozulması səbəbindən yaranır [17].

Müəlliflər bu virusun damar sisteminə və yaraların (xüsusən burunda) sağalmasına təsirini öyrənmək məqsədilə yeni tədqiqatların aparılmasını tövsiyə edirlər. Xroniki rinosinusitin və steroid terapiyasının COVİD-19-la yoluxmaya təsiri və onun ağır nəticələrinin olması mübahisəlidir. Ədəbiyyat məlumatlarına görə, xroniki rinosinusitin COVİD-19-a təsiri neytraldır. Xroniki rinosinusitin kovidli pasientlərin hospitallaşdırılması riskinin artırmasına baxmayaraq, bu proses pasientlərin xəstəxanalara daxil olmalarının uzumüddətli olması, intensiv terapiya şöbəsində yerləşdirilməsi, ağciyərlərin süni ventilyasiyası və ölüm kimi ağırlaşmış halların baş verməsinə səbəb olmur [18].

COVİD-19-un ən çox rast gəlinən simptomlarından biri – iybilmə qabiliyyətinin pozulmasıdır və bu zaman pasientlərin əksəriyyətində bu funksiyanın tam və ya qismən itirilməsi baş verir.

Qoxu disfunksiyasını həm kəmiyyət, həm də keyfiyyət baxımından təsnif etmək olar. Kəmiyyət disfunksiyasına iybilmə qabiliyyətinin gücü və intensivliyinin dəyişilməsi, keyfiyyət faktoruna isə qoxu hissinin təhrif olunması (adətən mənfi istiqamətdə) və keyfiyyətinin aşağı düşməsi daxildir. Bu iki amil bir yerdə mövcud ola bilər və kəmiyyət disfunksiyası olan pasientlərin 60%-də, eyni zamanda müxtəlif dərəcəli keyfiyyət disfunksiyası hallarına da rast gəlinir [19].

Qripəbənzər infeksiyadan sonra qoxu hissiyyatının itirilməsi haqda məlumat ilk dəfə 1975-ci ildə verilmişdir [20]. Həmin vaxtdan etibarən müxtəlif ədəbiyyat mənbələrində çoxsaylı hesabatlara və məlumatlara rast gəlmək olar. Hazırki dövrdə bu məlumatlara əsaslanaraq hesab etmək olar ki. qoxu hissiyyatının pozulmasında yuxarı tənəffüs yollarında yayılmış virus infeksiyaları mühüm rol oynayır və bəzi mənbələrin məlumatlarına əsasən bu göstəricilər 18-45%-ə bərabərdir [20].

Buna baxmayaraq, ÜST-nın məlumatına görə, qoxu və dad hissiyyatının itirilməsi COVİD-19-un ən az rast gəlinən simptomlarından biridir. Eyni zamanda bütün dünya üzrə aparılmış çoxsaylı tədqiqat işləri ÜST-nin bu tezisini qəti şəkildə təkzib edir və bir çox hesabatlarda qoxu və dad disfunksiyalarının (OD – olfactory dysfunction, GD – gustatory dysfunction) kovidli subyektlər arasında kifayət qədər geniş yayılması iddia olunur [21; 22; 23]. Bu günə qədər OD±GD formulasının geniş yayılması məlum deyil və əldə olunmuş nəticələr pandemiyanın ilk aylarında çoxsaylı tədqiqatlar əsasında müəyyən edilmiş göstəricilərdir. Eyni zamanda qeyd etmək lazımdır ki, bu göstəricilər ondan əziyyət çəkən insanlarda prosesin əsl mahiyyətini

olduğu kimi əks etdirə bilmir. Qoxu və dad disfunksiyasının yayılma səviyyəsi tədqiq olunan populyasiyanın statusundan asılı olaraq dəyişir və xəstəliyin yüngül və orta gedişli formalarında həmin göstəricilər 54,2%-70,2% təşkil edir (orta 11,5±5,7 gün) [22].

Məlumdur ki, viruslar, o cümlədən rinoviruslar, koronaviruslar, qrip və paraqrip virusları, enteroviruslar, adenoviruslar və Epşteyn-Barr virusları qoxu disfunksiyası törədə bilirlər [20]. Bununla yanaşı, bir çox pasientlər yoluxma baş verdikdən xeyli müddət sonra müalicə məqsədilə müraciət edirlər, ancaq bu halda törədiciləri təyin etmək mümkün olmur.

SARS-CoV-2 qoxu pozğunluğunun əsas səbəbkarı kimi identifikasiya olunur və postvirus mənşəli qoxu disfunksiyasında diqqəti cəlb edir. 27492 nəfər pasientin iştirakı ilə aparılmış 83 tədqiqat işinin meta-analizinin nəticələrinə əsasən, SARS-CoV-2-yə yoluxmadan sonra qoxu disfunksiyasının rastgəlmə tezliyi 47,9%-ə bərabər olmuşdur [24]. Buna baxmayaraq,həmin göstərici xəstələnmənin dəyişkənliyinin regionun coğrafiyasından, cinsdən, SARS-CoV-2 variasiyasından və qoxu disfunksiyasının yarımtipindən asılılığını izah edə bilmir. Tədqiqat işlərinin meta-analizində bu faktorların hər biri ayrı-ayrılıqda təhlil edilmişdir. Müəyyən olunmuşdur ki, Avropalı pasientlərdə yaranmış qoxu disfunksiyası Asiyalı pasientlərə nisbətən yüksək olmuşdur (müvafiq olaraq 54,4% və 31,4%). Pasientlərin 60,4%-i qadınlar olan SARS-CoV-2-nin dörd müxtəlif yarımtipləri tərəfindən törədilən qoxu disfunksiyasının müqayisəli təhlil göstərmişdir ki, omikron tərəfindən törədilən qoxu disfunksiyasının rastgəlmə tezliyi, alfa, delta və D614G-variantlarına nisbətən daha aşağıdır [25].

Lechien et al. [22] tədqiqat işlərində qeyd olunur ki, kovidə yoluxmuş avropalı pasientlərdə nazal simptomlar olmasa belə, qoxu və dad pozğunluqları geniş yayılmış simptomlardır. Həmin müəlliflərə görə, qəfil anosmiya və ya aqevziya beynəlxalq elmi cəmiyyət tərəfindən COVİD-19-un mühüm əlaməti kimi qəbul edilməlidir [22].

2020-ci il martın əvvəlində COVİD-19 və qoxu disfunksiyasının yaranması arasında əlaqənin olması haqda ilkin olaraq verilmiş rəyə əsasən, qoxu disfunksiyasına COVİD-19-un əsas və aparıcı təzahürü kimi baxılır.

Son dövrlərdə COVİD-19 zamanı yaranmış qoxu disfunksiyasının tədqiqinə həsr edilmiş çoxsaylı tədqiqat işləri aparılmış və onların yayılması 47,85% təşkil edir [24]. Bu xəstəlikdən əziyyət çəkən pasientlərin 15-20%-i dayanıqlı qoxu disfunksiyasının olduğunu qeyd edirlər [26].

Bununla yanaşı, bu göstəricilər altı aylıq müayinələr zamanı qoxu funksiyasının psixofiziki qiymətləndirilməsinin nəticələrinə əsasən fərqlənir və həmin müayinə olunanların 60%-də davamlı qoxu disfunksiyası aşkar edilmiş və bunların 18%-i müstəqil formada qoxu hissinin dəyişməsini bildirmişlər [27]. Bununla paralel olaraq, COVİD-19-lu pasientlərdə yayılma ilə yanaşı sağalma zamanı da qoxu disfunksiyası azala bilər, çünki müayinənin nəticələrinin əksər hissəsi sorğu-şəxsi hesabata əsasən aparılmışdır [28].

J.Costa dos Santos et al. [8] apardıqları müayinələr zamanı məlum olmuşdur ki, COVİD-19-un fəsadları aradan qaldırıldıqdan 12 həftə sonra da, pasientlərin bir hissəsində dayanıqlı qoxu disfunksiyası qalmış olur. Bu müayinələrdə pasientlərin hamısında yüngül dərəcəli COVİD-19 əlamətləri müəyyən edilmiş, buna baxmayaraq, onlarda orta burun balıqqulağında selikli qişasında virusların persistensiyasına rast gəlinmişdir. Bunun nəticəsində həmin hissədə uzunmüddətli iltihabi proses yaranmış və, beləliklə, dayanıqlı qoxu disfunksiyası baş vermişdir.

Bir tədqiqat işində 16 maddədən ibarət testdən istifadə olunmaqla, Sniffin Sticks iyini müəyyən etmək məqsədilə qoxu disfunksiyası obyektiv qiymətləndirilmişdir [29]. Aparılmış müayinələrin nəticələri göstərmişdir ki, kəskin infeksiyadan sağalma olmasına baxmayaraq, 3 ay ərzində nevroloji simptomlar üstünlük təşkil etmiş və pasientlərin əksər hissəsində qoxu pozğunluğu davamlı olmuşdur.

H.Q.M. Tan et al [30] məlumatlarına əsasən, populyasiyalarda qoxu disfunksiyası əksər hallarda dad disfunksiyası ilə əlaqədə olmuş (78,9%), bu zaman rəyi soruşulanların heç biri yalnız dad disfunksiyasının olmadığını qeyd edirlər. Bu məlumat digər tədqiqat işlərində də öz təsdiqini tapır [31; 32] və həmin müəlliflərin qənaətinə görə, qoxu disfunksiyası sadəcə dad hissiyyatının pozulması ilə deyil, adətən retronazal qoxu funksiyasının pozulması ilə əlaqədardır. Bununla belə, COVİD-19-lu pasientlərdə geniş yayılmasa da, izolə olunmuş qoxu disfunksiyasına rast gəlmək olar [33].

Uzunmüddətli qoxu disfunksiyası olan pasientlərdə prosesin proqnozu müəyyən olunmayıb, eyni zamanda bəzi müəlliflər iddia edirlər ki, 3 il ərzində qoxu pozğunluğu spontan olaraq sağala bilər [34]. Onlar telefon müsahibəsindən istifadə etməklə prospektiv olaraq 63 nəfər üzərində postvirus qoxu pozğunluğunun tədqiqi əsasında bu nəticəyə gəlmişlər. Pasientlərə 100 ballıq şkala üzrə subyektiv şəkildə öz qoxu hissiyyatlarını qiymətləndirmək təklif olunmuş və bundan sonra 33,4 ay ərzində onlar üzərində nəzarət aparılmışdır. Aparılmış müayinələr nəticəsində pasientlərin 85,7%-də qoxu disfunksiyasının subyektiv

yaxşılaşması və 31,7%-də normosmiyanın bərpası məlum olmuşdur. 791 nəfər postvirus qoxu disfunksiyalı pasientlərin retrospektiv analizini qoxu çubuqcuqları vasitəsilə dəyərləndirən A.Cavazanna et al. [35] qeyd edirlər ki, ilkin olaraq anosmiyası olan pasientlərin 46%-də klinik baxımdan qoxu funksiyasının yaxşılaşması müşahidə olunmuşdur. Bundan əlavə, əvvəlcə hiposmiyası olan pasientlərin 35%-də də analoji kliniki situasiyaya rast gəlinmişdir. Həmin pasientlər üzərində aparılan nəzarətin müddəti 23 ay olmuşdur. Ümumiyyətlə, davamlı bərpa olunma tempi təxminən bir ilə qədər baş verir və bundan sonra həmin temp zəifləyir.

Verilən məlumata görə, COVİD-19-dan 6 ay sonra qoxu disfunksiyasının yayılması 27-60% [27], bir ildən sonra 26,5-46% [36], iki ildən sonra isə 8,3% təşkil edir [Boscolo-Rizzo et al, 2022, p.889]. Qoxu disfunksiyasının bərpa olunma dövrünün uzunmüddətli olma mexanizmi tam öyrənilməyib, bununla belə, bəzi proqnostik faktorlar, o cümlədən, daha cavan yaşlı pasientlər, siqaret çəkməyənlər (80 nəfərdən 79-u), qoxu epitelinin biopsiyasında çoxsaylı reseptor hüceyrələri və intakt sinir dəstələrinin mövcudluğu, burun tutulması olmayan pasientlər, xəstəliklə əlaqədar qoxu potensialının olması, rentgen müayinəsinə əsasən qoxu soğanağının dar olması [37] və ilk gəliş zamanı qoxu disfunksiyasının yüngül dərəcəli və davamlı olması sağalmanın daha sürətlə baş verməsi ilə əlaqədardır [30].

Qadınlar arasında qoxu disfunksiyasının sağalma göstəriciləri kifayət qədər aşağıdır və bunun başvermə səbəbi məlum deyil. Güman olunur ki, estrogenin $AÇF_2$ reseptorlarına təsiri və başlanğıc qoxu funksiyası bu prosesdə əsas rol oynayır [30].

Ədəbiyyat mənbələrində SARS-CoV-2 virus infeksiyasından sonra yaranmış parosmiyanın (iy bilmə qabiliyyətinin təhrif olunması) rastgəlmə tezliyi haqda məlumatlar məhduddur. İsveçdə parosmiyaya həsr olunmuş anket və strukturlaşmış müsahibə əsasında 1713 nəfərin iştirakı ilə aparılmış iri bir müayinənin nəticələrinə əsasən, pasientlərin özləri tərəfindən identifikasiya olunan parosmiyanın yayılması 3,9%-ə bərabər olmuşdur [20]. Ancaq tədqiqat işində parosmiyanın virus infeksiyası ilə müvəqqəti və səbəb-nəticə əlaqəsində olmasını təyin etmək mümkün olmamışdır. SARS-CoV-2 pandemiyası parosmiyaya həsr olunmuş nəşrlərin sayını artırdı və 2021-ci ilin metanalizində əksər məlumatlar qoxu disfunksiyasının kəmiyyət göstəricilərinə, yalnız bir tədqiqat işi isə patologiyanın keyfiyyət dəyişikliklərinə həsr olunmuşdur. SARS-CoV-2 infeksiyasına yoluxmuş və iybilməni itirmiş pasientlərin müayinəsi məqsədilə aparılmıış müxtəlif tədqiqat işlərinin nəticələri göstərmişdir ki, onların 28-43%-də parosmiyanın yaranması ehtimalı var [27]. Qeyd etmək lazımdır ki, pasientlərin çoxunda parosmiya 6 və ya 12 ay ərzində davam edir [20].

Parosmiyalı pasientlərin əksər hissəsində kliniki situasiyanın qiymətləndirilməsi məqsədilə istifadə olunan rentgen müayinəsinin yetərli olmamasını nəzərə alaraq, bir çox tədqiqat işlərində funksional MRT (maqnit-rezonans tomoqrafiya) müayinəsi aparılmış [38], hiposmiyalı və parosmiyalı pasientlərdə qoxuların təsiri ilə baş beyində patternlərin aktivləşməsi müqayisə olunmuşdur. Müayinələrin kiçik qruplarda aparılmasına baxmayaraq, patternlərin differensial aktivliyini əks etdirən maraqlı nəticələr əldə olunmuş və bunlar hər qrup üzrə kliniki simptomların göstəricisi hesab olunurlar.

Hiposmiyalı pasientlər üzərində aparılmış tədqiqatlar göstərmişdir ki, parahippokampal girişdə, adacıqlarda, ön qurşaq qabığında və orbitofrontal qabıqdakı tipik qoxu patternlərinin stimulyasiyası hiposmiyası olmayan xəstələrdə ilkin göstərici ilə müqayisədə azalma olsa da, normal şəkildə emal edilir. Əksinə, parosmiyalı pasientlərdə beyinciyin strukturunda daha güclü aktivləşmə baş verir və ehtimal olunur ki, bu ikrah siqnallarının identifikasiyasında mühüm rol oynayır. Talamusda - güman edilir ki, buradakı proseslər stimula yönəlmiş diqqətin tənzimlənməsinə xidmət edir.

Beləliklə, funksional MRT müayinəsi kliniki simptomlarla obyektiv korrelyasiyanı təmin edir və bu parosmiyalı pasientlər tərəfindən etiraf edilir. Belə tədqiqat işləri qoxu disfunksiyasının nəticələrinin daha yaxşı öyrənilməsinə imkan verir və ona görə də müsbət dəyərləndirilir [38].

SARS-CoV-2-nin ilkin variantları ilə yoluxmuş şəxslərdə anosmiyanın (qoxunun itirilməsi) sürətli və bir qədər burun tutulması ilə müşayiət olunan gedişi xarakterikdir və bu əks konduktiv patogenezin olmasını təsdiq edir. MRT müayinəsi bir çox pasientlərdə burun boşluğunda havanın keçməsinə mane olmadıqda, qoxu yarığında iltihabi ödemin olmasını aşkar etmiş, ancaq digər seriyalarda isə əksər pasientlərdə qoxu yarığının şəffaf olması müyyən olunmuşdur [38]. SARS-CoV-2 ilə yoluxmadan sonra həyat qabiliyyətli hüceyrələrin zədələnmə mexanizmi məlum deyil. Bu istiqamətdə irəli sürülmüş mümkün mexanizmlərdən biri – sinsitiyanın formalaşma hipotezidir (sinsitiya – çoxlu hüceyrələrin bir ümumi forma və ölçüyə malik törəmədə birləşməsidir). Bu hipotez SARS-CoV-2 kəskin infeksiyası səbəbindən ölmüş şəxslərin ağciyər toxumalarında aparılmış müayinələrin ekstrapolyativ nəticələrinə əsaslanır [39]. Hesab olunur ki, sinsitiyanın yaranması virusun replikasiyasına səbəb olur və bu halda hüceyrəarası genişlənmə hüceyrəxarici mühitə və orada mövcud olan anadangəlmə immun sistemə zərər yetirmədən asanlaşır. SARS-CoV-2-nin yapışmış zülalı $AÇF_2$

reseptorları ilə qarşılıqlı əlaqədə olaraq virusun hüceyrə və hüceyrəarası maddə ilə birləşməsini həyata keçirir, çünki bu proses $TMPRSS_2$ proteazası vasitəsilə gücləndirilir [39].

V.E.Kokarinoy və J.A.Bıkova [40] məlumatlarına əsaən, pasientlərin 26 (14%)-də 3 aydan sonra aparılmış müayinələr zamanı dizosmiya (qoxu hissiyatının pozğunluğu) və parosmiya ilə müşayiət olunan dayanıqlı qoxu hissiyatının itirilməsi müşahidə olunur. Həmin müəlliflərin qənaətinə görə, virusun alternativ fiksasiyası hesabına CD147 molekulunun yapışmış zülalı vasitəsilə virus neyrotrop təsir göstərərək qoxu disfunksiyası törədir.

Dizosmiyanın inkişafı yeni əmələ gəlmiş qoxu lifləri arasında əlaqənin yaranmasını göstərir [40].

İyə qarşı aparılmış kəmiyyət testlənməsi qoxu funksiyasının zəifləməsini, anosmiyanın həmişə olmamasını, SARS-CoV-2 infeksiyasının əsas markeri olduğunu nümayiş etdirir. Bundan başqa, bu testlənmə bəzi hallarda COVİD-19-lu pasientlərdə ilkin müalicənin aparılması və ya karantinin tətbiq olunmasının müəyyənləşdirilməsinə imkan verir [23].

Əldə olunmuş elmi-praktiki ədəbiyyatın öyrənilməsi və təhlili insan orqanizmində postkovid ağırlaşmaları, xüsusən burun-qoxu disfunksiyaları haqda bu günə qədər mövcud olan elmi-nəzəri biliklərin toplanması və formalaşdırılmasına imkan vermişdir.

Bununla belə, yaxşı məlumdur ki, hər bir burun boşluğunda 3 hissə vardır: tənəffüs hissəsi (burun çuxuru), qoxu hissəsi və burun dəhlizi. Funksional baxımdan tənəffüs hissə burun boşluğu vasitəsilə daxil olan hava axınını aşağı burun balıqqulağında və ön çəpər toxumasında nizamlayır. Respirator sahə burun boşluğunun ən böyük hissəsidir, çoxsaylı sağlam hüceyrələr, kirpikli epitel və qan damarları ilə zəngindir. Aparılmış tədqiqatların təhlili belə bir nəticəyə diqqəti cəlb edir ki, otorinolarinqoloqa müraciət edən pasientlərin bir qismini burunla nəfəs alması çətin olan və ya respirator funksiyanın pozulduğu xəstələr təşkil edir.

Burada müəyyən suallar ortaya çıxır: COVİD-19 və postkovid dövründə üzə çıxan əlamətlərin özünəməxsus spesifikası, göstəriciləri və ona uyğun cavabları var. Buna baxmayaraq, ədəbiyyat məlumatlarında qeyd edildiyi kimi, həmin dövrdə burunun respirator funksiyasının pozulması öyrənilməyib. COVİD-19 və postkovid dövründə aparılmış çoxsaylı tədqiqatlarda əsasən qoxu disfunksiyasının patofizioloji mexanizmləri daha yaxşı öyrənilmişdir.

Beləliklə, COVİD-19 infeksiyası ilə bağlı araşdırdığımız ədəbiyyat mənbələrinin sistematik icmalı göstərdi ki, COVİD-19 kontekstində rinosinusit, burun polipi və adenoid vegetasiyasi olan pasientlərdə respirator funksiyanın vəziyyəti haqda elmi-nəzəri informasiya praktiki olaraq yoxdur. Bununla əlaqədar olaraq, COVİD-19-un burunun respirator funksiyasına təsirinin öyrənilməsi gələcək elmi-tədqiqat işlərinin aparılmasını tələb edir.

ƏDƏBİYYAT

1. Hu B., Guo H., Zhou P. et al. Characteristics of SARS-CoV-2 and COVID-19 // Nat Rev Microbiol., 2021, v.19(3), p.141-154.

2. Панкова В.Б., Серебряков П.В., Федина И.Н. и др. Поражение верхних дыхательных путей новой коронавирусной инфекцией COVID-19 и аспекты профпатологической экспертизы // Вестник оториноларингологии, 2020, №6, с.78-83.

3. Otte MS, Haehner A, Bork M-L. et al. Impact of COVID-19-Mediated Olfactory Loss on Quality of Life // ORL, 2023, v.85(1), p.1-6.

4. Karamali K., Elliott M., Hopkins C. COVID-19 related olfactory dysfunction. Curr Opin Otolaryngol Head Neck Surg. 2022;30(1):19–25.

5. Sungnak W., Huang N., Bécavin C. et al. HCA Lung Biological Network. SARS-CoV-2 entry factors are highly expressed in nasal epithelial cells together with innate immune genes // Nat Med., 2020, v.6(5), p.681-687.

6. Lee I.T., Nakayama T., Wu C.T. et al. ACE2 localizes to the respiratory cilia and is not increased by ACE inhibitors or ARBs // Nat Commun., 2020, v.11(1), p.5453.

7. Yang H., Rao Z. Structural Biology of SARS-CoV-2 and Implications for Therapeutic Development // Nat. Rev. Microbiol., 2021, v.19. p. 685-700.

8. Costa dos Santos J., Ximenes Rabelo M., Mattana Sebben L. et al. Persistence of SARS-CoV-2 Antigens in the Nasal Mucosa of Eight Patients with Inflammatory Rhinopathy for over 80 Days following Mild COVID-19 Diagnosis // Viruses, 2023, v.15, p.899

9. Li W., Li M., Ou G. COVID-19, Cilia, and Smell // FEBS J., 2020, v.287. p. 3672-3676

10.Zhu N., Wang W., Liu Z. et al. Morphogenesis and cytopathic effect of SARS-CoV-2 infection in human airway epithelial cells // Nat Commun.. 2020, v. 11(1), p. 3910.

11.de Melo G.D., Lazarini F., Levallois S. et al. COVID-19-related anosmia is associated with viral persistence and inflammation in human olfactory epithelium and brain infection in hamsters // Sci Transl Med., 2021, v.13(596)

12.Carmo A., Pereira-Vaz J., Mota V. et al. Clearance and Persistence of SARS-CoV-2 RNA in Patients with COVID-19 // J. Med. Virol., 2020, v.92, p. 2227-2231.

13.Cevik M., Tate M., Lloyd O. et al. SARS-CoV-2, SARS-CoV, and MERS-CoV Viral Load Dynamics, Duration of Viral Shedding, and Infectiousness: A Systematic Review and Meta-Analysis // Lancet Microbe. 2021, v.2, p.13-22

14.Li Z., Yi Y., Luo X. et al. Development and Clinical Application of a Rapid IgM-IgG Combined Antibody Test for SARS-CoV-2 Infection Diagnosis // J. Med. Virol., 2020, v.92, p. 1518-1524.

15.Hua-Huy T., Lorut C., Aubourg F. et al. Persistent Nasal Inflammation 5 Months after Acute Anosmia in Patients with COVID-19 // Am. J. Respir. Crit. Care Med., 2021, v.203, p.1319

16.Valsamidis K., Printza A., Titelis K. et alOlfaction and quality of life in patients with nasal septal deviation treated with septoplasty // Am J Otolaryngol., 2019, v.40(5), p.747-754.

17.Wee C., Younis J., Xia T. et al. Delayed Septal Perforation as a Complication of COVID-19: A Case Report // Aesthetic Plast Surg., 2021, v.45(3), p.1197-1200.

18.Roland L.T., Pinto J.M., Naclerio R.M. The Treatment Paradigm of Chronic Rhinosinusitis with Nasal Polyps in the COVD-19 Era // J Allergy Clin Immunol Pract., 2020, v. 8(8), p. 2492-2494.

19.Pellegrino R., Mainland J.D., Kelly C.E. et al. Prevalence and correlates of parosmia and phantosmia among smell disorders // Chem Senses., 20211 v. 46

20.Liu Z.Y., Vaira L.A., Boscolo-Rizzo Pet al Post-viral olfactory loss and parosmia // BMJ Med., 2023, v.2(1)

21.Andrews P.J., Pendolino A.L., Ottaviano G. et al. Olfactory and taste dysfunction among mild-to-moderate symptomatic COVID-19 positive health care workers: An international survey // Laryngoscope Investig Otolaryngol., 2020, v.5(6), p.1019-1028

22.Lechien J.R., Chiesa-Estomba C.M., De Siati D.R. et al. Olfactory and gustatory dysfunctions as a clinical presentation of mild-to-moderate forms of the coronavirus disease (COVID-19): a multicenter European study // Eur Arch Otorhinolaryngol., 2020, v.277(8), p. 2251-2261.

23.Moein S.T., Hashemian S.M., Mansourafshar B. et al. Smell dysfunction: a biomarker for COVID-19 // Int Forum Allergy Rhinol. 2020, v.10(8), p.944-950

24.Saniasiaya J., Prepageran N. Impact of olfactory dysfunction on quality of life in coronavirus disease 2019 patients: a systematic review // J Laryngol Otol., 2021, v.135(11), p.947-952.

25.Vaira L.A., Lechien J.R., Deiana G. et al. Prevalence of olfactory dysfunction in D614G, alpha, delta and omicron waves: a psychophysical case-control study. Rhinology. 2023;61(1):32-38.

26.Klein H., Asseo K., Karni N. et al. Onset, duration and unresolved symptoms, including smell and taste changes, in mild COVID-19 infection: a cohort study in Israeli patients. Clin Microbiol Infect. 2021;27(5):769–74.

27.Boscolo-Rizzo P., Menegaldo A., Fabbris C. et al. Six-Month Psychophysical Evaluation of Olfactory Dysfunction in Patients with COVID-19 // Chem Senses. 2021, v.46

28.Rochet M., El-Hage W., Richa S. et al. Depression, Olfaction, and Quality of Life: A Mutual Relationship // Brain Sci., 2018, v.8(5), p. 80.

29.Rass V., Beer R., Schiefecker A.J. et al. Neurological outcome and quality of life 3 months after COVID-19: A prospective observational cohort study // Eur J Neurol., 2021, v.28(10), p. 3348-3359

30.Tan H.Q.M., Pendolino A.L., Andrews P.J. Prevalence of olfactory dysfunction and quality of life in hospitalised patients 1 year after SARS-CoV-2 infection: a cohort study // BMJ Open, 2022, v.12(1)

31.Abalo-Lojo J.M., Pouso-Diz J.M., Gonzalez F. Taste and smell dysfunction in COVID-19 patients // Ann Otol Rhinol Laryngol., 2020, v,129, p.1041-2.

32.Nguyen N.N., Hoang V.T., Lagier J.C. et al. Long-term persistence of olfactory and gustatory disorders in COVID-19 patients // Clin Microbiol Infect., 2021, v.27(6),p.931-932

33.Xu H., Zhong L., Deng J. et al. High expression of ACE2 receptor of 2019-nCoV on the epithelial cells of oral mucosa // Int J Oral Sci., 2020, v.12(1), p.1-5.

34.Lee K.I., In S.M., Kim J.Y. et al. Association of nasal septal deviation with the incidence of anxiety, depression, and migraine: A national population-based study // PLoS One, 2021, v.16(11)

35.Cavazzana A., Larsson M., Münch M. et al. Postinfectious olfactory loss: A retrospective study on 791 patients // Laryngoscope, 2018, v.128(1), p. 10-15.

36.Vaira L.A., Salzano G., Le Bon S.D. et al. Prevalence of persistent olfactory disorders in patients with COVID-19: a psychophysical case-control study with 1-year follow-up // Otolaryngol Head Neck Surg., 2022, v.167, p.183-6

37.Altundag A., Temirbekov D., Haci C. et al. Olfactory Cleft Width and Volume: Possible Risk Factors for Postinfectious Olfactory Dysfunction // Laryngoscope, 2021, v.131(1), p.5-9.

38.Iannilli E., Leopold D.A., Hornung D.E. Advances in understanding parosmia: an fMRI study // ORL J Otorhinolaryngol Relat Spec., 2019, v.81, p. 185-92.

39.Rajah M.M., Bernier A., Buchrieser J. The Mechanism and Consequences of SARS-CoV-2 Spike-Mediated Fusion and Syncytia Formation // J Mol Biol., 2022, v.434(6), p.167280.

40.Кокорина В.Э., Быков И.А. Оптимизация способов восстановления обоняния при аносмии, индуцированной SARS-CoV-2-инфекцией // Вестник оториноларингологии, 2022, №1, с.33-38.

Резюме
Назальные симптомы при COVID-19 и постковидном синдроме
Н.Б. Дадашева

В обзорной статье представлены результаты анализа современных данных литературы о назальных симптомах при COVID-19 и в постковидном синдроме, развившейся обонятельной дисфункции после COVID-19. Отмечается, что нос из-за наличия рецепторов вируса в носоглоточном тракте считается органом-мишенью в качестве первичного контакта для COVID-19. Назальные симптомы, вызванные этой инфекцией, включают потерю или изменение обоняния, насморк или заложенность носа, ощущение жжения и кровь из носа. На основании имеющейся информации известны случаи перфорации перегородки носа в связи с COVID-19, и предполагается, что данное состояние вызвано нарушением васкуляризации в носоглотке как непосредственном месте входа вируса. Анализ проведенных исследований обращает внимание на такой вывод, что часть пациентов, обращающихся к оториноларингологу, составляют пациенты, у которых затруднено дыхание через нос или имеются нарушения респираторной функции. Как отмечается в литературе, дыхательная функция носа в постковидный период не изучалась. Патофизиологические механизмы обонятельной дисфункции в значительной степени лучше изучены в многочисленных исследованиях, проведенных при COVID-19 и в постковидный период. Таким образом, систематический обзор изученных нами литературных источников по поводу инфекции COVID-19 показал, что научно-теоретическая информация о состоянии дыхательной функции у больных риносинуситом, полипами носа и аденоидными вегетациями на фоне COVID-19 практически отсутствует.

Summary
Nasal symptoms during COVID-19 and post-covid syndrome
N.B. Dadasheva

The review article presents the results of an analysis of current data in the literature on nasal symptoms during COVID-19 and post-covid syndrome and olfactory dysfunction after COVID-19. It is noted that the nose, due to the presence of virus receptors in the nasopharyngeal tract, is considered the target organ as the initial contact for COVID-19. Nasal symptoms due to this infection include loss or change in the sense of smell, stuffy or stuffy nose, nosebleeds, and nosebleeds. Based on the information provided, there are cases of perforation of the nasal septum in connection with COVID-19, and it is assumed that this condition is caused by a violation of vascularization in the nasopharynx as a direct entry point of the virus. The analysis of the conducted studies draws attention to such a conclusion that a part of the patients who refer to the otorhinolaryngologist are patients who have difficulty breathing through the nose or have impaired respiratory function. As mentioned in the literature, the respiratory function of the nose has not been studied in the post-covid period. Pathophysiological mechanisms of olfactory dysfunction have largely been better understood in numerous studies conducted in the COVID-19 and post-covid era. Thus, the systematic review of the literature sources we examined regarding the COVID-19 infection showed that there is practically no scientific-theoretical information about the state of respiratory function in patients with rhinosinusitis, nasal polyps and adenoid vegetation in the context of COVID-19.

Daxil olub: 31.01.2024

Üçgünlük malyariya törədicisinin *in vitro* kultivasiyasında bioloji aktiv birləşmələrin roluna dair müasir təsəvvürlər

Ş.N.Əliyeva, F.H.Hüseynova, Z.Z.Abseynova, S.N.Eyvazlı, İ.A.Məsimova
V.Y.Axundov adına Elmi-Tədqiqat Tibbi Profilaktika İnstitutu, Bakı

Açar sözlər: *Plasmodium vivax, in vitro,* fasiləsiz kultura, vitaminlər, minerallar, askorbin turşusu, hipoksantin, xolesterin konsentratı, qan zərdabı.
Ключевые слова: *Plasmodium vivax, in vitro*, непрерывная культура, витамины, минералы, аскорбиновая кислота, гипоксантин, концентрат холестерина, сыворотка крови.
Key words: *Plasmodium vivax, in vitro,* continuous cultivation, vitamins, minerals, ascorbic acid, hypoxanthine, cholesterol concentrate, blood serum.

Üçgünlük malyariyanın törədicisi olan *Plasmodium vivax* coğrafi cəhətdən ən geniş yayılmış insan malyariyası parazitidir [1]. Tropik malyariya ilə müqayisədə müəyyən qədər yüngül sayılsa da, bu xəstəlik bəzən ağırlaşmalara və nəticədə ölümə səbəb olur [2, 3]. *P.vivax* digər insan malyariya parazitləri ilə müqayisədə gecikmiş residivlər verib, unikal problem yaradır. Residivlərə səbəb parazitin qaraciyərdə gizli formalar – hipnozoitlər əmələ gətirməsidir. Bundan əlavə transmissiv mərhələləri (qametositlər) kliniki simptomlar [4] başlamazdan əvvəl periferik qan dövranında aşkar edilir, bu da yoluxmanın qarşısının alınmasını xüsusilə çətinləşdirir. Yüksək yoluxdurma faizinə baxmayaraq, *P.vivax* uzun müddət diqqətdən kənarda qalmışdır ki, buna da səbəb *in vitro* optimal kultivasiya sisteminin olmamasıdır. Yetkin eritrositlərə nüfuz edə bilməməsi səbəbindən *P.vivax*-ın *in vitro* fasiləsiz kulturasını əldə etmək mümkün olmamışdır. Törədicinin invaziyası, normal qanda yalnız 0,5-1,5% təşkil edən yetişməmiş eritrositlər (retikulositlər) ilə məhdudlaşır. Retikulositlər sümük iliyində yaranıb, sonra periferik qan dövranına keçir və burada yetkin eritrositlərə çevrilir. *İn vitro* şəraitdə kultura mühitinə retikulosit əlavəsi ilə parazitin daimi inkişafını təmin etmək mümkün deyil, çünki bu retikulositlər sürətlə eritrositlərə çevrilirlər [5, 6] və yenidən cavan eritrosit əlavəsinə ehtiyac duyulur. Nəticədə kulturanın durulaşdırılması baş verir. Bundan başqa *in vitro* şəraitdə parazitin biologiyasında müəyyən dəyişikliklər baş verir ki, bunların da təbiəti hələ tam aydın deyil [7].

P.vivax-ın *in vitro* fasiləsiz kulturasının alınmaması parazitin biologiyasının, patofiziologiyasının öyrənilməsinə, bu tropik xəstəliyə qarşı mübarizə üçün vaksin, yeni dərman preparatları, diaqnostika vasitələri hazırlanmasına əngəl törədir. 19-cu əsrdən başlayaraq *P.vivax*-ın kultivasiyası üçün cəhdlər edilsə də onlar uzun müddət hər hansı bir uğurla nəticələnməmişdi. Müxtəlif metodların tətbiqinə baxmayaraq parazitin yalnız qısamüddətli kulturasını almaq mümkün olmuşdur [8]. Üçgünlük malyariya törədicisinin uzunmüddətli kulturasının alınması istiqamətində işlər durmadan aparılır və *P.vivax*-ın *in vitro* kultivasiya şəraitinin optimallaşdırılması tədqiqatçıların qarşısında duran əsas vəzifələrdən biridir.

Tropik malyariya törədicisi *P.falciparum*-un kultivasiyası üçün tətbiq edilən klassuk metod *P.vivax*-ın uzunmüddətli kulturasının alınmasını təmin etməmişdir. Bu, parazit növlərinin biologiyaları arasındakı fərqlərlə izah edilə bilər. Üçgünlük malyariya törədicisini *in vitro* şəraitdə uzunmüddətli saxlamaq üçün kultura mühitində modifikasiyalar aparılmalı, müxtəlif bioloji aktiv əlavələrdən istifadə olunmalıdır [9].

P.falciparum-un kulturasında istifadə edilən RPMİ-1640 və Waymouth kimi sintetik qidalı mühitlər *P.vivax*-ın tam şizoqoniyası üçün yetərli olmamışdır. SCMİ-612 qidalı mühiti isə bu mənada müəyyən qədər qənaətbəxş sayıla bilər [10]. Lakin nəzərə almaq lazımdır ki, hər medium *P.vivax*-ın *ex vivo* inkişafı üçün lazımlı olan qidalı maddələrə malikdir. Kultivasiya dövründə parazitdə gedən morfoloji dəyişikliklərin mikroskopik analizi göstərmişdi ki, RPMİ-1640-da *P.vivax*-ın sitoplazmatik differensiasiyası, Waymouth qidalı mühitində isə nüvə daha parlaq və nəzərəçarpandır. Bu iki qidalı mühitin müəyyən nisbətdə qarışdırılması onların hər birinin çatışmayan cəhətlərini kompensasiya etmiş, həm sitoplazmatik, həm də nüvə inkişafını təmin etmişdir. RP/WM 2:1 nisbətdə istifadəsi üçgünlük malyariya törədicisinin *in vitro* qısamüddətli kulturası üçün yararlı sayılmışdır.

Qeyri-üzvi duz ionlarının malyariya parazitlərinin *in vitro* inkişafı üçün əhəmiyyəti hələ 1947-ci ildə Trager, 1969-cu ildə Sherman və həmkarları tərəfindən qeyd edilmişdi. Duz ionları arasında əsasən vurğulanan K^+ və Na^+ idi. Lakin digər tədqiqatlarda *P.vivax* kulturasında KCl və NaCl-la zənginləşdirilmiş RPMİ-1640 qidalı mühitindən istifadə bu ionların *P.vivax*-ın *ex vivo* inkişafına hər hansı müsbət təsirini aşkara çıxarmamışdır [10]. Tədqiqatçılar belə qərara gəlmişlər ki, kulturaya MgCl əlavəsi (duz qidalı mühitə qatılır) parazitin həyat qabiliyyətinin müəyyən qədər qorunmasına səbəb olur. Təklif edilmişdir ki, gələcək tədqiqatlar

Mg ionu ilə aparılsın. *İn vitro P.vivax* şizoqoniyası üzrə uğurlu nəticə Mg^{2+} (1,8 Mm) ilə zənginləşdirilmiş WM/RP medium kombinasiyasında alınmışdır.

Plazmodiumların inkişafı üçün askorbin turşusuna tələbat artıq çoxdandır ki, müzakirə obyektidir. Meymunlarda askorbin turşusu çatışmazlığı *P.knowlesi*-nin inkişafını tormozlayır. İnsanın qan zərdabında askorbin turşusu 0,6-1,2 mg diapazonundadır. Tropik malyariya törədicisi *P.falciparum* ilə aparılan təcrübələrdə mühitdə askorbin turşusunun konsentrasiyasını zərdabdakı səviyyəyə nisbətən yüksəldəndə də parazitin eritrositar şizoqoniyasında əhəmiyyətli fərqlər müşahidə olunmamışdı. Belə bir fikir də səsləndirilmişdi ki, *P.falciparum* nəinki askorbin turşusu, hətta qan zərdabı olmayan mühitdə də çoxala bilir, *P.vivax*-ın həyat fəaliyyəti üçün isə askorbin turşusunun rolu böyükdür [10].

P.vivax-ın dörd izolyatına in vitro şəraitdə askorbin turşusunun təsiri öyrənilmiş və belə məlum olmuşdur ki, parazitin həyatilik qabiliyyətinin qorunması üçün bu maddə mütləq lazımdır. Belə ki, kultivasiyanın başlanğıcından 24 saat keçəndən sonra 6 mkl/ml askorbin turşusu qatılmış qidalı mühitlərdə parazitlərin sayında artım müşahidə olunmuşdu. Mühitdə askorbin turşusunun konsentrasiyasının azaldılması dörd izolyatda parazit populyasiyasının proporsional azalmasına səbəb olmuşdur. 1,5 mkl/ml konsentrasiyada kulturada çox az parazit qalmışdı [10].

Beləliklə, *P.vivax* kulturasında şizontların yetişməsi üçün Mg^{2+} və askorbin turşusu kimi əlavə faktorların vacibliyi haqda tədqiqatçılar artıq konsensusa gəlmişlər. Bu əlavələr kulturada olduqca kritik faktor olan merozoitlərin təkrar invaziyası üçün lazımdır. Kulturada gecikmiş şizont mərhələsinin qalması sistemin qeyri-optimallığını göstərir.

Chotivanich və həmkarları *P.falciparum* üçün tətbiq olunan standart kultura mühitinə qlükoza, vitamin C, tiamin, hipoksantin, 50% insan qan zərdabının (AB+) əlavəsi ilə *P.vivax* kulturasını 5-6 tsikl saxlamağa müyəssər olmuşlar [11]. Hipoksantin azot substratı və mənbəyi kimi çıxış edir və nuklein turşularının sintezi, energetik metabolizm üçün vacibdir. Parazitlərin inkişafı üçün lazımlı olduğuna görə onu *P.vivax*-ın kultivasiyasında istifadə edilən mediumlara əlavə edirlər [12]. Bunlardan əlavə parazitləri (*P.vivax*) qidalı maddələr rezervuarı ilə davamlı təmin etmək üçün kultura mühitinə qaraciyər ekstraktı da əlavə olunmuşdur [13].

Yuxarıda qeyd edilənlərdən başqa *P.vivax*-ın *in vitro* inkişafını stimullaşdırmaq üçün kultura mühitinə digər birləşmələr də əlavə olunmuşdur.

Üçgünlük malyariya törədicisinin invaziyası üçün ayrılıqda Mn^{2+} xüsusi əhəmiyyət kəsb edə bilər. Lakin bu elementin *P.vivax* merozoitlərinin cavan retikulositlərə daxil olmasında, ümumiyyətlə parazitin *in vitro* inkişafında rolu hələ aydınlaşdırılmamışdır [14].

Plazmodiumların eritrositar mərhələsinin inkişafında PABA (para-aminobenzoy turşusu) və qlükoza əsas qida mənbəyi kimi çıxış edir. Güman edilir ki, PABA folat sintezində əsas rol oynayır. Trager-in (1977) gəldiyi qərara görə *P.falciparum*-un insan eritrositlərində inkişafının optimallaşması mühitə fol turşusunun yüksək konsentrasiyasını əlavə edərkən (1,7 mkg/ml) mümkün olur. O, kalsium pantotenatın (vitamin B5) da parazitlərin inkişafı üçün əhəmiyyətini qeyd etmişdi. Onun fikrinə görə pantotenat parazitlər tərəfindən bilavasitə deyil, yalnız koferment A-nın (CoA) mənbəyi kimi istifadə olunur. CoA limon turşusu tsikli vasitəsilə qlükozanın oksidləşməsi və parazitin hüceyrə komponentlərinin sintezi üçün lazımdır. Bu məlumata əsaslanaraq Brockelman [10] kalcium pantotenatı *P.vivax* üçün hazırladığı SCMİ-612 mediumuna əlavə etmişdi.

Plazmodium kulturası ilə aparılan tədqiqatlarda digər vitaminlərin də parazitlərin in vitro inkişafında rolu göstərilmişdir. Aşkar edilmişdir ki, tiamin (vit.B1), riboflavin (vit.B2), biotin (vit.B7) müxtəlif malyariya parazitlərinin – *P.berghei, P.knowlesi* eritrositar inkişafı üçün vacibdir [15]. *P.vivax*-ın *in vitro* inkişafı və adaptasiyası üçün A, B1, B2, B6 vitaminlərinin ideal konsentrasiyası hələ tədqiq olunmamışdır.

Aminturşular olmayan mühitdə malyariya parazitlərinin inkişafı sürətlə zəifləyir. Qlutamat, qlutamin, sistein, tirozin, prolin parazitlərin *in vitro* inkişafı üçün vacibdir. Parazitlərin kultura mühitində davamlılığı GlutaMax (L-qlutaminin stabilləşdirilmiş formasıdır və L-qlutamin kimi toksik ammonyaka parçalanmır) əlavə edilən zaman müşahidə edilmişdi. *P.vivax* kulturası üçün GlutaMax istifadə edilmiş və sübut olumuşdur ki, izoleysin və metionin parazitlərin inkişafı üçün son dərəcə əhəmiyyətlidir (Trager W) və digər aminturşularla birlikdə (leysin, fenilalanin, valin, izoleysin, metionin) plazmodiumların hemoqlobinlə qidalanması zamanı ayrılan toksik sərbəst hemin detoksikasisyası üçün əlahiddə əhəmiyyətə malikdir.

Tədqiqatlar göstərmişdir ki, *Plasmodium* növləri *de novo* yağ turşuları və xolesterin biosintezinə qabil deyil və onları sahib orqanizmdən almalıdırlar. Məlumdur ki, replikasiya zamanı malyariya parazitlərinin lipidlərə, aminturşularına və L-qlutamin kimi tikinti bloklarına tələbatı dəfələrlə artır [16]. Bu səbəbdən malyariya ilə yoluxmuş insanlarda qanda ümumi xolesterinin miqdarı azalır.

Roobsoong və həmkarları tərəfindən [17] xolesterin konsentratı (750 mg/l) ilə zənginləşdirilmiş McCoy`s5A qidalı mühiti *ex vivo P.vivax* kulturası üçün istifadə edilmiş, lakin parazitlərin inkişafında, say artımında nəzərəçarpan artım müşahidə olunmamışdır. Tədqiqat nəticəsində məlum olmuşdur ki,tərkibinə zərdab və GlutaMax əlavə olunmuş McCoy`s5A qidalı mühiti *ex vivo* meymun eritrositlərindən alinmış törədicilərin yalnız həyatilik qabiliyyətini yüksəldir.

Qan zərdabı qidalı maddələr mənbəyi olaraq kulturada çox əhəmiyyətli yer tutur. Ticari yolla əldə edilən və sağlam donorlardan alınan zərdab etibarlı mənbə sayılıb, 30 dəqiqə müddətində 57°C temperaturda bəzi tərkib hissələrdən azad olur. İstilik inaktivasiyası ilə parazit və ya retikulosit üçün lazımlı olan bəzi qida maddələrinin parçalanma ehtimalı hələ tam aydın deyil. Müxtəlif tədqiqatlarda zərdab konsentrasiyası fərqli variasiyalarda (10-50% arasında) tətbiq olunmuşdu. Zərdabın tərkibi həm parazit, həm də retikulosit populyasiyası üçün qidalı maddələrlə zəngin olduğuna görə *P.vivax* kulturasında onun tətbiqi son dərəcə böyük əhəmiyyət daşıyır. Maliyyə səbəbindən, həmçinin tərkibində inhibirəedici immun faktorların ola bilməsi ehtimalına görə insan zərdabının məməli heyvanların (meymun, at, qoyun, keçi, donuz, öküz və s.) zərdabı ilə əvəz edilməsi məqsədilə bir sıra mülahizələr söylənilmiş, tədqiqatlar aparılmışdı.

Üçgünlük malyariya törədicisinin kulturasında insan qan zərdabının müxtəlif birləşmələrlə əvəz edilməsi haqda ədəbiyyat məlumatları vardır. Donuz, quzu qan zərdabları ilə müqayisədə at zərdabı daha yararlı olsa da, insan zərdabı müəyyən keyfiyyətlərinə görə ondan üstün sayılmışdır [18]. Dana rüşeymi qan zərdabı insan zərdabına nisbətən plazmodiumların inkişafını stimulə etmə baxımından az effektiv olmuşdur. Dovşan serumunun istifadəsi isə (5-10%) kulturada 2-3 həftəlik adaptasiya periodu tələb etmişdi [19]. *P.vivax* kulturası üçün geniş istifadə edilən McCoy`s 5A qidalı mühitinin tərkibində insan qan zərdabının əvəzləyicisi kimi heyvan serumlarına qatılan bakto-pepton vardır.

Məlumdur ki, *P.vivax*-la törədilmiş parazitar infeksiya sahib orqanizmdə oksidləşmə stressi şansını artırır [20]. Bu, eritrositlərin superoksiddismutaza və qlutatationperoksidaza aktivliyinin azaldılması ilə baş tutur [21]. Antioksidant tarazlıq həm parazitin *in vivo, in vitro* yaşaması üçün, həm də sahib hüceyrə - eritrosit üçün əsas şərtdir [22]. Eritrosit və retikulositlər üçün hüceyrə oksidləşmə-bərpa balansının qorunması çox vacibdir, çünki oksigenin aktiv formaları oksidləşmə stressinə, lipidlərin peroksid oksidləşməsinə, osmotik rezistentliyin azalmasına [23], hemopoetik sələflərin məhvinə [24], eritrositlərin lizisinə (apoptoz) gətirib çıxara bilər. Hemoliz isə parazitlərin ölümü deməkdir. *P.falciparum*-la müqayisədə *P.vivax*-ın oksidləşmə-bərpa mexanizmi haqda az məlumat var [25]. Ola blər ki, *P.vivax* oksidləşmə stressinə daha da həssasdır. Bundan başqa parazit və eritrosit oksidləşmə-bərpa sistemlərinin qarşılıqlı təsiri haqda məlumat da çox azdır [26]. Lakin bu, *P.vivax* və retikulosit münasibətlərində çox həssas məqam ola bilər. Məlumdur ki, bəzi mikroelementlər (Zn, Cu, Mn, Se) [27] retikulosit və eritrositlərin ifrat oksidləşmə stressinə qalib gəlməsi üçün vacibdir. İstənilən inqredientin pro- və ya antioksidant aktivliyi həmçinin onun konsentrasiyasından da asılıdır.

ƏDƏBİYYAT

1. WHO. World Malaria Report 2017 / Geneva: World Health Organization, 2017.
2. 2. Baird J. Evidence and implications of mortality associated with acute Plasmodium vivax Malaria // Clin Microbiol Rev., 2013, v.26(1):36–57.
3. Lacerda M., Fragoso S., Alecrim M. et al. Postmortem characterization of patients with clinical diagnosis of Plasmodium vivax malaria: To what extent does this parasite kill? // Clin Infect Dis., 2012, v.55(8), p.67-74.
4. Battle K.E., Gething P.W., Elyazar I.R. et al. The global public health significance of Plasmodium vivax // Adv Parasitol., 2012, v. 80, p.1-111
5. Neafsey D., Galinsky K., Jiang R. et al. The malaria parasite Plasmodium vivax exhibits greater genetic diversity than Plasmodium falciparum // Nat Genet., 2012, v.44(9), p.1046-1050.
6. Lee E., Choi H., Hwang J. et al. The RNA in reticulocytes is not just debris: It is necessary for the final stages of erythrocyte formation // Blood Cells Mol Dis., 2014, v.53(1-2), p.1-10.
7. Malleret B., Xu F., Mohandas N. et al. Significant biochemical, biophysical and metabolic diversity in circulating human cord blood reticulocytes // PLoS One., 2013, v.8(10)
8. Udomsangpetch R., Somsri S., Panichakul T. et al. Short-term in vitro culture of field isolates of Plasmodium vivax using umbilical cord blood // Parasitol Int., 2007, v.56, p.65-69.
9. Bermúdez M., Moreno-Pérez D.A., Arévalo-Pinzón G. et al. Plasmodium vivax in vitro continuous culture: the spoke in the wheel // Malaria Journal, 2018, 17, p.301.

10.Brockelman C.R., Tan-ariya P., Menabandhu C. The influence of magnesium ion and ascorbic acid on the erythrocytic schizogony of Plasmodium vivax // Parasitol Res., 1987, 73, p.107-12.

11.Chotivanich K., Silamut K., Udomsangpetch R. et al. Ex-vivo short-term culture and developmental assessment of Plasmodium vivax // Trans R Soc Trop Med Hyg., 2001, v.95, p.677-80.

12.Arévalo-Pinzón G., Bermúdez M., Curtidor H. The Plasmodium vivax rhoptry neck protein 5 is expressed in the apical pole of Plasmodium vivax VCG-1 strain schizonts and binds to human reticulocytes // Malar J., 2015, 14, p.106.

13.Jensen J.B. Some aspects of serum requirements for continuous cultivation of Plasmodium falciparum // Bull World Health Organ, 1979, 57(Suppl 1), p. 27-31.

14.Thomson-Luque R., Adams J.H., Kocken C.H.M. From marginal to essential: the golden thread between nutrient sensing, medium composition and Plasmodium vivax maturation in vitro culture // Malar J., 2019, 18(1), p.344.

15.Liu Z., Long W., Fryburg D.A. The regulation of body and skeletal muscle protein metabolism by hormones and amino acids // J Nutr., 2006, 136, p.212-7.

16.Itoe M.A., Sampaio J.L., Cabal G.G. et al. Host cell phosphatidylcholine is a key mediator of malaria parasite survival during liver stage infection // Cell Host Microbe., 2014, v.16, p.778-86.

17.Roobsoong W., Tharinjaroen C.S., Rachaphaew N. et al. Improvement of culture conditions for long-term in vitro culture of Plasmodium vivax // Malar J., 2015, 14:297.

18.Kumar A., Singh K.P., Bali P. et al. iNOS polymorphism modulates iNOS/NO expression via impaired antioxidant and ROS content in P.vivax and P. falciparum infection // Redox Biol., 2017, 15, p.192-206.

19.Yazar S., Kilic E., Saraymen R. Serum malondialdehyde levels in patients infected with Plasmodium vivax // West Indian Med J., 2004, 53, p.147-9.

20.Pabón A., Carmona J., Burgos L.C. Oxidative stress in patients with non-complicated malaria // Clin Biochem., 2003, v.36, p.71-8.

21.Andrade B.B., Reis-Filho A., Souza-Neto S.M. et al. Plasma superoxide dismutase-1 as a surrogate marker of vivax malaria severity // PLoS Negl Trop Dis., 2010, 4, p. 650.

22.Maurya P.K., Kumar P., Chandra P. Biomarkers of oxidative stress in erythrocytes as a function of human age // World J Methodol., 2015, v.5, p.216-22.

23.Mineo T.C., Sellitri F., Tacconi F. et al. Erythrocyte osmotic resistance recovery after lung volume reduction surgery // Eur J Cardio-Thoracic Surg., 2014, v.45, p.870-5.

24.Canli Ö., Alankuş Y.B., Grootjans S. et al. Glutathione peroxidase 4 prevents necroptosis in mouse erythroid precursors // Blood, 2016, v.127, p.139-48.

25.Müller S. Role and regulation of glutathione metabolism in Plasmodium falciparum // Molecules, 2015, v.20, p.10511.

26.Mohring F., Pretzel J., Jortzik E. The redox systems of Plasmodium falciparum and Plasmodium vivax: comparison, in silico analyses and inhibitor studies. // Curr Med Chem., 2014, v.21, p.1728-56.

27.Verma P., Sharma A.K., Shankar H. et al. Role of trace elements, oxidative stress and immune system: a triad in premature ovarian failure // Biol Trace Elem Res., 2018, v.184, p.325-33.

Резюме

Современные представления о роли биологически активных соединений в культивировании in vitro возбудителя трехдневной малярии

Ш.Н.Алиева, Ф.И.Гусейнова, З.З.Абсейнова, С.Н.Эйвазли, И.А.Масимова

Возбудитель трехдневной малярии *Plasmodium vivax* распространен на обширной географической территории и характеризуется высокой степенью заражения. Отсутствие непрерывной культуры паразита *in vitro* препятствует изучению его биологии и патофизиологии, разработке вакцины, новых препаратов и диагностических средств для борьбы с этой тропической болезнью. Получена только кратковременная культура *P.vivax.* Оптимизация условий культивирования *P.vivax in vitro* находится в центре внимания исследователей. В статье рассмотрены литературные данные о роли различных биологически активных веществ при непрерывном культивировании *P.vivax*, подчеркнута потребность паразита в антиоксидантах, витаминах и некоторых соединениях. В будущих исследованиях следует более широко изучить значение различных биологически активных соединений для получения непрерывной культуры *P.vivax in vitro*. Также источник сыворотки крови должен быть точно определен. Следует изучить потребность паразита в антиоксидантах, аминокислотах, минералах,

Результаты. Участники исследования были распределены на 6 возрастных групп: 15-19 лет, 20-29, 30-39, 40-49, 50-59 и 60-70 лет. Наиболее многочисленной группой оказалась возрастная группа 30-39 лет – 180 участников и наименьшей - возрастная группа 15-19 лет – 59 пациентов (Рис. 1). В остальных возрастных группах обследованные распределились следующим образом: 20-29 лет – 135 пациентов, 40-49 лет – 139, 50-59 лет – 85 и 60-70 лет – 100 пациентов.

Распространенность гингивита в среднем составила 34,2±1,80%. Частота встречаемости гингивита различалась в отдельных возрастных группах (Таблица 1).



Рис. 1. Распределение исследованных пациентов (n=698) по возрасту

Таблица 1
Распространенность гингивита (%) у обследованных

Возрастные группы, лет	n	Среднее	Станд.ошибка
15-19	59	23,7	5,54
20-29	135	37,8	4,17
30-39	180	42,2	3,68
40-49	139	38,1	4,12
50-59	85	32,9	5,10
60-70	100	17,0	3,76
Всего	698	34,2	1,8

Согласно данным табл.1, распространенность гингивита начиная с первой возрастной группы увеличивалась до возрастной группы 30-39 лет включительно, а затем наблюдалась тенденция к снижению. Сравнительный анализ показал увеличение частоты встречаемости гингивита у пациентов возрастной группы 20-29 лет по сравнению с предыдущей возрастной группой на 37,3% (t=2,03, p=0,043). У пациентов возрастной группы 30-39 лет, частота гингивита была выше, чем в группе 20-29 лет на 10,4% (t=0,79, p=0,429). Частота гингивита у обследованных в возрасте 40-49 лет в сравнении с пациентами группы 30-39 лет снизилась на 9,7% (t=0,74, p=0,458), а частота гингивита в возрастной группе 50-59 лет по сравнению с группой 40-49 лет снизилась на 13,6% (t=0,79, p=0,428). В свою очередь в возрастной группе 60-70 лет в сравнении с группой 59-60 лет гингивит встречался на 48,3% реже (t=2,51, p=0,013).

В ходе эпидемиологического исследования выявлено, что чаще встречалась катаральная форма гингивита, нежели гипертрофическая. Частота встречаемости катаральной формы гингивита в среднем составила 32,1±1,77%, гипертрофической формы – 2,14±0,55%. У пациентов разного возраста частота указанных форм гингивита носила неравномерный характер (Рис.2).



Рис.2. Распространенность форм гингивита у участников исследования по возрастным группам

Полученные результаты показали, что в первой возрастной группе частота катарального гингивита составила 22,0±5,39%, к возрасту 30-39 лет возрастает до 40,0±3,65%, а в последующих возрастных группах имела тенденцию к снижению. Что касается гипертрофического гингивита по возрастным группам в его частоте существенных различий не наблюдается, частота колеблется в пределах 1,48-2,88%.

При стоматологическом обследовании выявленная распространенность пародонтита и пародонтоза среди жителей указанного района составила в среднем 23,5±1,6%. Наименьшее число случаев этих заболеваний встречались у участников младшей возрастной группы, причем у пациентов в возрасте 15-19 лет пародонтоз не выявлен (Таблица 2).

Таблица 2
Распространенность пародонтита и пародонтоза (%) у обследованных

Возраст, лет	n	Распространенность пародонтита и пародонтоза, %	В том числе:					
			Пародонтит			Пародонтоз		
			Легкая степень	Средняя степень	Тяжелая степень	Легкая степень	Средняя степень	Тяжелая степень
15-19	59	1,89±1,68	1,89±1,68	-	-	-	-	-
20-29	135	3,70±1,62	2,96±1,46	-	-	0,74±0,74	-	-
30-39	180	27,8±3,34	17,8±2,85	2,78±1,22	1,11±0,78	5,56±1,71	0,56±0,55	-
40-49	139	28,8±3,84	15,3±2,71	2,88±1,42	4,32±1,72	6,47±2,0	2,16±1,73	1,44±1,01
50-59	85	44,7±5,39	15,3±3,90	8,24±2,98	7,06±2,78	8,24±2,98	3,53±2,0	2,73±1,0
60-70	100	30,0±4,58	9,0±2,86	6,0±2,37	4,0±1,96	6,0±2,37	3,0±1,71	2,0±1,40
Всего	698	23,5±1,6	10,0±1,7	3,15±0,66	2,58±0,60	4,73±0,80	1,43±0,45	0,86±0,35

Данные табл.2 свидетельствуют о высокой распространенности пародонтита и пародонтоза у пациентов старших возрастных групп. При этом, у пациентов возрастной группы 50-59 лет отмечались тяжелые степени пародонтита и пародонтоза чаще, чем в остальных возрастных группах. Изучение частоты этих заболеваний по степени поражения показало, что среди участников исследования наиболее часто встречалась легкая степень как пародонтита, так и пародонтоза. В среднем, по выборке

легкая степень пародонтита составила 10,0±1,7%, пародонтоза – 4,73±0,80%, средняя степень – 3,15±0,66% и 1,43±0,45% соответственно, тяжелая степень – 2,58±0,60% и 0,86±0,35% соответственно пародонтита и пародонтоза. Сравнительный анализ частоты пародонтита и пародонтоза показал ее значительное увеличение у пациентов в возрастной группе 30-39 лет по сравнению с возрастной группой 15-19 и 20-29 лет, разница составила 93,9% (t=6,93, p<0,001) и 86,7% (t=6,68, p<0,001) соответственно. Частота встречаемости этих заболеваний между возрастной группой 40-49 лет и 30-39 лет была незначительной, и разница составила 3,5% (t=0,20, p=0,844). Частота пародонтита и пародонтоза у участников в возрасте от 50 до 59 лет превышала таковую у пациентов в возрастных группах 40-49 и 60-70 лет соответственно на 35,6% (t=2,40, p=0,017) и на 32,9% (t=2,08, p=0,039).

Обсуждение. Заболевания пародонта являются одним из двух наиболее важных заболеваний полости рта, которые составляют глобальное бремя хронических заболеваний и, таким образом, квалифицируются как серьезная глобальная проблема общественного здравоохранения. Предположение о том, что заболевание пародонта является возрастным заболеванием, усугубляемым плохим пониманием его естественной истории и широкими различиями в его измерении, особенно в условиях сообщества, объясняет ограниченное число исследований, проведенных для оценки распространенности заболеваний пародонта.

Представленные результаты иллюстрируют уровень заболеваний пародонта у взрослого населения городского района. В целом, трое из каждых десяти взрослых страдают деструктивным заболеванием пародонта. Наблюдается устойчивая связь между возрастом и распространенностью заболеваний пародонта, что согласуется с исследованиями [11]. Используя обычно применяемые пороговые значения пародонтита на индивидуальном уровне, уровне зубов и участков, мы выявили, что распространенность пародонтита высока среди взрослых пациентов. В тоже время, у пациентов самой старшей группы (69-70 лет) наблюдалось значительное снижение частоты гингивита. Такое снижение можно объяснить тем, что с возрастом чаще выявляются более тяжелые формы пародонта. Хотя имеются соответствующие поражения десны у обследованных в старших возрастных группах, но они не диагностируются как гингивиты, а оцениваются как симптомы пародонтита. Нужно отметить, что среди обследованных жителей, несмотря на экологически неблагоприятные условия проживания, язвенные поражения десны не встречались ни в одном случае. Такое положение мы можем объяснить тем, что стоматологическое обследование проведено в летний период, когда, как известно, отсутствуют отрицательные факторы, влияющие на общее состояние организма (грипп, простуда, ОРВИ и др.), способствующие язвенным поражениям полости рта. Это соответствует данным других эпидемиологических исследований, проведенных в нашей республике в разные годы [4, 5, 12, 13]. Изучение влияния возрастного фактора показало, что он оказывает определенное влияние на распространенность рассмотренных заболеваний. Полученные результаты нашего исследования свидетельствуют о низкой частоте этих заболеваний в младших возрастных группах (15-19, 20-29 лет), что является естественным фактом, соответствующим данным литературы [14, 15].

В старших возрастных группах распространенность пародонтита и пародонтоза возрастает у пациентов в возрасте 50-59 лет включительно, а затем имеется тенденция к снижению.

Известно, что заболевания пародонта являются одной из причин удаления зубов. Мы полагаем, что преобладание частоты легкой степени пародонта и пародонтоза по сравнению со средней и тяжелой формами связано с тем, что жители обследованного района недостаточно обращают внимание на патологию пародонта, не пользуются имеющимися возможностями пародонтологической помощи и предпочитают удалять зубы. Поэтому при обследовании населения района отсутствие патологии пародонта с выраженными поражениями отражается на величине статистического показателя и частота лиц со средним и тяжелым степенями пародонта оказывается сниженной. Наши результаты сопоставимы с данными литературы [16-18]. В кувейтском исследовании состояние пародонта оценивалось как среднее число секстантов с заболеванием пародонта >3 мм, которое составляло 1,5 для лиц в возрасте 20 лет и старше. Кроме того, с глобальной точки зрения, сообщалось, что в Кувейте наблюдается высокий уровень заболеваемости пародонтом без каких-либо признаков снижения, в отличие от большинства промышленно развитых стран, что указывало на то, что заболевания пародонта распространены и поражают большой процент населения [19].

Все вышеизложенное еще раз свидетельствует о недостаточном уровне пародонтолической помощи.

Заключение. На основании проведенного исследования можно заключить, что среди взрослого городского населения достаточно широко распространены заболевания пародонта. Эти заболевания

остаются проблемами стоматологического общественного здравоохранения. Требуются дальнейшие усилия для более длительного сохранения зубов и здоровья пародонта.

ЛИТЕРАТУРА

1. GBD 2017 Disease and Injury Incidence and Prevalence Collaborators. Global, regional, and national incidence, prevalence, and years lived with disability for 328 diseases and injuries for 195 countries, 1990–2016: a systematic analysis for the Global Burden of Disease Study 2016 // Lancet, 2017, v.390(10100), p. 1211-1259.

2. Nazir M., Al-Ansari A., Al-Khalifa K. et al. Global Prevalence of Periodontal Disease and Lack of Its Surveillance // ScientificWorldJournal. 2020, 2020, 2146160.

3. Jin L., Lamster I., Greenspan J. et al. Global burden of oral diseases: emerging concepts, management and interplay with systemic health // Oral Diseases, 2016, v.22(7), p.609-619

4. Гараев З.И., Джафаров Р.М. Распространенность и интенсивность основных стоматологических заболеваний среди населения Нахичеванской Автономной Республики // Ліки України. 2015, v.4(25), с.97-100.

5. Пашаев А.Ч. Стоматологическая заболеваемость населения Азербайджана // Вісник стоматології. 2009, №2

6. Xiao L., Karapen K., Dong S. et al. Epidemiology of periodontal disease in adolescents in mainland China, 1983–2020: a systematic review and meta-analysis // Ann Palliat Med. 2021, v.10(1), p.45-60.

7. Tadjoedin F.M., Fitri A.H., Kuswandani S.O. et al. The correlation between age and periodontal diseases // Journal of International Dental and Medical Research, 2017, v.10(2), p.327-332.

8. Jin L., Group E. Initiator paper. Interprofessional education and multidisciplinary teamwork for prevention and effective management of periodontal disease // Journal of the International Academy of Periodontology, 2015, v.17(1 Suppl), p.74-79

9. NIDCR. National Health and Nutrition Examination Survey dental examiners procedures manual. Hyattsville, MD: US National Center for Health Statistics, 2002.

10.Page R.C., Eke P.I. Case definitions for use in population-based surveillance of periodontitis // J Periodontol., 2007, v.78(7 Suppl), p.1387-99.

11.Ha Diep H., Spencer John A., Do J.L.G. Periodontal diseases in the Australian adult population // Australian Dental Journal, 2020, v.65(51), p.552-558.

12.Самедова С.И. Показатели качества жизни у с кариесом и заболеваниями пародонта различной степени интенсивности и тяжести // Клиническая стоматология, 2020, N1(93), с.94-98.

13.Самедова С.И. Влияние степени интенсивности и тяжести кариеса и заболеваний пародонта на качество жизни пациентов // Науково-практична конференція з міжнародною участю та навчальним тренінгом з оволодінням практичними навичками “ Сучасні методи діагностики,профілаклактики та лікування основных стоматологічних захворювань”. Одесса, 2021, с.64-65.

14.Janakiram C., Mehta A., Venkitachalam R. Prevalence of periodontal disease among adults in India: A systematic review and meta-analysis // J Oral Biol Craniofac Res., 2020, v.10(4), p.800-806.

15.Tonetti M.S., Jepsen S., Jin L. et al. Impact of the global burden of periodontal diseases on health, nutrition and wellbeing of mankind: A call for global action // J Clin Periodontol., 2017, v.44(5), p.456-462

16.Aljafar A., Alibrahim H., Alahmed A. et al Reasons for permanent teeth extractions and related factors among adult patients in the eastern province of Saudi Arabia // Scientific World Journal, 2021, 5534455

17.Bahannan S.A., Eltelety S.M., Hassan M.H. et al. Oral and dental health status among adolescents with limited access to dental care services in Jeddah // Dent J (Basel), 2018, v.6(2), p.15

18.Al Suwyed A.S., Al Zoman K.H., Robert A.A. et al. The silent epidemic of common oral diseases among the Arab population: An emerging health problem // J Family Med Prim Care. 2021, 10(8), 2768-2774.

19.Zhang X., Wang X., Wu J., et al. The global burden of periodontal diseases in 204 countries and territories from 1990 to 2019. Oral diseases. 2022.

Xülasə
İnzibati şəhər rayonunda yaşayan müxtəlif yaş qruplarının əhalisi arasında parodont xəstəliklərinin yayılması
S.T.Hüseynova

Tədqiqatın məqsədi inzibati şəhər rayonu sakinləri arasında gingivit, parodontit və parodontoz xəstəliklərinin yayılmasının qiymətləndirilməsi olub. Tədqiqat Bakı şəhərinin Suraxanı rayonunda aparılıb. Tədqiqatda 15-70 yaş arası 698 subyekt iştirak edib. Tədqiqat zamanı steril stomatoloji alətlərin standart dəsti istifadə edilmişdir. Xəstələr 6 yaş qrupuna bölünüb: 15-19 yaş, 20-29, 30-39, 40-49, 50-59 və 60-70 yaş. Gingivitin orta rastgəlmə səviyyəsi 34,2±1,80% təşkil edirdi. Parodontit və parodontoz xəstəliklərinin yayılması orta hesabla 23,5±1,6% təşkil etmişdir. Parodontit və parodontoz xəstəliklərinin rastgəlmə tezliyinin müqayisəli təhlili 30-39 yaş qrupunda olan xəstələrdə 15-19 və 20-29 yaş qrupu ilə müqayisədə əhəmiyyətli dərəcədə artım göstərmişdir, fərq 93,9% ($p<0,001$) və müvafiq olaraq 86,7% ($p<0,001$) təşkil etmişdir.

Summary
Prevalence of periodontal diseases among different age groups population of the urban administrative region
S.T.Huseinova

The aim of the study was to assess the prevalence of periodontal diseases among residents of the urban administrative region. The study was conducted in the Surakhani district of Baku. The study involved 698 subjects aged 15-70 years. During the study, a standard set of sterile dental instruments was used. Patients were divided into 6 age groups: 15-19 years, 20-29, 30-39, 40-49, 50-59 and 60-70 years. The average prevalence of gingivitis was 34.2±1.80%. The prevalence of periodontitis and periodontosis averaged 23.5±1.6%. A comparative analysis of the frequency of periodontitis and periodontosis showed a significant increase in patients in the age group of 30-39 years compared to the age group of 15-19 and 20-29 years, the difference was 93.9% ($p<0.001$) and 86.7% ($p<0.001$) respectively.

Daxil olub: 31.01.2024

Bəzi ağız boşluğu xəstəlikləri törədicilərinin mikrobioloji aspektləri

A.B. Qurbanova, N.A. Ağayeva
Azərbaycan Tibb Universiteti, Tibbi Mikrobiologiya və İmmunologiya kafedrası, Bakı

Açar sözlər: ağız boşluğu, aeridontit, aingivit, sIgA
Ключевые слова: полость рта, пародонтит, гингивит, sIgA
Key words: oral cavity, periodontitis, gingivitis, sIgA

Ağız mikrobiotası insan orqanizmində mühüm əhəmiyyət kəsb edir və bir neçə yüz mikroorqanizm növlərindən ibarətdir. Bu növlər ağız boşluğunun normal mikroflorasına aid olub və yerli müdafiədə mühüm rol oynayır. Xüsusilə, şərti-patogen bakteriyaların törətdiyi ağız boşluğu patologiyaları dünyada ən çox rast gəlinən infeksion xəstəliklər arasında mühüm yer tutur [1]. Ağız boşluğunun təbii mikroflorası ilə xaricdən daxil olan bakteriyaların arasında fiziki və metabolik qarşılıqlı əlaqə olur. Ağız boşluğu patologiyaları ağız boşluğunun mikrobiotasındaki disbalansdan sonra yaranır və bu da şərti-patogen bakteriyalar üçün əlverişli şərait hesab olunur.

İnsanların bir çoxu həyatlarının müəyyən mərhələsində ağız boşluğu xəstəliyindən əziyyət çəkir. Ağız boşluğunda rast gəlinən bakteriyalara Enterobacteriaceae, Staphylococcus aureus, Streptococcus spp, Enterococcus faecalis, Pseudomonas aureginosa, Acinetobacter baumannii, Klebsiella spp., anaeorob bakteriyalardan Poryphyromonas gingivalis, Fusobacterium nucleatum və s. növləri aid edilir [2]

Ağız boşluğunda karies, periodontal xəstəliklər və digər ağız boşluğu patologiyalarına səbəb olan mikroorqanizmlərin rolu barədə araşdırmalar davam edir. Peridontitin iltihabı nəticəsində bir çox sistem xəstəlikləri özünə büruzə verir, belə ki, peridontitin iltihabı birləşdirici toxumalara və sümüklərə bilavasitə öz mənfi təsirini göstərir. Ümumiyyətlə isə az dərəcəli peridontit iltihabı müxtəlif sistem xəstəliklərinə göstərdiyi təsirə görə "az dərəcəli sistem xəstəliyi" adlandırılmışdır [3].

Son illərdə aparılan araşdırmalar nəticəsində bakteriyaların xərçəng xəstəliyinin inkişafı ilə sıx əlaqədar olduğu meydana çıxmışdır. Tədqiqatlar nəticəsində məlum olmuşdur ki, ağız boşluğunda rast gəlinən patogen bakteriyalar birbaşa və ya dolayı yolla xərçəngə səbəb ola bilir. Məsələn, bakteriyaların ifraz etdiyi polisaxaridlər şiş hüceyrələrinin səthində toplanaraq, xroniki iltihaba səbəb olur. Bundan başqa sitokinlər birbaşa olaraq şiş hüceyrələrinin inkişafına və onların böyüməsinə səbəb olur [4].

Ağız boşluğunda kolonizasiya olunmuş bakteriyaların əksəriyyəti normal mikrofloraya aid olub zərərsiz hesab olunur, lakin digər qismi isə zərərlidir. Burada ağız boşluğunun müxtəlif səthlərində kolonizasiya olunmuş şərti-patogenlərin xəstəlik törətməsinə müxtəlif amillər təsir edir. Bunlara yaş, pəhriz, ağız gigiyenası, immun sistemin, bəzi dərmanların qəbulu və s. Məsələn, həddən artıq şəkər məmulatlarının və şirniyyatların istifadəsi dişlərdə əmələ gələn biofilmin tərkibində dəyişikliklər baş verir [5,6]. Xəstəlik törədən mikroorqanizmlərdən Streptococcus spp, Staphylococcus spp, Enterococcus spp, enterobakteriyalar və s. aiddir. Bu prosesdə aşağıdaki adını çəkdiyimiz mikroorqanizmlər mühüm rol oynayır:

Xüsusilə, kolonizasiya olunmuş mikroorqanizmlər karbohidratların metobalizmində və kariesə səbəb ola biləcək turşuların sintezində mühüm rol oynayır. Bunlardan ən çox rast gəlinən *Streptococcus mutans* kariesə səbəb olan bakteriya olub əsasən uşaqların ağız boşluğunda xəstəlik törədir [7]. S. mutansın xəstəlik törətməsinə səbəb olanbir sıra uyğunlaşmalar vardır. S. mutans biofilmə yapışmaq, karbohidratlardan istifadə edərək turşular sintez etmək, həmçinin hüceyrədənkənar polimer sintezi, stress faktorlarına davamlılıq kimi uyğunlaşmalara malikdir. Bu mikroorqanizm saxarozanı hüceyrədənkənar həll olmayan qlükanlara çevirmək qabiliyyətinə malikdir. Buna görə də, S. mutans şərti-patogen bakteriyalar arasında qlükanların əsas istehsalçısı olaraq biofilmin matrisinin əmələ gəlməsində mühüm rol oynayır [8,9]. Xəstəliyin sonraki inkişafında isə S. mutans və digər kariogen bakteriyaların faizlə nisbəti 1-30% arasında tərəddüd edir [10,11]. Sahibin ağız boşluğunda kariogen bakteriyaların və xüsusilə, S. mutansın inkişafına mane olan bir sıra mühüm amillər vardır ki, privatoksidaza və digər fermentlər vasitəsilə H_2O_2 istehsalı, bakteriosinlər və digər antimikrob birləşmələr bunlara misaldır [12]. S. mutans tərəfindən yaradılmış kariogen biofilm təbəqəsi turşularla zəngindir ki, bu da laktobakteriyaların inkişafına zəmin yaradır. S. mutansla bərabər kariogen biofilmdən təcrid olunan *Lactobacillus casei*, yüksək miqdarda turşu istehsal etmək qabiliyyətinə malikdir. S. mutansın qlükan vasitəsilə yapışma mexanizmi sayəsində laktobakteriyaların kolonizasiyasına kömək edir və hər iki mikroorqanizmin diş lövhəsində toplanmasını artırır [13].

Ağız boşluğu immunosupressiv xəstələrdə *Staphylococcus aureus* üçün potensial rezervuar rolunu oynayır və peridontit, diş karies kimi bəzi ağız boşluğu patologiyaları ilə yanaşı xroniki böyrək çatışmazlığı, oralfasial qranulomatoz kimi sistematik xəstəliklərə səbəb olur [14]. S. aureus növünə peridontit və implantlı xəstələrdə daha çox rast gəlinir. Xəstəliyin kəskin və xroniki formaları arasında fərqlənə bilən xüsusiyyətlərə sahibdir. S. aureus rematoid artrit olan xəstələrin ağız boşluğunda daha yüksək səviyyədə tapılmışdır [15]. HİV müsbət xəstələrin ağız boşluğundan təcrid olunan bakteriyalar arasında ən çox təcrid olunmuş bakteriya növlərindən biridir [16]. S. aureusun bu qədər müxtəlif problemlər yarada bilməsi onun infeksion prosesin müxtəlif mərhələlərində koordinasiyalı şəkildə işləyən virulentlik faktorları ilə bağlıdır. Məsələn, β-toksin kimi toksinlər, superantigenlər, matrisi səthinə yapışan biofilm təbəqəsi, proteazalar, lipazalar, nukleazalar və kollagenaza kimi toxuma parçalayan fermentləri misal göstərmək olar [17].

Ağız boşluğu patologiyalarına səbəb olan digər bir bakteriya *Enterococcus faecalis*dir ki, periodontit və diş karieslərində əsas etioloji agentlərdən biridir. E.faecalis biofilmin müxtəlif təbəqələrində kolonizasiya edən və digər bakteriyalarla qarşılıqlı əlaqədə olan əsas infeksion agent kimi qəbul olunmuşdur [18]. Bundan əlavə olaraq isə E.faecalis diş kökü kanallarında ex vivo şəraitdə 12 aya qədər canlılığını qoruyub saxlaya bilir. Bunun səbəbini isə biofilmlər əmələ gətirməsi və ya çox növ sayına malik supragingival biofilmlərdə kolonizasiya etməsi ilə əlaqələndirilir [19]. E.faecalisin mənşəyi tam məlum olmasa da, kök kanal sistemində tüpürcəkdə meydana gəlməsi fikri irəli sürülmüşdür. Bəzi alimlərin fikrincə, ağız boşluğunda aparılan əməliyyatlar zamanı nozokomial şəkildə və yaxud qida vasitəsilə keçə biləcəyi düşünülür [20]. HİV xəstələrinin ağız boşluğundan təcrid olunmuş enterokokklara daxil olan E.faecalis oral mənşəli inkeksion xəstəlik olan endokarditə səbəb olduğu məlum olmuşdur [21]. E.faecalisin vilurentlik amillərinə biofilm əmələ gətirməsi, hialuronidaza, hüceyrədənkənar superoksid, jelatinaza, lipoteyxat turşusu, sitolizin toksinini misal göstərmək olar [22].

Fusobacterium nucleatum ağız boşluğunda rast gəlinən şərti-patogen bakteriyadır. Son araşdırmalar nəticəsində F.nucleatumun kolorektal xərçəngə səbəb olduğu müəyyənləşdirilmişdir. Fusobakteriyalar qram-mənfi anaerob çöplər olub, ağız boşluğunda və mədə-bağırsaq traktında və başqa yerlərdə rast gəlinir. F.nucleatum periodontal və biofilmlərin sağlamlığında mühüm rola malikdir. F. nucleatum ağız boşluğunda ilkin kolonizasiya olunan Streptococcus spp. və Porphyromonas gingivalis kimi mikroorqanizmlərlə qarşılıqlı əlaqədə olur. F. nucleatum öz formasına görə digər mikroorqanizmlərlə qarşılıqlı əlaqədə ola bilir. F.nucleatum ağız boşluğunun epitelisində xüsusi antimikrob maddələr olan peptid β-defens 2, sitokinlərdən İL-6 və İL-8 sintez edir. Araşdırmalar nəticəsində aydın olmuşdur ki, F. nucleatumun Sterptococcus sanguinis ilə kultivasiyası zamanı bir F.nucleatum hüceyrəsi on S. sanguinis hüceyrəsi ilə birləşərək yüksək dərəcədə nizamlı olan partlamış qarğıdalıyabənzər quruluş əmələ gətirir. F. nucleatumun uzunsov formada olması mikroorqanizmlərlə qarşılıqlı əlaqəda olmasını asanlaşdırır. F.nucleatumun ağız mikrobiotasının hüceyrə və toxumaları ilə qarşılıqlı əlaqəsi öz təsirinə görə neytral vəziyyətdən patogen vəziyyətə keçə bilər. F. nucleatumun ağız mikrobiotasında kolonizasiyası və digər mikroorqanizmlərlə qarşılıqlı təsiri periodontit kimi polimikrob xəstəliklərin inkişafına səbəb olur. T-hüceyrələr, makrofaqlar, epitel hüceyrələrin funksiyalarını inhibasiya etməklə periodontitdə iltihablı reaksiyaların inkişafına səbəb olur. Bundan başqa aparılan araşdırmalar nəticəsində F.nucleatumun ağız, uşaqlıq boynu, mədə, qida borusunda xərçəng xəstəliklərinin inkişafında rol oynadığı sübut olunmuşdur [23].

Digər bir mikroorqanizm *Porphyromonas gingivalis* qara piqmentli, assaxarolitik, hərəkətsiz qram-mənfi anaerobdur. Onun inkişafı üçün mühitdə K vitamini, anareob şəraitin olması tələb olunur. Periodontal ciblərdə yaşaya bilməsi üçün metobolik enerjini amin turşuları fermentasiya etməklə əldə edir. Gingival biofilmlərdə kolonizasiya olan Porphyromonas gingivalis diş ətlərinə zərər verərək diş itkisinə səbəb olur. Periodontal toxumalarda kolonizasiya olunaraq iltihabi proseslərin baş verməsinə səbəb olur [24]. P.gingivalis diş ətinin epitel hüceyrələrində uzun müddət canlılığını qoruya bilir. Bu invazivlik xüsusiyyəti onun sahibin hüceyrələrinin səthində β1 inteqrinlərlə birləşə bilən fimbrialara sahib olmaq qabiliyyəti ilə əlaqədardır [25].

Bir çox patogenlər kimi P.gingivalisində vilurentlik faktorlarına sahib olması təəccüblü deyil. Əsas vilurentlik faktorlarına LPS, polisaxarid kapsul və fimbriaların olması aid edilir. CD14 və TLRs kimi tanıma reseptorları kommensal və patogen mikroorqanizmlərin bir-birindən fərqləndirilməsində mühüm rol oynayır. P.gingivalis monositlərdə IL-1α, IL-1β, IL-6, IL-8, IL-18 və şiş nekroz amilləri (TNF)α-nın sitokin istehsalını stimullaşdırır. P.gingivalis digər patogenlərin sitokin stimullaşdırma qabiliyyətinə antaqonosit təsir göstərmək qabiliyyətinə malikdir. P.gingivalisin əsas vilurentlik faktorlarından biridə kapsulasıdır və ya K-antigenidir. Kapsulanın altı müxtəlif serotipi mövcuddur ki, bunlarda IgG-nin anticisim xüsusiyyətlərinə əsasən müəyyən edilmişdir. Kapsulanın serotiplərindəki fərqlər makrofaqlar tərəfindən xemokin sintezi və dendrit hüceyrələri tərəfindən sitokin sintezinin stimullaşdırılmasındaki differensial imkanlarla əlaqədardır. Aparılan maraqlı bir

təcrübədə kapsullaşdırılmamış P.gingivalis mutant ştammına qarşı insanın diş əti fibroblastları tərəfindən sitokin sintezinin güclü olduğu və vəhşi ştammla müqayisədə anadangəlmə immun reaksiyaların az olması kapsulanın əhəmiyyətini müəyyən etmişdir. P.gingivalisin fimbriaları hüceyrədənkənar matrisə, hüceyrələrə və toxumalara yapışmasını asanlaşdıran filamentvari səthi çıxıntılardır. P.gingivalis öz fimbriaları ilə ilkin kolonizasiya edən bakteriyaların iştirakı ilə əmələ gələn biofilmə yapışır. İki tip fimbria vardır: I tip fimbrialar əsas fimbrialar olub kolonizasiya prosesində iştirak edir, digər tip isə II tip olub kiçik fimbria adlanır və iltihablanma qabiliyyətinə malikdir. Həm kiçik, həm də əsas fimbriaların mühüm xüsusiyyəti sitokinlərin induksiyası və sahib hüceyrələr tərəfindən IL-1, IL-6, IL-8, TNF-α və MMP-9 kimi matriks metalloproteinazaların sintezidir [26].

Enterobakteriyalar isə qram-mənfi bakteriyalar olub, səhiyyə sistemində antibiotiklərə olan müqavimətinə görə diqqət çəkən bakteriyalardır. Onların ağız boşluğunun ekosistemində rast gəlinmə səbəbələri isə çirklənmiş içməli su və qida, şəxsi gigiyenaya diqqət yetirməməkdir. Enterobakteriyaların yayılması son dərəcə dəyişkəndir və onların tranzit bakteriyalar olub-olmaması hələ də sual altındadır. Onlar əsasən peridontit xəstəliyində ən çox adı çəkilən bakteriyalardandır [27,28]. Daha çox uğursuz implantlı xəstələrdə yüksək nisbətdə aşkar olunur və ümumiyyətlə immuniteti zəif olan xəstələrdə ağız mukozası infeksiyaları ilə sıx əlaqədardır. Bu xəstələrdə ağız selikli qişasında olan infeksiya tənəffüs sisteminə yayıla bilər və həyati təhlükəsi olan infeksiyalara səbəb ola bilər [29]. Bununla yanaşı, enterobakteriyalarla digər qrupdan olan patogen bakteriyalar arasında korrelyativ əlaqələr mövcuddur. Onlar arasındakı əlaqə vilurentlik və antibiotiklərə həssaslıq baxımından səciyyələndirilir. Enterobakteriyaların vilurentlik faktorlarına nəzər yetirdikdə enterotoksinlər və endotoksinlərin olması, IgA və IgG-nin deqradasiya etmək qabiliyyəti, limfositlərin proliferasiyası və proteolitik fermentləri sintez etmək qabiliyyət kimi faktorları görmək olar. Aparılan araşdırmalar nəticəsində müəyyən olunmuşdur ki, bəzi hallarda ağız boşluğunda qram-mənfi basillər üstünlük təşkil edə bilir, xüsusilə üst çənə protezlərindən istifadə edən xəstələrdə K. pneumoniae bakteriyasına daha tez-tez rast gəlindiyi qeyd olunur [26].

Digər bir bakteriya *Acinetobacter baumanii* xəstəxana mühitində tez-tez rast gəlinən qram-mənfi basildir. O, Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən kritik prioritet patogen kimi elan edilən növlərdən ibarət qırmızı siyahıya daxil olan bakteriyadır [30]. Ağız boşluğunda xroniki və kəskin peridontitli xəstələrdə və kök kanal infeksiyaları zamanı əsas etioloji agent olduğu müəyyən edilmişdir [31]. Ağız boşluğundan təcrid edilmiş A. baumaniidə tədqiq edilmiş əsas virulentlik faktorları lipokalinlərin istehsalı, biofilm əmələ gətirmə, xarici membran zülalı A, qurumuya qarşı müqavimət aiddir. Qlükoza mübadiləsində iştirak bu bakteriyaların qida çatışmazlığı olan bir mühitdə sağ qalmasına kömək edən əsas amillərdən biri hesab edilir [32].

Ağız boşluğunun mikrobiotasının bir hissəsini təşkil edən *Pseudomonas aeruginosa* immuniteti zəifləmiş xəstələrdə periodontal ciblərdən tez-tez təcrid edilir. Periodontit və gingivitdə patogen ola bilir [4]. P.aeruginosa toxumalara yapışaraq orada biofilm təbəqəsi əmələ gətirmək qabiliyyətinə həmçinin hüceyrədənkənar toksinlər və fermentlər ifraz edərək öz vilurentlik qabiliyyətini büruzə verir. Antimikrob maddələrə qarşı yüksək dərəcədə davamlı olması vilurentliyini kəskin artıran səbəbdir [33].

Beləliklə, yuxarıda qeyd etdiyimiz şərti-patogen bakteriyaların xəstəlik törətməsi üçün mütləq mənada şəraitin olması (immun sistemin zəifləməsi, ağzın selikli qişasında yerli immun amillərin xüsusilə, sİgA-nın miqdarının azalması) vacibdir.

ƏDƏBİYYAT

1. Wang B., Yao M., Lv L. et al. The human microbiota in health and disease // Engineering, 2017, v.3(1), p.71-82.
2. Huse S.M., Ye Y., Zhou Y. et al. A core human microbiome as viewed through 16S rRNA sequence clusters // PLoS ONE, 2012, v.7, e34242.
3. Zuza E.C. et al. Evaluation of recurrence of periodontal disease after treatmentin obese and normal weight patients: two-year follow-up // J. Periodontol., 2020, v. 91, p.1123-1131
4. Zhou S., Gravekamp C., Bermudes D. et al. Tumour-targeting bacteria engineered to fight cancer // Nat. Rev. Cancer, 2018, v. 18, p.727-743 .
5. David L.A. et al. Diet rapidly and reproducibly alters the human gut microbiome // Nature, 2014, v.505(7484), p.559-63.
6. Maslowski K.M., Mackay C.R. Diet, gut microbiota and immune responses // Nat Immunol., 2011, v.12(1), p.5-9.
7. Pitts N.B. et al. Dental caries // Nat Rev Dis Primers, 2017, v.3, p.17030.

8. Klein M.I. et al. Streptococcus mutans-derived extracellular matrix in cariogenic oral biofilms // Front Cell Infect Microbiol., 2015, v.5, p.10.

9. Zhu F. et al. Glycosyltransferasemediated Sweet Modification in Oral Streptococci // J Dent Res., 2015, v.94(5), p.659-65.

10.Johansson I. et al. The microbiome in populations with a low and high prevalence of caries // J Dent Res., 2016, v.95(1), p.80-6.

11.Simon-Soro A., Mira A. Solving the etiology of dental caries // Trends Microbiol., 2015, v.2, p.76-82

12.Lebeaux D. et al. Biofilm-related infections: bridging the gap between clinical management and fundamental aspects of recalcitrance toward antibiotics // Microbiol Mol Biol Rev., 2014, v.78(3), p.510-43

13.Wen Z.T. et al. Biofilm formation and virulence expression by Streptococcus mutans are altered when grown in dual-species model // BMC Microbiol., 2010, v.10, p.111.

14.23Simões-Silva L., Ferreira S., Santos-Araujo C. Oral Colonization of Staphylococcus species in a peritoneal dialysis population: a possible reservoir for PD-related infections? // Can J Infect Dis Med Microbiol., 2018, 2018, p. 5789094.

15.Persson G.R., Renvert S. Cluster of bacteria associated with periimplantitis // Clin Implant Dent Relat Res., 2014, v.16(6), p.783-793.

16.Back-Brito G.N., El Ackhar V.N.R., Querido S.M.R. Staphylococcus spp., Enterobacteriaceae and Pseudomonadaceae oral isolates from Brazilian HIV-positive patients. Correlation with CD4 cell counts and viral load // Arch Oral Biol., 2011,v. 56, p.1041-1046.

17.Lima B.P., Hu L.I., Vreeman G.W. The oral bacterium Fusobacterium nucleatum binds Staphylococcus aureus and alters expression of the staphylococcal accessory regulator sar // A. Microb Ecol., 2019, v. 78(2), p.336-347.

18.Kouidhi B., Zmantar T., Mahdouani K. et al. Antibiotic resistance and adhesion properties of oral Enterococci associated to dental caries // BMC Microbiol., 2011, v. 11, p.155.

19.Al-Ahmad A., Ameen H., Pelz K. et al. Antibiotic resistance and capacity for biofilm formation of different bacteria isolated from endodontic infections associated with root-filled teeth // J Endod., 2014, v. 40(2), p.223-230.

20.Lins R.X., Hirata R., Wilson M. et al. Comparison of genotypes, antimicrobial resistance and virulence profiles of oral and non oral Enterococcus faecalis from Brazil, Japan and the United Kingdom // J Dent., 2019, v. 84, p.49-54.

21.Vieira Colombo A.P., Magalhães C.B., Hartenbach F.A.R.R. Periodontal disease associated biofilm: a reservoir for pathogens of medical importance // Microb Pathog., 2016, v. 94, p.27-34.

22.Komiyama E.Y., Lepesqueur L.S.S., Yassuda C.G. et al. Enterococcus species in the oral cavity: prevalence, virulence factors and antimicrobial susceptibility // PLoS One, 2016, v. 11(9), 0163001

23.Brennan C.A., Garrett W.S. Fusobacterium nucleatum- symbiont, opportunist and oncobacterium // Nat Rev Microbiol., 2019, v.17(3), p.156-166.

24.Zijnge V., van Leeuwen M.B., Degener J.E. Oral biofilm architecture on natural teeth /\ PLoS ONE, 2011, v.5, e9321.

25.Yilmaz O., Verbeke P., Lamont R.J. et al. Intercellular spreading of Porphyromonas gingivalis infection in primary gingival epithelial cells // Infect Immun, 2006, v. 74, p.703-710.

26.Bostanci N., Belibasakis G.N. Porphyromonas gingivalis: an invasive and evasive opportunistic oral pathogen. 2012. Federation of European Microbiological Societies. 1-5.

27.Leão-Vasconcelos L.S., Lima A.B., Costa D.M. Enterobacteriaceae isolates from the oral cavity of workers in a Brazilian oncology hospital // Rev Inst Med Trop Sao Paulo, 2015, v.57(2), p.121-127.

28.Martínez-Pabón M.C., Isaza-Guzmán D.M., Mira-López N.R. et al. Screening for subgingival occurrence of gram-negative enteric rods in periodontally diseased and healthy subjects // Arch Oral Biol., 2010, v. 55(10), p.728-736.

29.Mahasneh S.A., Mahasneh A.M. Probiotics: a promising role in dental health // J Dent.,2017,v.5, p.26

30.Global priority list of antibiotic resistant bacteria to guide research, discovery and development of new antibiotics. World Health Organization, 2017.

31.Da Silva-Boghossian C.M., Neves A.B., Resende F.A.R. et al. Suppuration associated bacteria in patients with chronic and aggressive periodontitis // J Periodontol., 2013, v.84(9), p.9-16.

32.Priyadharsini V.J., Smiline Girija A.S., Paramasivam A. In silico analysis of virulence genes in an emerging dental pathogen A. baumannii and related species // Arch Oral Biol., 2018, v. 94, p.93-98.

33.Pihl M., Chávez de Paz L.E., Schmidtchen A. et al. Effects of clinical isolates of Pseudomonas aeruginosa on Staphylococcus epidermidis biofilm formation // FEMS Immunol Med Microbiol., 2010, v. 59(3), p.504-512.

Xülasə

Bəzi ağız boşluğu xəstəlikləri törədicilərinin mikrobioloji aspektləri

A.B. Qurbanova, N.A. Ağayeva

Ağız mikrobiotası insan mikrobiotasının mühüm hissəsini təşkil edir. Ağız boşluğunda 700-dən çox növ müəyyən edilmişdir və hələ də kəşf edilməyə davam edir. Ağız boşluğunun anatomiyası digər bədən hissələrindən bir qədər fərqlənir. Ağız boşluğunun selikli qişası, sərt toxumalar və ekzokrin vəzilər vardır ki, bunlar hamısı ağız boşluğunun selikli qişası üçün unikal xüsusiyyətə malikdir. Ağız boşluğunun mikrobiotası öyrənilərkən orada disbioz zamanı ağız ekosistemində tarazlığın pozulması nəticəsində bir sıra patologiyalar baş verir. Patologiyalara səbəb isə tarazlığın pozulması və şərti-patogen bakteriyaların inkişafı nəticəsində peridontit, gingivit və karies kimi xəstəliklərin təzahür etməsinə zəmin yaradır.

Summary

Microbiological aspects of some causative agents of oral cavity diseases

A.B. Gurbanova, N.A. Aghayeva

Oral microbiota constitutes an important part of human microbiota. More than 700 species have been identified in the oral cavity and are still being discovered. The anatomy of the oral cavity is slightly different from other body parts. There are oral mucosa, hard tissues, and exocrine glands, all of which are unique to the oral mucosa. When studying the microbiota of the oral cavity, a number of pathologies occur as a result of the imbalance in the oral ecosystem during dysbiosis. As a result of the imbalance and the development of conditionally pathogenic bacteria, the cause of pathologies lays the foundation for the manifestation of diseases such as periodontitis, gingivitis and caries.

Daxil olub:12.02.2024

Kəskin daşlı xolesistitlərin müxtəlif formalarında ultrasəs meyarların müqayisəli qiymətləndirilməsi

N.A.Eynullayeva
Azərbaycan Tibb Universiteti, Bakı

Açar sözlər: kəskin xolesistit, ultrasəs müayinəsi, iltihab
Ключевые слова: острый холецистит, УЗИ, воспаление.
Key words: acute cholecystitis, ultrasound, inflammation

Öddaşı xəstəliyi əksər hallarda kəskin daşlı xolesistitlə (KDX) ağırlaşdığından, təxirəsalınmaz qaydada klinikaya daxil olan xəstələrin 15–25%-i bu patologiyanın payına düşür və buna görə də qarın boşluğunun kəskin cərrahi xəstəliklərin içərisində kəskin xolesistit kəskin appendisitdən sonra ikinci yeri tutur [1-3]. Əksər hallarda KDX-yə ağırlaşmaları və yanaşı xəstəlikləri, yaşı 50-dən çox olan ahıl və qoca yaşlı şəxslərdə təsadüf edilir [4]. Ahıl və qoca yaşlı şəxslərdə xəstəliyin ağırlaşmış formasının artması ölüm hallarının artması ilə müşayiət olunur. Belə ki, 80 yaşdan yuxarı insanlarda bu patologiyadan ölüm faizi 40–50%-i ötür və əməliyyatdansonrakı ağırlaşmalara 10–44% hallarda təsadüf edilir [5-7].

XXI əsrin əvvəllərinə doğru xəstəxanaya daxil olan xəstələrdə qarında ağrıların səbəbini yalnız 50% hallarda dəqiqləşdirmək mümkün olmuşdur [8].

Məlum olduğu kimi, hepatobiliar sistemin xəstəliklərində daha əlçatan və etibarlı diaqnostik üsul kimi ultrasəs müayinəsindən geniş istifadə edilir. Belə ki, müxtəlif şəraitlərdə istifadə edilə bilməsi, qeyri-invazivliyi, dinamikada aparılmasının mümkünlüyü, aparılmasına əks-göstərişlərin olmaması, şüalanma verməməsi bu müayinə üsulunun klinik praktikada geniş tətbiqinə imkan vermişdir.

Kəskin xolesistitlərin diaqnostikasında USM 82% həssaslığa və 81% spesifikliyə malik olsa da [9], xəstəliyin atipik gedişi, öd kisəsindəki destruktiv proseslərin yayğın klinik mənzərəsi, xəstənin tam müayinə olunmaması, eləcə də USM müayinəsinin nəticələrinin qiymətləndirilməsində vahid meyarların olmaması kimi amillər hesabına, hətta stasionarda diaqnostik səhvlərin tezliyi 11,9%-ə çatır [10]. Həmçinin, sonoloqların hazırlıq səviyyəsinin aşağı olması, müayinənin nəticələrinin düzgün şərh olunmaması, praktik həkimlərin USM-lə təmaslarının, eləcə də exoqrafik protokolu oxumaq və onu şərh etmək bacarıqlarının az olması da bu sahədə diaqnostik səhvlərin artmasının çoxsaylı səbəblərindəndir [11-14].

KDX zamanı diaqnostik səhvlər isə düzgün cərrahi taktikanın seçilməməsinə, vaxtında cərrahi müdaxilənin aparılmamasına, nəticədə isə ağırlaşmaların və ölüm hallarının artmasına gətirib çıxarır.

Tədqiqatın məqsədi. KDX-nin mütəlif formalarında USM-meyarlarının müqayisəli qiymətləndirilməsi.

Tədqiqatın material və metodları. Klinikaya kəskin xolesistit əlamətləri ilə daxil olan 116 xəstədə USM aparılmışdır. Klinik-laborator və sonoqrafik müayinələrdən sonra xəstələrə "Öddaşı xəstəliyi. Kəskin xolesistit" diaqnozu qoyulmuşdur. 19–87 yaşlı xəstələrdən 97-i (83,6%) qadın, 19-u (16,4%) isə kişi olmuşdur. KDX-nin müxtəlif formaları olan xəstələrdən 105-i (90,5%) laporoskopik, 11-i (19,5%) isə açıq xolesistektomiya aparılmışdır. Klinik-laborator-exoqrafik müayinədən sonra 53 xəstədə (45,7%) KDX-nin kataral, 38-də (32,8%) – fleqmonoz və 25-də (21,5%) isə qanqrenoz forması müəyyən edilmişdir.

Qarın boşluğunun USM-i "Medison" aparatında MHs ötürücüdən istifadə edilməklə B rejimində ardıcıllıqla aparılmışdır. İlk növbədə öd kisəsinin ölçüləri, divarının qalınlığı, möhtəviyyatının exogenliyi (daşlar, onların hərəkətliliyi, məcunvari öd) və paravezikal toxumanın vəziyyəti öyrənilmişdir. Sonra isə qaraciyər, ödçıxarıcı yollar və mədəaltı vəz müayinə olunmuşdur.

Müayinə xəstənin arxası üstə və sol böyrü üstə uzanıqlı vəziyyətində aparılmışdır. Öd kisəsinin müayinəsi üçün ötürücü sağ qabırğaaltı sahədə orta körpücük xətti üzrə qabırğa qövsünə perpendikulyar yerləşdirilir. Pis görüntülənmə olduğu təqdirdə müayinə orta körpücük xətti üzrə VII-VIII qabırğaarasında, yaxud 1-2 sm sağa olmaqla aparılmışdır. Öd axarlarının müayinəsi məqsədi ilə ötürücü sağ qabırğaaltında orta körpücük xətti üzrə qabırğa qövsünə perpendikulyar, yaxud xəstənin boylama bədəninə nisbətdə çəp olmaqla qabırğa qövsündən 1-2 sm aşağı və ön qoltuqaltı xətdən medial olmaqla qoyulur. Öd yollarının axtarışında qapı venasından bələdçi kimi istifadə edilir. Eyni zamanda bütün xəstələrdə plevra boşluqlarının da USM-i aparılmışdır.

Tədqiqatın gedişində alınan nəticələr qeyri-parametrik statistika üsulları ilə işlənilmişdir.

Nəticələr və müzakirələr. Bütün hallarda xəstələrdə KDX aşkarlanmışdır. Xəstələrdə müvafiq klinik-laborator göstəricilərlə yanaşı, KDX-nin ayrı-ayrı klinik formaları üçün xarakterik olan əlamətlər də müəyyən edilmişdir (Cədvəl).

Cədvəl
KDX-nin klinik formalarının USM göstəriciləri

Göstəricilər	Kəskin kataral xolesistit	Kəskin fleqmonoz xolesistit	Kəskin qanqrenoz xolesistit
Öd kisəsinin uzunluğu (A), sm	10,37±0,13	12,34±0,12	10,20±0,17
Öd kisəsinin eni (B), sm	4,0±0,006	5,02±0,08	6,73±0,12
Öd kisəsinin qalınlığı, sm	3,56±0,06	7,67±0,15	8,76±0,20
Öd kisəsinin uzunluğunun eninə olan nisbəti (A/B)	2,62±0,04	2,49±0,05	1,52±0,03
Öd kisəsinin həcmi, ml	93,5±1,8	127,7±2,3	97,6±2,0
Divarın lay-lay olması, %	–	42,1	84,0
Öd kisəsinin boynunda daş,%	15,0	55,2	80
Öd kisəsinin ətrafında möhtəviyyatın olması,%	–	23,6	100

Onu da qeyd etmək lazımdır ki, öd kisəsinin divarının quruluşunun dəyişməsinin öyrənilməsi KDX-nin klinik formasını təyin etməyə imkan verir. Belə ki, KDX-nin kataral forması üçün aşağıdakı əlamətlər xarakterik olmuşdur (Şəkil 1): əksər hallarda öd kisəsinin ölçülərinin böyüməsi – çox vaxt hesabına (bir sıra hallarda normal olması, yaxud az böyüməsi), divarının 4 mm-ə qədər qalınlaşması, bəzi hallarda kisədaxili mülayim hipertenziya, kisənin həcminin artması, mənfəzdə daşlar. Öd kisəsinin boynunda daşa 49 xəstədə (42,2%) təsadüf edilmişdir.

Şəkil 1. Kataral daşlı xolesistitli xəstənin exoqramı

Bütün hallarda öd kisəsinin divarları öz strukturunun eyniliyini saxlamış, konturları aydın, hamar olmuşdur və paravezikal toxumada dəyişikliklər aşkarlanmamışdır.

Öd kisəsindəki fleqmonoz dəyşikliklər zamanı onun ölçülərinin böyüməsi, kisənin gərgin olması, divarının qalınlığının 5 mm-dən çox olması, əksər hallarda divarın lay-lay olması və divardaxili exoneqativ qütbün mövcudluğu və xəstələrin əksərində kisənin boynunda daş görüntülənmişdir. Bu xəstələrdə perivezikal ağırlaşmalar olmamışdır (Şəkil 2).

Qanqrenoz xolesistitlər zamanı bütün hallarda perivezikal ağırlaşmalar olmuşdur. USM-də öd kisəsinin həm uzununa, həm də eninə böyüməsi, divarın qalınlaşması (5,5 mm), əksər hallarda divarın çoxlaylı olması, lakin layların fərqlənməməsi, kisənin xarici konturunun aydın olmaması, öd kisəsi ətrafındakı toxumaların

iltihabi infliltratı fonunda hipoexogen toxumaların olması, öd kisəsinin yatağında və qaraciyəraltı sahədə mayenin toplanmasını göstərən anexogen zonaların mövcudluğu aşkarlanmışdır (Şəkil 3).



Şəkil 2. Kəskin daşlı fleqmonoz xolesistit. Exoqram



Şəkil 3. Qanqrenoz forma kəskin xolesistitin exoqramı

Beləliklə, USM meyarları əməliyyataqədərki dövrdə kəskin xolesistitin klinik formasını təyin etməyə imkan verməklə cərraha müalicə taktikasının seçiminə yardımçı olur.

Nəticələr:

1.USM-in səkkiz meyarı xəstəyə kəskin daşlı xolesistitin klinik formalarını təyin etməyə imkan verir.

2. Öd kisəsinin boynunda daş fonunda ölçülərinin 5x10 sm və daha çox, divarının qalınlığının 5,2 sm və daha çox, quruluşunun laylılığı destruktiv formanın dürüst əlamətləridir.

ƏDƏBİYYAT

1. Бебуршивили А.Г., Панин С.И., Зюбина Е.Н. и др. Холецистомия при остром холицистите // Хирургия, 2020, №6, с.44-48.

2. Гаджиев Дж.Н., Гаджиев Н.Дж, Гасымова Ш.Х. Определение некоторых эндогенных антимикробных пептидов при остром калькулезном холецистите // Хірургія України, 2018, №3(67), с.25-28.

3. Эйнуллаева Н.А. Возможности ультразвукового исследования в диагностике деструктивных форм острого калькулезного холецистита. Матер. V съезда Ассоциации врачей экстренной медицинской помощи Узбекистана и I Конгресса Евроазиатского сообщества экстренной медицины. Ташкент, 2021, с.128-129.

4. Тимербулатов М.В., Ямалов Р.А., Тимербулатов Ш.В. и др. Прижизненная неинвазивная оценка деструктивных изменений желчного пузыря и тяжести острого холецистита // Анналы хирургической гепатологии, 2023, №3, с.56-64.

5. Ревишвили А.Ш., Сажин В.П., Оловянный В.Е. и др. Современные тенденции в неотложной абдоминальной хирургии в Российской Федерации // Хирургия, 2020, №7, с.6-11.

6. Ширинов З.Т., Алиев Ю.Г., Гамидова Н.А. и др. Алгоритм диагностики и хирургического лечения больных пожилого возраста с острым деструктивным калькулезным холециститом // Хирургия, 2020, №6, с.24-29.

7. Стойко Ю.М., Ветшев П.С. Дискуссия по материалам статьи «Холецистомия при остром холецистите» // Хирургия, 2021, №4, с.98-99.

8. Хамданов Б.З., Мусаев Т.Я, Хайдаров Ф.Н. и др. Цитокиновый профиль крови при деструктивных формах острого калькулезного холецистита // Биология ва тиббёт муаммолари, 2021, № 6.1 (133), с.475-480.

9. Буриев И.М., Мелконян Г.Г., Малюга Н.С. и др. Ультразвуковая и клинико-лабораторная диагностика истинных морфологических форм острого холецистита: необходимость смены классификации //Анналы хирургической гепатологии. 2020, №3, с.55-62

10.Верзакова О.В. Обоснование ультразвуковых и допплерографических критериев в дифференциальной диагностике различных форм холецистита. Автореф. дисс. … к.м.н. СПб, 2017, 23 с.

11.Опарин А.А., Опарин А.Г., Лаврова Н.В. и др. Ультразвуковое исследование желчного пузыря в норме и патологии // Східноевропейский журнал внутрішноімедицини, 2017, № 2, с.23-30.

12.Курзанцева О.М. Лучевая диагностика патологии желчного пузыря и желчевыводящих путей. SonoAce Ultrasound, 2013, № 25, с.64-76.

13.Щвец О.В. Функциональное заболевание желчного пузыря // Здоров`я Україні, 2014, № 3, с. 2-3.

14.Пимонов С.И. Ультразвуковая диагностика в гастроэнтерологии. М.: Практическая медицина, 2016, 415 с.

Резюме

Сравнительная оценка ультразвуковых критерий при различных форм острых калькулезных холециститов

Н.А.Эйнуллаева

В статье дана сравнительная оценка эхосемиотики острого калькулезного холецистита у 116 больных. Больные были разделены на 3 группы: I группа (53 больных) с катаральной формой воспаления, II группа (38 больных) с флегмонозной и III группа (25 больных) с гангренозной формой воспаления. С нарастанием выраженности воспаления и развитием деструктивных изменений в желчном пузыре меняется эхосемиотика. У всех больных с гангренозной формой воспаления наблюдались перивезикальные осложнения. На основании проведенных исследований сделан вывод, что для достоверной ранней диагностики деструктивных форм ОКХ и оценки течения послеоперационного периода «золотым стандартом» является УЗИ.

Summary

Comparative assessment of ultrasound criteria in different forms of acute stone cholecystitis

N.A.Eynullayeva

The article provides a comparative assessment of the echosemiotics of acute calculous cholecystitis in 116 patients. The patients were divided into 3 groups: in group I (53 patients) with a catarrhal form of inflammation, in group II (38 patients) with phlegmonous and in group III (25 patients) with a gangrenous form of inflammation. With an increase in the severity of inflammation and the development of destructive changes in the gallbladder, echosemiotics changes. All patients with the gangrenous form of inflammation had

perivesical complications. Based on the studies conducted, it was concluded that for reliable early diagnosis of destructive forms of ACC and assessment of the course of the postoperative period, ultrasound is the "gold standard".

Daxil olub: 26.02.2024

Результаты хирургического лечения и осложнений эхинококкоза брюшной полости

А.В.Рустамова
Азербайджанский медицинский университет, Кафедра хирургических болезней-III

Açar sözlər: qaraciyərin exinokokkozu, qarın boşluğu, diaqnostika, müasir üsullar və cərrahi müalicə.
Ключевые слова: эхинококкоз печени, брюшная полость, диагностика, современные методы и хирургическое лечение.
Key words: liver echinococcosis, abdominal cavity, diagnosis, modern methods and surgical treatment

Заболевание эхинококкозом брюшной полости остается всегда актуальной. В настоящее время хирургический метод лечения не имеет альтернативы и в то же время оперативное вмешательство представляет собой фактор риска, который определяется рядом причин: состоянием больного, локализацией паразитарных очагов, числом предшествующих операций. Летальность при I,II,III хирургических операциях, при рецидивирующем течении эхинококкоза брюшной полости, составляет 2,6%, 6,0% и 20% соответственно. В связи с этим возникает необходимость в разработке оптимальных алгоритмов ранней диагностики эхинококкоза и совершенствования способов предотвращения рецидивов заболевания, снижения травматичности операций и профилактики послеоперационных осложнений эхинококкоза.

Несмотря на большое количество предложенных методов ликвидации остаточной полости после эхинококкэктомии, нагноение в послеоперационном периоде остаточных полостей достигает 15-20%, что указывает на то, что все виды используемых операций еще далеки от совершенства [1,2,3,4,5,6,7].

В связи с этим очевидна актуальность разработки новых способов диагностики и лечения этого тяжелого паразитарного заболевания.

Cədvəldən aydın görünür ki, AT-nin "ideal norma"-dan "aralıq" səviyyəsinə qədər yüksəlməsi NKM qupunda ÜDR-lərinin göstəricisinin "≥10%"rastgəlmə tezliyində statistik əhəmiyyətli yüksəlməyə səbəb olmadı (0,0%-dan 0,6%-a qədər; p>0,05). Analoji vəziyyət PD qrupunda da izlənildi (10.7%-dan 11,9%-a qədər; p> 0,05). Əldə olunmuş məlumatlar əsasında istər NKM, istərsə də PD zamanı ÜDR-lərinin artması yalnız "ideal arterial hipertenziya" zamanı müşahidə olunur. Eləcə də ŞD 2 zamanı AT-nin "ideal norma"-dan "aralıq" səviyyəsinə qədər yüksəlməsi ürək - damar risklər göstəricisinin 46,0%-dən 62,8%-ə qədər. "≥10%" rastgəlmə tezliyində statistik əhəmiyyətli yüksəlməyə səbəb oldu (p<0.001).

Nəticə. Digər faktorların ürək-damar riski göstəricilərinə təsirini neytrallaşdıran tərtib edilmiş model vasitəsi ilə arterial təzyiq və karbohidrat mübadilə göstəciləri ilə əlaqədar amillərin ürək-damar riskinə təsirini qiymətləndirməyə imkan verdi. Tərtib edilmiş modelin məlumatlarına əsasən, sistolik arterial təzyiqin 130-139 mmHg və/və ya diastolik arterial təzyiqin 80-89 mmHg diapazonunda yüksəlməsi şəkərli diabet tip 2 zamanı statistik əhəmiyyətli dərəcədə (p <0.001) ürək-damar riskinin "≥10%" rastgəlmə tezliyini artırmış oldu.

ƏDƏBİYYAT

1. Manolis A.J., Poulimenos L.E., Kallistratos M.S. Arterial hypertension: benefits and limitations of treatment // e-Journal of Cardiology Practice, 2015, v.13, N28, https://www.escardio.org/Journals/E-Journal-of-Cardiology-Practice/Volume-13/arterial-hypertension-benefits-and-limitations-of-treatment.

2. Lewington S., Clarke R., Quizilbash N. et al. Age-specific relevance of usual blood pressure to vascular mortality: a meta-analysis of individual data for one million adults in 61 prospective studies. Prospective Studies Collaboration. Lancet, 2002, v.14, v.360, Iss.9349, p1903-1913.

3. Neal B., MacMahon S., Chapman N. Effects of ACE inhibitors, calcium antagonists, and other blood-pressure-lowering drugs: results of prospectively designed overviews of randomised trials. Blood Pressure Lowering Treatment Trialists' Collaboration. Blood Pressure Lowering Treatment Trialists' Collaboration. Lancet, 2000, v.356, Iss.9246, p.1955-1964.

4. Heidenreich P.A., Trogdon J.G., Khavjou O.A., Butler J. et al. Forecasting the future of cardiovascular disease in the United States: a policy statement from the American Heart Association. Circulation, 2011, v.123, N8, p.933-944.

5. Whelton P.K., Carey R.M., Aronow W.S. et al. 2017 ACC/AHA/AAPA/ABC/ACPM/AGS/APhA /ASH/ASPC/NMA/PCNA Guideline for the Prevention, Detection, Evaluation, and Management of High

Blood Pressure in Adults. A Report of the American College of Cardiology //American Heart Association Task Force on Clinical Practice Guidelines. Hypertension, 2018, v.71, p.e13-e115.

6. Williams B., Mancia G., Spiering W. et al. 2018 ESC/ESH Guidelines for themanagement of arterial hypertension. The Task Force for the management of arterial hypertension of the European Society of Cardiology (ESC) and the European Society of Hypertension (ESH) // European Heart Journal, 2018, v.39, p.3021-3104.

7. Assmann G., Cullen P., Schulte H. Simple scoring scheme for calculating the risk of acute coronary events based on the 10-year follow-up of the prospective cardiovascular Münster (PROCAM) study // Circulation, 2002, v.105(3), p.310-5.

8. D'agostino R.B., Vasan R.S., Pencina M.J. et al. General cardiovascular risk profile for use in primary care // Circulation. 2008, v.117, p.743-53

9. Predicting cardiovascular risk in England and Wales: prospective derivation and validation of QRISK2 // BMJ, 2008, v.336, p.1475-82.

10.Lloyd-Jones D.M., Huffman M.D., Karmali K.N. et al. Estimating Longitudinal Risks and Benefits From Cardiovascular Preventive Therapies Among Medicare Patients: The Million Hearts Longitudinal ASCVD Risk Assessment Tool: A Special Report From the American Heart Association and American College of Cardiology // Circulation, 2017, v.135, p.793-e813.

11.Grundy S.M., Stone N.J., Bailey A.L. et al. 2018AHA/ACC/AACVPR/AAPA/ABC/ACPM/ ADA/AGS/AphA/ASPC/NLA/PCNA Guideline on the Management of Blood Cholesterol: A Report of the American College of Cardiology Foundation/American Heart Association Task Force on Clinical Practice Guidelines // Circulation, 2019, v.139, p.1082-1143.

12.Goff D.C., Lloyd-Jones D.M., Bennett G. et al. 2013 ACC/AHA Guideline on the Assessment of Cardiovascular Risk // Circulation, 2014, v.129, p.49-73

13.Stone N.J., Robinson J.G., Lichtenstein A.H. et al. 2013 ACC/AHA Guideline on the Treatment of Blood Cholesterol to Reduce Atherosclerotic Cardiovascular Risk in Adults // Circulation, 2014,129, p.1-45.

14.Excel 2016 - get it now with an Office 365 subscription. https://products.office.com/en-us/excel.

15.EPITOOLS.Calculate confidence limits for a sample proportion. https://epitools.ausvet.com.au/ ciproportion.

16.EasyCalculation.com. Confidence Limits for Mean Calculator. https://www.easycalculation. com/statistics/confidence-limits-mean.php

17.Peat J., Barton B. Medical Statistics. A Guide to Data Analysis and Critical Appraisal. Blackwell Publishing // B.M.J. Books, 2005, 324 p.

Резюме

Влияние модели виртуального риска на сердечно-сосудистый риск при нормальном обмене углеводов, преддиабете и сахарного диабета 2 типа

В.А. Мирзазаде, М.А. Искандер, Я.З. Гурбанов, Н.Н.Гусейнова

В статье для оценки сердечно-сосудистого риска использованы международные шкалы риска на основе ретроспективного анализа амбулаторных карт 596 пациентов в архивах Азербайджанской ассоциации эндокринологии, диабетологии и терапевтических рекомендаций. Также были разработаны виртуальные модели риска для нейтрализации влияния других факторов, кроме артериального давления, на показатель сердечно-сосудистого риска, а также для поддержания влияния предиабета и диабета. По данным составленной модели риска, повышение систолического артериального давления в диапазоне 130-139 мм рт. ст. и/или диастолического артериального давления в диапазоне 80-89 мм рт. ст. ассоциировалось со статистически значимым ($p<0,001$)» ≥10%» встречаемость сердечно-сосудистого риска при сахарном диабете 2 типа. Увеличилась его частота (с 46,0% до 62,8%). Повышение артериального давления от «идеально нормального» до «промежуточного» уровня не было статистически значимым при частоте «≥10%» показателя сердечно-сосудистого риска при нормальном углеводном обмене (от 0,0% до 0,6%; p> 0, 05). Аналогичная ситуация наблюдалась и в группе предиабета (от 10,7% до 11,9%; p>0,05).

Summary

Impact of a virtual risk model on cardiovascular risk in normal carbohydrate metabolism, prediabetes and type 2 diabetes

V.A. Mirzazade, M.A. Isgandar, Y.Z. Gurbanov, N.N.Huseynova

In the article, international risk scales were used to assess cardiovascular risk based on the retrospective analysis of outpatient cards of 596 patients in the archives of the Azerbaijan Association of Endocrinology, Diabetology and Therapeutic Guidelines. Also, virtual risk models were designed to neutralize the impact of other factors, except arterial blood pressure, on the cardiovascular risk indicator, as well as to maintain the impact of prediabetes and diabetes. Based on the data of the compiled risk model, an increase in systolic arterial blood pressure in the range of 130-139 mmHg and/or diastolic arterial blood pressure in the range of 80-89 mmHg was associated with a statistically significant ($p<0,001$) "≥10%" occurrence of cardiovascular risk in type 2 diabetes. increased its frequency (from 46.0% to 62.8%). The increase in arterial blood pressure from the "ideal normal" to the "intermediate" level was not statistically significant in the incidence of "≥10%" of the cardiovascular risk indicator in the normal carbohydrate metabolism (from 0,0% to 0,6%; $p>0, 05$). A similar situation was observed in the prediabetes group (from 10,7% to 11,9%; $p>0,05$).

Daxil olub: 25.01.2024

İnsanın normada qaraciyərdaxili öd axacaqlarının limfoid strukturlarının quruluş, cinsi xüsusiyyətlərinin və fərdi dəyişkənliyinin tədqiqinin nəticələri

N.H.Əliyeva
Azərbaycan Tibb Universiteti, Bakı

Açar sözlər: qaraciyərdaxili öd yolları, limfoid strukturlar, quruluş variantları, cinsi xüsusiyyətlər, fərdi dəyişkənlik
Ключевые слова: внутрипеченочные желчные протоки, лимфоидные структуры, варианты строения, половые признаки, индивидуальная изменчивость
Key words: intrahepatic bile ducts, lymphoid structures, structural variants, sexual characteristics, individual variation

Müasir elmi ədəbiyyatda normada, patoloji hallarda və eksperimentdə həm insanların, həm də heyvanların immun sisteminin təşkili ilə bağlı bir çox məsələlər geniş işıqlandırılmışdır [1,2,3,4.5,6,7]. Lakin, hazırda qara ciyərdaxili öd yollarının limfoid strukturlarının yaş və cinsi xüsusiyyətləri, regional anatomiyası, fərdi dəyişkənliyi haqqında ədəbiyyatda heç bir məlumat məlumat yoxdur. Bu orqanların divarlarında limfoid strukturların morfogenezinin bir çox digər aspektləri aydınlaşdırılmamışdır.

Tədqiqatın məqsədi insanın normada qara ciyərdaxili öd axacaqlarının limfoid strukturlarının makro-mikroskopik quruluşu, cinsi xüsusiyyətləri, fərdi dəyişkənliyi haqqında morfoloji məlumatlar əldə etmək olmuşdur.

Tədqiqatın material və metodları. Tədqiqat obyektini yenidoğulmuşlardan başlamış qocalıq yaş dövrü daxil olmaqla müxtəlif yaşlı və hər iki cinsə aid 46 insan meyitindən götürülmüş qara ciyərdaxili öd axacaqlarının divarının limfoid strukturları təşkil etmişdir. Materialın yaş dövrləri üzrə bölgüsü İ.A. Arşavski (1975) tərəfindən təklif edilən və ümumi qəbul edilmiş yaş dövrləri sxeminə uyğun olaraq aparılmışdır [8]. Ümumi seçimə patoloji-anatomik müayinələr zamanı immun sistem və həzm aparatı orqanlarının xəstəlikləri aşkarlandığı hallar daxil edilməmişdir.

Tədqiqatın materialı Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin və Azərbaycan Tibb Universitetinin İnsan anatomiyası və tibbi terminologiya kafedrasının morqlarından götürülmüşdür. Ölümün baş verməsi anından preparatların hazırlamasının başlanmasına qədərki müddət 6-10 saatdan çox olmamışdır.

Limfoid törəmələri histoloji metodlarla öyrənmək üçün meyitlərin makro-mikroskopik təşrihindən sonra qara ciyərdaxili öd axacaqlarının divarlarından tikələr kəsilib götürülmüşdür. Götürülmüş material 10%-li neytral formalində, bəzi hallarda isə Karnua məhlulunda fiksasiya edilmişdir. Bu tikələrdən qalınlığı 5-7 mkm olan köndələn kəsiklər hazırlanmışdır. Hazırlanmış kəsiklər hematoksilin-eozinlə, Van Gizon və Veygert metodları ilə hematoksilin – pikrofuksinlə boyadılmışdır [9]. Qara ciyərdaxili öd axacaqlarının divarlarının total preparatlarında limfoid düyüncüklər Hellman T. metodu [10] ilə tədqiq edilmişdir.

Tədqiqatın gedişində əldə olunan rəqəm göstəriciləri statistik işlənilmişdir. Bu zaman bioloji tədqiqatlar üçün nəzərdə tutulmuş ümumi tövsiyələrə riayət edilmişdir. Tədqiqatın gedişində əldə olunan rəqəm göstəriciləri statistik işlənilərkən tibbi və bioloji tədqiqatlar üçün nəzərdə tutulmuş ümumi tövsiyələrə riayət edilmişdir. Əldə edilən rəqəmlərin orta riyazi qiyməti (M), standart xətaları (m), sıraların minimum (min), maksimum (max) qiymətləri hesablanmış, qruplar arasında (P), ardıcıllıqla qrup daxilində (Po), qrup daxilində birinci parametrlə (P_1), qrup daxilində maksimumla (P_2) müqayisələr aparılmışdır. Göstəricilərin etibarlıq indeksi (Eİ), yuxarı sərhədi (YS), aşağı sərhədi (AS), variasiya əmsalı (VƏ), standart xətalar (σ-siqma) müəyyənləşdirilmişdir [11].

Hesablamalar "MS EXCEL-2016" və "SPSS-22" statistik paket proqramlarında aparılmışdır.

Tədqiqatın nəticələrı və onların müzakirəsi. Qara ciyərdaxili öd axacaqlarının limfoid strukturların makro-mikroskopik tədqiqi göstərir ki, bu orqanların divarlarında limfoid törəmələr əsasən limfoid düyüncüklər və diffuz limfoid toxuma ilə təmsil olunur (şəkil 1).

Qaraciyərdaxili öd axacaqlarının total preparatlarında limfoid düyüncüklər orqan divarının daha açıq fonunda yerləşən tünd (əsasən tünd göy) strukturlar şəklində aşkarlanırlar.

Limfoid düyüncüklər əsasən tək-tək yerləşirlər. Lakin, bəzən müxtəlif ölçülü çoxsıralı cərgələr əmələ gətirirlər, (şəkil 2). Bu sıraların sayı və bir sıra daxilində limfoid düyüncüklər arasındakı məsafə fərdidir və dəyişkəndir. Belə ki, yaşdan asılı olmayaraq bir sırada 5-dən 18-ə qədər limfoid düyüncüklər müəyyən edilir.

Limfoid strukturlar yenidoğulmuşlardan başlamış sonrakı yaş dövrlərində daim aşkar edilir.

Limfoid düyüncüklərin əksər hissəsinin çoxalma mərkəzləri olur ki, bu da həmin anatomik nahiyənin selikli qişasının limfoid törəmələrinin aktiv antigen təsirə malik olmasını göstərir [12].



Şəkil 1. 57 yaşlı kişinin sağ qara ciyər axacağının eninə kəsiyində qeyri-müəyyən formalı limfoid düyüncük (1) və diffuz limfoid toxuma (2). Hematoksilin-eozinlə boyama. Böyütmə dərəcəsi X96



Şəkil 2. 62 yaşlı qadının sol qara ciyər axacağının eninə kəsiyində limfoid düyüncüklərin cərgəsi (oxla işarələnmiş). Hematoksilin-eozinlə boyama. Böyütmə dərəcəsi X24

Tədqiqatda limfoid düyüncüklərin sayı, sahəsi, uzunluğu, diffuz limfoid toxumanın tərkibindəki limfoid sırası hüceyrələrin yerləşmə sıxlığı (hüceyrələrin 880 mkm2 sahədə olan sayı) müəyyənləşdirilmişdir.

Tərəfimizdən sübut edilmişdir ki, qara ciyərdaxili öd axacaqlarının limfoid törəmələrinin miqdar və ölçüləri fərdi olaraq dəyişir. Yenidoğulmuşlardan başlamış 1-ci yetkinlik yaş dövrünə qədər fərdi minimum və maksimum göstəricilər artır, daha sonra ahıl və qocalıq yaş dövrlərinə doğru azalır (Cədvəl 1).

Bir yaş dövrü daxilində də qara ciyərdaxili öd axacaqlarının limfoid törəmələrinin göstəricilərində əhəmiyyətli fərdi dəyişkənliyin olması tərəfimizdən sübut edilmişdir. R.M.Xaitov və başqalarının (2010) fikrincə bu müxtəlif həyat tərzi, ətraf mühitin antigen təsirləri, orqanizmin fərdi reaktivliyi (o cümlədən allergik reaksiyalar) ilə bağlıdır [13].

Tərəfimizdən qara ciyərdaxili öd axacaqlarının histoloji kəsiklərində limfoid düyüncüklədin və diffuz limfoid toxumanın hüceyrə tərkibi öyrənilmişdir. Müəyyən edilmişdir ki, selikli qişanın və selikaltı əsasda kiçik, orta, iri ölçülü limfositlər, limfablastlar, plazmasitlər, neytrofillər, makrofaqlar, retikulyar, mitoz vəziyyətində olan, degenerativ dəyişilmiş hüceyrələr və digər hüceyrə formaları müşahidə edilir.

Erkən uşaqlıq dövründən başlamış 1-ci yetkinlik dövrünə qədər qara ciyərdaxili öd axacaqlarının divarları üçün hüceyrələrarası birləşmələr - makrofaqal-limfositar və plazmasitar-limfositar komplekslər (makrofaq və plazmatik hüceyrələrin ətrafında olan limfositlər) tipikdir. Digər tədqiqatçılar da belə komplekslərin mövcudluğunu qeyd etmişlər [2,3,4,5]. M.R.Sapinin (2000) məlumatlarına görə bu cür komplekslərin funksional əhəmiyyəti immun cavabın formalaşması üçün zəruri olan limfoid hüceyrələr arasında məlumat

mübadiləsindədir [14].

Qara ciyərdaxili öd axacaqlarının divarlarının histoloji kəsiklərindən istifadə edərək müxtəlif yaşlarda olan insanlarda bu orqanların divarlarında diffuz limfoid toxuma əmələ gətirən müxtəlif növ limfoid hüceyrələrin faizlə miqdarını öyrəndik (Cədvəl 2).

Cədvəl 1
Qara ciyərdaxili öd axacaqlarının limfoid törəmələrinin ölçü-miqdar göstəriciləri

Yaş dövrləri	n	Limfoid düyüncüklərin faizlə miqdarı	Limfoid düyüncüklərin sahəsi (10^{-4} mm^2)	Limfoid düyüncüklərin uzunluğu (mkm)	Limfoid sıra hüceyrələrin yerləşmə sıxlığı
Yenidoğulmuşlar	3	7,5±0,6 4,2-10,4	51,5±1,4 43,2-56,4	67,5±3,5 53,1-87,7	25,8±0,9 22-28
Südəmər yaş dövr	3	8,2±0,6* 6,0-12,2	78,6±1,3* 70,0-82,2	80,1±3,1 83,1-114,5	28,7±1,1 26-37
Erkən uşaqlıq yaş dövrü	3	10,6±0,6* 7,2-13,5	99,3±3,3* 90,2-110,5	131,3+5,4** 115,7-174,8	33,0±1,4* 27-41
1-ci uşaqlıq yaş dövrü	3	15,0±0,9 10,2-19,5	89,7±3,0* 76,2-104,5	126,1 ±.7,0* 106,9-166,3	29,7±1,2* 29-40
2-ci uşaqlıq yaş dövrü	3	19,8±1,4* 12,2-25,7	79,5±2,9* 68.2-95,7	121,1±6,3* 102,2-155,5	28,0±1,1 25-35
Yeniyetmə yaş dövrü	3	42,2±2,9* 30,6-59,5	69,6±2,9 * 54,6-79,5	116,1±4,0** 100,0-140,0	27,0±1,2* 25-35
Gənclik yaş dövrü	3	66,7±3,1* 56,2-87.4	66,8±3,7 56,2-87.4	115,1±3,9* 96,2-135,2	27,0±1,2 25-35
1-ci yetkinlik yaş dövrü	4	79,0±3,9** 47,8-84,2	55,0±3,4 * 47,8-80,2	112,7±4,7** 93,3-124,2	24,9±1,2 * 18-32
2-ci yetkinlik yaş dövrü	5	72,7±3,4* 42,6-76,2	47,7±4,4 32,6-76,2	104,9±2.7* 85,0-122,2	23,7±1,4 20-34
Ahıl yaş dövrü	8	42,1±2,9* 32,6-62,2	42,1±4,2 * 32,6-72,2	95,7±5,5* 50,0-110,2	22,2±1,6 * 20-31
Qocalıq yaş dövrü	8	13,2±1,2 * 6,6-18,8	42,2±2,8 * 32.6-58,8	67,7±4,5* 58,7-94,2	20,3±1,6 * 18-33

Qeyd: Əvvəlki yaş qrupunun göstəriciləri ilə statistik əhəmiyyətli fərq: *– $p < 0,05$, ** – $p < 0,01$

Kiçik ölçülü limfositlərin faizlə miqdarı erkən uşaqlıq yaş dövründə yeniyetmələrlə (1,07 dəfə, $p>0,05$), yetkin insanlarala (1,08 dəfə, $p>0,05$) və qocalarla (1,08 dəfə, $p>0,05$) müqayisədə daha çox olur.

Orta ölçülü limfositlərin faizi yenidoğulmuşlarda maksimum olur (15,2%), erkən uşaqlıq yaş dövründə bu göstərici 1,15 dəfə azalır ($p>0,05$), yeniyetmələrdə dəyişmir, 1-ci yetkinlik yaş dövründə və qocalarda 1,12 dəfə ($p>0,05$) azalır.

Yenidoğulmuşlarla müqayisədə iri ölçülü limfositlərin faizlə miqdarı erkən uşaqlarda 1,46 dəfə ($p<0,01$), yeniyetmələrdə 1,67 dəfə ($p<0,001$), 1-ci yetkinlik yaş dövründə 1,45 dəfə ($p<0,01$), qocalarda 1,25 dəfə ($p<0,05$) artır.

Erkən uşaqlıq dövründə yenidoğulmuşlarla müqayisədə diffuz limfoid toxumasında retikulyar hüceyrələrin faizlə miqdarı 1,26 dəfə azalır ($p<0,05$). Yeniyetmələrdə və 1-ci yetkinlik yaş dövründə bu hüceyrələrin faizlə miqdarı yenidoğulmuşlara uyğun gəlir və sonrakı yaş dövrlərində bir qədər artır.

Yenidoğulmuşlarda, erkən uşaqlıqda, yeniyetmələrdə, 1-ci yetkinlik yaş dövründə limfoblastların faizlə miqdarı eyni səviyyədə qalır, qocalıqda isə 2,0 dəfə azalır ($p<0,001$).

Qaraciyərdaxili öd axacaqların divarlarının diffuz limfoid toxumasında plazma hüceyrələrinin faizlə miqdarı eyni səviyyədə olur.

Diffuz limfoid toxumada neytrofillərin faizlə miqdarı yeniyetmə yaş dövrünə qədər sabitdir (2,0%) və 1-ci yetkinlik yaş dövründən başlayaraq bu göstərici 1,5 ($p>0,05$) dəfə artır.

Makrofaqların faizlə miqdarı yenidoğulmuş uşaqlarla müqayisədə erkən uşaqlıq yaş dövründə və yeniyetmələrdə 2,50 dəfə (p<0,001), 1-ci yetkinlik yaş dövründə - 2,80 dəfə (p<0,001), qocalarda – 5,20 dəfə (p<0,001) artır.

Mitoz əlaməti olan hüceyrələrin faizlə miqdarı yenidoğulmuş uşaqlarla müqayisədə erkən uşaqlıq yaş dövründə 2,33 dəfə (p<0,001), yeniyetmələrdə və 1-ci yetkinlik yaş dövründə 1,66 dəfə (p<0,001), qocalıqda – 1,33 dəfə (p<0,01) artır.

Yenidoğulmuş və erkən uşaqlıq yaş dövrləri ilə müqayisədə degenerativ dəyişilmiş hüceyrələrin faizlə miqdarı yeniyetmələrdə 4,80 dəfə (p<0,001), yetkinliyin 1-ci dövründə 5,60 dəfə (p<0,001), qocalıqda 9,0 dəfə (p<0,001) artır.

Cədvəl 2
Müxtəlif yaşlı insanların qara ciyərdaxili öd axacaqlarının divarlarında diffuz limfoid toxumanın hüceyrə tərkibi

Hüceyrənin forması	Yaş dövrləri, hüceyrələrin miqdarı (%)				
	Yenidoğulmuşlar	Erkən uşaqlıq yaş dövrü	Yeniyetmə yaş dövrü	I yetkinlik yaş dövrü	Qocalıq yaş dövrü
Kiçik ölçülü limfositlər	64,2±0,65 (62-68)	64,6±0,71 (62-68)	60,4±2,12 (52-68)	60,0±4,41 (52-68)	56,3±1,2 (50-62)
Orta ölçülü limfositlər	15,2±0,65 (12-17)	13,2±0,59* (11-16)	13,2±0,64* (11-17)	13,6±0,70 (11-18)	13,6±0,97 (10-19)
İri ölçülü limfositlər	2,4±0,30 (1-4)	3,5±0,30* (1-4)	4,0±0,30 (2-5)	3,5±0,47 (1-6)	3,0±0,47 (1-6)
Retikulyar hüceyrələr	10,2±0,30 (8-11)	8,1±0,30*** (6-9)	10,2±0,43* (8-12)	10,2±0,47 (8-13)	10,4±0,65 (8-14)
Limfablastlar	1,0±0,30 (0-3)	1,0±0,30 (0-3)	1,0±0,30 (0-3)	1,0±0,30 (0-3)	0,5±0,22 (0-2)
Plazmasitlər	1,2±0,30 (0-3)	1,1±0,22 (0-2)	1,2±0,22 (0-2)	1,2±0,22 (0-2)	1,2±0,22 (0-1)
Neytrofillər	2,0±0,22 (1-3)	2,0±0,22 (1-3)	2,0±0,22 (1-3)	3,1±0,3* (1-4)	3,0±0,3 (1-4)
Makrofaqlar	1,0±0,22 (0-2)	1,0±0,22 (0-2)	2,5±0,22*** (1-3)	2,8±0,30 (1-3)	5,2±0,30** (4-7)
Mitoz əlamətli hüceyrələr	1,2±0,22 (0-2)	2,8±0,30*** (2-5)	2,0±0,30 (1-4)	2,0±0,22 (1-3)	1,6±0,30 (1-4)
Degenerativ dəyişilmiş hüceyrələr	0,5±0,13 (0-1)	0,5±0,13 (0-1)	2,4±0,47** (1-5)	2,8±0,30 (1-4)	4,5±0,30** (3-6)

Qeyd: 1. Diffuz limfoid toxumada limfoid hüceyrələrin ümumi miqdarı 100% kimi qəbul edilmişdir. 2. Əvvəlki yaş qrupunun göstəriciləri ilə statistik əhəmiyyətli fərq: * – p<0,05, ** – p <0,01; *** – p0<0,001

Tərəfimizdən qara ciyərdaxili öd axacaqlarının histoloji preparatlarında diffuz limfoid toxumanın hüceyrə tərkibində bəzi cinsi fərqləri müəyyən edilmişdir (cədvəl 3).

Diffuz limfoid toxumanın tərkibindəki kiçik ölçülü limfositlərin faizlə miqdarı qadınlarda kişilərlə müqayisədə yeniyetmələrdə 1,18 dəfə (p>0,05), gənclik və 1-ci yetkinlik yaş dövrlərində 1,21 dəfə (p<0, 05) çox olur.

Orta ölçülü limfositlərin faizlə miqdarı qadınlarda kişilərlə müqayisədə yeniyetmələrdə 1,18 dəfə (p>0,05), gənclik və 1-ci yetkinlik yaş dövrlərində 1,39 dəfə (p<0, 05) çox olur.

Bu limfoid toxumanın tərkibindəki iri ölçülü limfositlərin faizlə miqdarı qadınlarda kişilərlə müqayisədə yeniyetmələrdə 1,35 dəfə (p>0,05), gənclik və 1-ci yetkinlik yaş dövrlərində 4 dəfə (p<0, 05) çox olur.

Plazmasitlərin limfositlərin faizlə miqdarı qadınlarda kişilərlə müqayisədə yeniyetmələrdə, gənclik və 1-ci yetkinlik yaş dövrlərində 1,40 dəfə (p<0, 05) çox olur.

Diffuz limfoid toxumanın tərkibindəki mitoz əlamətli hüceyrələrin faizlə miqdarı qadınlarda kişilərlə müqayisədə yeniyetmələrdə 1,86 dəfə (p>0,05), gənclik və 1-ci yetkinlik yaş dövrlərində 1,71 dəfə (p<0, 05) çox olur.

Degenerativ dəyişilmiş hüceyrələrin faizlə miqdarı qadınlarda kişilərlə müqayisədə yeniyetmələrdə 2,42

dəfə (p>0,001), gənclik və 1-ci yetkinlik yaş dövrlərində 2,11 dəfə (p<0, 001) çox olur.

Beləliklə, yenidoğulmuşlarda, erkən uşaqlıqda və qocalarda cinsi fərqlər müşahidə olunmur. Cinsi fərqlər yeniyetmə, gənclik və 1-ci yetkinlik yaş dövrlərində aşkar edilir.

Qeyd etmək lazımdır ki, reproduktiv yaşda olan qadınlarda kişilərə nisbətən limfoid törəmələrin miqdarının çox olması digər boşluqlu orqanların limfoid aparatını öyrənərkən göstərilmişdir. Belə ki, V.B. Şadlinskiyə və B.M.Huseynova (2010) görə traxeya və əsas bronxların divarlarında limfoid törəmələrin struktur təşkilinin cinsi xüsusiyyətləri yalnız reproduktiv yaşda olan qadınlarda müşahidə olunur. Qadınlarda kişilərlə müqayisədə iri və kiçik ölçülü limfositlərin, mitoz əlamətli və plazmatik hüceyrələrin faizlə miqdarı çox, lakin orta ölçülü limfositlərin və degenerativ dəyişilmiş hüceyrələrin sayı isə az olur [1].

Cədvəl 3

Müxtəlif yaşlı insanların qara ciyərdaxili öd axacaqlarının divarlarında diffuz limfoid toxumasnın hüceyrə tərkibinin (hüceyrələrin faizlə miqdarının) cinsi xüsusiyyətləri

Hüceyrənin forması	Cins	Yaş dövrləri, hüceyrələrin miqdarı (%-lə)					
		Yenidoğulmuşlar	Erkən uşaqlıq yaş dövrü	Yeniyetmə yaş dövrü	Gənclik yaş dövrü	1-ci yetkinlik yaş dövrü	Qocalıq yaş dövrü
Kiçik ölçülü limfositlər	Kişi	64,0±1,10 (62-66)	63,6±1,68 (62-68)	55,4±1,68 (52-58)	54,4±1,10 (52-56)	54,4±1,10 (52-56)	56,2±2,52 (51-60)
	Qadın	64,4±1,68 (62-68)	64,6±1,10 (62-66)	65,4±1,68** (62-68)	65,6±1,40*** (63-68)	65,6±2,52* (63-68)	56,2±2,52 (53-56)
Orta ölçülü limfositlər	Kişi	15,0±1,40 (11-16)	13,2±1,10 (11-15)	14,4±1,40 (13-17)	14,7±1,40 (13-18)	15,8±1,40 (14-19)	13,8±1,68 (11-17)
	Qadın	15,4±1,40 (12-17)	13,2±1,40 (11-16)	12,2±0,84 (11-14)	12,5±1,40 (11-15)	11,4±1,10* (10-14)	13,8±2,24 (10-18)
İri ölçülü limfositlər	Kişi	2,2±0,56 (1-3)	3,3±0,56 (2-4)	3,4±0,28 (3-4)	1,4±0,28 (1-3)	1,4±0,28 (1-3)	3,0±1,40 (1-6)
	Qadın	2,6±0,56 (2-4)	3,5±0,84 (1-4)	4,6±0,28 (4-5)*	5,6±0,28*** (5-6)	5,6±0,28* (5-6)	3,0±0,84 (2-5)
Plazmasitlər	Kişi	1,2±0,84 (0-3)	1,0±0,56 (0-2)	1,0±0,56 (0-2)	1,0±0,56 (0-2)	1,0±0,56 (0-2)	1,0±0,56 (0-2)
	Qadın	1,2±0,84 (0-3)	1,3±0,56 (0-2)	1,4±0,28 (1-2)	1,4±0,28 (1-2)	1,4±0,28 (1-2)	1,2±0,56 (0-2)
Mitoz əlamətli hüceyrələr	Kişi	1,2±0,28 (0-2)	2,8±0,56 (2-4)	1,4±0,56 (1-3)	1,4±0,56 (1-3)	1,4±0,56 (1-3)	1,7±0,84 (1-4)
	Qadın	1,2±0,28 (0-2)	2,8±0,56 (1-4)	2,6±0,56 (2-4)	2,6±0,56 (2-4)	2,4±0,56 (2-4)	1,4±0,84 (1-4)
Degenerativ dəyişilmiş hüceyrələr	Kişi	0,5±0,28 (0-1)	0,5±0,28 (0-1)	3,4±0,56 (3-5)	3,8±0,28 (3-4)	3,8±0,28 (3-4)	4,5±0,28 (3-5)
	Qadın	0,5±0,28 (0-1)	0,5±0,28 (0-1)	1,4±0,28* (1-2)	1,8±0,28** (1-3)	1,8±0,28*** (1-3)	4,5±0,84 (3-6)

Qeyd: Əvvəlki yaş qrupunun göstəricilərilə statistik əhəmiyyətli fərq: *– p<0,05, ** – p <0,01; ***–p<0,001

F. Mauvais-Jarvis və başqalarının (2013) fikrincə estrogen cinsi yetkinlik dövründə ən vacib hormonlardan biridir və cinsi fərqlilik üçün vacibdir. Estrogenlər immunoloji reaksiyaların modulyasiyasına təsir edir ki, bu da retikuloendotelial sistemin aktivləşməsinə səbəb olur. Yetkin yaşlı qadının orqanizmində estrogen immuntənzim mexanizmləri daha qabarıq şəkildə özünü göstərir. Bu tənzimə cavabdeh olan kompleks mexanizmlər limfoid hüceyrələrlə, eləcə də qeyri-limfoid toxumalarla birbaşa kimyəvi qarşılıqlı təsir nəticəsində baş verir [15].

Beləliklə, qara ciyərdaxili öd axacaqlarının divarlarında limfoid törəmələr əsasən limfoid düyüncüklər və diffuz limfoid toxuma ilə təmsil olunur. Bu orqanların limfoid törəmələrinin miqdar və ölçülərinin fərdi minimum və maksimum göstəriciləri yenidoğulmuşlardan başlamış 1-ci yetkinlik yaş dövrünə qədər artır, daha

sonra ahıl və qocalıq yaş dövrlərinə doğru azalır. Tərəfimizdən yeniyetmə, gənclik və 1-ci yetkinlik yaş dövrlərində qara ciyərdaxili öd axacaqlarının diffuz limfoid toxumasının hüceyrə tərkibində bəzi cinsi fərqləri müəyyən edilmişdir. Yenidoğulmuşlarda, erkən uşaqlıqda və qocalarda cinsi fərqlər müşahidə olunmur.

ƏDƏBİYYAT

1. Шадлински В.Б., Гусейнов Б.М. Половые особенности лимфоидных образований трахеи и главных человека в разных возрастных группах // Саратовский научно-медицин-ский журнал, 2010, №1, с. 28-31.
2. Шадлинская С.В. Макромикроскопическая анатомия, закономерности морфогенеза малых желёз и лимфоидных образований преддверия влагалища в постнатальном онтогенезе человека и в эксперимент: автореферат дисс. Докт.мед. наук. Баку, 2021, 61 с.
3. Аллахвердиев М.К. Структурно-функциональная характеристика и закономерности морфогенеза железистого и лимфоидного аппаратов внепеченочных желчевыводящих путей человека в постнатальном онтогенезе: / автореферат дисс. Канд. Мед. наук. Баку, 2007, 40 с.
4. Гусейнова Г.А. Структурно-функциональная характеристика и особенности морфогенеза желез и лимфоидных образований мочевого пузыря в постнатальном онтогенезе в норме и в эксперименте: автореферат дисс. доктора медицинских наук. Баку, 2013, 40с.
5. Гасымова, Т.М. Структурная характеристика желез и лимфоидных образований глотки человека в постнатальном онтогенезе и в эксперименте: автореферат дисс. канд.мед. наук. Баку, 2015, 24с.
6. Сеидова, З.Р. Лимфоидным аппарат гортани крыс при воздействии водных процедур с разным солевым составом: / автореферат дисс. кандидата медицинских наук. Баку, 2001, 23 с.
7. Гусейнов Т.С., Гусейнов С.Т. Анатомия лимфатического русла тонкой кишки при дегидротации и коррекции перфтораном // Медицинский вестник Северного Кавказа, 2012. №2, с. 15-18.
8. Аршавский, И.А. Основы возрастной периодизации. Ленинград: Наука, 1975, с.65-67.
9. Волкова О.В., Елецкий Ю.К. Основы гистологии с гистологической техникой. Москва: Медицина, 1982, 304 с.
10. Hellman T. Studien uber das lymphoid Gewebe // Beit.Path.Anat.All. Pathol., 1921, v.68. p.333-363
11. Qafarov İ.A. Biostatistika. Bakı, 2021, 238 s.
12. Daridon C., Loddenkemper C., Spieckermann S. et al. Splenic proliferative lymphoid nodules distinct from germinal centers are sites of autoantigen stimulation in immune thrombocytopenia // Blood. 2012, v.120(25), p. 5021-5031.
13. Хаитов Р.М., Игнатьева Г.А., Сидорович И.Г. Структура и функции иммунной системы. Москва: Медицина, 2010, 432 с.
14. Сапин М.Р., Никитюк Д.Б. Иммунная система, стресс и иммунодефицит. Элиста: Джангар, 2000, 184 с.
15. Mauvais-Jarvis, F., Clegg, D., Hevener, A. The role of estrogens in control of energy balance and glucose homeostasis // Endocrine Reviews, 2013, v.34(3), p. 309-338.

Резюме

Результаты исследования структурных, половых особенностей и индивидуальной изменчивости лимфоидных образований внутрипеченочных желчных протоков человека в норме

Н.Г. Алиева

Цель исследования - получить морфологические данные о макромикроскопическом строении, половых признаках и индивидуальной изменчивости лимфоидных структур внутрипеченочных желчных протоков человека в норме. Для достижения этой цели лимфоидные структуры внутрипеченочных желчных протоков, взятые у 46 трупов людей разного возраста, от новорожденных до старческого возраста, окрашивали гематоксилин-эозином и гематоксилин-пикрофуксином по методам Ван Гисона и Вейгерта. Лимфоидные узелки на тотальных препаратах исследовали по методу Хелмана Т. Установлено, что лимфоидные образования в стенках внутрипеченочных желчных протоков представлены преимущественно лимфоидными узелками и диффузной лимфоидной тканью. Индивидуальные минимальные и максимальные показатели количества и размеров лимфоидных производных этих органов увеличиваются от новорожденных к 1-му периоду зрелого возраста, а затем снижаются к пожилому и старческому возрастным периодам. Установлены некоторые гендерные

различия клеточного состава диффузной лимфоидной ткани внутрипеченочных желчных протоков в подростковом, юношеском и 1-м периоде зрелого возраста. Половые различия не наблюдаются у новорожденных, детей раннего возраста и пожилых людей.

Summary

Results of the study of the structural, sexual characteristics and individual variability of lymphoid formations of the intrahepatic bile ducts of humans in normal conditions

N.H. Aliyeva

The purpose of the study is to obtain morphological data on the macromicroscopic structure, gender characteristics and individual variability of the lymphoid structures of the normal human intrahepatic bile ducts. To achieve this goal, the lymphoid structures of the intrahepatic bile ducts, taken from 46 corpses of people of different ages, from newborns to old age, were stained with hematoxylin-eosin and hematoxylin-picrofuchsin according to the methods of Van Gieson and Weigert. Lymphoid nodules on whole preparations were examined using the method by T. Helman. It was established that lymphoid formations in the walls of the intrahepatic bile ducts were represented predominantly by lymphoid nodules and diffuse lymphoid tissue. Individual minimum and maximum indicators of the number and size of lymphoid derivatives of these organs increase from newborns to the 1st period of adulthood, and then decrease towards the elderly and senile age periods. Some gender differences in the cellular composition of the diffuse lymphoid tissue of the intrahepatic bile ducts in juvenile, adolescence and 1st period of adulthood have been established. Sex differences are not observed in newborns, young children and the elderly.

Daxil olub: 12.01.2024

Plevro-pulmonar patologiyalar zamanı rentgenoloji və USM üsullarının kappa əmsalı üzrə uyğunluq göstəriciləri

N.F.Xanəliyeva
K.Fərəcyeva adına Elmi-Tədqiqat Pediatriya İnstitutu, Bakı

Açar sözlər: ağciyər ultrasəsi, rentgenoqrafiya, USM artefaktları, Kappa əmsalı
Ключевые слова: ультразвуковое исследование легких, рентгенография, УЗИ-артефакты, коэффициент Каппа
Keywords: lung ultrasound, radiography, ultrasound artifacts, Kappa coefficient

Azərbaycan Respublikasının səhiyyəsinin prioritet istiqamətlərindən olan səhiyyənin inkişafı və əhaliyə göstərilən tibbi xidmətin keyfiyyətinin yüksəldilməsi hər zaman aktual olaraq qalır [1, s. 3]. Erkən yaşlı uşaqlarda tənəffüs orqanlarının anatomik-fizioloji quruluşu, ümumi və yerli immun sistemin zəifliyi, spesifik və qeyri-spesifik müdafiə amillərinin kifayət qədər formalaşmaması və s. onlarda tez-tez respirator xəstəliklərə səbəb olur [2].

Tənəffüs sistemi xəstəlikləri arasında aparıcı mövqe bakterial infeksiya ilə çətinləşən kəskin respirator virus infeksiyalarına verilir. Müəyyən edilmişdir ki, tez-tez kəskin respirator infeksiyalardan əziyyət çəkən uşaqlar yuxarı və aşağı tənəffüs yollarının bakterial xəstəliklərinin inkişafı riski altındadır.

Bir yaşa qədər uşaqlar arasında ən geniş yayılmış tanaffüs yolları patologiyaları arasında brinxial-ağciyər displazasiyası da geniş yayılmış, ilk növbədə ağciyərlərin inkişafdan qalması və iltihablaşması ilə əlaqədar olur. Anadangəlmə ağciyər qüsurları ağciyər parenximasının, tənəffüs yollarının və damar sisteminin malformasiyalarını əhatə edən inkişaf anomaliyalarının spektrini özündə birləşdirir. Vizualizasiya zamanı alına nəticələrin qiymətləndirilməsi uşaqlarda anadangəlmə ağciyər qüsurlarının ilkin diaqnostikasında, müalicəsində və sonrakı qiymətləndirilməsində əsas rol oynayır [3].

Döş qəfəsinin rentgenoqrafiyası uşaq və yeniyetmələrdə daha geniş yayılmış şüa diaqnostika metodudur. Döş qəfəsinin rentgenoqrafiyasının diaqnostik dəyəri kompüter tomoqrafiyası və ya MRT ilə müqayisədə aşağı olsa da, geniş yayılması və icrasının asan olması baxımından döş qəfəsinin rentgenoqrafiyası hələ də uşaqlar və yeniyetmələr üçün yüksək dəyərə malikdir [4].

Pnevmoniya uşaqların ölümünün əsas səbəblərindən hesab edilir. Diaqnostik vasitələrə döş qəfəsinin rentgenoqrafiyası daxildir, lakin mövcud təlimatlar diaqnostik üsul kimi ağciyər ultrasəsinin (PLUS) istifadəsini tövsiyə etmir. Lakin bu məsələnin həllinə diar tədqiqatlar aparılmışdır [5]. Döş qəfəsinin ultrasəsi müyinəsi sürətli müayinə üsulu olub, yüksək mənfi proqnozlaşdırıcı dəyərinə görə, uşaqlarda ağciyər qalınlaşmasını istisna etmək üçün rentgen şüalarını əvəz edə bilər və bununla da bu populyasiyada radiasiyaya məruz qalması imkanını azaldır [6].

Bir yaşa qədər uşaqlarda döş qəfəsi orqanlarının vəziyyəti barəsində əlavə informasiya qismində qeyri-invaziv müayinə metodunun istifadə edilməsi tənəffüs orqanları xəstəliklərinin diaqnostikasının effektivliyini artırır [7].

Beləliklə, aparılan araşdırmalardan məlum olur ki, bir yaşa qədər uşaqlarda plevro-pulmonar patologiyalar zamanı ultrasəs və rentgenoloji diaqnostikanın effektivliyinin tədqiq edilməsi və müqayisəli aspektdə dəyərləndirilməsi elmi-praktik baxımdan böyük əhəmiyyət kəsb edir. Bu baxımdan tədqiqatların aparılması, alınan nəticələrin statistik dəyərləndirilməsi və şərh edilməsi müasir pediatrik tibbin qarşısından duran zəruri məsələlərdəndir.

Tədqiqatın məqsədi plevro-pulmonar patologiyaları olan 1 yaşa qədərki pasiyentlərin plevra, diafraqma və ağciyərlərinin vəziyyətinə dair rentgenoloji və USM üsullarının Kappa əmsalı üzrə uyğunluğunun müəyyən edilməsindən ibarətdir.

Tədqiqatın material və metodları. Tədqiqatın mərhələləri plevro-pulmonar patologiyası olan körpələrdə ümumilikdə və müxtəlif parametrlət üzrə qruplaşmalar yaratmaqla döş qəfəsinin rentgenoloji müayinəsi və USM-i ilə pnevmoniya hallarının aşkar edilməsi baxımında kappa əmsalı göstəricilərinin müəyyən edilməsinə həsr edilmişdir. Tədqiqat zamanı ümumilikdə döş qəfəsində radioloji müayinəsi 600 halda aparılmışdır. Əslində bu üsulun ilk ibtidai variantı 1892-ci ildə Francis Galton tərəfindən təşkil edilsə də, müasir variantının əsası 1960-cı ildə "Educational and Psychological Measurement" jurnalında çap olunmaqla Jacob Cohen tərəfindən qoyulmuşdur. Kohenin kappa əmsalı hər biri N ədəd amili C ədəd biri-birindən fərqli kateqoriyaya ayıran iki qiymətləndirici arasında olan uyğunluğu müəyyənləşdirir. Bu zaman əldə edilən kateqorik dəyişən

olduğundan bu əmsal qeyri-parametrik statistik metoddur. Əgər tədqiqat zamanı iki qiymətləndirici arasında müqayisə aparılırsa Kohenin kappa əmsalından istifadə edilir, qiymətləndirici sayı ikidən artıqdırsa Fleis-in kappa əmsalından istifadə edilməlidir.

Əmsalın formulunu aşağıdakı kimi ifadə etmək olar:

κ=(Pr(a)-Pr(e))/(1-Pr(e))

-burada κ-Kohenin kappa əmsalı, Pr(a) iki qiymətləndirici üçün müşahidə edilən uyğunluqların cəm nisbəti, Pr(e)-bu uyğunluğun təsadüflər üzrə meydanagəlmə ehtimalıdır. Nəticələr ilkin olaraq, aşağıdakı kimi qiymətləndirilə bilər:

κ=1 – iki qiymətləndirici tamamilə biri-birinə uyğundur,

κ=0 – iki qiyməndirici üçün uyğunluq yalnızca təsadüfə əsaslanır və digər hallarda onlar arasında uyğunluq yoxdur.

Tədqiqatın nətcələri. Tədqiqat zamanı plevro-pulmonar patologiyası olan uşaqlarda ümumilikdə 600 halda rentgenoloji və USM üsulu həyata keçirilmişdir. Bu zaman ümumilikdə rentgenoloji və USM üsulu ilə 381 halda yaxud ümumi halların 63,5%-də atelektaza görə müayinələr aparılmışdır. Bu zaman 219 halda yaxud ümumi halların 36,5%-də atelektaza görə müayinə aparılmamışdır. Bu zaman hər iki radioloji müayinə üsulu ilə əldə edilmiş nəticələri ehtiva edən cədvəlləri qarşılaşdırdıqda kappa əmsalı göstəricisi 381 müayinə üçün 0,858 müəyyənləşdirilmişdir ki, bu da J.R. Landis və G.G. Koch κ-Kohenin kappa əmsalının nəticələri cədvəlinə görə iki radioloji üsulun qiymətləndirmə baxımından uyğunluğunun yüksək səviyyədə olduğunu göstərir. Bu hal üçün standart xəta 0,032 hesablanmışdır. Tədqiqatın atelektazın müəyyənləşdirildiyi mərhələsində müxtəlif qruplaşmalar da aparılmaqla kappa əmsalı göstəriciləri müəyyənləşdirilmişdir (Cədvəl 1,2,3).

Cədvəl 1
Atelektaz hallarının müəyyənləşdirilməsində rentgenoloji və USM üsullarının Kappa əmsalı üzrə nəticələri

Rentgen-atelektaz - USM-atelektaz	**Ümumilikdə atelektaz halları**					
	Atelektaza görə		Digər səbəblərdən		Cəmi	
	Müt.r.	%	Müt.r.	%	Müt.r.	%
	381	63,5	219	36,5	600	100,0

Cədvəl 2
Rentgen-atelektaz USM-atelektaz parametrlərinin qarşılıqlı müqayisəsi

			USM-atelektaz			
			Aşkar edilmədi	1-tərəfli	2-tərəfli	Ümumi
Rentgen-atelektaz	Aşkar edilmədi	Say	286	18	0	304
		Rentgen-atelektaz, %	94,1	5,9	0,0	100,0%
		USM-atelektaz, %	99,7	19,4	0,0	79,8%
	1-tərəfli	Say	1	75	0	76
		Rentgen-atelektaz, %	1,3	98,7	0,0	100,0%
		USM-atelektaz, %	0,3	80,6	0,0	19,9%
	2-tərəfli	Say	0	0	1	1
		Rentgen-atelektaz, %	0,0	0,0	100,0	100,0%
		USM-atelektaz, %	0,0	0,0	100,0	0,3%
Ümumi		Say	287	93	1	381
		Rentgen-atelektaz, %	75,3	24,4	0,3	100,0
		USM-atelektaz, %	100,0	100,0	100,0	100,0

İlk mərhələ olaraq, ümumi müayinələr aparılmış pasiyentlərdən yalnızca yenidoğulmuşlar arasında uyğun əmsal üzrə hesablamalar aparılmışdır. Bu zaman 600 ümumi aparılmış müayinədən 420-si yenidoğulmuşlarda aparılmışdır ki, onlardan da 291-i atelektaza görə aparılmışdır ki, bu da ümumi yenidoğulmuşlarda aparılmış müayinələrin 69,3%-ni əhatə etmişdir. Bu zaman yenidoğulmuşlarda rentgenoloji və USM üsulu ilə atelektazın aşkar edilməsi cədvəllərini kappa əmsalı üzrə qarşılaşdırılması nəticəsində onun göstəricisi 0,880

hesablanmışdır, standart xəta 0,032 müəyyənləşdirilmişdir (Cədvəl 4,5,6). Buradan əldə edilən κ=0,880 J. R. Landis və G. G. Koch κ-Kohenin kappa əmsalının nəticələri cədvəlinə görə iki radioloji üsulun qiymətləndirmə baxımından uyğunluğunun yüksək səviyyədə olduğunun göstəricisi intervalına aiddir.

Cədvəl 3
Simmetrik ölçmələrin nəticələri

Simmetrik ölçmələr					
		Göstəricilər	Standart xəta	T	Əhəmiyyət
Uyğunluq ölçüsü	Kappa	0,858	0,032	17,070	0,000
N Atelektaza görə hallar		381			

Cədvəl 4
Atelektazın aşkar edilməsində kappa əmsalının nəticələri cədvəlinə görə iki radioloji üsulun qiymətləndirmə baxımından uyğunluğu

Yenidoğulmuşlar üzrə qruplaşdırılma zamanı						
	Hallar					
	Atelektaza görə		Digər səbəblərdən		Ümumilikdə	
	Müt.r.	%	Müt.r.	%	Müt.r.	%
Rentgen-atelektaz * USM-atelektaz	291	69,3	129	30,7	420	100,0

Cədvəl 5
Rentgen-atelektaz USM-atelektaz parametrlərinin qarşılıqlı müqayisəsi

			USM-atelektaz		Cəmi
			Aşkar edilmədi	1-tərəfli	
Rentgen-atelektaz	Aşkar edilmədi	Say	213	12	225
		Rentgen-atelektaz,%	94,7	5,3	100,0
		USM-atelektaz, %	99,5	15,6	77,3
	1-tərəfli	Say	1	65	66
		Rentgen-atelektaz, %	1,5	98,5	100,0
		USM-atelektaz, %	0,5	84,4	22,7
Ümumi		Say	214	77	291
		Rentgen-atelektaz, %	73,5%	26,5	100,0
		USM-atelektaz, %	100,0%	100,0	100,0

Cədvəl 6
Simmetrik ölçmələrin nəticələri

Simmetrik ölçmələr					
		Göstəricilər	Standart xəta	T	Əhəmiyyət
Uyğunluq ölçüsü	Kappa	0,880	0,032	15,085	0,000
N Atelektaza görə hallar		291			

Tədqiqatın növbəti mərhələsində rentgenoloji və USM müayinəsi apardığımız pasiyentlərdən südəmər dövrdə olan tədqiqat obyektlərində atelektaz halının adı çəkilən radioloji üsullarla aşkarlanması üzrə kappa əmsalı göstəricisi öyrənilmişdir. Belə ki, uyğun mərhələdə ümumilikdə 180 halda südəmər körpələrdə radioloji müayinələr həyata keçirilmişdir ki, onlardan 90-da müayinə atelektaza görə olmuşdur və bu ümumi südəmər körpələrin 50%-dir. Südəmər dövrdə döş qəfəsinin rentgenoqrafiyası və USM-i ilə atelektaz hallarının aşkarlanması üzrə cədvəlləri qarşılaşdırdıqda və nəticələri kappa əmsalı formuluna daxil etdikdə əmsalı qiymətinin 0,751 olduğu ortaya çıxır ki, bu da ümumi və yenidoğulmuşlar üzrə əldə etdiyimiz anoloji göstərici kimi . R. Landis və G. G. Koch-un cədvəlində yüksək uyğunluq intervalına deyil, uyğunluğun əhəmiyyətli

dərəcədə olduğu intervala müvafiq olmuşdur. Bu zaman körpələrə görə kappa əmsalının ortalama göstəricisinin standart xəta göstəricisi 0,095 hesablanmışdır.

Plevro-pulmonar patologiyası olan uşaqlarda döş qəfəsinin rentgenoqrafiyası və USM-nin müxtəlif patologiyaların qiymətləndirilməsinin kappa əmsalı ilə müqayisəsini təşkil edən tədqiqatın növbəti mərhələrində pasiyentlərin müxtəlif kombinasiyalarda qruplaşdırılması ilə ***plevrit*** halları üzrə hesablamalar aparılmışdır. İlk mərhələdə ümumi olaraq yuxarıda adı çəkilən radioloji müayinələrə cəlb edilmiş kontingent üzrə iki üsulun arasındakı kappa əmsalı müəyyən edilmişdir ki, bu zaman ümumən 600 dəfə döş qəfəsinin radioloji müayinəsi həyata keçirilmişdir ki, onlardan 381-də plevrit halları üzrə müayinələr həyata keçirilmişdir və bu ümumi hallar üzrə 63,5% anlamına gəlir (Cədvəl 7,8,9). Daha sonra kappa əmsalının müəyyənləşdirilməsi qaydalarına uyğun olaraq döş qəfəsinin rentgenoloji müayinəsi və USM ilə plevrit hallarının aşkar olunmasını göstərən cədvəllərin qarşılaşdırılması aparılmışdır və nəticədə kappa əmsalının 0,720 olduğu ortaya çıxmışdır ki, bu göstərici R. Landis və G. G. Koch-un cədvəlində "uyğunluq əhəmiyyətli dərəcədədir" intervalına aiddir. Bu zaman standart xəta 0,060 hesablanmışdır.

Cədvəl 7
Kappa əmsalının müəyyənləşdirilməsi qaydalarına uyğun olaraq döş qəfəsinin rentgenoloji müayinəsi və USM ilə plevrit hallarının aşkar olunması

Ümumilikdə plevrit hallarına görə						
	Hallar					
	Plevritə görə		Digər səbəblərdən		Ümumilikdə	
	Müt.r.	%	Müt.r.	%	Müt.r.	%
Rentgen-plevrit * USM-plevrit	381	63,5	219	36,5	600	100,0

Cədvəl 8
Rentgen-atelektaz USM-atelektaz parametrlərinin qarşılıqlı müqayisəsi

			USM-plevrit		Cəmi
			Aşkar edilmədi	1-tərəfli	
Rentgen-plevrit	Aşkar edilmədi	Say	334	17	351
		Rentgen-plevrit, %	95,2	4,8	100,
		USM-plevrit, %	99,4	37,8	92,1
	1-tərəfli	Say	2	28	30
		Rentgen-plevrit, %	6,7	93,3	100,
		USM-plevrit, %	0,6	62,2	7,
Cəmi		Say	336	45	381
		Rentgen-plevrit, %	88,2	11,8	100,0
		USM-plevrit, %	100,0	100,0	100,0

Cədvəl 9
Simmetrik ölçmələrin nəticələri

		Göstəricilər	Standart xəta	T	Əhəmiyyət
Uyğunluq ölçüsü	Kappa	0,720	0,060	14,414	0,000
N plevritə görə hallar		381			

Tədqiqatın plevrit hallarının döş qəfəsinin rentgenoloji müayinəsi və USM-lə aşkar edilməsinin kappa əmsalının müəyyənləşdirilməsinin növbəti mərhələsində uyğun əmsal yalnızca yenidoğulmuş körpələrdən ibarət altqrupda həyata keçirilmişdir. Bu zaman ümumilikdə 420 halda yenidoğulmuş hesab edilən körpədə döş qəfəsinin radioloji müayinəsi aparılmışdır ki, bu hallardan 291-də müayinələr plevritə görə həyata keçirilmişdir və bu ümumi halların 69,3%-dir (cədvəl 10,11,12). Tədqiqat zamanı yenidoğulmuş körpələrdə aparılmış döş qəfəsinin rentgenoloji müayinə və USM-i ilə izlənilmiş plevrit hallarını ehtiva edən cədvəllərin qarşılaşdırılması ilə verilənlərin Windows 8 sistem proqramının Excell ofis tətbiq proqramına daxil edilmiş kappa əmsalı formulunun alqoritmi üzrə daxil edilməsilə iki üsul arasındakı uyğunluq 0,642 müəyyən

edilmişdir ki, bu da R. Landis və G. G. Koch-un əmsalın uyğunluq dərəcəsinin interpretasiya cədvəlindəki "əhəmiyyətli dərəcədə uyğuluq var" intervalının aşağı hüduduna yaxındır. Yenidoğulmuşlar üzrə yuxarıda göstərilən iki üsulun arasındakı kappa əmsalının hesablanması zamanıl orta xəta 0,088 hesablanmışdır.

Cədvəl 10
Yenidoğulmuşlar üzrə plevritə görə tədbiq edilən radioloji üsullar arasındakı kappa əmsalının hesablanması

Yenidoğulmuşlar üzrə qruplaşdırılma zamanı						
	Hallar					
	Plevritə görə		Digər səbəblərdən		Cəmi	
	Müt.r.	%	Müt.r.	%	Müt.r.	%
Rentgen-plevrit * USM-plevrit	291	69,3	129	30,7	420	100,0

Cədvəl 11
Rentgen-atelektaz USM-atelektaz parametrlərinin qarşılıqlı müqayisəsi

			USM-plevrit		
			Aşkar edilmədi	1-tərəfli	Cəmi
Rentgen-plevrit	Aşkar edilmədi	Say	263	12	275
		Rentgen-plevrit, %	95,6	4,4	100,0%
		USM-plevrit, %	99,2	46,2	94,5%
	1-tərəfli	Say	2	14	16
		Rentgen-plevrit, %	12,5	87,5	100,0%
		USM-plevrit, %	0,8	53,8	5,5%
Ümumi		Say	265	26	291
		Rentgen-plevrit, %	91,1	8,9	100,0
		USM-plevrit, %	100,0	100,0	100,0

Cədvəl 12
Simmetrik ölçmələrin nəticələri

Simmetrik ölçmələr					
		Göstəricilər	Standart xəta	T	Əhəmiyyət
Uyğunluq ölçüsü	Kappa	0,642	0,088	11,333	0,000
N plevritə görə hallar		291			

Tədqiqatın növbəti mərhələsində isə südəmər dövrdə olan və döş qəfəsinin rentgenoloji müayinəsi və USM-i aparılmış körpələr qruplaşdırılmışdır ki, bu qrup pasiyentlərdə plevritin aşkar etmə baxımından iki radioloji üsulun kappa əmsalı müəyyənləşdirilmişdir. Bu zaman ümumilikdə 180 südəmər pasiyentdə döş qəfəsinin rentgenoloji müayinəsi və USM-i aparılmışdır ki, onlardan da 90-da yaxud onların 50%-də məhz plevrit halının müəyyənləşdirilməsi üçün iş aparılmışdır. Kappa əmsalı göstəricisinin müəyyənləşdirilməsi məqsədilə ilk olaraq, döş qəfəsinin rentgenoloji müayinəsi və USM-lə südəmər uşaqlarda aşkar edilməsini göstərən cədvəllərin qarşılaşdırılması aparılmaqla Excell proqramına verilənlər daxil edilmişdir və nəticədə iki üsulun südəmər körpələrdə plevritin aşkar edilməsi üzrə kappa əmsalı 0,815 hesablanmışdır və bu R. Landis və G. G. Koch-un əmsalın uyğunluq dərəcəsinin interpretasiya cədvəlinə görə "yüksək uyğunluq dərəcəsi" intervalına aid olmuşdur, standart xəta isə 0,079 müəyyənləşdirilmişdir.

Tədqiqatın döş qəfəsinin rentgenoloji və USM ilə müayinəsi zamanı diafraqma yırtığı hallarının aşkar edilməsi arasında kappa əmsalı göstəricilərini müəyyənləşdirdiyimiz mərhələlərində həm ümumilikdə, o cümlədən də həm yenidoğulmuşlardan, həm südəmər dövrdə olan, həm yenidoğulmuş+tam doğulmuş, həm yenidoğulmuş+natamam doğulmuş, həm südəmər dövrdə olan+vaxtilə tam doğulmuş və həm də südəmər dövrdə olan+vaxtilə natamam doğulmuş kimi qruplaşmalar yaratdıqda hər bir hal üçün kappa əmsalı iki

radioloji üsul arasında 1,000 hesablanmışdır ki, bu da diafraqma yırtığı hallarının digər patoloji hallarla müqayisədə həm rentgenoloji, həm də USM üsulu ilə diaqnostikasının çox asan olması ilə əlaqədardır.

Tədqiqatın növbəti mərhələsində südəmər dövrdə olan və vaxtilə tam doğulmuş körpələrdən ibarət qruplaşmada döş qəfəsinin rentgenoloji müayinəsi və USM-lə pnevmoniya hallarının aşkar edilməsinin kappa əmsalı göstəricisi müəyyənləşdirilmişdir. Qeyd edək ki, müvafiq qruplaşma üzrə ümumilikdə 147 körpədə döş qəfəsinin radioloji müayinəsi həyata keçirilmişdir və bu zaman onlardan 73 nəfərində yaxud onların 49,7%-də müayinələr sırf pnevmoniyanın diaqnostikası istiqamətində aparılmışdır. Bu qruplaşma üzrə döş qəfəsinin retgenoqrafiyası və USM üzrə pnevmoniya hallarının aşkarlanmnası hallarını ehtiva edən cədvəlləri qarşılaşdırdıqda kappa əmsalı 0,937 müəyyənləşdirilmişdir ki, bu da R. Landis -G. G. Koch-un əmsalın uyğunluq dərəcəsinin interpretasiya cədvəlinə görə iki üsul arasında yüksək uyğunluğu göstərən intervala müvafiqdir.

Tədqiqatın plevro-pulmonar patologiyası olan körpələrdə döş qəfəsinin rentgenoloji müayinəsi və USM-in pnevmoniya hallarının müəyyənləşdirilməsi baxımdan kappa əmsalını müəyyənləşdiimiz mərhələrindən sonuncusunda ümumi pasiyentlərdən vaxtilə natamam doğulmuş südəmər körpələr ayrılmışdır və onlarda anoloji göstərici öyrənilmişdir. Bu zaman qeyd edilən qrup körpələrdə ümumilikdə 33 halda döş qəfəsinin radioloji müayinəsi aparılmışdır ki, onlardan 17-si pnevmoniya ilə əlaqədar olmuşdur və bu ümumi halların 51,5%-dir. Uyğun mərhələdə rentgenoloji və USM ilə pnevmoniyanın aşkar edilməsi halları qeyd edilmiş cədvəlləri qarşılaşdırmaqla verilənləri kappa əmsalı formuluna daxil etdikdə pnevmoniyanın aşkar edilməsi baxımından iki radioloji üsul arasındakı kappa əmsalı göstəricisi 1,00 təşkil etmişdir və bu maksimal haldır.

Nəticə. Kappa əmsalının tədbiqi nəticəsində rentgenoloji və USM üsulları arasında demək olar ki bütün hallarda tam uyğunluq qeydə alınmışdır və nətcədə USM üsulu rentgenoloji üsullarla kombinasiya olunmuş yaxud da müstəql şəkildə plevro-pulmonar patologiyası olan uşaqlarda atelektaz, diafraqmal yırtıq, plevrit və pnevmoniya kimi halların diaqnostikasında istifadə edilə bilər.

ƏDƏBİYYAT

1. Məmmədova, A.Ə. Bətndaxili infeksiya ilə doğulan uşaqların erkən yaşda sağlamlığının kompleks qiymətləndirilməsi: tibb üzrə fəlsəfə doktoru dis. avtoreferatı. Bakı, 2022, 32 s.

2. Həsənov Ə.Q., Hüseynova İ.Y. Uşaqlarda tənəffüs yolları xəstəliklərində sitokinlərin təzahürlərinin əhəmiyyəti // Azərbaycan Perinatologiya və Pediatriya Jurnalı, 2021, № 1, s. 49-54.

3. Tivnan P., Winant M. Epelman A.J. et al. Pediatric Congenital Lung Malformations: Imaging Guidelines and Recommendations // Radiologic Clinics of North America | Journal, 2022, 60 (1), p. 41-54.

4. Renz D.M., Huisinga C., Pfeil A. [et al.] Röntgenuntersuchungen des Thorax bei Kindern und Jugendlichen: Indikationen und Limitationen // Radiologe, 2022, v.62 (2), p. 140-148.

5. Pereda, M.A. Lung ultrasound for the diagnosis of pneumonia in children: a meta-analysis / M.A. Pereda, M.A. Chavez, C.C. Hooper-Miele [et al.] // Pediatrics, 2015, v.135 (4), p. 714-722.

6. Claes A.S., Clapuyt P., Menten R. et al. Performance of chest ultrasound in pediatric pneumonia / A.S. Claes, // European Journal of Radiology, 2017, v.88, p. 82-87.

7. Jat K.R., Agarwal S. Lung Function Tests in Infants and Children // Indian Journal of Pediatrics, 2023, 90, p. 790-797.

Резюме

QBS-nun yayılmasını öyrənən əksər tədqiqatçılar QBS diaqnozunu təsdiqləyən etibarlı testlərin, diaqnostikanın "qızıl" standartını təmsil edən laborator-instrumental üsulların olmaması ilə bağlı diaqnozun çətinliklərini qeyd edirlər [5,6,7]. Digər problem həkimlər arasında QBS haqqında məlumatlılığın olmamasıdır [8]. ABŞ-da aparılan araşdırma, ailə həkimlərinin yalnız 30%-nin QBS diaqnozu üçün istifadə edilən Manninq meyarları və Roma meyarları ilə tanış olduğunu göstərdi. Bundan əlavə, xəstəliyin simptomlarının müxtəlifliyi xəstələri digər profilli mütəxəssislərə - ginekoloqlara, uroloqlara, endokrinoloqlara, nevropatoloqlara və s. aparır, bu da epidemioloji tədqiqatları çətinləşdirir. QBS-nun diaqnostikası üçün əsas vasitə IV baxış Roma meyarlarıdır [9].

Qeyd etmək lazımdır ki, müxtəlif müəlliflərə görə QBS-nun yayılma göstəriciləri eyni coğrafi bölgələrdə belə eyni deyil. Bu, istifadə olunan müayinə üsullarının fərqliliyi və ya QBS-nu müəyyən etmək üçün müxtəlif diaqnostik meyarların istifadəsi ilə izah edilə bilər. Orta hesabla, dünya araşdırmalarına görə, QBS-nun yayılması 10-20% arasında dəyişir [10, 11], xəstələnmə halları isə 1,35-dən 1,5%-ə qədər təşkil edir [12]. Daha çox gənc yaşlı insanlar müayinə olunurlar, xəstələnmənin zirvəsi 20-40 yaş arasında qeyd olunur, qadınlar kişilərdən 2 dəfə daha çox əziyyət çəkirlər [13]. Yaşayış bölgəsindən və irqindən asılı olaraq QBS-nun klinik xüsusiyyətləri haqqında məlumatlar mövcuddur. Beləliklə, QBS-un ən yüksək yayılması (21%) Cənubi Amerikada, ən aşağı (7%) isə Cənubi Asiyada qeydə alınıb. Bundan əlavə, Asiya-Sakit okean regionu ölkələrində QBS qadınlar arasında kişilərə nisbətən daha az və çox vaxt dispeptik simptomlarla birlikdə rast gəlinir, Latın Amerikasında isə xəstələrin klinik mənzərəsində şiddətli həyəcan-təşviş sindromu ilə ishal üstünlük təşkil edir [14].

Tədqiqatın məqsədi. 2021-2023-cü illər ərzində Nərimanov adına Tibb Mərkəzinin qastroenterologiya şöbəsində bağırsaq xəstəliklərinin şikayətləri və klinik təzahürləri ilə müraciət edən xəstələr arasında QBS-un yayılmasının müəyyən edilməsi.

Tədqiqatın material və metodları. Xəstələrin müayinəsi anamnezin (ailə anamnezi də daxil olmaqla) və xəstənin şikayətlərinin hərtərəfli öyrənilməsi ilə başlanmışdır. Laborator tədqiqatlar bağırsaqların iltihabi xəstəlikləri inkar etməyə yönəldilmişdir: seliakiya, laktaza çatışmazlığı, psevdomembranoz kolit və s.

İnstrumental üsullara daxildir: qarın boşluğu orqanlarının USM, onikibarmaq bağırsağın postbulbar hissəsindən biopsiya ilə EQDS, biopsiya ilə kolonoskopiya. Lazım gəldikdə, digər mütəxəssislərlə konsultasiyalar aparıldı. Cins, yaş, yaşayış yeri (kənd və ya şəhər), fəaliyyətin xarakteri kimi parametrlər də

nəzərə alınıb. Roma-IV meyarlarına görə QBS variantları ayırd edilib: qəbizlik üstünlüyü ilə, ishal üstünlüyü ilə, qarışıq variant və təsnif edilməmiş variant.

Nəticələr: 2021-2023-cü illər ərzində ümumilikdə 6287 xəstə müayinə olunub.

Cədvəl 1
2021-2023-cü illər ərzində QBS-nun aşkarlanma tezliyi

Göstərici	2021 il	2022 il	2023 il
Müayinə olunan xəstələrin sayı	2195	2342	1750
QBS aşkarlananların sayı	567 (25,8%)	513 (22%)	504 (28,8%)

Cədvəl 2
QBS olan xəstələrin cins və yaşa görə bölgüsü

Göstərici	QBS olan xəstələrin sayı
Ümumi aşkarlanıb	1584
I. Xəstələrin cinsinə görə bölgüsü:	
1. kişilər	526 (33,2%)
2. qadınlar	1058 (66,8%)
II. Xəstələrin yaşına görə bölgüsü	
1. 18-40 yaş	1123 (70,9%)
2. 40 yaşdan yuxarı	461 (29,1%)

Cədvəl 1-də olan məlumatlar göstərir ki, QBS-nun aşkarlanma tezliyi orta hesabla 25,2% olmaqla 25,8% ilə 28,8% arasında dəyişir.

Xəstə qadınların sayı, əldə etdiyimiz məlumatlara görə, 66,8%, yəni xəstə kişilərin sayından 2 dəfə çox, 70,9% isə 40 yaşa qədər olan şəxslərdir (Cədvəl 2).

Bundan əlavə, müəyyən edilmişdir ki, QBS olan bütün müəyyən edilmiş xəstələrin 78%-i (1235 nəfər) şəhərdə yaşayır: şəhər/kənd nisbəti 3,5:1 təşkil etmişdir.

QBS-nun klinik variantlarının tezliyini təhlil edərkən qeyd etmək lazımdır ki, ən çox yayılmış variant ishal üstünlüyü ilə olan variantdır – 43% (681 nəfər), qarışıq variant isə daha az rast gəlinir - 29%-ndə (459 nəfər). Qəbizlik üstünlüyü ilə olan xəstələr 22%-də (348 xəstə), QBS-nun təsnif edilməmiş variantı isə 6%-ndə (96 xəstə) qeyd edildi (Cədvəl 3).

Cədvəl 3
QBS-un klinik gedişatına görə xəstələrin bölgüsü

Göstərici	QBS olan xəstələrin sayı
Ümumi	1584
QBS-un variantları	
1. ishal üstünlüyü ilə	681 (43%)
2. qəbizlik üstünlüyü ilə	348 (22%)
3. qarışıq variantı	459 (29%)
4. təsnif edilməmiş variantı	96 (6%)

Nəticələr:

1. Bağırsaq xəstəlikləri arasında QBS ən çox rast gəlinən nozoloji vahiddir və 25,2%-ni təşkil edir.
2. Xəstə qadınların sayı 66,8%, yəni xəstə kişilərin sayından 2 dəfə çoxdur.
3. QBS-dan əziyyət çəkən xəstələrin 70,9%-i 40 yaşa qədər olan xəstələrdir.
4. QBS-nun klinik variantlarından ishalın üstünlük təşkil etdiyi variant xəstələrin 43%-də rast gəlinir.

ƏDƏBİYYAT

1. Drossman D.A., Chang L. et al. Roma IV functional gastrointestinal disorders, disorders of gut-brain interaction // Forth, The Rome Foundation, Raleigh (NC). 2016

2. Filipovic B., Forbes A., Tepes B. Current approaches to the functional gastrointestinal disorders // Gastroenterol. Res. Pract., 2017, 4957154.

3. Ивашкин В.Т., Шелыгин Ю.А., Баранская Е.К. и др. Клинические рекомендации Российской гастроэнтерологической Ассоциации и Ассоциации колопроктологов России по диагностике и лечению больных с синдромом раздражённого кишечника // Рос. Ж. Гастроэнт., Гепотол., Колопрокт., 2014, №2, с.92-101.

4. Layer P., Andersen V., Pehl C. et al Guideline of the German Society for Digestive and Metabolic Diseases (DGVS) and the German Society for Neurogastroenterology and Motility (DGNM) // Z. Gastroenterol., 2011, v.49, p. 237-9.

5. Kennedy P.J., Cryan J.F., Quigley E.M. et al. sustained hypothalamic-pituitary-adrenal axis response to acute psychosocial stress in irritable bowel syndrome // Psychological Medicine, 2014, v.44, p.3123-34.

6. Fitz Gerald L.Z., Kehoe P., Sinha K. Hypothalamic-pituitary-adrenal axis dysregulation in women with irritable bowel syndrome in esponse to acute physical stress // Western Journal of Nursing Research, 2009, v.31 (7), p.818-36.

7. Sidhu R., MeAlindon M.E., Leeds J.S. et al. The role of serum chromogranin A in diarrhoea predominant irritable bowel syndrome // Journal of Gastrointestinal and Liver Diseases, 2009, v.18, p.23-6.

8. Waehrens R., Ohesson H., Sundquist J. et al. Low prevalence of irritable bowel syndrome in primary health care in four Swedish conntics. seand // J. primary Health Care, 2013, v.31, p.132-7.

9. Anthony L., Komaroff M.D., Pimentel M. et al. Possible New Biomarker for irritable Bowel Syndrome // New Engl. J. Med., 2015.

10. Canavan C., West J., Card T. The epidemiology of irritable bowel syndrome // Clin. Epidemiol. 2014, v.6, p.71-80.

11. Drossman D.A., Camilleri M., Mayer E.A. at al. AGA technical review on irritable bowel syndrome // Gastroenterology, 2002, v.123 (6), p.2108-31.

12. Ford A.C., Forman D., Bailey A.G. et al. Irritable bowel syndrome: a 10-yr natural history of symptoms and factors that influence consultation behavior // Am J. Gastroenterol., 2008, v.103, p.1229-39.

13. Mayer E.A., Irritable Bowel Syndrome // N Enql J. Med., 2008, v.388 (16), p.1692-9.

14. Brandt L.J., Chey W.D., Foxx-Orenstein A. E. et al. An evidence-based systematic review on the management of irritable bowel syndrome // Am. J. Gastroenterology, 2009, v.104 (Suppl. 1), p.8-35.

Резюме

Место синдрома раздражённого кишечника в структуре заболеваний кишечника

Т.Г. Салимов, В.А. Гидаятова, М.Р. Ибрагимов,
Х.Г. Гусейнова, Л.С. Асланова, В.М. Халилов

Синдром раздражённого кишечника относится к наиболее распространённым функциональным заболеваниям желудочно-кишечного тракта, часто встречающимся среди молодого трудоспособного населения. СРК значительно снижает качество жизни, влияет на трудоспособность, может быть причиной депрессии и нарушения социальной адаптации больных. В статье проанализированы результаты обследования 6287 пациентов, обратившихся в гастроэнтерологическое отделение Медицинского Центра им. Нариманова за период 2021-2023 г., с клиническими проявлениями заболеваний кишечника. Изучена частота встречаемости и другие параметры СРК среди указанного контингента больных.

Summary

The place of irritable bowel syndrome in the structure of intestinal diseases

T.H. Salimov, V.A. Hidayatova, M.R. Ibrahimov,
Kh. G. Huseynova, L.S. Aslanova, V.M. Khalilov

Irritable bowel syndrome is one of the most common functional diseases of the gastrointestinal tract, often found among your young working-age population. IBS significantly reduces the quality of life, affects

the ability to work, and can cause depression and impaired social adaptation of patients. The article analyzes the results of a survey of 6287 patients who applied to the gastroenterology departament of the Narimanov Medical Center in the period 2021-2023, with clinical manifestations of intestinal diseases. The frequency of occurrence and other parameters of IBS among the specified contingent of patients were studied.

Daxil olub: 09.02.2024

Медико-статистические показатели больных с истинной полицитемией

Ф.Т. Халилова, А.А.Керимов
Национальный Центр Гематологии и Трансфузиологии, г.Баку

Açar sözlər: həqiqi polisitemiya, ilkin xəstələnmə, xəstəliyin yayılması.
Ключевые слова: истинная полицитемия, первичная заболеваемость, распространенность заболевания.
Key words: polycythemia vera, incidence, prevalence

Истинная полицитемия (ИП) – клональное миелопролиферативное заболевание (МПЗ), характеризующееся трехростковой (эритроидной, гранулоцитарной и мегакариоцитарной) гиперплазией костного мозга, в результате которой наблюдается панцитоз (эритроцитоз, лейкоцитоз, тромбоцитоз) периферческой крови [1]. Несмотря на то, что ИП занимает первое место по частоте встречаемости среди всех МПЗ, ее нередко относят к орфанным заболеваниям [4]. По данным литературы заболеваемость ИП составляет-1-1.9 на 100 тыс. населения [2]. Средний возраст больных-60-70, однако заболевание может встречаться и у молодых [3]. Частота заболеваемости среди мужчин обычно выше, чем среди женщин [2,5].

Цель исследования изучить медико-статистические показатели (демографические, первичная заболеваемость (ПЗ), распространенность заболевания (РЗ)) у больных с ИП.

Материалы и методы исследования. Был проведен ретроспективный и проспективный анализ 614 больных с диагнозом ИП, взятых на учет в период с 2010 по 2022 годы. Была исследована частота заболеваемости по возрастным группам и по полу. Был проведен анализ ПЗ (incidence) и РЗ (prevalence) среди населения города Баку и по республике Азербайджан в целом. ПЗ на 100 тыс населения была вычислена по формуле fr=(N_{fr}/N)x100000, где fr-первичная заболеваемость, N_{fr}-число первичных больных, N-средняя численность населения. РЗ среди населения была вычислена по формуле S=(N_t/N) x100000, где S-распространенность заболевания, N_t-общая численность больных, N-средняя численность населения.

Результаты и обсуждение. Был проведен статистический анализ 614 больных с диагнозом ИП. Из них 337-мужчин, 277-женщин**.** Соотношение мужчин к женщинам составило 1.2:1. Средний возраст больных составил 56.8 (21-87) лет. Анализ больных по возрастным группам и по полу показал, что в группе 20-29 лет наблюдалось-9 (1.5%), муж/жен -6/3; 30-39 лет-21(3.4%), 16/5; 40-49 лет -111(18.1%), 75/36; 50-59 лет-220 (35.8%), 137/83; 60-69 лет-175(28.5%), 72/103; 70-79 лет -65(10.6%), 31/34 ; 80-89 лет-13 (2.1%), 7/6 больных с ИП. Таким образом, наибольшее количество больных было в возрасте 50-59 лет.

Для оценки ПЗ проведен анализ 527 первичных больных, взятых на учет в период с 2010 по 2022 годы. ПЗ подсчитана в отдельности на каждый календарный год для мужчин и женщин в отдельности. Так по республике в 2010 году ПЗ составила – 0.2 (м/ж-0.2/0.4), 2011 – 0.3 (0.4/0.3), 2012 – 0.4 (0.6/0.4), 2013 – 0.3 (0.3/0.4), 2014 – 0.3 (0.4/0.2), 2015 – 0.3 (0.4/0.4), 2016 – 0.4 (0.5/0.5), 2017 – 0.4 (0.5/0.3), 2018 – 0.4 (0.4/0.4), 2019 – 0.4(0.4/0.5), 2020 – 0.5 (0.6/0.5), 2021 – 0.6 (0.8/0.4), 2022 – 0.4 (0.5/0.2).



Рис/ 1. Первичная заболеваемость ИП по республике (n=527).



Рис. 2. Первичная заболеваемость ИП по республике среди мужчин и женщин



Рис. 3. Первичная заболеваемость ИП по городу Баку.



Рис. 4. Первичная заболеваемость ИП по городу Баку среди мужчин и женщин



Рис. 5.Распространенность ИП среди населения страны (n=614)



Рис. 6. Распространенность ИП по стране среди мужчин и женщин (n=614)

ПЗ по республике в среднем (2010-2022 гг.) составила 0.4; среди мужчин – 0.7, среди женщин – 0,4 (рис.1, рис 2). Для оценки ПЗ по городу Баку был проведен анализ 191 первичных больных. Так, ПЗ по

городу Баку в 2010 году составила – 0.4 (м/ж-0,7/0,1), 2011 – 0.5 (0.3/0.6), 2012 – 0.6 (0.6/0.6), 2013 – 0.4 (0,2/0.6), 2014 – 0.4 (0.5/0.4), 2015 – 0.8 (0.9/0.7), 2016 – 0.9 (1/0.9), 2017 – 0.5 (0.6/0.4), 2018 – 0.7 (0.7/0.6), 2019 – 0.7 (0.8/0.7), 2020 – 1.1 (1.2/1), 2021 – 1 (1.5/0.4), 2022 – 0.4 (0.6/0.3). ПЗ по городу Баку в среднем (2010-2022 гг.) составила 0.6; среди мужчин – 0.7, среди женщин – 0,6 (рис.3, рис.4). Выяснилось, что ПЗ среди мужчин в сравнении с женщинами была выше как по республике, так и по городу Баку.



Рис.7.Распространенность ИП по городу Баку (2010-2022).



Рис. 8. Распространенность ИП по городу Баку среди мужчин и женщин (n=241)

Для оценки РЗ был проведен анализ 614 больных. РЗ была подсчитана по республике и по городу Баку в целом и в отдельности среди мужчин и женщин. РЗ по республике (мужчины/женщины) в 2010 году составила – 1.2 (1.4/1), 2011 – 1.6 (1.8/1.3), 2012 – 1.9 (2.2/1.7), 2013 – 2.3 (2.5/2), 2014 – 2.6 (2.9/2.2), 2015 – 2.9 (3.2/2.6), 2016 – 3.3 (3.7/3.1), 2017 – 3.7 (4.1/3.4), 2018 – 4.1 (4.6-3.8), 2019 – 4.6 (4.9/4.2), 2020 – 5.1 (5.4/4.8), 2021 – 5.7 (6.2/5.2), 2022 – 6 (6.7-5.5) на 100000 населения. РЗ по республике (мужчины/женщины) в среднем составила – 3.4 (3.8/3.1) на 100000 населения (рис.5, рис.6). РЗ по городу Баку (мужчины/женщины) составила в 2010 году – 2.8 (3.4/2.1), 2011 – 3.2 (3.7/2.7), 2012 –3.8 (4.2/3.3), 2013 – 4.1 (4.3/4), 2014 – 4.5 (4.8/4.3), 2015 – 5.2 (5.6/5), 2016 – 6.1 (6.6/5.8), 2017 – 6.6 (7.1/6.1), 2018 – 7.2 (7.8/6.7), 2019 – 7.7 (8.5-7.3), 2020 – 8.9 (9.7/8.2), 2021 – 9.9 (11.3/8.6), 2022 – 10.3 (11.9/8.9)

на 100000 населения. РЗ по городу Баку в среднем (мужчины/женщины) за 2010-2022 гг. составила 6.1 (6.7/5.6) на 100000 населения (рис.7, рис.8). Выяснилось, что распространенность заболевания среди мужчин в сравнении с женщинами была выше как по республике, так и по городу Баку.

Заключение. Таким образом выявлено, что среди всех возрастных групп наибольшее количество больных наблюдалось в возрасте 50-59 лет. Средний возраст больных составил 56.8 (21-87). Соотношение мужчин к женщинам составило 1.2:1. ПЗ среди мужчин в сравнении с женщинами была выше как по республике, так и по городу Баку. РЗ среди мужчин в сравнении с женщинами была выше как по республике, так и по городу Баку.

ЛИТЕРАТУРА

1. Silver R.T., Chow W., Orazi A. et al. Evalution of WHO criteria for diagnosis of polycythemia vera: a prospective analysis // Blood, 2013, v.122(11), p.1881-1886.

2. Ania B.J., Suman V.J., Codd M.B., et al. Trends in the incidence of polycythemia vera among Olmsted Country, Minnesota residents, 1935-1989 //Amer. J. Hematol., 1994, v.47, p.89-93

3. Passamonti F., Malabarda L.,Orlandi E., et al. Polycythemia vera in young patients: a study on the long-term risk of thrombosis, myelofibrosis and leukemia //Haematologica, 2003, v.88(1), p.13-8.

4. Abdulkadyrov K.M., Shuvaev V.A., Martynkevich I.S. et al. Modern concepts of diagnosis and treatment of polycythemia vera // Вестник гематологии, 2015, v.11, N1

5. Vatutin N.T., Taradin G.G., Bakhteeva T.D. et al. True polycythemia: current views of pathogenesis, diagnostics and treatment // Клиническая медицина, 2012, v.8, p.24-31

Xülasə

Həqiqi polisitemiya xəstələrinin tibbi-statistik göstəriciləri.

F.T. Xəlilova, A.Ə.Kərimov

Milli Hematologiya və Transfuziologiya Mərkəzi, Bakı

İşin məqsədi-həqiqi polisitemiya (HP) xəstələrinin tibbi-statistik göstəricilərini (demoqrafik, ilkin xəstələnmə (İX), xəstəliyin yayılması (XY)) araşdırmaq. HP diaqnozu ilə 2010-2022 illərdə qeydiyyata götürülən 614 xəstənin retrospektiv və prospektiv analizi aparılıb.Xəstələnmənin yaşa və cinsə görə tezliyi araşdırılıb. İX və XY Bakı şəhəri əhalisi arasında və ümumilikdə Azərbaycan respublikası üzrə analiz olunub.614 xəstədən 337-i-kişi, 277-i-qadın olmuşdur. Kişilərin qadınlara nisbəti-1.2:1 təşkil etmişdir. Xəstələrin yaş qruplarına və cinsə görə analizi göstərib ki, 20-29 yaş qrupunda 9 (1.5%), k./q. -6/3; 30-39 y.q -21(3.4%), 16/5; 40-49 y.q. -111(18.1%), 75/36; 50-59 y.q.-220 (35.8%), 137/83; 60-69 y.q.-175(28.5%), 72/103; 70-79 yaş -65(10.6%), 31/34 ; 80-89 yaş qrupunda isə-13 (2.1%), 7/6 HP xəstəsi qeyd olunub. Ən çox xəstə sayı 50-59 yaş qrupunda qeyd olunub.Xəstələrin orta yaşı – 56.8 (21-87) təşkil edib. İX-in dəyərləndirilməsi üçün 2010-2022-ci illərdə qeydiyyata götürülən 527 ilkin xəstə analiz olunub. Respublika üzrə (2010-2022-ci il.) İX-in orta göstəricisi 0.4; kişilər arasında-0.7, qadınlar arasında isə-0,4 təşkil etmişdir. Bakı şəhəri üzrə İX-in dəyərləndirilməsi üçün 191 ilkin xəstə analiz olunub. Bakı şəhəri üzrə İX-in orta göstəricisi (2010-2022 il.) –0.6; kişilər arasında-0.7, qadınlar arasında isə-0.6 təşkil etmişdir.Məlum olmuşdur ki, həm respublika, həm də ki Bakı şəhəri üzrə kişilər arasında qadınlara nisbətdə İX üstünlük təşkil edib. XY-ın dəyərləndirilməsi üçün 614 xəstə analiz olunub.Respublika üzrə XY-ın orta göstəricisi (kişilər/qadınlar)-100000 əhali sayına 3.4 (3.8/3.1) təşkil etmişdir. Bakı şəhəri üzrə XY-ın orta göstəricisi 2010-2022 illər ərzində (k./q.) 100000 əhali sayına- 6.1(6.7/5.6) təşkil etmişdir**.** Məlum olmuşdur ki, həm respublika, həm də ki Bakı şəhəri üzrə XY kişilər arasında qadınlara nisbətdə üstünlük təşkil edib.

Summary

Medical and statistical indicators of patients with polycythemia vera.

F.T. Khalilova, A.A.Kerimov

The aim of the work is to study medical and statistical indicators (demographic, incidence (IN), prevalence of disease (PN) in patients with polycythemia vera (PV). A retrospective and prospective analysis of 614 patients with PV enrolled in the period from 2010 to 2022 was conducted. The frequency of morbidity by age groups and by gender was investigated. An analysis of IN and PN was conducted among the population of Baku and the Republic of Azerbaijan. Out of 614 patients - 337 were men, 277 were women. The ratio of men to women was 1.2:1. The analysis of patients by age group and gender showed that in the group of 20-29 years

there were 9 (1.5%), men/women -6/3; 30-39 years-21(3.4%), 16/5; 40-49 years -111(18.1%), 75/36; 50-59 years-220 (35.8%), 137/83; 60-69 years-175(28.5%), 72/103; 70-79 years -65(10.6%), 31/34; 80-89 years-13 (2.1%), 7/6 patients with PV. The largest number of patients were aged 50-59 years. The average age of patients was 56.8 (21-87). An analysis of 527 primary patients enrolled in the period from 2010 to 2022 was conducted to assess IN. IN in the republic on average (2010-2022) was 0.4; among men-0.7, among women-0.4. An analysis of 191 primary patients was conducted to evaluate the IN in the city of Baku. IN in the city of Baku on average (2010-2022) was 0.6; among men-0.7, among women-0.6. It turned out that IN among men compared to women was higher both in the republic and in the city of Baku.An analysis of 614 patients was conducted to assess PN. PN in the republic (men/women) was 3.4 (3.8/3.1) per 100,000 population. PN in Baku (men/women) for 2010-2022 was 6.1 (6.7/5.6) per 100,000 population. It turned out that the prevalence of the disease among men compared to women was higher both in the republic and in the city of Baku.

Daxil olub: 01.02.2024

Aptek təşkilatlarında dayanıqlı inkişaf naminə nəzarətin aparılmasının əhəmiyyəti

N.M.Naibov, V.A.Quluzadə
Azərbaycan Tibb Universiteti, Əczaçılıq texnologiyası və idarəçiliyi kafedrası, Bakı

Açar sözlər: dayanıqlı inkişaf, aptek təşkilatı, nəzarətin əhəmiyyəti, əczaçı
Ключевые слова: устойчивое развитие, аптечная организация, важность контроля, фармацевт
Key words: sustainable development, pharmacy organization, importance of control, pharmacistda

Müasir dövrdə müəssisə və təşkilatların dayanıqlı inkişafına böyük diqqət yetirildikdə, əhaliyə fasiləsiz xidmətin səviyyəsinin, keyfiyyətinin və effektivliyinin artırılması mümkündür. Müəssisə və təşkilatların daxilində işçilərin rifahının yaxşılaşmasına stabilləşmiş şərait yaratmış olar. Dayanılqı inkişaf edən hər bir təşkilatın iqtisadi cəhətdən durumu yüksək olur, fəaliyyət göstərdiyi bazarda nüfuz qazanır, hər cür rəqabətə davamlı olaraq tab gətirir, gəlirlər artır. Gəlirin artması ilə əlaqədar olaraq fəaliyyət genişlənir, iş yerləri yaradır. Bu isə işsizlik probleminin aradan qaldırılmasına müəyyən köməklik deməkdir.

Son zamanlar aptek təşkilatlarının da əhaliyə xidmətinin keyfiyyətini yüksəltmək üçün müəyyən qanunvericilik və normativ aktların tələbləri təsdiq olunmuşdur.

Tələbələrə uyğun olaraq dərman vasitələrinin keyfiyyətinin təmin olunmasına və əhaliyə göstərilən xidmətə nəzarət məqsədilə aptek müəssisəsində rəhbər və ya müvafiq qaydada təyin olunmuş əczaçılıq fəaliyyətinə nəzarət edən məsul şəxs tərəfindən aptekdə hazırlanan dərman vasitələrinin keyfiyyətinin, dərman vasitələrinin aptekdən buraxılmasının və saxlanmasının müvafiq qanunvericilik tələblərinə cavab verdiyini yoxlamaq məsqədilə (1 ildə 1 dəfədən az olamayaraq) aptek təşkilatlarının iştirakı ilə özünü yoxlama keçməlidirlər [3,4].

Özünü yoxlama zamanı aptek müəssisələrində aşağıdakılara fikir verilməlidir:

1.Aptek işçi təlimatı (İT), SƏP vəzifə təlimatlarının olması;

2.İT, SƏP tərəfindən qoyulan tələblərin yerinə yetirilməsi;

3.Sahələrin və avadanlıqların vəziyyəti

Özünü yoxlamanın nəticələri sənədləşdirilərək aptek rəhbərlərinin nəzərinə çatdırılmalıdır. Aşkar edilən nöqsanların aradan qaldırılması üçün mərhələli əməliyyat planı hazırlanmalıdır [3,4].

Tədqiqatın məqsədi. Aptek təşkilatlarında dayanıqlı inkişaf naminə nəzarətin aparılmasının əhəmiyyəti öyrənilmişdir.

Tədqiqatın material və metodları. Aptek təşkilatlarında nəzarətin kim tərəfindən və necə həyata keçirilməsini öyrənmək üçün 42 aptek tədqiqata cəlb edilmişdir. Tədqiqata cəlb edilən aptek təşkilatlarında şifahi sorğu, sizin təşkilatda nəzarət kim tərəfindən və necə həyata keçirilir. Bundan əlavə 80 nəfər əczaçı tədqiqat cəlb edilmişdir. Sonra eyni zamanda 1 ay ərzində nəzarət aparılan və aparılmayan aptek təşkilatlarında satış həcminin artımına diqqət yetirilirdi.

Tədqiqatın nəticələri və müzakirəsi. Aptek təşkilatlarının dayanıqlı inkişafı naminə nəzarət aparıldıqda 80 əczaçının hansı məsələlər ədaha çox diqqət yetirilməsi fikri öyrənilmışdır. Müxtəlif məsələləri sistemləşdirərək və eyni olan fikirləri cəmləşdirərək aşağıdakı sıra ilə verməyə çalışdıq.

1.Əczaçılıq məhsullarına sifarişin tərtibinin düzgünlüyü (95%);

2.Alınan əczaçılıq məhsullarının hesab-faktura ilə düzgünlüyü (93,8%);

3. Əczaçılıq məhsullarının satışının qeydiyyatının düzgün aparılması (96,3%);

4. Əczaçılıq məhsullarının ticarət zalında və ehtiyat otaqlarında məlum qaydalara uyğun və düzgün yerləşdirilməsi (95%);

5. Əczaçılıq məhsullarının ehtiyat qalığının kompyuter göstəricilərilə uyğunluğu (96,3%);

6. Əczaçılıq məhsullarının üzərində qiymətin olması və onun düzgünlüyü (98,8%);

7. Əczaçılıq məhsulları alındıqdan (aptek təşkilatına) sonra onun uçotunun aparılmasının düzgünlüyü (96,3%);

8. Əczaçılıq məhsullarının qaydalara uyğun saxlanmasının təşklinin düzgünlüyü (87,5);

9.Əhaliyə fasiləsiz xidmət göstərmək üçün əczaçılıq məhsullarının ehtiyatının yaradılması (93,8%);

10.Mal göndərən təşkilatın çeşidilə aptek təşkilatı çeşidinin uyğunluğu (90%)%

11. Əczaçılıq məhsullarının çeşidi üzrə tamlığı (88,8%)%

12. Əczaçılıq məhsullarının ehtiyatının tələbata uyğunluğu;

13. Əczaçılıq məhsullarının tələb və təklif üzrə tarazlığının mövcudluğu (86,3%);

14.Əczaçının alıcılarıa davranış qaydalarına riayət edilməsi (100%);

15.Dərman vasitələrinin, eləcə də digər əczaçılıq məhsullarının yararlılıq müddətinə diqqət yetirilməsi (100%);

16.Yararlılıq müddəti keçmiş əczaçılıq məhsullarının aşkar edilməsi (98,8%);

17.Özünümüalicə prosesində əczaçının hazılığı, o cümlədədn reseptsiz buraxılan dərman vasitələrinin siyahısının, özünümüalicə prosesində standart əməliyyat prosedurlarını, özünü müalicə, özünə yardım suallarının, özünü müalicə xəstəliklərinin simptomlarını bilməsi (95%);

18.Alıcının əczaçı tərəfindən sosial-pisxoloji vəziyyətini, onun qiymətləndirilməsinin həyata keçirilməsi (86,3%);

19.İşçinin əmək fəaliyyətində ciddi məqsədyönlü reqlamentlərin olması (86,3%);

20.Xidmətin səviyyəsi, peşəlarlıq (95%);

21.İstehlakçının məmnunluğunun təmin edilməsi üçün tədbirlərin görülməsi (98,8%);

22.Əczaçının qabağan olunmuş dərman vasitələrinin siyahisini bilməsi (100%);

23.Əczaçının tibbi istifadəsi icazə verilmiş dərman vasitələrinin əlavə mənfi təsirlərinə nzəarət üzrə təlimatı bilməli (95%).

Bütün bu və digər fəaliyyət növlərinə nəzarət həyata keçirmək üçün nəzarət plan tədbirlərinin hazırlanması vacib məsələlərdən biri olduğunu da əczaçıların əksəriyyəti söylədi (85%). Qeyd etmək lazımdır ki, ədəbiyyat materiallarında daxili audit zamanı proqram tezisinin tərtib olunmasını irəli sürürlər [1,2].

Proqram tezisin əczaçılıq müəssisələri üçün hazırlanması zamanı əczaçılıq fəaliyyətinin xüsusiyyətləri mütləq nəzərə alınmalıdır (75%). Bunda əlavə bir məsələni də qeyd etmək lazımdır. Bu məsələ əczaçıların təklif etdiyi kimi nəzarətin gündəlik aparılmasıdır və səlahiyyətli əczaçının qeyd dəftərçəsi olmalıdır. Qeyd dəftərçəsində gündəlik qeydlır aparılmalı, proqram-tezisdə və ya nəzarətin plan tədbirlərində irəli sürülən tələblərin yerinə yetirilməsi və çatışmazlıqlar, müsbət cəhətlər, yəni daha da inkişaf etdirilməsi kimi məsələlər öz əksini tapmalıdır. Təkliflər də qeyd olunmalıdır. Müəsssisənin rəhbəri hər gün iş gününün sonunda həmin dəftərçəyə nəzər yetirilməli və tövsiyələrini, təkliflərini və tapşırıqlarını verməlidir (77,5%).

Əczaçılar özünə nəzarətə də diqqət yetirməli olduğunu da qeyd edirlər (100%). Onlar belə fikirdədirlər ki, özünü nəzarətin başlanğıcıdır. Özünə nəzarət iş fəaliyyətinin daha da inkişad etdirilməsinə, xidmətin vaxtında yaxşılaşdırılmasına səbəb olur (100%). 42 aptek təşkilatında sorğu üsulu vasitəsilə baxış keçirildi. Sorğu "sizin təşkilatda nəzarət kimin tərəfindən və necə həyata keçirilir". Nəticələri aşağıdakı cədvəldə əks etdirməyə çalışdıq (Cədvəl).

Cədvəldən göründüyü kimi 1 nəfər əczaçısı olan 7 aptek təşkilatında nzəarət yoxdur. 2 nəfər əczaçısı olan 10 aptek təşkilatında nzəarət aptekin rəhbəri tərəfindən həyat keçirilir, nəzarətin nəticələri müzakirə olunmur. 3 nəfər əczaçısı olan aptek təşkilatında rəhbər nəzarət edir, burada da müzakirə aparılmır. Yuxarıda qeyd olunan 33 (7+10+6) aptek təşkilatlarında nöqsanalrın aradan qaldırılması üçün tədbirləri hazırlanmır. 4 nəfər (4 aptek), 5 nəfər (2 aptek), 6 nəfər (2 aptek), 7 nəfər (1 aptek) əczaçısı olan apteklərdə nzəarət işini tapşırıq verilmiş əczaçı həata keçirir. Bu aptek təşkilatlarıdna nəzarətin nəticələri az, qismən, tam müzakirə olunur və eyni zamanda nöqsanların aradan qaldırılması üçün məsləhət görülür.

Cədvəl
Aparılan sorğunun nəticələri

Apteklərin sayı	Aptekdə işçilərin sayı	Aptekdə nəzarət həyata keçirən şəxs	Nəzarətin nəticələrinin müzakirəsi	Nöqsanların aradan qaldırılması
7	1 nəfər əczaçı	Yoxdur		Tədbirlərin tərtibi
10	2 nəfər əczaçı	Aptekin rəhbəri	Müzakirə olunmur	
16	3 nəfər əczaçı	Aptekin rəhbəri	Müzakirə olunmur	
4	4 nəfər əczaçı	əczaçı	Müzakirə olunur	Məsləhət verilir
2	5 nəfər əczaçı	əczaçı	Qismən müzakirə olunur	Məsləhət verilir
2	6 nəfər əczaçı	əczaçı	Müzakirə olunmur	
1	7 nəfər əczaçı	əczaçı	Müzakirə olunur	Məsləhət verilir

Yuxarıdakı aparılan araşdırmalarla yanaşı nəzarət aparılan və aprılmayan aptek təşkilatlarında 4 ay müddətində satış həcminə baxış keçirilmişdir. Birinci ay satış həcmini şərti olaraq n_1, 2-ci ay satış həçmini n_2, 3-cü ay satış həcmini n_3, 4-cü ay n_4 nəzərdə tutmuşuq. Araşdırmaların nəticələrini aşağıdakı şəkildə verməyə çalışdıq.



Şəkil. Aptek təşkilatlarında satış həcminin dəyişməsi: A-nəzarət aparılan; B-nəzarət aparılmayan

Şəkildən göründüyü kimi nəzarət aparılan aptek təşkilatlarında diaqram yüksələn xətlə irəliləyək 4-cü ayda satış həcmi yüksək həddə çatmışdır. Nəzarət aparılmayan aptek təşkilatlarında isə diaqramda yüksəlmə müşahidə edilməmişdir.

Beləliklə, aptek təşkilatlarında dayanıqlı inkişafa nail olmaq üçün iş fəaliyyətinə nəzarətin həyata keçirilməsi, aşkar edilən nöqsanların təhlil və müzakirə edib, aradan qaldırılması tədbirlərinin hazırlanması zəruridir.

ƏDƏBİYYAT

1.Aptek təşkilatlarıdna dair tələblər və aptek təşkilatlarında dərman vasitələrinin buraxılması qaydaları (Etibarlı aptek təcrübəsi). Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Kollegiyasının 11 yanvar 2018-ci il tarixli 01 nömrəli qərarı ilə təsdqi edilmiş 3 nömrəli Əlavə.

2.Hüseynov Z.M. Audit fənnindən Denya iqtisadiyyatı ixtisası üçün mühazirə mətnləri. Gəncə, 2016, 155 s.

3.Tibbi istifadəsinə icazə verilmiş dərman vasitələrinin əlavə mənfi təsirlərinə nzəarət üçün təlimat.

4.Tibbi istifadəsi iczarə verilən dərman vasitələrinin əlavə təsirlərinin alması və / və ya effektivliyinin olması barədə məlumatın tib və / və ya əczaçılıq təhsili olan işçilər tərəfindən işçilər tərəfindən təqdim edilməsi qaydası.

5.Vəliyeva M.N., Cabbarova Ş.A. Əczaçılığın idarə olunması və iqtisadiyyatı. Bakı: Şərq-Qrəb nəşriyyatı, 2013, 736 s.

Резюме

Значение контроля для устойчивого развития аптечных организаций

Н. М. Наибов, В. А. Гулузаде

Целью исследования было изучение значения контроля для устойчивого развития аптечных организаций. С целью выяснения, кем и как осуществляется контроля в аптечных организациях, было привлечено 42 аптечных исследования. Устный опрос в аптечных организациях, участвующих в исследования. Кроме того, в исследовании приняли участие 80 фармацевтов. Затем одновременно обращали внимание на увеличение объема продаж в аптечных организациях, находящихся и не контролировавшихся в течение 1 месяца. Для достижения устойчивого развития аптечных организаций важно контролировать рабочую деятельность, анализировать и обсуждать выявленные недостатки и готовить меры по их устранению.

Summary

The ımportance of control for sustainable development of pharmacy organizations

N. M. Naibov, V. A. Guluzade

The aim of the study was to examine the importance of control for sustainable development of pharmacy organizations. In order to find out who and how controls are carried out in pharmacy organizations, 42 pharmacy studies were involved. Oral survey in pharmacy organizations participating in the study. In addition, 80 pharmacists took part in the study. Then, at the same time, attention was paid to the increase in sales in pharmacy organizations that were and were not controlled for 1 month. To achieve sustainable development of pharmacy organizations, it is important to control work activities, analyze and discuss identified deficiencies and prepare measures to eliminate them.

Daxil olub: 01.02.2024

Uşaq və yeniyetmələrdə piylənmə: səbəbləri, ağırlaşmaları və profilaktikası

F.Ş.Hacızadə, S.F.Haqverdiyeva, M.R.Muradova
V.Y.Axundov adına Elmi-Tədqiqat Tibbi Profilaktika İnstitutu

Açar sözlər: uşaq və yeniyetmələr; piylənmə; risk amilləri; profilaktika; bədən kütləsi indeksi; piylənmə kriteriləri.
Ключевые слова: дети и подростки; ожирение; факторы риска; профилактика, индекс массы тела; критерии ожирения.
Key words: children and adolescents; obesity; risk factors; prevention; body mass index; obesity criteria.

Müasir dövrümüzün qlobal sağlamlıq problemlərindən biri orqanizmdə artıq yağ toplanması səbəbindən yaranan və mövcud xəstəliklər arasında ikinci yeri tutan piylənmə xəstəliyidir. İlk baxışda bəzən ciddi xəstəlik kimi qəbul edilməyən piylənmə yaş artdıqca orqanizmin bütün orqan və sistemlərini sıradan çıxara bilir. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) son məlumatlarına əsasən dünyada 1 milyarddan çox insan artıq çəkidən əziyyət çəkir və 2025-ci ilə kimi piylənmə 70 milyon uşaqda ola bilər. Bu problem Azərbaycan Respublikasından da yan keçməyib, ölkəmizdə demək olar ki, iki nəfərdən birinin çəkisi normadan artıqdır. Belə ki, sosial vəziyyətindən, hansı peşədə çalışmağından, yaşayış yerindən, yaşından və cinsindən asılı olmayaraq piylənmə xəstəliyi hər kəs üçün aktuallıq kəsb edir. ÜST-nın 2022-ci il üçün "Avropa regionunda piylənmə probleminə dair Məruzə"sində bildirilir ki, Avropa ölkələrində əhali arasında piylənmə digər regionlara nisbətən (ABŞ istisna olunmaqla) geniş yayılmışdır, yaşlı əhalinin 59%-i, oğlan uşaqlarının 29%-i, qız uşaqlarının isə 27%-i artıq çəki və piylənmə ilə yaşayırlar. Məruzədə qeyd olunur ki, Azərbaycanda 11 yaşlı uşaqların 30%-də artıq çəki var, 13 yaşlı oğlanların demək olar ki, 20%-də, qızların isə 10%-də, 15 yaşlı oğlanların 20%-də, həmin yaşda qızların isə 10%-dən azında artıq çəki və piylənmə müşahidə olunur. Eləcə də oğlanların 60%-i, qızların isə 50%-i gündəlik yeməklərində meyvə və tərəvəzlərdən istifadə etmirlər [1, 2, 3].

Son illər ərzində bütün dünyada uşaq və yeniyetmələrdə piylənmənin sürətli artımının müşahidə olunması diqqəti daha çox cəlb etməyə başlayan səhiyyə problemlərindən biri kimi həm pediatrların və uşaq endokrinoloqlarının, həm də valideynlərin bu məsələyə ciddi yanaşmasını tələb edir. Avropa ölkələrində aparılan sorğuya əsasən piylənmə olan uşaqların təxminən dörddə biri ağır piylənməyə məruz qalır və belə uşaqlarda xüsusi və intensiv terapiyaya ehtiyac duyulur. Piylənmənin ümumi yayılması sabit olsa da, uşaq əhalisi arasında ağır piylənmənin yayılması bir çox yüksək gəlirli ölkələrdə artmışdır, aşağı və orta gəlirli ölkələrdə isə yüksək sosial-iqtisadi statuslu uşaqlar artıq çəkidən daha çox əziyyət çəkirlər. Araşdırmalar göstərmişdir ki, 1975-ci ildən 2016-cı ilə kimi 5-19 yaşlı uşaqlar və yeniyetmələr arasında piylənmənin yaşa görə standartlaşdırılmış qlobal yayılması qızlar üçün 4,8-6,5%, oğlanlar üçün isə 0,9-7,8% arasında olmuşdur [4-8].

Uşaqlarda piylənmə uşağın faktik bədən kütləsi indeksinin normativdən 15%-dən çox artıq olmasıdır. Valideynlər boya görə çəki düsturu ilə bədən kütləsi indeksini hesablayaraq uşaqda piylənmə probleminin olub-olmadığını yoxlaya bilərlər. Bədənin kütlə indeksinin hesablanması üçün uşağın çəkisi boy ölçüsünün kvadratına bölünür; 25-ə qədər norma sayılır, 25-30 arasında, piylənməyə başlanğıc, 30-dan yuxarı artıq piylənmə xəstəliyi, 40-dan yuxarı isə xəstəliyin ağır dərəcəsi sayılır. Doğuş zamanı bədən kütləsi 4 kq-dan artıq olan uşaqlar risk qrupuna aiddirlər. Südəmər körpələrin qidalandırılmasında səhvlərə yol verilməsi onları piylənməyə məruz qoya bilir. İlk 6 ayda uşaqlarda sürətli böyümə dövrü olur, körpənin çəkisi ayda 600-1000 q arta bilir, 6-12-ci aylar ərzində isə ayda 400-600 q arasında artım olur. Bu yavaşımanı görərkən bəzi analar uşağı daha artıq qidalandırmağa çalışırlar, nəticədə çəki artımı baş verir. Körpə minimum 2 yaşa qədər ana südü ilə qidalanmalıdır, ancaq əksər hallarda 2-3 ay ana südü qəbul etdikdən sonra, körpəyə vaxtından əvvəl əlavə qidalar verilməyə başlanır. Yüksək kalorili qarışıqların həddindən artıq yedirilməsi piylənmənin ən ciddi səbəbi hesab oluna bilər. Erkən yaşda uşaqlarda piylənmənin inkişafına səbəb olan digər amillər də olur: hamiləlikdən əvvəl anada piylənmənin olması, hamiləlik zamanı həddən artıq çəki artımı, şəkərli diabet, ananın siqaret çəkməsi və havanın çirklənməsi [9, 10, 11].

Məktəbəqədər dövrdə kök olan uşaqların 26-41%-i, məktəb yaşında kök olan uşaqların isə 42-63%-i yetkin yaşda da kök qalmağa davam edir. Böyük yaşlı insanların 60%-də çəki ilə bağlı problem uşaq və yeniyetməlik yaşlarından başlayır. Artıq çəki probleminə mümkün qədər ən erkən yaşda diqqət yetirilməlidir, əks halda uşağın həm fiziki, həm də psixoloji sağlamlığı baxımından arzuolunmaz problemlər yarana bilər.

Ailədəki çəki probleminin qaynağı müəyyən edilməli, uşaq sağlam bir şəkildə böyüdülməlidir, həkim-dietoloq və psixoloq əməkdaşlığı ilə qidalanma müalicə-sxemi tətbiq olunmalıdır.

Uşaqlarda piylənmənin təbiəti polietiolojidir, belə ki, onun inkişafında həm genetik, həm də mühit amillərinin rolu var. Bütün hallarda uşaqlarda piylənmənin əsasında energetik disbalans dayanır, yəni orqanizmin qəbul etdiyi enerji israf etdiyi enerjidən çox olur. Tədqiqatlar göstərmişdir ki, ailədə hər iki valideyn piylənmədən əziyyət çəkərsə, bu pozuntunun uşaqda rastgəlmə tezliyi 80%, problem yalnız anada olursa – 50%, təkcə atada olursa – 38% təşkil edir.

Xarici mühit faktorlarının, həyat tərzinin, çox yemək vərdişinin də piylənmədə rolu olur. Anamnestik göstəricilərə görə, uşaqlarda piylənmənin 90%-i alimentar piylənmədir, yəni uşaqların çoxunda piylənmə qida rejiminin pozulması, çox kalorili qida qəbulu və fiziki aktivliyin azalması fonunda baş verir. Adətən uşaqların yemək rasionunda karbohidratların (un məmulatları, şirniyyat və s.), xəmir xörəklərinin, yağlı yeməklərin çox olması, enerji ilə zəngin olan, mikronutrient baxımından zəif qidaların həddən artıq istehlakı, heyvan mənşəli piylərin istifadəsi (fast-fuudlar), şəkərlə zənginləşdirilmiş şirin içkilərin qəbulu (şirələr, qazlı sular). piylənməyə səbəb olan risk amilləridir. Eyni zamanda, digər amillərin də nisbi təsiri nəzərə alınmalıdır, məsələn, tez-tez qəlyanaltı edilməsi, səhər yeməyindən imtina, ilk gündəlik yeməkdən sonuncuya qədər vaxt pəncərəsi, porsiya ölçüləri, yemək sürəti və s. Bir səbəbi də unutmamalıyıq. Bizim zəngin, amma eyni zamanda da bir qədər zərərli mətbəximiz var; yeməklərimiz dadlı-duzlu, yağlıdır, ət xörəklərimiz bol və müxtəlifdir, tərəvəzlərdən isə az istifadə edilir. Uşaqların qidalanmasına düzgün şəkildə yanaşmaq lazımdır. Uşaq ailədə, məktəbdə xronik stress vəziyyətində və ya sosial təcrid şəraitində ola bilər. Bu zaman müsbət emosiyalar qazanmaq, özünü stresdən qorumaq istəyən uşaq üçün yemək sevinc və zövq mənbəyinə çevrilə bilər ki, bu da piylənməyə səbəb olan əsas amillərdən biridir. Uşaqlara, xüsusilə işləyən valideynlər tərəfindən diqqətin az olması nəticəsində, onların istədikləri vaxt sevdikləri hər qidanı qəbul etmələri də çəki artımına səbəb olur [12-15].

Ən acınacaqlısı isə odur ki, bütün bunların fonunda uşaqlar az hərəkətli, yəni oturaq həyat tərzi sürür, aktiv oyunlar oynamırlar, idmanla məşğul olmurlar, vaxtlarının çoxunu televizora baxmaqla və ya kompüter arxasında keçirirlər. Uşaqları oturaq həyata alışdırmaq lazım deyil, ən böyük problem artıq yemək yox, qəbul edilən qidanın qarşılığında az hərəkət etməkdir. Deməli piylənmədən uşaq yaşlarından qorunmaq lazımdır, çünki yaş artdıqca, çəkinin atılması çətinləşir və uşaqda sümük problemləri yarana bilir. Ona görə də, kök uşaqların "şirinliyi" ilə əzizlənməsi düzgün deyil, valideynlər başa düşməlidirlər ki, artıq çəkili uşaqlar nə qədər şirin görünsə də, köklük xəstəlikdir. Xüsusilə, yaxın dövrdə baş vermiş pandemiya uşaqlardakı piylənmə problemini bütün dünyada yenidən aktuallaşdırdı. Evə qapanmalar, passiv həyat tərzi, məktəblərin fəaliyyətindəki fasilələr, fiziki aktivliyin minimum səviyyədə olması uşaqların gündəlik rejiminə mənfi təsir göstərdi və kök uşaqların sayının artmasına səbəb oldu. Ümumiyyətlə, son illərdə uşaqlar günün çox hissəsini məktəbdə və evdə masa arxasında oturmaqla, kompüter oyunları oynamaqla, televizora, telefona və ya planşetə baxmaqla keçirirlər, yəni kifayət qədər sıx zehni yükə sahib olduqları halda, çox az hərəkət edirlər, onlarda ekrana baxaraq yemək qəbulu adət halını almağa başlamışdır. Uşaq və yeniyetmələrdə fiziki aktivliyin səviyyəsinin nəzərə çarpacaq dərəcədə aşağı düşməsi, eləcə də yuxu rejiminin pozulması, yuxu vaxtının qısalması piylənmə riskinin artmasına təsir göstərir. Bundan əlavə, piylənmə ciddi patoloji vəziyyətlər və genetik xəstəliklər nəticəsində də inkişaf edə bilər. Uşaqlarda piylənmənin əsas əlaməti dəri altında piy qatının artmasıdır. Erkən yaşlı uşaqlarda piylənmənin ilkin əlamətləri kimi hipodinamiyanı, hərəki vərdişlərin formalaşmasının ləngiməsini, qəbzliyə, allergik reaksiyalara, yoluxucu xəstəliklərə meylliliyi göstərmək olar. Alimentar piylənmə zamanı uşaqların qarın, çanaq, sinə, kürək, üz, yuxarı ətraf nahiyələrində artıq piylər yaranır. Məktəb yaşlarında belə uşaqlarda təngnəfəslik, fiziki yüklənməyə tolerantlığın azalması, arterial təzyiqin artması müşahidə olunur [16-22].

Uşaq yaşlarında yaranan piylənmə bir sıra ağırlaşmalara və ciddi fəsadlara, sağlamlıq problemlərinə səbəb ola bilər: mədə-bağırsaq sistemi xəstəlikləri (qəbzlik, ishal, xronik xolesistit, pankreatit, babasil və s.), qanda yağların (lipidlərin) artması ilə bağlı, erkən yaşlarda ürək-damar sistemi xəstəlikləri (arterial hipertoniya, stenokardiya, ürək fəaliyyətinin çətinləşməsi), bədən kütləsinin ağırlığı nəticəsində sümük-əzələ sistemi və diz oynaqlarının patologiyaları, dayaq-hərəkət aparatı xəstəlikləri, ortopedik problemlər (artroz, artralgiya, skolioz, yastıpəncəlilik, qıçlarda əyrilik) və s. inkişaf edə bilər. Uşaqlarda metabolik, endokrin, reproduktiv patologiyalar da baş verə bilir. İnsulin rezistentliyi olduğu üçün qanda şəkərin və insulinin yüksəlməsi artıq diabetin xəbərçisi sayılır, iştaha artır. Balanssız qidalanma ilə əlaqədar çəki daha da artır, immun sistemi zəifləyir, uşaq tez-tez yoluxucu xəstəliklər keçirir. Uşaqlarda ətraflarda kökəlmə, qarın tipli piylənmə, erkən cinsi inkişaf, oğlan uşaqlarında ginekomastopatiya deyilən döş böyüməsi problemləri yarana bilir. Dərialtı yağ toxumasının artması ilə bağlı olan dəri infeksiyaları, ayaq aralarında və dərinin qıvrım bölgələrində sürtünmə

ilə bağlı olan problemlər çoxalır. Tənəffüslə bağlı çətinliklər, gecə yuxuda xoruldama olur. Bunlardan başqa, uşaqda müxtəlif psixoloji çətinliklər, özgüvən əskikliyi, bəzi komplekslər meydana çıxa bilir [23, 24].

Piylənmə əleyhinə mübarizə uşaq yaşlarında artıq çəkiyə qarşı profilaktik tədbirlərin görülməsindən başlanmalıdır, başqa sözlə, piylənmənin profilaktikası uşaq doğulan andan başlayaraq bütün ailə üzvlərini əhatə etməlidir. Bunun üçün uşaqlarda yetərli və balanslaşdırılmış düzgün qidalanma alışqanlığı yaratmaq, onları şəkər tərkibli içkilərdən uzaq tutmaq lazımdır. Uşaq və yeniyetmələr tövsiyə olunan miqdarda meyvə və tərəvəzli pəhrizə riayət etməli, gündəlik səhər yeməyini qaçırmamalı, "fastfood" yeməklərindən istifadə etməməlidirlər. Onların qida porsiyaları yaşlarına uyğun tənzimlənməli, azyaşlı uşaqların televiziya izləmələri və kompüterdən istifadələri məhdudlaşdırılmalıdır. Uşaqların ən azı gündə 1 saat fiziki cəhətdən aktiv olmaları təmin edilməlidir. Çəki artımının yoxlanılması məqsədilə uşaqların ildə 2 dəfə mütəxəssisə göstərilməsi faydalıdır. Bununla yanaşı ailələr üçün maarifləndirici işlər aparılmalı, onlara lazımi psixoloji dəstək verilməlidir [25, 26, 27].

Piylənmənin qarşısının alınması və müalicəsi mürəkkəb və uzun vaxt tələb edən prosesdir, bu işin 70-80%-i valideynlərin və uşağın payına düşür. Uşaqların **b**ədən kütləsi yaş normasının maksimum həddinə yaxınlaşmağa başlayan kimi həkimə müraciət olunmalı və tədbir görülməlidir Piylənmənin müalicəsi zamanı əsas tədbirlər artıq çəkinin azaldılmasına yönəldilməli, uyğun qidalanma rasionunun təşkili üçün dietoloqun və digər mütəxəssislərin məsləhətlərinə əməl olunmalıdır. Yeməyin 50%-ni karbohidratlar, 10-15%-ni yağlar, digər qismini proteinlər təşkil etməlidir, əsasən lifli qidalardan istifadə olunmalıdır, uşaqlarda tərəvəz yemək aludəçiliyi yaradılmalıdır. Yeyərkən telefon və televizor qətiyyən olmamalıdır, televizora baxaraq yemək, artıq enerji sərfinə səbəb olur, diqqəti yayındığına görə uşaq normadan artıq yeyir. Valideynlər bilməlidirlər ki, şirinləşdirilmiş içkilər, təbii meyvə şirələri də müəyyən edilmiş miqdarda qəbul edilməlidir. Uşaq şirniyyat istəyərsə, əvəzinə quru meyvə vermək daha yaxşıdır. Xəstə davamlı olaraq pəhrizdə olmalıdır, pəhrizə az müddətdə əməl edib, sonra saxlamaq olmaz. Körpələrə isə əlavə qida kimi sıyıqlar deyil, tərəvəz püreləri verilməlidir. Eyni zamanda, uşaqlara aktiv həyat tərzi lazımdır, gündəlik gimnastika, müxtəlif idman növləri ilə məşğul olmaq faydalıdır, ən yaxşı kilo vermək üsulu üzgüçülükdür. Endokrinoloji xəstəliklərlə əlaqəli piylənmə 10% təşkil edir, kökəlmənin 90%-i çox yeməkdən və hərəkətsizlikdən qaynaqlanır. Lazım olan hallarda, piylənmədən əziyyət çəkən uşaqlarda masaj, iqlorefleksoterapiya, hidroterapiya, psixoterapiya aparılmalıdır. Bundan başqa, piylənmə zamanı pediatr və uşaq endokrinoloqu ilə yanaşı uşaq kardioloqu, uşaq qastroenteroloqu, uşaq ortopedi, neyrocərrah və uşaq psixoloqunun dəstəyi də tələb olunur [28, 29, 30].

Qeyd etmək lazımdır ki, uşaqların sağlamlığında yarana biləcək digər problemlər kimi, piylənmə xəstəliyinin də qarşısının öncədən alınması, xəstəliyin müalicəsindən daha asandır. Bu işdə ailənin rolu çox böyükdür, valideynlər uşaqlarını düzgün qida rejiminə alışdırmalı, onlarda müxtəlif idman növlərinə, fiziki aktivliyə sevgi tərbiyə etməlidirlər. Ümumiyyətlə, hər bir ailə sağlam həyat tərzi keçirməli, valideynlər övladlarına nümunə olmalıdırlar!

ƏDƏBİYYAT

1. Бочарова О.В., Теплякова Е.Д. Ожирение у детей и подростков – проблема здравоохранения XXI века. // Казанский Медицинский Журнал, 2009, №3, с. 381-388

2. World Health Organization. Report on the fifth round of data collection, 2018-2020: WHO European childhood obesity surveillance initiative (COSI), 2022, 70 p.

3. Məmmədova H.A., Qabulov H.H., Balayeva M.Ş. Müasir dövrün qlobal tibbi-sosial problemi, uşaqlarda artıq çəki və piylənmənin yayılması və səbəbləri haqqında // Sağlamlıq, 2019, №1

4. Давыдова А.В., Логачев М.Ф. Актуальные проблемы развития повышенной массы тела и ожирения у детей и подростков // Детская больница, 2014, № 1, с. 31-36

5. Abarca-Gomez L., Abdeen Z.A., Hamid Z.A. et al. Worldwide trends in body-mass index, underweight, overweight and obesity from 1975 to 2016: A pooled analysis of 2416 population-based measurement studies in 128.9 million children, adolescents and adults // The Lancet, 2017, 390, p. 2627-2642

6. Аверьянов А.П., Болотова Н.В., Зотова С.А. Ожирение в детском возрасте // Лечащий врач, 2010, №2, с. 69-75

7. Малиевский О.А., Маслова Н.Г. Распространенность ожирения и избыточной массы тела у детей и подростков. Матер. X Всероссийской научно-практической конференции детских эндокринологов. Архангельск, 2013, с. 26

8. Ковалева А.М. Сухова С.В. Ожирение у детей и подростков: современные аспекты проблемы и методы коррекции // Педиатрическая фармакология, 2018, т. 15, № 2

9. Эдлеева А.Г., Юрьев В.В., Леонова И.А. и др. Сравнительный анализ методов оценки ожирения у детей и подростков // Детская больница, 2014, № 2, с. 44-49

10.Петеркова В.А., Васюкова О.В. К вопросу о новой классификации ожирения у детей и подростков // Проблемы Эндокринологии, 2015, № 2, с. 39-45

11.Васюкова О.В. Ожирение у детей и подростков: критерии диагноза // Ожирение и метаболизм. 2019, т. 16, № 1, с. 70-73

12.Mameli C., Mazzantini S., Zuccotti G. Nutrition in the First 1000 Days: The Origin of Childhood Obesity // Int. J.Env. Rews. Public Health. 2016,v.13(9), p. 838

13.Витебская А.В., Писарева Е.А., Попович А.В. Образ жизни детей и подростков с ожирением. Результаты анкетирования пациентов и их родителей // Ожирение и метаболизм, 2016, № 2, с. 33-40

14.Березина М.Б., Михалева О.Г., Бардымова Т.П. Ожирение: механизмы развития // Сибирский медицинский журнал, Иркутск, 2012, №7, с. 15-18

15.Солнцева А.В. Значение факторов семейного воспитания в формировании избыточной массы тела у детей // Здравоохранение (Минск), 2015, №2, с.56-61

16.Storz M.A. The Covid-19 pandemic: an unprecedented tragedy in the battle against childhood obesity // Clin. Exp. Pediatr., 2020, v.63(12), p. 477-82.

17.Краснопсорова О.И., Смирнова Е.Н., Чистоусова Г.В. и др. Факторы, способствующие формированию ожирения у детей и подростков // Ожирение и метаболизм, 2013, №1(34), с.18-21

18.Ruiz L.D., Zuelch V.L., Dimitratos S.M. et al. Adolescent obesity: diet quality, psychosocial health and cardiometabolic risk factors // Nutrients, 2020, v.12(1), p. 43.

19.Weihrauch-Bluher S., Wiegand S. Risk factors and implications of childhood obesity // Curr. Obes. Rep., 2018, v.7, p. 254-259.

20.Красноперова О.И., Смирнова Е.Н., Чистоусова Г.В. и др. Факторы, способствующие формированию ожирения у детей и подростков // Ожирение и метаболизм, 2013, т.10, № 1, с. 18-21

21.Solmi M., Ioannidis J.P.A., Carvalho A.F. Environmental risk factors and interventions for obesity // Eur. J. Clin. Invest., 2019, v.9(5), e13080.

22.Гулина А.Л., Смирнова Л.М. Проблема ожирения у детей и подростков: факторы риска, диагностика, лечение // Здоровье ребенка, 2019, т.14, № 3

23.Yeste D., Carrascosa A. Obesity-related metabolic disorders in childhood and adolescence // An Pediatr, 2011, v.75(2), p. 1-9

24.Daniels S,R. Complications of obesity in children and adolescents // Int.J.Obes. 2009, v.33, p.60-65

25.Нетребенко О.К., Украинцев С.Е., Мельникова И.Ю. Ожирение у детей: новые концепции и направления профилактики. Обзор литературы // Вопр. современной педиатрии, 2017, №5, с.399-405

26.Боровик Г.Э., Ладодо К.С. Клиническая диетология детского возраста. М., МИА, 2008, 606 с.

27.Woo S., Park K.H. Motivating children and adolescents in obesity treatment // J. Obes. Metab. Syndr., 2020, v.29(4), p.260-9.

28.Павловская Е.В., Сурков А.Г., Шилина Н.М. и др. Современные подходы к диетотерапии ожирения у детей // Вопросы детской диетологии, 2016, № 1, с. 41-46

29.Болотова Н.В., Белоусова М.С., Чередникова К.А. и др. Комплексный подход к терапии ожирения у детей подросткового возраста // Вестник терапевта, 2023, № 3 (58)

Eyni zamanda, metforminin tədqiqatdan əvvəl dozası W0 (r = -0,24; p <0,01), W2 (r = -0,24; p <0,01), W4 (r = -0,24; p <0,05) və W6-da (r = -0,27; p<0,01) acqarına qlükoza səviyyəsi ilə mənfi korrelyasiya edilmişdir. Şəkil 2-də EdiAzer tədqiqatına başlamazdan əvvəl metforminin dozası ilə W0-da, yəni tədqiqatın əvvəlində acqarına qlükoza səviyyəsi arasında korrelyasiya nümunəsi təqdim olunur.



Şəkil 2. Tədqiqatdan əvvəlki metforminin dozası ilə W0-da aclıq qlikemiyası arasında korrelyasiya

Maraqlıdır ki, tədqiqatın əvvəlində W0, W2, W4 və W6-da acqarnına qlükoza səviyyələri ilə korrelyasiya olunan metformin dozası, sonradan acqarnına qlikemiya ilə korrelyasiya olunmur. W8 (r=-0,13; p>0,05) və W16-da (r=-0,11; p>0,05) korrelyasiya əmsallarında fərq cüzi idi və statistik cəhətdən böyük əhəmiyyət kəsb etmirdi.

Tədqiqat zamanı verilən metforminin dozası W0 və W2-də (hər iki halda (r = -0.22; p < 0.05)) acqarına qlikemiya ilə mənfi korrelyasiya edilmişdir. W0 və W2 tədqiqat nöqtələrində təyin olunan metforminin dozası, acqarına qlükoza ilə müvafiq olaraq "W0 – W2" r = -0,24 və r = -0,25 fərqi ilə mənfi korrelyasiya olunur: hər iki halda p<0,05-dır).

Nəticələr: Qliklazid MR dozaları ilə karbohidrat mübadiləsində dəyişikliklərin təhlili qliklazid MR dozasını aşağıdakı kimi təyin edir (W0-da):

- tədqiqatın əvvəlində A1c səviyyəsi ilə müsbət korrelyasiya (r = +0,26; p <0,01);
- tədqiqatın sonunda A1c səviyyələri ilə müsbət korrelyasiya (r = +0,33; p <0,001);
- tədqiqat zamanı A1c-də dəyişikliyə təsir etməmişdir (r = +0,04; p> 0,05);
- bütün tədqiqat mərhələrində qlükoza səviyyələri ilə müsbət korrelyasiya
  - W0-da: (r = +0,36; p <0,001);
  - W2-də: (r = +0,35; p <0,001);
  - W4-də: (r = +0,41; p <0,001);
  - W6-da: (r = +0,39; p <0,001);
  - W8-də: (r = +0,35; p <0,001);
  - W16-da: (r = +0,42; p <0,001);
- Tədqiqatın ilk iki həftəsi (W0 – W2) ərzində qlikemiyadakı dəyişikliklərlə müsbət korrelyasiya (r = +0,23; p> 0,001) olunur.

Təqdim olunan məlumatların təhlili göstərir ki, A1c səviyyəsi nə qədər yüksək olarsa, qliklazid MR-nin ilkin dozası bir o qədər çox olur.

ƏDƏBİYYAT

1.American Diabetes Assosiation. Standards of Medical Care in Diabetes – 2021 // Diabetes Care, 2021, v.44, Suppl. 1, p.1-32.

2.American Diabetes Association. Standards of Medical Care in Diabetes – 2020 // Diabetes Care, 2020, v.43, Suppl.1, p.1-212.

3.Garber A.J., Handelsman Y., Grunberger G. et alş Consensus Statement by the American Association of Clinical Endocrinologists and American College of Endocrinology on the Comprehensive Type 2 Diabetes Management Algoritm – 2020 Executive Summary // Endocrine Practice 2020, v.26, (No1), p.107-139.

4.2019 ESC Guidelines on diabetes, pre-diabetes, and cardiovascular diseases developed in collaboration with the EASD. European Heart Journal (2020) 41, 255-323.

5. Colling C., Atlas S.J., Wexler D.J. Application of 2021 American Diabetes Association Glycemic Treatment Clinical Practice Recommendations in Primary Care // Diabetes Care, 2021, v.44, p.1443-1446.

6. Xie Y., Bowe B., Gibson A.K. et al. Comparative Effectiveness of Sodium-Glucose Cotransporter 2 Inhibitors vs Sulfonylureas in Patients With Type 2 Diabetes //JAMA Intern Med.2021,v.181(8), p.1043-1053.

7. Jürgens M., Schou M., Hasbak P. et al. Effects of Empagliflozin on Myocardial Flow Reserve in Patients With Type 2 Diabetes Mellitus: The SIMPLE Trial // J Am Heart Assoc., 2021, v.10, 020418.

8. Guduguntla V., Grant R.W. Sodium-Glucose Cotransporter 2 Inhibitors vs Sulfonylureas. The Price of Prevention // JAMA Intern Med. 2021, v.181(8), p.105

9. Heyward J., Shin J.-I., Christopher J. et al. Ambulatory noninsulin treatment of type 2 diabetes mellitus in the United States, 2015 to 2019 //Diabetes Obes Metab, 2021, v.23, Iss.8, p.1843-1850.

Резюме

Анализ начальных и последующих дозировок терапии, используемой в исследовании EDIAZER

В.А. Мирзазаде, Р.А.Гусейнова

В настоящее время в мире все шире применяются такие сахароснижающие препараты групп SGLT2i и GLP-1 RA, кардиопротективное и нефропротективное действие которых лишь в редких случаях ставится под сомнение. Препараты SGLT2i и GLP-1 RA совместными рекомендациями Европейского Общества Кардиологов и Европейской Ассоциации по Изучению Диабета уже рекомендуются в качестве сахароснижающих препаратов первой линии. Наиболее серьезным недостатком препаратов этих двух групп следует считать их высокую стоимость. По-видимому, именно поэтому, даже в США в 2015 – 2019 гг. основными сахароснижающими препаратами первой и второй линии, используемыми в реальной практике являются метформин, препараты группы ингибиторов ДПП-4 и препараты сульфонилмочевины.

Summary

Analysıs of ınıtıal and subsequent doses of therapıes used ın the edıazer study

V.A. Mirzazade, R.A.Huseynova

Currently, the world is increasingly using such antihyperglycemic drugs of the SGLT2i and GLP-1 RA groups, the cardioprotective and nephroprotective effects of which are only in rare cases questioned. SGLT2i and GLP-1 RA drugs are already recommended as first-line hypoglycemic drugs by the joint recommendations of the European Society of Cardiology and the European Association for the Study of Diabetes [4]. The most serious disadvantage of these two groups of drugs should be considered their high cost. That is why, even in the USA in 2015-2019. Metformin, drugs of the DPP-4 inhibitor group, and sulfonylurea drugs are the main hypoglycemic drugs of the first and second lines used in real practice.

Daxil olub: 08.01.2024

Məhkəmə-antropoloji tədqiqatlar zamanı yaşın təyini (praktik tövsiyələr)

[1]Ş.M. Musayev, [2]Z.M. Kərimov, [2]A.Ş.İbrahimov
[1]Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu, Bakı,
[2]Xəzər Universiteti, Həyat elmləri departamenti, Bakı

Açar sözlər: məhkəmə-tibb ekspertiza, yaş həddi, rentgenoqrafiya
Ключевые слова: судебно-медицинская экспертиза, возрастной предел, рентгенография
Key words: forensic examination, age limit, radiography

Məhkəmə antropologiyasında insan qalıqlarının tədqiqatı əsasında həmin qalıqlar mənsub olmuş şəxsin bioloji profilinin diaqnostikası (sözsüz ki, proqnoz xarakterli məlumat nəzərdə tutulur) bir çox fiziki-bioloji parametrlərin təyininə bağlıdır. Bu sırada cins, yaş, irq və boy (bədənin həyati uzunluğu) kimi qrupdaxili əlamətlər demək olar ki, ən vaciblərdir və bəzi müəliflər tərəfindən "böyük dördlük" adlandırılır [1]. Göstərilən parametrlərin arasında diaqnostikası ən çətin olan yaşın təyinidir. Bunu nəzərə alaraq sümük qalıqlarına görə yaşın təyini probleminə dair müasir elmi məlumatların icmalını hazırladıq.

Məhkəmə-tibb ekspertləri naməlum meyit aşkar olunanda yaşı xarici görkəm əlamətlərinə (dəridə qırışlar, saçların ağarması və s.) və daxili orqanların müayinəsinə əsasən yaxud molekulyar-genetik, biokimyəvi, histoloji və digər tədqiqatların nəticələrinə görə təyin edirlər. İnsan sümük qalıqları və ya naməlum tam skeletləşmiş meyit tapıldıqda isə müayinələr xüsusi laboratoriyada aparılır. Burada sümüklərin və dişlərin morfoloji, metrik, rentgenoloji və sair müayinələri keçirilir, bu tədqiqatların nəticəsi təhlil edilir və yekunda sümükləri müayinə obyekti olmuş fərdin yaşı barədə fikir irəli sürülür. Müayinələrin məqsədi böyüməkdə ya stabil dövrdə olan, və yaxud da degenerativ dəyişikliklər daşıyan sümükləri təyin etmək və vəziyyətlərini qiymətləndirməkdən, həmçinin dişlərin inkişafını, sürtülməsini və itirilməsini qiymətləndirməkdən ibarətdir.

Göstərilən sualların həlli üçün vətənimizdə məhkəmə-tibb ekspertləri bir neçə müxtəlif metodikalardan istifadə edir. Daha çox istifadə edilən ədəbiyyat mənbələri Işcan M.Y., Paşkova V.İ., Reichs K.J. və bir neçə digər müəlifin tövsiyə etdiyi vəsaitlərdir [2-5]. Bu mənbələrdə skeletləşmiş meyitin müayinəsinə dair verilən bir-birinə zidd deyil və bu vəsaitlər yalnız həcmləri və fərqli diaqnostik metodikalara üstünlük verməkləri ilə seçilirlər. Bir qayda olaraq skeletləşmiş insan qalıqları labarator müayinəyə daxil olanda (istər tam identifikasiya istərsə də yalnız yaşın təyini üçün) birinci addım kimi sümüklər mənsub olan şəxsin yetkin yaşa çatması, yoxsa uşaq yaxud yeniyetmə olması müəyyən edilir. Bu məsələ adətən çətinlik yaratmır və üçüncü böyük azı dişlərin çıxması, çanaqda qalça sümüyünün qanadının morfologiyası, ənsə-əsas sinxondrozunun birləşməsi, oma fəqərələrinin bitişməsi, körpücük sümüyünün döş ucunun morfologiyası və uzun borulu sümüklərin epifizlərinin formalaşma mərhələsi müvafiq fərdin yaşının 14-18 yaxud 18-25 yaş intervalına aid edilməsinə imkan verir (Şəkil 1).



Şəkil 1 a)12 yaşlı uşaqın çanağının rentgenoqrafiyası, b)15 yaşlı yeniyetmənin b ud sümüyündə epifizar yarıqlar, c)17 yaşlı gənc qızın bazu sümüyü başında süngəri maddənin morfologiyası (boylama kəsik), d)19 yaşlı gənc oğlanın bud sümüyünün distal, qamış sümüyünün proksimal epifizlərinin morfologiyası.

Şübhəsiz ki, belə differensial diaqnostikanın uğurlu alınması təqdim edilən sümüklərin sayından və vəziyətindən asılı olur. Sözügedən diaqnostikanın aparılması üçün əsas anatomik biliklər bazası istənilən ekspertə kifayət edir [6]. Daha geniş xüsusi biliklər sümük qalıqları müayinə edilən şəxsin yaşı barədə (18-25 yaş çərçivəsində və 18 yaşdan aşağı intervalda) daha konkret fikir söyləmək üçün tələb olunur. Bu məsələ həmçinin 17 və 18, eləcədə 18 və 19 yaşlar arasında differensiasiyanın aparılmasında (yanı şəxsin yaşını qeyd olunan iki böyük intervallardan birinə aid edilməsində) çətinliklər üzə çıxanda da aktual olur. Yenidoğulmuşlardan təxminən 16-17 yaşa qədər şəxslərdə bu problem həmçinin sümüklərin total ölçülərinin təhlili ilə (müəyyən dərəcədə) həll oluna bilər [3]. Lakin sistemli yanaşsaq qeyd etməliyik ki, ümumilikdə belə halların həlli üçün bir çox metodoloji yanaşma işlənib-hazırlanıb və onlar barəsində internet vasitəsilə, o cümlədən ChatGPT tipli Sİ çatbotların köməyi ilə olduqca dolğun məlumat almaq olar. Biz bu məqalədə təcrübədə istifadə üçün maraqlı ola biləcək metodik yanaşmalardan yalnız bir neçəsini nümunə gətiririk.

Sallivan S. [7] və həmmüəlifləri doğuşdan 30 yaşa qədər olan şəxlərin (292 kişi, 270 qadın) müvafiq multidetektor kompüter tomoqrafiyalarını öyrənərək belə qənaətə gəlmişdilər ki, çanaq sümüklərinin və bud sümüyünün proksimal epifizində 9 müxtəlif nahiyədə gedən sümükləşmə prossesinin dinamikası əsasında (polinominal reqressiya tənliklərinin tətbiqi ilə) yaşı təxminən 2 il kənaraçıxma ilə təyin etmək mümkündür. Bu multifaktorlu təhlil əsasında aparılan diaqnostika çox dürüst nəticələr verir. Lakin biz etnocoğrafi konteksti nəzərə alaraq (yaxın insan populyasiyalarında antropoloji fərqlərin az olması) eyni prinsiplər əsasında işlənib hazırlanan və həm çanaq, həm də borulu sümüklərdə epifizlərin sümükləşməsinə əsasən yeniyetmə və cavan şəxslərdə (30 yaşa qədər) yaşın təyini üçün Türkiyə alimləri tərəfindən təklif edilən üsullara daha çox üstünlük veririk [8, 9]. Aşağı yaş qruplarında Cameriere R. və həmmüəlifləri [10] tərəfindən hazırlanmış və diş özəyi sahəsi/bütöv diş sahəsi nisbətinin qiymətləndirilməsinə əsaslanan metodologiya daha münasib hesab edilir. Bunu Çin tədqiqatçılarının 5 yaşdan 25 yaşa qədər olan şəxslərin (834 kişi və 823 qadın cinsli) panoramik rentgenoqrafiyalarının təhlili sayəsində (yaş təyini formatında yuxarı və aşağı ikinci azı dişlərin minerallaşma dərəcəsini öyrənirdilər) əldə etdikləri nəticələr də təsdiq etmişdir [11]. Qeyd edilən metodologiya eyni zamanda Türkiyə alimləri tərəfindən də sınanmış və məhkəmə-tibbi təcrübədə uşaqlarda yaşı təyin etmək üçün uğurlu üsul kimi qiymətləndirilmişdir [12]. Körpücük sümüyünün döş ucunun epifizində sümükləşmə dərəcəsini rentgen, KT və MRT şəkillərin qiymətləndirilməsi vasitəsilə təyin etmək 15-24 yaş qrupunda müvafiq differensiasiya aparmağa imkan verir [13]. Lakin qeyd etməliyik ki, göstərilən üsullarla yanaşı ənənəvi metodlar da tətbiq edilə bilər və onlar heç də əhəmiyyətini itirməyiblər. Bu metodlar yuxarıda göstərilən mənbələrdə [2-5] geniş yer alırlar və əksəriyyəti təcrübədə tətbiq üçün tövsiyyə etdiyimiz üsulların aşağı texnologiyalı variantlarıdır.

Növbəti yaş qruplarının təyini (yaşı 20-25 yaşdan yuxarı olan şəxslər nəzərdə tutulur) ənənəvi olaraq ölkəmizdə onillik intervallarda aparılır və adətən $\pm$5 il diaqnostik xəta ilə aparılır (bəzi əlverişli situasiyalarda bu xəta $\pm$2-3 ilə qədər enə bilər). Qeyd olunan onillik intervallar 20-30 yaşdan başlayaraq 60-70 yaş intervalına kimi dövrləri əhatə edir. Yetmiş yaşdan yuxarı şəxsin sümük qalıqlarının aşkar olunması ekspert təcrübəsində nadir rast gələn haldır. Belə fabula ilə qarşılaşma adətən özü-özündə identifikasiya edici amil kimi qiymətləndirilir və yaşı qocalıq habelə uzunömürlük dövrünə aid olunan şəxslərin yaşlarının differensial diaqnostikasına zərurət çox nadir hallarda yaranır. Lakin belə hal istisna deyil və müvafiq ekspertizalarda morfoloji müayinələrlə birgə rentgenoloji, histoloji, spektral, molekulyar-genetik və sair yüksək texnologiyalı metodologiyalardan istifadə olunmasını tövsiyə edirik [5, 14, 15].

20-30 yaş intervalında sümük qalıqlarına görə yaşın təyini digər dövrlərə nisbətən bir o qədər çətinlik törətmir. Burada yuxarıda qeyd olunan üsulların köməyi ilə aparılan diaqnostika və digər ənənəvi üsullar yardımçı olur. Ənənəvi olaraq uzun borulu sümüklərin proksimal epifizlərinin morfoloji əlamətləri (həm xarici, həm də kəsikdə), eləcədə çanaq və kəllə skeletinin osteoskopiyasının nəticələri ekspertin köməyinə gəlir. Çanaq və borulu sümüklərdə izlənilən əlamətlər müxtəlif mənbələrdə [3, 16] təsvir olunub və bu əlamətlərə uyğun fotoşəkillər aşağıda təqdim olunur (Şəkil 2). Kəllə skeletində bu və digər yaş dövrlərində izlənilən morfoloji əlamətlərə dair məlumatlar və müvafiq metologiya ölkəmizdə akademik Ş.M. Musayev tərəfindən tam işlənilmişdir və ekspert-kriminalistlərin gündəlik praktikasında tətbiq edilir [17]. Burada məlumat üçün yalnız onu qeyd edək ki, 20-30 yaş intervalında kəllə tağı skeletində tikişlərin sümükləşməsi izlənilmir (aydın məsələdir ki, söhbət kraniostenoz və digər patologiyalar aşkar olunmayan kəllə skeletindən gedir). Bu yaş dövründə kəllə tağı skeletində tikişlərin ilkin obliterasiya əlamətləri bəzi hallarda izlənsə də üz skeletində (burunarası, damaq, əng-almacıq və sair tikişlərdə) demək olar ki, rast gəlmir. Göstərilən əlamət 20-30 yaş qrupunu 30-40 yaş qrupundan ayırmaq üçün xarakterik hesab oluna bilər. Borulu sümüklərin epifizlərinin morfologiyası (ələxsus da bazu və bud cümüklərinin başlarında), kəsikdə onların proksimal epifizlərində epifizar xəttin (epifizar yarığı əvəz edir) olması, çanaq sümüklərində (əsasən qasıq simfizində)

müvafiq əlamətlər, eləcədə kəllə skeletində yuxarıda qeyd olunan görünüş (involyutiv dəyişiklərin izlənilməməsi) skelet sümükləri müayinə edilən fərdin yaşını 20-30 yaş intervalına aid etməyə imkan verir.



Şəkil 2 Müxtəlif yaş dövrlərində qasıq sümüyündə simfizial səthin görünüşü: yuxarıda H.Hunger və D.Leopolda (1978) görə; aşağıda T.V.Todda (1920) görə.

30-40 yaş intervalında sümük və qığırdaq toxumasında involyutiv dəyişikliklər artıq başlamaq üzrədir (bu prosses qadınlarda və kişilərdə, eləcə də fərqli sümüklərdə seçilir) və bu yaş qrupuna daxil olan şəxsləri öncəki qrupa aid nisbətən cavan yaşlı şəxslərdən ayırd etməyə imkan verir. Bu qrupu 40-50 yaşlılarla differensasiya etmək bir qədər çətin olur. Uzun borulu sümüklərin kompakt maddəsi möhkəm və sərtdir, daxilində yarıq və kanallar izlənmir (çox nadir hallarda təsadüf edilə bilərlər). Süngəri maddəsi bu yaş dövrlərində xırdaməsəməli quruluşa malik olur, sümük iliyi kanalı bud sümüyündə kiçik burmadan, bazu sümüyündə isə sümüyün cərrahi boynundan aşağıda yerləşir. Epifizar xətt qeyd olunan hər iki sümükdə 35 yaşdan sonra adətən müşahidə edilmir (bud sümüyündə epifizar xəttin tam itməsi 40 yaşa qədər davam edə bilər) və bu əlamətə əsasən yaş qrupunu iki hissəyə ayırmaq olar. Lakin dəqiq diaqnoz üçün mütləq digər skelet sümükləri müayinə edilməlidir. Məsələn çoxillik təcrübəmizdə döş sümüyü cismində seqmentlər arasında sərhədin tam itməsini, qabırğa oymaları nahiyələrində sümük çıxıntılarının izlənməsini 35 yaşlı şəxsdə müşahidə etmişik (halbuki morfoloji əlamətlər 40-50 yaş dövrünə daha uyğun gəlirdi). 30-40 yaş intervalı üçün xarakterik əlamətlər çanaq sümüklərində, ələxsus da qasıq bitişməsinin morfologiyasında təzahür edir [16]. Qasıq bitişməsi nahiyasinin konturları adətən ovalvari formanı alır, simfizial səth hələki bir-birini əvəzliyən şırım və qabarcıqlar şəklində yaxud dənəvari formada olur. Qasıq sümüyünün ön səthində sümük toxumasının daraq şəkilində formalaşması və sümüyün aşağı şaxəsinə doğru yayılması, eləcədə qasıq qabarcığının tam formalaşaraq təcrid olunması və müvafiq nahiyədə sümük toxumasının artması qeyd oluna bilər. Sonuncu əlamətlər daha çox 35 yaşdan sonra müşahidə olunur. Qabırğaların döş ucunda (IV qabırğaya dair məlumatlar daha çox işlənilmişdir) morfoloji dəyişikliklər də bu yaş qrupunu ayırmağa imkan verir. Gənc insanlarda demək olar ki, düz olan IV qabırğanın döş ucu bu yaşlarda tədricən dərinləşir, kənarları nisbətən düz və hamar olan aypara şəkilli çuxur şəklini alır.

Yaş artdıqca çuxurun ölçüsü bir qədər də böyüyür və növbəti yaş qruplarında (40-50 yaş və daha yuxarı) onun divarlarının kənarları incələşir və kələkötür olmağa başlayır, burada sümük toxumasının mürəkkəb formalı çıxıntıları yaranır (şəkil №3).



Şəkil 3 IV qabırğanın döş ucunun müxtəlif yaş qruplarında M.İşcan, S.Loth və R.Rayta (1984) görə morfoloji quruluşu: 19 yaşlı kişidə (yuxarıda solda); 32 yaşlı kişidə (yuxarıda sağda); 45 yaşlı kişidə (aşağıda solda); 61 yaşlı kişidə (aşağıda sağda).



Şəkil 4. Boylama kəsiklərdə bazu sümüyünün proksimal epifizinin süngəri maddəsində izlənən morfodinamik dəyişikliklər a) 33 yaşlı qadının bazu sümüyü başı; b) 39 yaşlı kişinin bazu sümüyü başı; c) 46 yaşlı kişinin bazu sümüyü başı; H.Hunger, D.Leopold (1978), V.İ.Paşkova, B.D.Reznikov (1978)

40-50 yaş intervalında qasıq sümüyünün dorzal səthində də sümük toxumasının daraq şəkilində formalaşması baş verir və dövrün ikinci yarısında simfiz səthinin kənarları tam formalaşır (simfizial həlqə). Simfiz səthi bu dövrdə nisbətən hamarlaşır, onun mərkəzi hissələri kənarlara nisbətən basıq olur. Dövrün sonlarına doğru qasıq qığırdağının və bəzi bağlar və əzələ vətərlərinin sümükləşməsi hesabına müvafiq nahiyədə tək-tək rast gələn sümük toxuması artımları da müşahidə edilir. Uzun borulu sümüklərdə də kiçik çıxıntıların və düzənsizliklərin mövcudluğu səbəbindən epifizlərdə sümük səthinin hamarlığı itir, kələkötür və nizamsız görünüş üstünlük təşkil edir. Süngəri maddə üçün bu yaş dövrlərində xırdaməsəməli quruluş hələ də xarakterik olur, lakin sümük iliyi kanalı bud sümüyündə kiçik burma, bazu sümüyündə isə cərrahi boynun

nahiyəsinə çatır, kompakt maddədə kəsik səthində yarıq və kanallar artıq bir qayda kimi müşahidə edilir (şəkil №4). Bu yaş dövrünü öncəki dövr ilə müqayisə etməyə dişlərin sürtülmə dərəcəsi (40-50 yaşda sürtülmə əlamətləri bütün dişlərdə olur) və kəllə skeletinin involyusiyası kömək edir. Burada həmçinin orta və distal əl və ayaq falanqalarının morfoloji dəyışıklikləri (osteofit, Eberden və Boşar düyünləri mövcudluğu və digər involyutiv əlamətlər) də differensasiya aparmağa yardımçı ola bilər.

50-60 yaş intervalında Eberden və Boşar düyünləri, osteofitlər və osteoporoz əlamətləri qeyd olunan falanqalarda əksər hallarda (I və V əl falanqalarında demək olar ki, daima) aşkarlanır. Bu ələmətlər ilə yanaşı bütün fəqərələrin və lokomotor apparat sümüklərinin oynaq səthlərində müəyyən involyutiv dəyişikliklər (az yaxud çox dərəcədə) izlənir. Məsələn aşıq-baldır oynağına aid bütün sümüklərin epifizlərində süngəri maddədə seyrəkləşmə və xırda boşluqların əmələ gəlməsi, fəqərələrdə osteoporoz əlamətləri, onların cismlərinin deformasiyası və bağlar təmas etdiyi nahiyələrdə osteofitlərin yaranması (Şəkil 5). Çanaq sümüklərində sirkə kəsasının dərinliyinin azalması və aypara oynaq səthinin kənarları boyunca sümük toxumasının nizamsız appozisiyası və digər involyusiya ələmətləri izlənir. Lakin çanaq sümüklərində daha kəskin dəyişikliklər yenə simfizial səthdə müşahidə edilir. Səthin kənarlarındakı daraq tədricən eroziyaya uğrayır və bu proses ventral hissədən başlayır, sətin özündə dərinləşmə artır, burada xırda defektlər əmələ gəlir və onların sayı tədricən çoxalır. Qasıq nahiyəsində habelə çanaq sümüklərinin digər hissələrində bağlar və əzələ vətərlərin birləşdiyi yerlərdə sümük toxuması artımları mütləq şəkildə aşkar olunur. Uzun borulu sümüklərin epifizlərində kələkötürlük artır, sümük səthində kiçik məsəməli defektlər əmələ gəlir. Süngəri maddədə artıq iriməsəməli quruluş üstünlük təşkil etməyə başlayır, kompakt maddədə kəsik səthində yarıq və kanalların sayı və ölçüləri artır. Kəllə skeletində bu dövrdə izlənən involyutiv dəyişikliklərin qısa xarakteristikasını belə ifadə etmək olar: bütün tikişlərdə (istisnalar inkar edilmir) müxtəlif dərəcədə sümükləşmə prosesinin mövcudluğu.



Şəkil 5. Fəqərə cismlərinin yuxarı səthlərində yaş əlaqəli baş verən dəyişikliklər: 12 yaşlı uşaq fəqərəsi, 28 və 60 yaşlı kişi fəqərələri; H.Hunger, D.Leopold (1978).

60-70 yaş intervalında borulu sümüklərdə gedən qocalma prosesləri sürətlənir. Bu dövr öncəki yaş intervalı ilə nisbətən çətin differensasiya edilsə də müəyyən əlamətlər müvafiq dövr üçün xarakterdir. Bud və bazu sümüklərinin epifizlərində süngəri maddədə geniş hücrələr və boşluqlar əmələ gəlir, sümük iliyi kanalı bud sümüyündə kiçik burmadan, bazu sümüyündə isə cərrahi boyundan proksimal yerləşir, kompakt qat nisbətən nazikləşir, onun daxili səthində kələkötür və saçaqlı sahələr (türk alimləri bu dəyişiklikləri kompakt qatın gevşemesi adlandırır) əmələ gəlir (şəkil №6). Aşağı ətrafda diz oynagını əmələ gətirən borulu sümüklərin epifizlərində osteoporoz əlamətləri izlənir (daha çox qadınlarda). Simfizial səthdə defekt və eroziyalar dərinləşir, səthin ventral kənarı getdikçə dağılır və itir, dövrün sonuna doğru deformasiyalı simfiz səthinə rast gəlmə ehtimalı artır. Bağlar və vətərlərin birləşdiyi yerlərdə nizamsız sümükləşmə davam edir və osteofitlərin sayı artır. Qabırğaların döş uclarında gedən proseslər də yaşın artması ilə korrelyasiya əlaqəsini göstərir [2, 18] və bütün dövrlərdə diaqnostika üçün uğurla tətbiq oluna bilər. Lakin 60-70 yaş və daha böyük yaş qruplarında qabırğaların döş uclarında (ələxsus da IV qabırğada) destruktiv dəyişikliklər daha da artır, oynaq səthin konturları aypara formasını tamamilə itirir, qeyri-bərabər çıxıntılar və kələkötürlük əmələ gəlir. Yaş

artıqça qabırğaların döş uclarında deformasiya, sümük toxumasının kövrəkləşməsi və osteoporoz əlamətləri meydana çıxır. Sonda bir mühüm məsələni də mütləq qeyd etməliyik. Son dövrlərdə təbabətin nailiyyətləri, sağlam həyat tərzinə üstünlük verən insanların sayının artması və digər obyektiv faktorlar son iki yaş dövrü arasında differensasiya aparmağa imkan verən amillərin aşkar edilməsini çətinləşdirir. Bəzi müəlliflər müvafiq hallarda yaş diaqnozunu 40-60 (hətta 40-70) yaş intervalında verilməsini qaçılmaz reallıq kimi qəbul edirlər [19, 20].



Şəkil 6 Bud sümüyü başında süngəri maddədə geniş hücrələr və boşluqlar. Solda 64 yaşlı qadında (V.İ.Paşkova, B.D.Reznikova görə, 1978); sağda 75 yaşlı kişidə (H.Hunger, D.Leopolda görə, 1978). Şəkil involyusiya əlamətləri ilə yanaşı həmçinin osteoporotik dəyişikliklərin qadınlarda daha sürətlə getdiyini nümayiş etdirir.

Yaşın təyini üçün sümük morfodinamikasına aid tərəfimizdən təqdim olunan məlumatlar təxminən yarım əsrə yaxın iş təcrübəmizdə uğurla apardığımız ekspertizaların nəticəsinə əsasən verilib. Təbii ki, bu metologiya universal sayıla bilməz və hər bir skeletin identifikasiyasına hər zaman fərdi nöqteyi-nəzərdən yanaşma prinsipi [4] ilə bizdə razıyıq. Yaşın təyini ekspertizalarında morfodinamikası yaşla əlaqəli dəyişiklikləri əks etdirən sümük sayı nə qədər çox olarsa [16, 21] alınan nəticə də bir o qədər dəqiq olur. Digər əməl olunası vacib məqam tətbiq edilən metodologiyada müvafiq əhali qrupunun populyasiya dəyişkənliyinin nəzərə alınmasıdır [17, 22]. Bu standartlara uyğun olaraq keçirilən məhkəmə-antropoloji ekspertizalar daha yüksək keyfiyəti və dürüstlüyü ilə fərqlənir.

ƏDƏBİYYAT

1. Adams B.J. Forensic Anthropology (Inside Forensic Science). New York, Chelsea House, 2007, 104 p.
2. Iscan M.Y., Steyn M. The Human Skeleton in Forensic Medicine. Charles C. Thomas, Springfield, IL, 2013, 515 p.
3. Пашкова В.И., Резников Б.Д. Судебно-медицинское отождествление личности по костным останкам. Саратов, 1978, 329 с.
4. Reichs K.J., Ed. Forensic Osteology (2nd edition). Charles C. Thomas, Springfield, IL, 1998, 568 p.
5. Медико-криминалистическая идентификация. Под ред. В.В. Томилина. Москва, 2000, 466 с.
6. Şadlinski V.B., Qasımov Ş.İ., Mövsumov N.T. İnsan anatomiyası. Bakı, 2014, s. 43-200.
7. Sullivan S., Flavel A., Franklin D. Age estimation in a sub-adult Western Australian population based on the analysis of the pelvic girdle and proximal femur // Forensic Science International, 2017, v.281, p. 185-185
8. Ekizoglu O. et al. Computed tomography evaluation of the iliac crest apophysis: age estimation in living individuals. International Journal of Legal Medicine, 2016, v.130, p. 1101-1107.
9. Ekizoglu O. et al. Forensic age diagnostics by magnetic resonance imaging of the proximal humeral epiphysis. International Journal of Legal Medicine, 2019, v.133, p. 249-256.

10. Cameriere R., Ferrante L., Cingolani M. Variations in pulp/tooth area ratio as an indicator of age: a preliminary study. Journal of Forensic Sciences, 2004, v.49, p. 317-319.
11. Guo Y., Chu G., Olze A. et al. Age estimation of Chinese children based on second molar maturity. International Journal of Legal Medicine, 2018, v.132, p. 807-813.
12. Gök E., Fedakar R., Kafa İ. Usability of dental pulp visibility and tooth coronal index in digital panoramic radiography in age estimation in the forensic medicine. International Journal of Legal Medicine, 2020, v.134, p. 381-392.
13. Schmidt S., Mühler M., Schmeling A. et al. Magnetic resonance imaging of the clavicular ossification. International Journal of Legal Medicine, 2007, v.121, p. 321-324.
14. P5 Medicine and Justice (editor Ferrara S.D.). Cham, Springer International Publishing AG, 2018,658 p.
15. Zapico S.C., Ubelaker D.H. Applications of physiological bases of ageing to forensic sciences. Estimation of age-at-death. Ageing research reviews, 2013, v.12(2), p. 605-617.
16. Ekta P. Methods of skeletal age estimation used by forensic anthropologists in adults: a review. Forensic Research and Criminology International Journal, 2013, v.4(2), p. 41-51.
17. Musayev Sh.M. Medico-criminalistic identification populations of the Caucasus on skull. Baku, 1999, 127 p.
18. McCormick W.F., Stewart J.H. Age related changes in the human plastron: a roentgenographic and morphologic study. Journal of Forensic Sciences, 1988, v.33(1), p 100-120.
19. Cook G.T., Ainscough L.A.N., Dunbar. E. Radiocarbon analysis of modern skeletal remains to determine year of birth and death – a case study. Radiocarbon, 2015, v.57(3), p. 327-336.
20. Brock F., Cook G.T. Forensic radiocarbon dating of human remains: the past, the present, and the future. Archaeological and Environmental Forensic Science, 2017, v.1(1), p. 3-16.
21. Martrille L., Ubelaker D.H., Cattaneo C. et al. Comparison of four skeletal methods for the estimation of age at death on White and Black adults. Journal of Forensic Sciences, 2007, v.52(2), p. 302-307.
22. Ubelaker D.H., Khosrowshahi H. Estimation of age in forensic anthropology: historical perspective and recent methodological advances. Forensic Sciences Research, 2019, v.4(1), p. 1-9.

Резюме
Определение возраста при судебно-антропологическом исследовании (практические рекомендации)
Ш.М. Мусаев, З.М. Каримов, А.Ш. Ибрагимов

В судебной антропологии, основанной на изучении человеческих останков, диагностика биологического профиля человека, которому эти останки принадлежали (конечно, учитывается прогностическая информация), зависит от определения многих физических и биологических параметров. Среди них внутригрупповые характеристики, такие как пол, возраст, раса и рост (длина тела на протяжении всей жизни), являются чуть ли не наиболее важными и некоторые авторы называют их «большой четверкой». Среди указанных параметров наиболее трудным для диагностики является определение возраста. С учетом этого подготовлен обзор современных научных данных по проблеме определения возраста костных останков.

Summary
Age determination in forensic anthropological research (practical recommendations)
Sh.M. Musayev, Z.M. Karimov, A.Sh. Ibrahimov

In forensic anthropology, based on the study of human remains, the diagnosis of the biological profile of the person to whom these remains belonged (of course, prognostic information is taken into account) depends on the determination of many physical and biological parameters. Among them, intragroup characteristics such as gender, age, race and height (body length throughout life) are almost the most important and some authors call them the "big four". Among these parameters, age determination is the most difficult to diagnose. Taking this into account, a review of modern scientific data on the problem of determining the age of bone remains has been prepared.

Daxil olub: 08.01.2024

Müxtəlif şəraitlərdə əmələ gələn küt kəllə-beyin travmalarının biomexaniki diaqnostikası zamanı istifadə edilən kompüter tomoqrafiyasının məhkəmə-tibbi baxımdan qiymətləndirilməsi

E.İ.Ələkbərov, Z.M.Məmmədov
Azərbaycan Tibb Universiteti Məhkəmə təbabəti kafedrası, Bakı

Açar sözlər: kəllə sümüklərinin sınıqları, kəllə-beyin zədələnmələri, biomexanika, kompüter tomoqrafiyası.
Ключевые слова: переломы черепа, травмы головы, биомеханика, компьютерная томография.
Key words: skull fractures, head injuries, biomechanics, computed tomography.

Müxtəlif hadisələr zamanı hüquq-mühafizə orqanlarının ekspertiza qarşısında qoyduğu əsas suallardan biri olan xəsarətlərin əmələ gəlmə mexanizminin aydınlaşdırılması üçün məhkəmə-tibb ekspertləri tərəfindən təcrübi və nəzəri biliklərə əsaslanmaqla tərtib edilmiş ekspert rəyi, sübut növü kimi məhkəmə-istintaq orqanlarının fəaliyyətində mühüm rol oynayır [1,2].

Bütün dünyada əhalinin ölüm faizinə görə kəllə-beyin travmaları (KBT) ürək damar və onkoloji xəstəliklərdən sonra 3-cü yerdə durur, hətta ədəbiyyat məlumatlarına görə Rusiyada ürək-damar xəstəliklərindən sonra 2-ci yerdə durur. Həmin ölkədə hər il 500 min insan KBT-sı alır, onlardan 45 mini ölür, 50 mini isə əlil olur [9,11,15,16,17,18]. Məhkəmə tibbi baxımdan müxtəlif şəraitlərdə əmələ gələn xəsarətlərin Kompüter Tomoqrafiyası (KT) müayinəsi zamanı aşkar edilməsi və onların biomexaniki xüsusiyyətlərini nəzərə almaqla qiymətləndirilməsi hüquq-mühafizə orqanları üçün çox əhəmiyyətlidir. Belə xəsarətlərdən biri də müxtəlif şəraitlərdə əmələ gəlmiş küt kəllə-beyin travmalarıdır. KBT əhali arasında ölüm və əlilliklə nəticələnən əsas zədələnmələrdən biridir. Başın zədəsi ilə əlaqədar olaraq ölüm faizi gənc yaşlarda daha çox olur. Hər il dünyada KBT-dan 1,5 mln. insan ölür və 2,4 mln. şəxs əlil olur. Rusiyada orta hesabla hər min nəfərə 3-4 nəfər düşür [3,4,6,7,8,10].

Müasir dövrdə alınmış travmalar arasında KBT-nin daha çox və tez-tez müşahidə olunmasına baxmayaraq travmanın əmələ gəlmə mexanizmini tam aydınlaşdırılması üçün məhkəmə-tibbi meyarlar kifayət qədər işlənməmişdir [5,12,13,14,19,20,21]. Məhkəmə-tibbi ekspertlərinin verdikləri rəylərin təhlili göstərir ki, KBT-nın qiymətləndirilməsində müəyyən səhvlərin və qüsurların olması tez-tez müşahisə edilir. Onların əmələ gəlmə mexanizminin formalaşmasındakı səhvlərin aşkar edilməsi vahid yanaşmanın olmaması ilə izah edilir

Tədqiqatın məqsədi. Müxtəlif şəraitlərdə (nəqliyyat travmaları, hündürlükdən yıxılma, döyülmə, sıxılma zamanı) əmələ gələn kəllə-beyin travmalarının biomexaniki xüsusiyyətlərini nəzərə almaqla müasir müayinə metodlarından (KT) istifadə edərək, onların əmələ gəlmə mexanizminin məhkəmə-tibbi baxımdan qiymətləndirilməsi olmuşdur.

Tədqiqaın material və metodları. 2021-2022-ci ilin 6 ayı ərzində KTM-in (Kliniki Tibbi Mərkəz) Neyrocərrahiyyə şöbəsində müayinə və müalicə almış zərərçəkənlərin xəstəlik tarixləri, orada təsbit edilmiş Rentgen və Maqnit Rezonans Tomoqrafiya (MRT) və Kompüter Tomoqrafiyası (KT) müayinələrinin nəticələrinin təhlili aparılmışdır. Bunun üçün müasir müayinə metodlarından istifadə edərək KTM-in neyrotravma şöbəsinə 2021-ci ilin son 3 ayı və 2022-ci ilin ilk 3 ayı ərzində daxil olmuş 97 zərərçəkənin xəstəlik tarixləri tədqiq edilərək, öyrənilmişdir.

Alınmış nəticələrin müzakirəsi. Ümumilikdə, müxatəlif şəraitlərdə alınmış küt kəllə-beyin travmaları ilə əlaqədar KTM-in neyrotravma şöbəsinə qəbul edilmiş 76 zərərçəkəndə müasir metodlardan (KT, MRT) istifadə etməklə müayinə aparılmışdır. Xəstəlik tarixlərində travma ilə əlaqədar olan 76 zərərçəkəndə KT və MRT nəticələri öyrənilərək təhlil edilmişdir. Həmin zərərçəkənlərdə xəsarətlərin növləri, əmələ gəlmə səbəbləri 2021-2022-ci illər və yaş qrupları üzrə ayırd edilmişdir (Cədvəl 1).

Cədvəldən göründüyü kimi KTM-ə qəbul edilmiş 76 şəxsdən 2021-ci ildə 25 nəfər, 2022-ci ildə isə 21 şəxs yol-nəqliyyat hadisəsi ilə əlaqədar olaraq xəsarət almışdır; döyülmə ilə əlaqədar 2021-ci ildə 8 hadisə, 2022-ci ildə isə 4 nəfər müayinə və müalicə almışdır; hündürlükdən yıxılma ilə əlaqədar olaraq 2021-ci ildə 7 nəfər, 2022-ci ildə isə 11 nəfər şəxs xəsarət almışdır. Zərərçəkənlərin yaş qrupları üzrə təhlil aparıldıqda müəyyən edilmişdir ki KBT ilə əlaqədar müayinə və müalicə almış zərərçəkənlər arasında ən çox 15-25 yaş qrupları üzrə və 26-45 yaş qrupları üzrə təsadüf edilərək müvafiq olaraq 26 və 28 nəfər olmuşdur. Göründüyü kimi həmin qruplar üzrə zərərçəkənlərin olması əmək qabiliyyətli şəxslərin daha çox olması ilə əlaqədar bir çox tibbi, sosial və ailə problemlərinin olmasına səbəb olur. Klinik Tibbi Mərkəzin Neyrotravma şöbəsinə qəbul edilmiş zərərçəkənlərin müasir müayinə metodlarından stifadə edilməklə müayinə və müalicə edilmiş KBT –

rı almış həmin şəxslər 2021-2022-ci illər üzrə cinsə görə ayırd edilmişdir (Cədvəl 2). Kişilərdə KBT-nın rast gəlmə tezliyi əmək qabiliyyətli şəxslərdə yaş qrupları üzrə 15-25 və 26-45 yaşlarda qadınlara nisbətən 2,5 dəfə daha çox təsadüf edilir.

Cədvəl 1

2021-2022-ci illərdə Klinik Tibbi Mərkəzin Neyrocərrahiyyə şöbəsində müayinə və müalicə olunmuş şəxslərin travmanın növləri və yaş qrupları üzrə ayırd edilməsi

Travmanın növü və əmələ gəlmə səbəbləri	İl	Yaş					
		0-14	15-25	26-44	45-65	66+	Cəmi
Yol-nəqliyyat hadisəsi	2021	0	11	9	3	2	25
	2022	0	10	7	2	2	21
Döyülmə	2021	0	2	4	1	1	8
	2022	0	1	2	1	0	4
Hündürlükdən yıxılma	2021	1	2	1	2	1	7
	2022	0	0	5	2	4	11

Cədvəl 2

Zərərçəkənlərin müasir müayinə metodlarından istifadə edilməklə illər üzrə cinsə görə ayırd edilməsi

İllər	Rentgen		MRT		Baş beynin 3D rekonstruksiyalı KT-si		Nativ KT	
2021	Kişi 5	Qadın 1	Kişi 1	Qadın 0	Kişi 5	Qadın 4	Kişi 18	Qadın 6
2022	Kişi 1	Qadın 0	Kişi 3	Qadın 0	Kişi 7	Qadın 3	Kişi 18	Qadın 9

Cədvəldən göründüyü kimi xəstəxanaya daxil olmuş 81 zərərçəkənin müayinəsində əsasən ən son müasir müayinə metodu olan MRT, Baş beyin 3D rekonstruksiyalı KT-si və Nativ KT istifadə edilmişdir, yalnız 7 zərərçəkəndə rentgen müayinə metodundan istifadə edilmişdir. 97 hadisədən isə 4-də MRT müayinəsi aparılmışdır. Göründüyü kimi Neyrocərrahiyyə şöbəsinə daxil olmuş zərərçəkənlərin əksəriyyətində (51) nativ KT və 19-da 3D konstruksiyalı KT müayinəsindən, 4 halda isə MRT müayinə üsulundan istifadə edilmişdir. 2021-cin ildə müayinə olunmuş zərərçəkənlərin 29-u kişi cinsli, 11 nəfəri isə qadın cinsli şəxslər olmuşdur; 2022-ci ildə isə 29 nəfəri kişi, 12-si isə qadın cinsli şəxslər olmuşdur. Beləliklə, cədvəldən göründüyü kimi, KBT-sı almış zərərçəkənlər arasında kişilər qadınlara nisbətən təxminən 2,5 dəfə çox olmuşdur.

Müxtəlif şəraitlərdə KBT-sı almış zərərçəkənlərin KT və MRT müayinəsi zamanı aşkar edilmiş xəsarətlər 2021-2022-ci illər üzrə ayırd edilmişdir (Cədvəl 3).

Cədvəl 3

Müxtəlif şəraitlərdə zədə almış zərərçəkənlərin KT müayinəsi zamanı aşkar edilmiş xəsarətlərin ayırd edilməsi

İllər	Kəllə əsası sümüklərinin sınığı	Kəllə tağı sümüklərinin sınığı	Açıq KBT	Qapalı KBT	Müştərək KBT	Epidural qansızma	Subdural qansızma	Sunarxnoidal qansızma	Üz-skeleti sümüklərinin sınıqları	Burun sümüyü sınıqları	Beyin əzilməsi
2021	8	20	7	15	8	2	5	2	13	8	8
2022	6	12	8	19	9	4	7	2	9	5	13

Cədvəldən göründüyü kimi, KBT arasında ən çox təsadüf edilən qapalı KBT-dır. Belə ki, 2021-ci ildə 15 hadisə; 2022-ci ildə isə 19 hadisə qeydə alınmışdır. Kəllə tağı sümüklərində olan sınıqlar da, müvafiq olaraq 2021-ci ildə 20 halda; 2022-ci ildə bir qədər az təsadüf edilərək 12 hadisədə qeydə alınmışdır. Kəllə əsası sınıqları 2021-ci ildə 8; 2022-ci ildə 6 hadisədə təsadüf edilmişdir. Müştərək travmaların rast gəlinməsi 2021-

ci ildə 8; 2022-ci ildə 9 şəxsdə təsadüf edilmişdir. Əgər KBT-ı zamanı qansızmaların olmasına diqqət etsək görərik ki, müayinədən keçirilmiş zərərçəkənlərdə ən çox subdural qansızmaların olması müşahidə edilmişdir. Belə ki, epidural qansızmalar 2021-ci ildə 2 hadisə; 2022-ci ildə 4 hadisədə təsadüf edilmişdir. Subarxnoidal qansızmalar isə hər iki ildə 2 hadisə qeydə alınmışdır. Subdural qansızmalar isə 2021-ci ildə 5; 2022-ci ildə isə 7 halda rast gəlinmişdir. Aparılan araşdırmalar göstərmişdir ki, üz-skeleti sümüklərinin çox rast gəlməsi (müvafiq olaraq 13 və 9 hadisə) onların bəzi hallarda alın sümüyü və xəlbir sümükləri ilə birgə müşahidə edilərək KBT-ı kimi qiymətləndirilməsi olmuşdur. Burun sümüklərində olan sınıqların çox vaxt kəllə sümükləri sınıqları ilə birlikdə təsadüf edilsə də, biz onları ayrıca müəyyən edərək 2021-ci ildə 8; 2022-ci ildə isə 5 hadisədə təsadüf edildiyini müəyyən etmişik. KBT-ı zamanı ən çox təsadüf edilən xəsarətlərdən biri də beyin toxumasının əzilməsi olmuşdur. Belə ki, 2021-ci ildə 8 halda; 2022-ci ildə 13 hadisədə KT müayinəsində beyin əzilməsinin olması aşkar edilmişdir. Aparılan tədqiqatlar nəticəsində zərbə ən çox öndən alın sümüyü nahiyəsinə yetirildikdə alın sümüyü ilə bərabər almacıq və burun sümüklərində sınıqların olması və kəllə əsası sınıqlarında isə daha çox gicgah sümüklərinin daşlı hissəsində sınıqların olması müəyyən edilmişdir. Müayinə metodları nəticəsində müəyyən edilmişdir ki, sümüklərin biomexaniki dözümlülüyü fərqlənir. Belə ki, sümüklərin qalınlığı və zərbə qüvvəsində asılı olaraq sümük qəlpələri və çatlara görə zərbənin istiqamətin təyin etmək olar.

Nəticə:

1. Aparılan rentgenoloji, KT, MRT müayinələrinin təhlili zamanı kəllə tağı və kəllə əsası sümüklərində olan sınıqların bəzi xüsusiyyətlərini nəzərə almaqla onlardakı fərqli əlamətləri ayırd etmək olar.
2. Xəstəlik tarixlərində təsbit edilmiş KT və MRT müayinələrinin nəticələrini differensasiya etməklə onların əmələ gəlməsi səbəblərini dəqiqləşdirmək olar.
3. Aparılmış tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, KBT-sı almış və müayinədən keçirilmiş kişi cinsli şəxslərin sayı, qadın cinsli şəxslərə nisbətən təxminən 2,5 dəfə çox olmuşdur.

Yekun. Beləliklə, müxtəlif şəraitlərdə alınmış küt kəllə-beyin travmalarının müasir müayinə üsulları (KT, MRT) ilə müayinə edilməsi, klinik diaqnozun düzgün təyin edilməsinə səbəb olur. Bu isə, məhkəmə-tibbi ekspertiza təcrübəsində məhkəmə-tibbi ekspertlərinin obyektiv rəy verməsi, zərərçəkənlərdə zərbənin vurulma yerini və istiqamətini daha dəqiq müəyyən etməyə imkan verir.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi. Bakı, 2018, 607 s.
2. Bunyatov M.O., Məmmədov V.Q., Məmmədov Z.M.və b. Məhkəmə təbabəti (Milli rəhbərlik). Azərbaycan Tibb Univeritetinin «Təbib» nəşriyyatı, 2022, 453 s.
3.Бунятов М.О. Биомеханика повреждений тела человека при свободном падении с большой высоты: Автореф. ... дис.канд.мед.наук. М., 2001, 44с.
4. Жуков В. А. Судебно-медицинская оценка повреждений при различных условиях падения человека с малой высоты Автореферат диссертации кандидата медицинских наук. Барнаул, 2007 г.
5. Зарубина С.В. Судебно-медицинская оценка повреждений, возникающих при падении на плоскости, и его биомеханические аспекты. Диссертация кандидата медицинских наук. Барнаул, 2007
6. Корсаков С.А. Судебно-медицинская экспертиза повреждений головы (экспериментально-биомеханическое исследование). Автореферат диссертации кандидата медицинских наук. Москва,1992
7. Казымов М.А., Шадымов А.Б. Структура переломов костей лицевого черепа при различных видах травмы / Актуальные вопросы судебной медицины и экспертной практики / под ред. В.П. Новоселева, В.Э. Янковского. Новосибирск, 2000, вып.5, с.109-112
8. Козлов В.А., Попов В.Л., Егорова О.А. Клинические и экспертные характеристики сочетанной черепно-лицевой травмы (часть II) // Институт стоматологии, 2009, т.4 №45 ,с.20
9. Нейрохирургия и неврология Биомеханика черепно-мозговой травмы. Источник: https://medbe.ru/materials/cherepno-mozgovye-narusheniya/biomekhanika-cherepno-mozgovoy-travmy/
10. Областное бюджетное учреждение здравоохранения «Бюро судебно-медицинской экспертизы» комитета здравоохранения Курской области . конспект практического врача. судебно-медицинская экспертиза черепно-мозговой травмы. (Справочно-информационные материалы). Курск, 2014
11. Смычёк В.Б., Пономарёва Е.Н. Современная классификация черепно-мозговой травмы // Проблемные статьи и обзоры, 2012, №1

12. Корсаков С.А., Якунин С.А. Некоторые вопросы биомеханики прижизненных внутричерепных повреждений // Суд.мед. эксперт., 2000, № 4, с. 5-7.

13. Черепно-мозговая травма. Учебное пособие.УФА2020. «Башкирский Государственный Медицинский Университет».

14. Якунин С.А. Судебно-медицинская оценка повреждений головы при воздействии тупыми предметами Автореферат диссертации кандидата медицинских наук. М., 2004

15. Gurdjian E.S., Webster J.E., Lissner H.R. Observations on prediction of fracture site in head injury // Radiology,1953, v.60(2), p.226-35.

16. Huempfner-Hierl H., Schaller A., Hemprich A. et alş Biomechanical investigation of naso-orbitoethmoid traumaby finite element analysis // Brit J Oral Maxillofac Surg., 2014, v.52, p.850-853.

17. Langlois, J. A., Rutland-Brown, W., Thomas, K. E. Traumatic Brain Injury in the United States: Emergency Department Visits, Hospitalizations, and Deaths. Centers for Disease Control and Prevention, National Center for Injury Prevention and Control, Atlanta, GA, 2004.

18. Mammadov V.G. Forensic medicine. Baku. 2012.

19. Ommaya A.K. Biomechanics of head injury, In The Biomechanics of Trauma, A.M. Nahum and J.W. Melvin Eds, Appleton-Century-Crofts, Norwalk, 1984.

20. Verschueren, P., Delye, H., Berckmans, D. et al. Analysis of fracture characteristics of cranial bone for FE modelling // Presented at the IRCOBI Conference, 2006

21. Yannick Distriquin, Jean-Marc Vital & Bruno Ella. Biomechanical analysis of skull trauma and opportunity in neuroradiology interpretation to explain the post-concussion syndrome: literature review and case studies presentation // European Radiology Experimental, 2020, v.4 (66)

Резюме

Судебно-медицинская оценка компьютерной томографии, используемой при биомеханической диагностике тупых травм головы, полученных в различных состояниях.

Э.И. Алекперов, З.М.Мамедов

Проведен ретроспективный анализ историй болезни пострадавших, проходивших обследование и лечение в отделении нейротравматологии Клинического Медицинского Центра (КМЦ) в Баку за 6 месяцев 2021-2022 годов, а также результаты современных обследований, включенных в них. Были проанализированы и изучены истории болезни. В результате исследований установлено, что у большинства пострадавших, поступивших в отделение нейрохирургии 51-го была нативная КТ, а у 19 –ти 3D-сконструированная КТ. Данные обследования помогают установить правильный и точный клинический диагноз, а также уточнить механизм травмы, дать объективное заключение и повысить качество экспертизы.

Summary

Forensic medicine of computed tomography used during biomechanical diagnosis of blunt head injuries caused in different conditions

E.I. Alekbarov, Z.M. Mammadov

A retrospective analysis of the medical histories of the patients who were examined and treated in the neurotrauma department of the Clinical Medical Center (CMC) in Baku during the 6 months of 2021-2022 was conducted, and the results of the modern examinations included in those medical histories were analyzed and studied. As a result of the researches and studies, it was determined that 51 injured of the admitted to the neurosurgery department had a native CT scan and 19 had a 3D constructed CT scan. These examinations help to determine the correct and accurate clinical diagnosis, as well as to clarify the mechanism of injury, provide an objective opinion and improve the quality of expertise.

Daxil olub: 08.01.2024

PRAKTİK HƏKİMƏ KÖMƏK-
ПОМОЩЬ ПРАКТИЧЕСКОМУ ВРАЧУ

Üçgünlük malyariya törədicisinin (*Plasmodium vivax*) *in vitro* kultivasiyasına müxtəlif yanaşma üsulları

Ş.N.Əliyeva, F.H.Hüseynova, Z.Z.Abseynova, S.N.Eyvazlı, İ.A.Məsimova
V.Y.Axundov adına Elmi-Tədqiqat Tibbi Profilaktika İnstitut, Bakı

Açar sözlər: malyariya, P.vivax, fasiləsiz kultura, merozoitlər, qidalı mühitlər, retikulositlər
Ключевые слова: малярия, P.vivax, непрерывная культура, мерозоиты, питательные среды, ретикулоциты
Keywords: malaria, P.vivax, continuous culture, merozoites, medium, reticulocytes

Malyariya *Plasmodium* cinsinə aid birhüceyrəli parazitlərlə yoluxma nəticəsində yaranır. İnsanlarda xəstəlik törədən 5 *Plasmodium* növü məlumdur: *P.falciparum, P.vivax, P.ovale, P.malariae* və *P.knowlesi*. Dünya üzrə malyariya ilə yoluxma hallarının əksəriyyəti *P.falciparum* və *P.vivax* tərəfindən törədilir. Dünya üzrə təxminən 2,5 milyard insan üçgünlük malyariya ilə yoluxma riski altındadır [1]. Qaraciyərdə gizli hipnozoit mərhələsinə görə, *P.vivax* digər malyariya növlərinə nisbətən soyuq iqlimlərdə də yaşaya bilir. Bu xüsusiyyət onun tropiklər, subtropiklər və mülayim iqlim qurşağı da daxil olmaqla daha geniş coğrafi diapazonda yayılmasına kömək edir.

Üçgünük malyariya ilə effektli mübarizə üçün əvvəlcə törədicinin uzunmüddətli kulturası əldə edilməlidir. *P.vivax*-ın fasiləsiz kulturasının alınması parazitin biologiyasının öyrənilməsi, mövcud dərmanlara həssaslığın araşdırılması, vaksin və yeni dərman preparatları hazırlanması baxımından çox əhəmiyyətlidir. Təəssüf ki, *P.falciparum*-un fasiləsiz kulturası üçün effektiv olan metod *P.vivax*-ın uzunmüddətli kulturasının alınmasında özünü doğrultmadı.

P.vivax-ın mürəkkəb bioloji xüsusiyyətləri onun uzunmüddətli kulturasının alınmasına əngəl törədir. Bu plazmodium növünün fasiləsiz kultivasiyası üçün hələlik standart protokol mövcud deyildir. *P.vivax*-ın fasiləsiz kulturasının alınmaması səbəblərindən biri kimi merozoitlərin sahib hüceyrəyə daxil ola bilməməsi göstərilir [2, 3]. Tədqiqatçıların fikrinə görə *P.vivax*-ın kulturasının standartlaşdırılması üçün bir çox aspektlər nəzərdən keçirilməlidir.

P.vivax kulturası üçün ən əhəmiyyətli ədəbiyyat məlumatları *P.vivax*-ın əsasən cavan eritrosit və retikulositlərə [4] üstünlük verməsi haqda müşahidələrdir. Bu müşahidələrdən həmçinin belə məlum olmuşdur

ki, *P.falciparum* kulturası üçün çox uğurlu olan Petri qabları və şamdan ibarət sistem *P.vivax* üçün yararlı deyil. Norbert Lanners tərəfindən aparılan tədqiqatların (1992) nəticəsinə görə dinamik sistem və retikulositlər *P.vivax* kulturası üçün daha qənaətbəxşdir. Parazitlərin retikulositlərə tropizmi uzunmüddətli kulturanın alınmasında əsas maneədir. Digər manea pasientlərdə üçgünlük malyariya törədicilərinin aşağı sıxlıqda olmasıdır.

Qeyd edildiyi kimi, *P.vivax* əsasən cavan eritrositləri (retikulositlər) zədələyir. Kulturanı daim retikulosit kütləsi ilə təmin etmək bu hüceyrələrin insanın periferik qanının yalnız 1-2%-ni təşkil etməsi, kövrəkliyi və həyat qabiliyyətinin aşağı olması baxımından çox problematikdir. Retikulositlər sümük iliyində yaranıb, sonra periferik qan dövranına keçir və burada yetkin eritrositlərə çevrilir. *İn vitro* şəraitdə kultura mühitinə retikulosit əlavəsi ilə parazitin daimi inkişafını təmin etmək mümkün deyil, çünki bu retikulositlər sürətlə böyüyüb, eritrositlərə çevrilirlər və yenidən cavan eritrosit əlavəsinə ehtiyac duyulur. Nəticədə kulturanın durulaşdırılması baş verir. Müxtəlif tədqiqatçılar tərəfindən üçgünlük malyariya törədicisinin kulturası üçün fərqli mənbələrdən əldə edilmiş retikulositlərdən istifadə olunmuşdur [5] - *Aotus* cinsi meymunlarının qanı, hemoxromatozlu pasientlərin qanı (6), insan cift qanı [2]. Bəzi müəlliflər hemopoetik kök hüceyrələrindən (HSC) alınmış retikulositlərdən istifadə etmişlər [7].

Golenda-nın tədqiqatında [6] HSC kulturasından alınmış retikulositlərin *P.vivax*-ın daha yetkin mərhələlərinin inkişafı üçün tələb olunan bəzi vacib faktorlardan məhrum olduğu aşkar edilmişdir. Başqa bir araşdırmaçının gəldiyi nəticəyə görə isə HSC-dən (hemopoetik kök hüceyrələr) alınmış retikulositlərin (20%) istifadəsi *P.vivax* kulturasının aparılması üçün lazım olan daha homogen və standartlaşdırılmış hüceyrə populyasiyasını təmin edə bilir [8].

Ədəbiyyat məlumatlarına əsasən ən əlverişli retikulosit (yeni ya kriokonservasiya olunmuş) mənbəyi hemoxromatozlu xəstələrdir. Differensial sentrifuqəyə məruz qoyulmuş bu retikulositlər stabil şizont faizini və parazitlərin invaziyasını, inkişafını təmin edə bilmişlər [9].

P.vivax əsasən Duffy antigeninə pozitiv retikulositlərə üstünlük verir. *P.falciparum* isə əsasən yetkin eritrositləri invaziya edir. *P.vivax* merozoitlərinin apikal qütbündə yerləşən 2 zülal (PvRBP-1 və PvRBP-2) retikulositlərlə birləşir. *P.vivax*-da DARC-la əlaqə quran Duffy Binding Protein (PvDBP) mövcud olmalıdır. Zülal parazitin retikulositlərə keçməsini təmin edir. Lakin DARC həm normositlərdə, həm də retikulositlərdə mövcuddur. Bu səbəbdən də parazit tərəfindən retikulositlərin spesifik tanınmasını tam təmin edə bilməz. Buna baxmayaraq PvDBP və cavan retikulositlərdə DARC tanınmasına xidmət edən xüsusi mexanizmin olduğu və bu mexanizmin köməyilə parazitin əsasən cavan retikulositləri seçməsi haqda mülahizələr yürüdülür [10]. Uzun illərin müşahidəsinə əsasən eritrosit səthində Duffy zülalının olmaması *P.vivax*-a qarşı təbii müdafiəni təşkil edir. Duffy qan qrupu əsas parazit liqandı olan *P.vivax* Duffy binding protein (PvDBP) üçün reseptor rolunu oynayır. Digər parazit liqandı kimi *P.vivax* reticulocyte binding proteins (PvRBPs) məlumdur. Bu liqand ailəsinə daxil olan PvRBP1a və PvRBP2b Duffy neqativ retikulositlərlə birləşə bilir. Bu da onların invaziya prosesindəki Duffy antigenindən asılı olmayan rolunu açıqlayır. PvRBP2b retikulosit tanınmasında və transferrin reseptoru 1 (TfR1) vasitəsilə invaziya prosesində əsas liqanddır [11]. Duffy neqativ eritrositlərin invaziyasında bu 2 liqandın rolu hələ yam müəyyənləşdirilməyib.

Transferrin 1 reseptoru (TfR1, CD71) PvRBP2b ilə birləşir. Sağlam insanda TfR1 insanın Fe daşıyan transferrin liqandı ilə birləşir və bu kompleks hüceyrələrə dəmir daşıyan əsas mexanizmi tənzimləyir [12]. TfR1 retikulositlərdə güclü şəkildə ekspressə olunub, onlar normositlərə çevrilərkən itir. TfR1 ekspressiyası olmayan mutant hüceyrələr *P.vivax* invaziyası üçün yararlı deyil.

Lanners (1992) tərəfindən *P.vivax*-ın kultivasiyasına həsr olunmuş tədqiqatlar nəticəsində aydın olmuşdur ki, parazitlə invaziya sahib hüceyrənin kövrəkliyini aşırı artırır və şizontların vaxtından əvvəl, yəni merozoitlərin retikulositlərə daxil olmağa hələ hazır olmadığı zaman parçalanması uzunmüddətli kulturanın alınmasını əngəlləyir. Eyni nəticəyə Mons B. və əməkdaşları da gəlmişlər (1988).

P.vivax-ın *in vitro* eksponensial inkişafına və fasiləsiz kulturasının alınmasına mane olan digər ciddi problem plazmodiumların həyat tsiklinin müxtəlif mərhələlərində (üzükvari formadan şizont və merozoitlərə qədər) inkişafının dayanmasıdır [13]. Fasiləsiiz kulturanın alınması üçün həm parazitin, həm də sahib hüceyrənin zərərsizliyi təmin olunmalı, onlar üçün optimal şərait yaradılmalıdır. Bir çox tədqiqatçılar *P.vivax*-ın *in vitro* kultivasiyası üçün tələb olunan şərtlərin *P.falciparum*-dan fərqli və daha mürəkkəb olduğu haqda mülahizələr yürüdürlər. Brockelman qeyd etmişdir ki, *P.falciparum*-la müqayisədə *P.vivax*-ın *in vitro* inkişafı üçün mühitə yüksək səviyyəli qlükoza (3 mg/ml) əlavə etmək lazımdır.

İstənilən növ parazit kulturasının alınmasında əsas diqqət parazitin *in vitro* inkişafını təmin edə biləcək yararlı qidalı mühit seçilməsinə yönəlməlidir. Ümumiyyətlə, tədqiqatçılar belə fikrə gəlmişlər ki, *P.vivax* üçün müxtəlif mediumların kombinasiyasından istifadə etmək məqsədəuyğundur. Belə ki, hər medium *P.vivax*-ın

ex vivo inkişafı üçün lazımlı olan qidalı maddələrə malikdir. Kultivasiya dövründə parazitdə gedən morfoloji dəyişikliklərin mikroskopik analizi göstərmişdi ki, RPMİ-1640-da *P.vivax*-ın sitoplazmatik differensiasiyası, Waymouth qidalı mühitində isə nüvə daha parlaq və nəzərəçarpandır. Bu iki qidalı mühitin müəyyən nisbətdə qarışdırılması onların hər birinin çatışmayan cəhətlərini kompensasiya etmiş, həm sitoplazmatik, həm də nüvə inkişafını təmin etmişdir. RP/WM 2:1 nisbətdə istifadəsi parazitin *in vitro* qısamüddətli kulturası üçün yararlı sayılmışdır.

Brockelman ilk dəfə *P.vivax* kulturası üçün SCMİ-612 mediumunu təklif etmişdir. Onun fikrinə görə bu medium RPMİ-1640 ilə müqayisədə daha yaxşı nəticə verməlidir, çünki SCMİ-612 qidalı mühiti əlavə olunmuş kulturada 12-20 merozoitli şizontlar yetkinliyə çatdıqdan 14 saat sonra kultura mühitində müşahidə olunmağa başlamışlar. Həqiqətən, məhz bu qidalı mühitdə kulturada tam şizoqoniya müşahidə olunmuşdu.

Eagle`s Minimum Essential Medium (MEM), Dulbecco Modified Eagle`s Medium (DMEM) də son illər *P.vivax* üçün sınaqdan keçirilmişdir [14]. DMEM parazitin eritrositar mərhələsinin kulturası üçün daha qənaətbəxş hesab edilmişdir.

Kulturanın alınmaması səbəblərindən biri də xəstələrdən təcrid edilmiş izolyatlarda parazit kütləsinin olduqca az olmasıdır. Parazit mənbəyinin törədicinin kultura şəraitinə adaptasiyasında nə kimi rol oynadığını aydınlaşdırmaq üçün bir sıra tədqiqatlar aparılmış, *P.vivax* kulturası üçün primatların qanından istifadə edilmişdir. Bermudez və həmkarlarının gəldiyi nəticələrə görə primatlara adaptasiya olunmuş *P.vivax* ştammlarından parazitin kulturasını almaq üçün istifadə etmək olar. *P.vivax*-la infektə olunmuş primatların qanı parazitin *in vitro* uzunmüddətli kultivasiyası üçün əsas mənbə sayıla bilər [15, 16].

Digər bir sual parazitin in vitro inkişafı üçün statik və ya dinamik kultura şəraitinin seçilməsu ilə bağlı idi. Bəzi araşdirmaçılar P.vivax üçün bu 2 kultura sistemindən növbəli olaraq istifadə etmişlər. Qolenda və Rozenberqin [6] üçgünlük malyariya törədicisinin *Chesson* ştammını Aotus cinsli meymun eritrositlərindən insan retikulositlərinə keçirmiş, L-qlutamin, HEPES buferi, 20% AB+ insan qan zərdabı ilə modifikasiya edilmiş McCoy`s 5A qidalı mühitində kultivasiya etmişlər. Parazitlər hər 48 saatlıq tsikl boyu içində şam olan qabda statik mühitdə şizoqoniya mərhələsi başlayana qədər saxlanılmış, təxminən 36-40 saatdan sonra retikulosit əlavə olunaraq 10-12 saatlıq şeykerə keçirilib dinamik hala gətirilmişdi. Bu, parazit və sahib hüceyrə arasında maksimal kontaktı mümkün edirdi. Eritrositlərin invaziyası baş tutan kimi parazit üzük və cavan trofozoit mərhələsində böyümə və differensiasiya üçün yenidən statik kultura mühitinə keçirilmişdi. Aşkar olunmuşdu ki, Mons et al (1988) qeyd etdikləri kimi qarışdırılan kulturada invaziya sürətlənir.

İnsandan təcrid olunmuş parazitlərin *in vitro* kulturasını alarkən tədqiqatçılar istər kulturanın davametmə müddəti, istərsə də parazitemiya ilə bağlı çətinliklərlə üzləşmişlər. Müxtəlif izolyatların kulturasının davametmə müddəti müxtəlif olmuşdur - 10-30 gündən 85 günə qədər. Kultura şəraitində parazit tədricən sahib hüceyrəyə daxil olma qabiliyyətini itirir ki, bunun səbəbi indiyə qədər aydın deyil. Tədqiqatlar göstərmişdir ki, *P.vivax*-ın hər izolyatının *in vitro* kulturada adaptasiyası ilə bağlı öz spesifik xarakteristikası var. Buna görə də onların invaziya qabiliyyəti, çoxalma sürəti və parazitemiya faizləri fərqlidir.

Yuxarıda qeyd edildiyi kimi, malyariya plazmodiumlarının *in vitro* inkişafına müxtəlif kultivasiya şəraitlərinin təsiri öyrənilmişdir. Bəzi tədqiqatçılar statik, bəziləri dinamik kultura şəraitinə üstünlük verir [16, 17]. Zhou və digərləri (1991) həmçinin müşahidə etmişlər ki, eyni kultivasiya şəraitində 2 izolyatın inkişafı arasında fərqlər mövcuddur. Bu, *P.vivax*-ın *in vitro* uzunmüddətli kulturasının alınmasında izolyatların seçilməsinin də xüsusi rol oynadığı anlamına gəlir.

P.vivax-ın *in vitro* inkişafına neqativ təsir edən faktorların öyrənilməsi gündəlikdə duran məsələlərdəndir. *İn vivo* şəraitdə qan dövranı ilə daim yuyulub uzaqlaşdırılan toksiki aralıq maddələrin *in vitro* kulturada plazmodiumların inkişafını bloklamaq ehtimalı mövcuddur. Beləliklə, üçgünlük malyariya törədicisi olan *P.vivax*-ın *in vitro* uzunmüddətli kulturasının alınması üçün gələcək tədqiqatlar mediumların və insan qan zərdabının müxtəlif nisbətlərdə kombinasiyasından istifadəyə, statik və dinamik sistemin rolunun müəyyənləşdirilməsinə, retikulosit, bioloji aktiv birləşmələr əlavə etməklə kultura mühitinin standartlaşdırılmasına yönəldilməlidir.

P.vivax-ın *in vitro* fasiləsiz kulturasının alınmaması parazitin biologiyasının, patofiziologiyasının öyrənilməsinə, bu tropik xəstəliyə qarşı mübarizə üçün vaksin, yeni dərman preparatları, diaqnostika vasitələri hazırlanmasını mümkünsüz edir. Üçgünlük malyariya törədicisinin uzunmüddətli kulturasının alınması istiqamətində işlər durmadan aparılır və *P.vivax*-ın *in vitro* kultivasiya şəraitinin optimallaşdırılması tədqiqatçıların qarşısında duran əsas vəzifələrdən biridir.

ƏDƏBİYYAT

1. Howes R.E., Battle K.E., Mendis K.N. et al. Global Epidemiology of *Plasmodium vivax*. // Am J Trop Med Hyg., 2016, v.95(6 Suppl), p.15-34.
2. Russell B., Suwanarusk R., Borlon C. et al. A reliable *ex vivo* invasion assay of human reticulocytes by *Plasmodium vivax*. // Blood, 2011, v.118, p.74–81.
3. Roobsoong W., Tharinjaroen C.S., Rachaphaew N. et al. Improvement of culture conditions for long-term in vitro culture of *Plasmodium vivax*. // Malar J., 2015, v.14, p.297.
4. Malleret, B., Xu, F., Mohandas, N. et al. Significant biochemical, biophysical and metabolic diversity in circulating human cord blood reticulocytes // PLoS One., 2013, v.8(10).
5. Moreno-Perez D.A., Ruiz J.A., Patarroyo M.A. Reticulocytes: Plasmodium vivax target cells. // Biol Cell., 2013, v.105, p.251–60.
6. Golenda C.F., Li J, Rosenberg R. Continuous in vitro propagation of the malaria parasite Plasmodium vivax. // Proc Natl Acad Sci USA, 1997, v.94, p.6786–91.
7. Noulin F., Borlon C., Van Den Abbeele J. et al. 1912–2012: a century of research on Plasmodium vivax in vitro culture. // Trends Parasitol., 2013, v.29. p.286–94.
8. Noulin F, Borlon C, van den Eede P et al. Cryopreserved reticulocytes derived from hematopoietic stem cells can be invaded by cryopreserved Plasmodium vivax isolates // PLoS One., 2012, v.7, p.e40798.
9. Udomsangpetch R, Somsri S, Panichakul T et al. Short-term in vitro culture of field isolates of Plasmodium vivax using umbilical cord blood // Parasitol Int. 2007, v.56, p.65-69.
10.Ovchynnikova E, Aglialoro F, Bentlage AEH et al. DARC extracellular domain remodeling in maturating reticulocytes explains Plasmodium vivax tropism // Blood, 2017, v.130, p.1441-1444.
11.Gruszczyk J, Kanjee U, Chan L-J et al. Transferrin receptor 1 is a reticulocyte-specific receptor for Plasmodium vivax // Science (New York, NY), 2018, v.359(6371), p.48-55.
12.Kawabata H. Transferrin and transferrin receptors update // Free Radic Biol Med., 2019, v.133, p.46-54.
13.Arévalo-Pinzón G., Bermúdez M., Curtidor H. et al. The Plasmodium vivax rhoptry neck protein 5 is expressed in the apical pole of Plasmodium vivax VCG-1 strain schizonts and binds to human reticulocytes. // Malar J., 2015, v.14, p.106.
14.Rangel G.W., Clark M.A., Kanjee U. et al. Enhanced ex vivo Plasmodium vivax intraerythrocytic enrichment and maturation for rapid and sensitive parasite growth assays // Antimicrob Agents Chemother, 2018, v.62, p.02519.
15.Mehlotra R.K., Blankenship D., Howes R.E. et al. Long-term in vitro culture of Plasmodium vivax isolates from Madagascar maintained in Saimiri boliviensis blood. // Malar J., 2017, v.16, p.442.
16.Shaw-Saliba K., Thomson-Luque R., Obaldía N. et al. Insights into an optimization of Plasmodium vivax Sal-1 in vitro culture: the aotus primate model. // PLoS Negl Trop Dis., 2016, v.10, 0004870.
17.Thomson-Luque R., Adams J.H., Kocken C.H.M. From marginal to essential: the golden thread between nutrient sensing, medium composition and Plasmodium vivax maturation in vitro culture // Malar J., 2019, v.18(1), p.344.

Резюме

Различные подходы к культивированию *in vitro* возбудителя трехдневной малярии (*Plasmodium vivax*)

Ш.Н.Алиева, Ф.И.Гусейнова, З.З.Абсейнова, С.Н.Эйвазли, И.А.Масимова

По оценкам ВОЗ 2,5 миллиарда человек во всем мире подвергаются риску заражения трехдневной малярией. Невозможность получить непрерывную культуру возбудителя трехдневной малярии (*Plasmodium vivax*) усложняет эффективные меры борьбы с заболеванием. Классический метод, позволяющий получить длительную культуру возбудителя тропической малярии, оказался недостаточным для *P. vivax*. В основном это объясняется сложной биологией данного вида паразита. Исследователи называют несколько причин, препятствующих достижению непрерывного культивирования *P. vivax in vitro*. Малое количество паразитов в изолятах, полученных от пациентов; преждевременное расщепление шизонтов; неспособность мерозоитов проникнуть в клетку-хозяин; окислительный стресс. Кроме того, предпочтение *P. vivax* ретикулоцитов также препятствует непрерывному культивированию. Попытки получить долговременную культуру возбудителя

трехдневной малярии продолжаются, и оптимизация условий культивирования *P. vivax in vitro* является одной из основных задач, стоящих перед исследователями.

Summary
Various approaches to cultivation *in vitro* of the causative agent of malaria tertiana (*Plasmodium vivax*)
Sh.N.Aliyeva, F.H.Huseynova, Z.Z.Abseynova, S.N.Eyvazli, I.A.Masimova

WHO estimates that 2.5 billion people worldwide are at risk of contracting malaria tertiana. The inability to obtain a continuous culture of the causative agent of malaria tertiana (*Plasmodium vivax*) complicates effective control measures. The classical method for obtaining a long-term culture of the causative agent of tropical malaria turned out to be insufficient for *P.vivax*. This is mainly due to the complex biology of this type of parasite. The researchers pointed several reasons for preventing continuous cultivation of *P.vivax in vitro*. Low parasitemia in isolates obtained from patients; premature splitting of schizonts; the inability of merozoites to enter the host cell; oxidative stress. *P.vivax* mostly prefers reticulocytes. It also hinders continuous cultivation. Attempts to obtain a long-term culture of the causative agent of malaria tertiana are ongoing, and optimization of conditions for culturing *P.vivax in vitro* is one of the main tasks facing researchers.

Daxil olub: 18.01.2024

Kariesin profilaktikasında remineralləşdırıcı preperatların rolu

B.M. Həmzəyev, M.X .Hüseynova, G.V.Hüseynova
Azərbaycan Tibb Universiteti, Terapevevtik stomatologiya kafedrası, Bakı

Açar sözlər: karies, remineralləşdırıcı terapiya, kalsium, fosfor, flüoridlər, demineralləşma
Ключевые слова: кариес, реминерализующая терапия, кальций, фосфор, фториды, деминерализация.
Key words: caries, remineralizing therapy, calcium, phosphorus, fluorides, demineralization

Karies stomatoloji xəstəliklər arasında daha geniş yayilmış patologiyalardan biri hesab olunur. Kariesin yayılması bütün dünya əhalisi, eləcə də, tibbi sağlamlıq üçün çox ciddi promblemlər yaradır. Statistik məlumatlara əsasən, kariesin dünyada yayılma və intensivlik göstəriciləri 90-98%-ə bərabərdır. Bunun səbəbi dişlərərin anatomik strukturu, funksiyaları, ağız boşluğunun zəngin mikrofloraya malik olması, ağız suyun kəmiyyət və keyfiyyət gostəricilərinin qeyri-stabil olması, qəbul edilən ərzaq məhsulları və içkilərin çeşidinin çox olması və s. ibarətdir [1,7,9].

Son dövrlərdə aparılan elmi-tədqiqat işlərinin nəticələri onu deməyə əsas verir ki, dişlərin sərt toxumalarında əmələ gəlmiş patologiyaların qarşısını yalnız müalicəvi tədbirlərlə almaq mümkün deyildir [8]. Ona görə də, bu problemlə məşğul olan mütəxəssislərin səyləri həm də kariesin profilaktikası istiqamətində aparılmalıdır. Bu tədbirlər dünya stomatoloji bazarında mövcud olan və tətbiqi elmi tədqiqatların nəticələrinə əsaslanan innovativ texnologiya və materiallardan istifadə olunmaqla həyata keçirilməlidir [4].

Hal-hazırda kariesə etiologiyası məlum olmayan çoxfaktorlu bir patologiya kimi baxılır və hesab olunur ki, onun yaranmasında ağız boşluğu və dişin üzərində yerləşən mikroorqanizmlər və onların həyat fəaliyyət məhsulları həlledici rol oynayır. Xəstəliyin əsasında karbohidratların fermentativ parçalanması, üzvi turşuların

əmələ gəlməsi və həmin aqressiv turşuların təsirindən dişsin sərt toxumalarinda deminerallaşma ocaqlarının yaranması dayanır [5].

Başlanğıc kariyesin (ləkə mərhələsi) profilaktikası və müalicəsində remineralləşdırıcı terapiya mühüm yer tutur. Bu müalicə metodu qabaqcıl stomatoloji prosedurlardan biri kimi, iqtisadi baxımdan daha effektiv və cərrahi tədbirlərdən biri hesab olunur. Kariesin ilkin mərhələsində müalicə və profilaktika məqsədiylə remineralləşdırıcı terapiya qismində müxtəlif vasitələrdən istifadə olunur və bu preparatların tətbiqində əsas məqsəd sərt toxumaların deminerallaşmaya məruz galmış hissələrində itirilmiş minerall maddələrin bərpa olunmasını təmin etməkdən ibarətdir [2,3].

Ləkə mərhələsi minanın tərkibində olan əsas kimyəvi birləşmələrin bir-biri ilə əvəz olunması və represitasiyası ilə xarakterizə olunan kimyəvi prossesdir. Bu mübadilə prosesi əsasən minanın dentinlə sərhədi və dış mayesi arasında baş verir və prosesin yaranmasında kalsium və fosfor ionlarının konsentrasiyası və mühitin pH-ı, eyni zamanda sərt toxumaların rezistentliyi mühüm rol oynayır [9].

Başlanğıc kariesin patoloji-anatomik tədqiqi zamanı deminerllaşma sahələrinin minanın səthaltı qatında yerləşməsi müəyyən edilir. Bu prosesdə dekompensasiya fazası kompensasiyanı üstələyirsə, o zaman deminerallaşma sahələri minanı daha dərin qatlarında yayılır, onun tamlığı pozulur və kariesin ağırlaşmış klinik formaları meydana çıxır. Sərt toxumalardakı qeyri-üzvi turşular tərəfindən yerinə yetirilir və bu prosesdə xelat mənşəli birləşmələr aktiv iştirak etməklə kalsiumu birləşdirir, proteolitik fermentlər isə deminerallaşma nəticəsində dentin üzvi matrisasında destruksiya törədir.

Remineralləşdırıcı profilaktikanın əsas məqsədi kimyəvi üsulla minadakı mineral strukturun balansını sabit saxlamaq, eyni zamanda dişətrafındakı apatitlərin tamlığını qorumaqdan ibarətdir [1,3].

Aparılan tədqiqat işləri sübut edir ki, ümumiyyətlə kariesin profilaktikasının daha optimal və perspektivli istiqamətlərindən biri remineralləşdırıcı terapiyadır və bu tədbirlərin aparılmasında əsas hədəf minanın dəyişikliyə məruz qalmış mineral tərkibinin xüsusi preparatlardan istifadə etməklə normallaşdırılmasından ibarətdir [12,13].

Bu metodun köməyilə deminerallaşmış sahələri kalsium, fosfor, fluor ionları ilə zənginləşdirmək, beləliklə, patoloji ocağı ləğv etmək, eyni zamanda baş verə biləcək ağırlaşmaların vaxtında qarşısını almaq mümkündür.

Remineralləşdırıcı terapiya məqsədilə istifadə olunan aplikasion təyinatlı vasitələrə bunlar aiddir: kalsium xlorid, kalium fosfat, natrium flüorid. Yardımçı vasitələrə isə gel mənşəli natrium karboksimetilsellüloza, plastifikator, qliserin və distillə edilmiş su aiddir. Beləliklə, remineralləşdırici profilaktikanın əsas elmi-nəzəri mahiyyət Ca və P ionlarının dişın sərt toxumalarına yeridilməsindən ibarətdir. Lakin nəzərə almaq lazımdır ki, pH-ın aşağı səviyyəsində hər zaman buna nail olmaq mümkün olmur və bu sahələrə flüor ionlarının əlavə edilməsi daha çox flüorapatitlərin əmələ gəlməsi ilə nəticələnir [5,7].

Birgə mineralizəedici profilaktikanın reallaşmasının ən böyük problemi Ca, P və F ionlarının daxil olduğu məhlulların qeyri-stabil olması ilə əlaqədardır. Bu o deməkdir ki, həmin ionlar sürətlə molekullara çevrilir və nəticədə minerallarn deminerallaşma ocağlarına nüfüz etməsi çətinləşir. Bunları nəzərə alaraq, həmin pronlemlə məşğul olan mütəxəssislər qeyd olunan minerallarn ayrı-ayrılıqda və ardıcıl formada aplikasiya üsulu ilə tətbiqini təklif edirlər. Onların qənaətinə görə, 10%-li kalsium-qlukonat məhlulu 15 dəq., 5%-li kalsium xlorid aplikasiyası cəmi 15 seans olmaqla ildə 2-3 dəfə təkrar olunmalədır.

Borovskiy-Leus metoduna əsasən, 10%-li kalsium qlukonatla 15 dəqiqəlik(hər biri 5 dəq. olmaqla cəmi 3 dəfə), ardınca 2%-li natrium flüoridlə aplikasiya aparılmalıdır (3 dəq. ərzində). Profilaktika məqsədilə ildə 2 dəfə, hər birində 10-15 seansın aparılması təklif olunur. Borovskiy – Volkova metodunda iki komponentli kombinasiya təklif edilir, bu halda 10%-li kalsium nitrat və 10%-li ammonium fosfot istifadə olunur. Prosedurun həyata keçirmək üçün dişlər aplikasiya məqsədilə hazırlanır vər hər iki məhlul ardıcıl olaraq hər biri 3-5 dəq. ərzində aplikasiya olunur. 5-7 seansdan sonra minanın səthində və səthaltə qatlardaki mikroboşluqlarda həmin minerallardan təşkil olunmuş bir qat yaranır [10].

Stomatoloji praktikada remineralləşdırıcı təsir effektinəmalik aşağıdakı preparatlardan istifadə olunur: “Remodent”, “Profokar”, “Remodentin” tərkibində vakuum üsulu ilə alınmış cavan xırda buynuzlu heyvanın çənə sümuyünun unu vardır. Bu unun kimyəvi tərkibi 4,35%-Ca, 1,36%-P, 0,155-Mg, 0,2%- K, 16%- N, 30%-Cl, 44%-üzvu maddələr, eyni zamanda aşağı konsentrasiyalı Mn, Fe, Zn, Cu və diqər komponentlərdən ibarətdir. Profokar – çoxkomponentli remineralləşdırıcı preparat olarag, minanın kristal qəfəsinin qurulmasında iştirak edən kimyəvi maddələrdən təşkil olunmuşdur. Bunlar aiddir Ca, P, Mg, Fe, Zn, K, Na,Cl, Cu, və Pb. Bu preparat iri buynuzlu heyvanların borulu sümüklərindən alınır və Remodentdən fərqli olarag flüorun miqdarı daha çoxdur. Şəffaf-ağımtıl, duzlu dada malik mayedır, ağız qarqaraları və aplikasiya formasında istifadə olunur [11].

Qeyd etmək lazımdır ki, kalsium, fosfor, tərkibli preparatların profilaktik və terapevtik effektlərini uzunmmüddəli proseduralardan sonra əvvəl etmək olur və bu effekt davamlı olmur.
Keçən əsrin 90-cı illərinə qədər bu preparatlar və onların kombinasiyaları əsasən məhlul şəklində istefadə olunurdu. Həmin preparatların zəif adgeziya xüsusiyyətləri və kumulyativ effektləri var, nüfuzetmə qabiliyyəti çox aşağıdır və terapevtik effektləri qısamüddətlidir. Onların kompleks şəklində birgə istifadəsi zamanı komponentlər arasında kimyəvi reaksiya gedir və bunun nəticəsində həll olmayan birləşmələr əmələ gəlir və onlar praktiki olaraq minaya nüfuz edə bilmirlər. Bu çatmamazlığı aradan qaldırmaq ücün həmin preparatlar elektroforez üsulu ilə minaya yeridilir. Elektroforez fizioterapevtik kabinetdə mütəxəssislər tərəfindən həyata keçirilir və bu metod qarqara və ya aplikasiya metodlarına nisbətən daha effektiflidir. Elektroforezin əsas üstünlüyü mineral maddələrin minanın daha dərin qatlarına yeridilə bilməsi və nəticələrin daha uzunmüddətli olması ilə əlaqədardır.

Aparılmış tədqiqatlar zamanı məlum olmuşdur ki, elektroforez metodu ilə remineralləşdırıcı terapiyadan sonra kariyesin rast gəlmə tezliyi 40%-dək azalır. [4,5]

Kariyesin profilaktikası məqsədiylə istifadə olunan remineralləşdırıcı preparatlara olan müasir tələblər təkcə həmin preparatların uzun müddət mina ilə kontaktda olmasını təmin etməkdən deyil, eyni zamanda həmin mineralların minanın daha dərin qatlarına nüfuz etməsinə nail olmaqdan və dişətrafı mühitə pH-ın səviyyəsini neytral saxlamaqdan ibarətdir. Müasir remineralləşdırıcı vasitələri aşağıdaki qruplara bölmək olar:

- Flüoridlər
- Qeyri-flüoridlər
- Alfa –trikalsiumfosfat (TKF) və beta TKF (β-TFK)
- Amorf kalsium fosfat
- Cpp – ACP
- Fossilikat natrium-kalsium (bioaktiv şüşə)
- Ksilit
- Dikalsiumfosfat dehidrat (DKPD)
- Remineralləşdırıcı nanohissəciklər
- Kalsium flüorid nanohissəcikləri
- Kalsium fosfat əsaslı nanomateriallar
- Nano HAP hissəcikləri
- AKP nanohissəcikləri
- Nanobioaktiv şüşə materiallar
- Polidofamin
- Pensilvaniya
- Oliqopeptidlər
- Teobromin
- Arginin
- Özutoplanan peptidlər
- Elektrik sahəsi induksiyalaşan remineralləşma

Flüoridlərin təsir mexanizmləri. Bəzi müəlliflər flüoridlərin dörd cür mexanizminin olduğunu qeyd edirlər [14], flüoridlər demineralləşma prosesisini inhibə edirlər, çünki, flüor apatitləri HAP kristalları ilə müqasiyədə turşuların təsirinəqarşı daha davamlıdır. Ikinçisi, flüor remineralləşmanı gücləndirir, kalsium və fosfor ionlarının hesabına minada yeni flüorapatit kristallarının miqdarı çoxalır. Üçüncücü, flüoridlərin təsiri nəticəsində kariosegen bakteriyaların aktivliyi azalır, eyni zamanda fosfoenolpiruratların sintezi aşağı düşür və ona görə də, karbohidratların qlukolizi zəifləyir. Bundan başqa, onlar dişin sərt toxumalarında, ağzın selikli qişasında, diş ərpində kumulyasiya olunaraq remineralizasiyanı gücləndirirlər [6,16].

ƏDƏBİYYAT

1. Hemagaran G. Remineralising agent-then and now-an update // Dentistry, 2014, v.4(9), p. 1-5
2. Naveena Preethi P., Nagarathana C. et al. Remineralising agent-then and now - an update // Dentistry, 2014, v.4(9), p. 1-5
3. Amaeci B.I., Loveren Monogr C.Y. Fluorides and non-fluoride remineralization systems. Monogr Ozalsei. 2013, s.15-26
4. Peter S. Essentials of public health dentistry 5th edn; 2013

5. Soi S., Vinyak V. et al. Fluorides and their role in demineralization and remineralization // J Dent Sci Oral Rehabil., 2013, jui-sep, p.19-21

6. Duskvvorth KM. Pharmackinetics in the oralcavity: fluoride and other active ingridiens; in Van Loveren C: toothpastes // Monogr Oral Sci, 2013, v.23, p.121-135

7. Pradubbon S.S., Hamba H. et al. Sodium fluoride mouth rinse used twice daily increased incipient caries lesion remineralization in an off model // J Dent March., 2014, v.42(30), p.271-278.

8. Kalra D.D., Kalra R.D. et al. Non fluoride remineralization: ann evidence-based review of contemporary technologies // J Dent Allied Sci, 2014, v. 3(1), p.24-33

9. Oliveira P., Fonseca A. et al. Remineralising potential of CPP-ACP creams with and without fluoride in artificial enamel lesions // Aust Dent J., 2016, v.6, p. 45-52

10. Sargod S.S., Bhat S.S. et al. Remineralisation potential using calcium sucrose phosphate on artificial carious lesion- a polaroid microscopic study // Jnd J Appl Res., 2015, v.5(1), p.421-423

11. Chole D., Jadhav Y. et al. Remineralising agents minimal invasive therapy areview // J Dent MedSci, 2016, v.15(2), p. 64-68.

12. Amin M., Mehta R. et al. Evaluation of the efficacy of commercially available nano-hydroxyapatite paste as a desensitizing agent // Adv Oral Biol., 2015, v.5(1), p. 34-38

13.Sheng X-Y, Gong W-Y, et al. Mineral formation on dentin induced by nano-bioactive glass // CCL, 2016, v.27(9), p.1509-1514.

14.Niul L., Zhang W. et al. Biomimetic remineralisation of dentin // Dent Mater., 2014, v.30, p.70-96

15.Amaechi B.T. Remineralisation therapies for initial caries lesions // Curr Oral Health Rep, 2015, v. 2(2), p. 95-101.

16.Cheng X., Xu P. et al. Arginine promotes fluoride update into artificial carious lesions in vitro // Aust Dent J., 2015, v. 60(1), p.104-111.

Резюме

Роль реминерализирующих препаратов в профилактике кариеса

Б.М. Гамзаев, М.Х. Гусейнова, Г.В.Гусейнова

Кариес – одна из актуальных и нерешенных проблем современной стоматологии. Несмотря на многочисленные исследования и научно-теоретические представления этиологии и патогенеза патологии в настоящее время продолжается научные работы. Известно, что различают четыре клинических стадий кариеса: точечный, поверхностный, средний и глубокий кариес. Каждый тип стадии указывает на обострение патологии. Точечная стадия кариеса требует проведения профилактических мероприятий, и основной целью в этом процессе является введение в деминерализованные участки препаратов, содержащих кальций, фосфор и фтор. Эти препараты применяют аппликациями, полосканиями и методами электрофореза. В статье приведены обширные сведения о реминерализирующих препаратах, используемых в современной стоматологической практике, подробные сведения о механизме действия и составе этих препаратов. При этом анализируется роль ремтерапии в профилактике осложнений кариеса.

Summary

The role of remineralizing agents in the prevention of caries

B.M. Hamzayev, M.X .Huseynova, G.V.Huseynova

Caries is one of the urgent and unresolved problems of modern stomatology. Despite numerous research works and scientific-theoretical opinions on its etiology and pathogenesis, pathology continues to grow dynamically at present. It is known that there are four clinical stages of caries: spot stage, superficial, middle and deep caries. All types of stage indicate an aggravation of pathology. The spotting stage of caries requires the implementation of preventive measures, and the main goal in this process is the introduction of calcium, phosphorus and fluorine-containing preparations into the demineralized areas. These preparations are applied by Application, gargling and electrophoresis methods. The article provides detailed information on remineralizing drugs used in modern dental practice, detailed information on the effectiveness and composition of these drugs. At the same time, the role of remtherapy in the Prevention of complications of caries is analyzed.

Daxil olub: 18.01.2024

Reaktiv pankreatitin polietioloji amilləri, struktural morfologiyası və disfunksional simptomları

A.A.Rüstəmov
Azərbaycan Dövlət Tibb Universitetinin Elmi-Tədqiqat Mərkəzi, Bakı

Açar sözlər: reaktiv pankreatit, müayinə, morfologiya, müalicə
Ключевые слова: реактивный панкреатит, обследование, морфология, лечение
Key words: reactive pancreatitis, inspection, morphology, treatment

Pankreatit mədəaltı vəzin borulu alveollu parenximasının və ara birləşdirici toxumasının iltihabıdır. Xəstəlik kəskin, xroniki və etioloji amillərin xarakterinə uyğun olan reaktiv formalarda təzahür edir. Pankreas vəzi topoqrafik olaraq sağ, sol qabırğaaltı və 2-ci bel fəqərəsi nahiyələrində yerləşdiyinə görə mədə-bağırsağın, qaraciyər və öd yollarının funksiyalarının fermentativ və humoral tənzimlərində fəal iştirak edir. Bu səbəbdən pankreatidin kliniki və struktural dəyişikliklərinin kompleks təhlili xüsusi aktuallıq kəsb edir. Müxtəlif etioloji faktorların təsirindən vəzin fermentlərinin və şirələrinin aqressivliliyi artırılaraq onun parenximasında destruktiv patoloji proseslər inkişaf edir. Bu morfoloji dəyişikliklərə ödemli, kiçik ocaqlı və nadir hallarda təsadüf edilən nekrotik formalar aiddir [2].

Xəstəlik aşağıdakı labarator və instrumental müayinə üsullarında əsaslanaraq diaqnozlaşdırılır.

1.Qanın ümumi analizi

2.Qanda amilazanın, lipazanın və xolesterinin təyini

3.Endoskopik retroqrad xolesistopankreatoqrafiya (ERPQ)

4.Vəzin struktural ultrasəs müayinəsi (USM)

Tədqiqatın nəticələrinə əsaslanaraq aşağıdakı nisbətlərdə etioloji faktorlar müəyyənləşdirilmişdir

1.Alkoqolizm (65%)

2.Yağlı, kobud və quru mənşəli alimentar faktorlar (35%)

3.Helikobakterial mənşəli toksiki qastroduodenal patalogiyalar (15 %)

4.Öd yollarının hipo və hiperkinetik növ diskineziyaları (25 %)

Bunlar xolestaz əmələ gətirərək ödün realogiyasını dəyişərək onun hərəkət sürətini ləngitməsi nəticəsində pankreas şirəsinin axacaqda durğunluğu baş verir ki, bu da iltihabla formalaşır. Biliar sistemin üzvi xəstəliklərindən virus hepatidləri 10 %, xolesistit 25 % və öd daşı xəstəliyini 8 % göstərmək olar.

5. Helmintoz və parazitar invaziyalar 15 %

Etioloji amillər kompleks olaraq mədəaltı vəzinin şirə ifrazının və Langerhans adacığında β epitelial hüceyrələr tərəfindən ifraz olunan insulin hormonunun qana keçməsini zəiflədərək geniş miqyasda mədə-bağırsaqda həzmin və qanda qlükozanın ehtiyat halda çevrilməsini pozaraq şəkər xəstəliyinin inkişafına qlükogenə əlverişli şərait yaradır [6].

Xroniki pankreatiein kəskinləşməsi fazası ağrı və dispeptik sindromlarla təzahür edilir. Ağrılar müxtəlif intensivlikdə olaraq sağ və sol qabırğaltı nahiyələri və epiqastral sahəni əhatə edərək kəmərvari xarakter daşıyır. Bu da vəzin topoqrafik lokalizasiyasına uyğun olaraq baş verir. Xarici baxış zamanı xəstənin bədən quruluşunu astenik tip olaraq əksər hallarda hipotrafik görünürlər. (65%). Palpasiyada yayılmış əzələ gərginliyi fonunda epiqastral göbəkətrafı və sağ, sol qabırğaltı nahiyələrdə ağrılar təyin olunur. Meyo-Robson, Kaça və Tuşinskinin dönmə simptomları müsbət olur (70%).

Meyo-Robson simptomu göbək həlqəsindən sol qabırğa qövsünün medial hissəsinə çəkilən xəyalı xətt üzrə palpasiya etdikdə aşkar olan ağrı hissiyatıdır.

Kaça simptomu isə epiqastral nahiyədən qarının sol mezo qastral nahiyəsində palpator təyin olunan ağrıdır [3].

Tuşinskinin "dönmə" ağrı simptomu xəstənin vəziyyətini sağ böyrü üstə əyərkən sol qabırğa altında meydana çıxan ağrılardır. Pankreatogen iltihab xəstələrdə ağrı simptomu ilə yanaşı kompleks dispeptik funksional pozğunluqlarla da səciyyələnir. Bunlar qonşu həzm orqanlarının əsas funksiyalarının dispepsiyası şəklində təzahür edilir. Ağrılar başlıca olaraq yayılmış əzələ gərginliyi ilə xarakterizə olunur.

Qida qəbulundan sonra meydana çıxan ağrılar başlıca olaraq qusma və ürəkbulanma ilə səciyyələnərək xəstələrdə yüngüllük baş vermir. Uzun müddət iştahasızlıq fonunda arıqlama, hipersalivasiya, metiorizm, qəbizlik bəzən də yağlı nəcislə müşayiət olunan defekasiya aktı baş verir.

Xəstəliyin diaqnostikasında kliniki əlamətlərlə yanaşı bir sıra instrumental və labarator müayinələri nəticələri də əhəmiyyət kəsb edir [1].

1.Endoskopik retroqradpankreotoqrafiya (ERKPQ) acqarına xəstənin boğaz həlqəsini 1 %-li dikain məhlulu ilə keyləşdirdikdən sonra qastroduodenofibroskopu mədədən keçirərək onikibarmaq bağırsağın Fater məməciyinə təsbid etdikdən sonra endoskopun kanalcığından kontrast maddəni yeridərək pankreas axacağının vəziyyətini və vəzin daxili görünüşü nəzərdən keçirilmişdir. Xəstəlik üçün pankreas axacağının dilatasiyası, parenximasının ödemi və kalsinatların mövcudluğu xarakterikdir. Borulu alveollu vəzlərin axarlarının genişlənməsi, şirənin durğunluğu və axacıqların deformasiyası nəzərə çarpır. Eyni zamanda ümumi öd axarının spazmı, xolestrazı və ödün qatılaşması müşahidə edilir.

2.Ultrasəspankreotoskopiyada-vəzin parenximasının heterogen exogenliliyi, borulu alveolar vəzin axacaqlarının sərtləşməsi və deformasiyaları nəzərə çarpır. Vilson axacağının qeyri-müəyyənliliyi fonunda vəzin struktrunun vizual dəyişiklikləri aydın görünmür [5].

Periferik qanın biokimyəvi analizində xolesterinin amilazanın (norma 25-125 v|l), diastazanın (norma 16-96 v|l) vahidliliyin yüksəlməsi şəkərin isə miqdarının qeyri-sabitliyi göstərilir. Bunlar pankreas şirəsinin ödün və qanın reoloji dəyişiklikləri və insulin hormonunun miqdarı ilə əlaqələndirilir. Xəstələri vegetativ sinir sistemi tərəfindən tərləmə, əsəbilik, baş ağrısı və yaddaşın qeyri-sabitliyi narahat edir.

Ürək-damar sistemi tərəfindən arterial hipotoniya, ürək tonlarının karlaşması fonunda sistolik küy və taxikardiya əlamətləri nəzərə çarpır. Xroniki pankreatidi həzm sistemini aşağıdakı xəstəlikləri ilə differensiallaşdırmaq tövsiyə olunur [2].

1.Xolesistit və öd daşı xəstəliklərində ağrılar dominant olduğuna baxmayaraq ultrasəs müayinəsi zamanı öd kisəsinin həcminin böyüməsi divarının qalınlaşması ilə yanaşı olaraq ödün bir cinsli xarakter olması və müxtəlif ölçülərdə konkrimentlər aşkar olunur.

2.Mədə və onikibarmaq bağırsağın xora xəstəliyi də ağrılarla müşahidə olunduqlarına baxmayaraq onların baş verməsi əsasən qida qəbulu və emosional gərginliklə əlaqələndirilir. Ağrı simptomu əsasən mədə xorasında 30 dəqiqə qida qəbulundan əvvəl onikibarmaq bağırsaq xorasında isə qida qəbulundan 60 dəqiqə keçdikdən sonra baş verir. Mədə xorasında ağrılar qarınüstü, duodenol xorada isə pilorik hissədə təyin olunur.

3.Krona xəstəliyində baş verən ağrılar isə heç bir dispeptik hallar baş vermədən qarının aşağı seqmentində yoğun bağırsaqların proyeksiyasına uyğun olaraq irradiasiya edir. Palpasiyada qalxan və köndələn yoğun bağırsaqların ilgəkləri proyeksiyası üzrə ağrılar təyin olunur. Pankreatidin profilaktikasının məqsədi ilə pəhriz saxlamağı, alkoqolizmlə mübarizəni və xroniki infeksiya mənbələrinin sanasiyası tövsiyə olunur. Morfoloji dəyişikliklərdən selikli qişanın ödemi, hiperemiyası müxtəlif ölçüdə üzəri ərplə örtülmüş kənarları nahamar xoracıqlar kolonoskopiya zamanı aşkar edilir. Bakterial floranın xəstəliyin formalaşmasında rolu yox dərəcəsindədir. Ona görə də patoloji proses qeyri-spesifik xoralı kolit adlanır [7].

Xroniki xolongitlərdə ağrı simptomu ilə müşayiət olunurlar. Pankreatiddən fərqli olaraq ağrılar öd yollarının sinir innervasiyasının asinxronu nəticəsində baş verən hipo və hiperkinetik diskineziyalarla əlaqələndirilir.

Mədəaltı vəzinin iltihabında aşağıdakı müalicə tədbirləri görülür.

1.Pəhriz №5

2.Spazmolitiklər

3.Antibiotiklər

4.Selikli qişanın reperasiyasını stimullaşdıran aparatlar.

ЛИТЕРАТУРА

1. Охлобыстин А.В., Ивашкин В.Т. Алгоритмы ведения больных острым и хроническим панкреатитом // Consilium-Medicum, 2000, №7, с. 279-287

2. Паршин Д., Топчиев М., Кичибеков Э. Острый панкреатит: комплексная диагностика, прогнозрование осложнений и лечение учебно-методическое пособие. Астрахань, 2017, 128 с.

3. Гальперин Э.И., Дюжева Т.Г., Докучаев К.В. И др. Узловые вопросы лечения деструктивного панкреатита //Анналы хирургической гепатологии, 2001, № 1, с. 139-142.

4. Гальперин Э.И., Дюжева Т.Г. Панкреонекроз: неиспользованные резервы лечения (дискуссионные вопросы к круглому столу) //Анналы хирургической гепатологии, 2007, № 2, с. 46-51.

5. Дюжева Т.Г., Семененко И.А., Ахаладзе Г.Г. и др. Результаты лечения хронического панкреатита //Анналы хирургической гепатологии, 2012, № 4, с. 15-23.

6. Минушкин О. Н. Хронический панкреатит: некоторые аспекты патогенеза, диагностики и лечения // Consilium-Medicum, 2002, №1

7. Минушкин О.Н., Масловский Л.В. Этиологические аспекты терапии хронических панкреатитов // Consilium Medicum : научная статья, 2005, №1

Резюме

Полиэтиологические факторы, структурная морфология и дисфункциональные симптомы реактивного панкреатита

А.А.Рустамов

Панкреатит является воспалением альвеолярной паренхимы и соединительной ткани поджелудочной железы. Заболевание проявляется в острой, хронической и реактивной формах. Под влиянием различных этиологических факторов повышается агрессивность ферментов железы, в ее паренхиме развиваются деструктивные патологические процессы. К этим морфологическим изменениям относятся отечная, мелкоочаговая и редко некротическая формы. Реактивный панкреатит на сегодняшний день сичтается актульной и сложной проблемой современной медицины. Своевременные исседования и адекватные лечебно-профилактические мероприятия имеет особое значение. Автор изучая данную проблемы, состовил статью в целях помощи и облегчении работы практического врача.

Summary

Polyetiological factors, structural morphology and dysfunctional symptoms of reactive pancreatitis

A.A.Rustamov

Pancreatitis is an inflammation of the alveolar parenchyma and connective tissue of the pancreas. The disease manifests itself in acute, chronic and reactive forms. Under the influence of various etiological factors, the aggressiveness of the gland enzymes increases, destructive pathological processes develop in its parenchyma. These morphological changes include edematous, small focal and rarely necrotic forms. Reactive pancreatitis is currently considered an urgent and complex problem of modern medicine. Timely research and adequate treatment and preventive measures are of particular importance. The author, studying this problem, compiled an article in order to help and facilitate the work of a practicing physician.

Daxil olub: 18.01.2024

Azərbaycanda çoxillik dinamikada xəstələnmənin səviyyəsinin öyrənilməsi

T.Ş.Tağıyeva, C.Ə. Rəhimov, X.N. Xələfli, M.Z. Niftullayev
Azərbaycan Tibb Universiteti, Epidemiologiya və biostatistika kafedrası

Açar sözlər: çoxillik, xəstələnmə, dinamika, paylanma
Ключевые слова: многолетняя, заболеваемость, динамика, распределение
Key words: multiyear, morbidity, dynamics, distribution

Müasir elmi-texniki tərəqqi bütün mütəxəssislərin qarşısına yeni tələblər qoyur. Regional cəhətdən ölkəmizdə yoluxucu xəstəliklər aktuallığını qoruyub saxladığı üçün onların ləğv edilməsi Azərbaycan Səhiyyə orqanlarının mürəkkəb problemlərindəndir. Təbabətin profilaktik sahələrindən biri olan epidemiologiya məhz xəstəliklərin profilaktikasını həyata keçirir və bu zaman biostatistika metodlarından istifadə etməklə onların təhlilini aparır və əldə etdiyi məlumatların sayəsində infeksion və qeyri-infeksion xəstəliklərin səviyyəsinin azalmasına çalışır. Ölkənin ərazisindən aslı olmayaraq, il boyu hər ay müxtəlif sahələrdən və çoxlu miqdarda məlumatlar toplanır. Biosatistika elmi tibb və biologiya sahələri üzrə məlumatları toplayan, səhiyyə üçün çox əhəmiyyətli elmi-tədqiqat sahəsidir. Məlumatların toplanması və müəyyən şablonlar şəkində qruplaşdırılması, sistemləşdirilməsi və müvafiq rubrikalar üzrə cəmləşdirilməsi vacibdir. Onlar təhlil edildikdən sonra əldə olunmuş nəticələr əsasında Səhiyyə Nazirliyi və aidiyyəti olan digər qurumlar müvafiq profilaktik tədbirlər görməyə başlayırlar.

Tədqiqatın məqsədi. Biz məqalədə hazırda ölkəmizdə illər üzrə xəstəliklərin dinamikada necə dəyişdiyini və hansı sahələrə daha şox diqqət yetirmək lazım gəldiyini nəzərdən keçirmişik.

Tədqiqatın material və metodları. Bu zaman Dövlət Statistika Komitəsinin rəsmi saytından əldə etdiyimiz məlumatlardan istifadə etməklə həm əhalinin ümumi demoqrafik göstəriciləri, onların ərazi üzrə paylanması, yaşlar üzrə bölgüsü, eyni zamanda çoxillik dinamikada müxtəlif xəstəliklərin inkişaf tendensiyası öyrənilmiş, həmçinin KOVİD-19 infeksiyasının pandemiyası dövründə xəstəliklərin strukturundakı dəyişiklikləri izləmişik.

Nəticələr və onların müzakirəsi. Əhalinin xəstələnmə göstəricilərinin təhlilindən görünür ki, artıq 2000-ci ildə şəhər və kənd əhalisinin demoqrafik göstəricilərində, yəni sayında bərabərlik vardır. Növbəti illərdə, yəni 2005-ci ildən başlayaraq dinamikada şəhər əhalisi üstünlük təşkil edir. 2018-ci ildə hər iki göstərici ümumilikdə artma meylinə malik olsa da, istiqamətləri fərqlidir. 2018-ci ilə qədər bərabər dinamika müşahidə olunur. Kənd əhalisi nisbətən azalmağa doğru meyllənmişdir.

Əhalinin rayonlar üzrə paylanması məlumatlarında göstərilir ki, ölkəmizdə əhali ərazi üzrə qeyri-bərabər bölünmüşdür. Belə ki, xəritədən göründüyü kimi, 2023-cü ildə əhalinin əsas hissəsi paytaxtda, yəni Bakı şəhərində toplaşmışdır. Əhalinin xüsusilə sıx olduğu bölgələrdə epidimioloji vəziyyət mütləq nəzarətdə saxlanmalıdır. Bakı şəhərindən başqa, əhalinin xüsusilə sıx yerləşdiyi ərazilər Abşeron, Sumqayıt bölgəsi sayılır, 3-cü yerdə isə Masallı, Lənkəran, Cəllabad, Sabirabad, Bərdə, Ağdam, Şəmkir, Tovuz, Şəki, Quba, Xaçmaz rayonları durur. Bu bölgələrdə vəziyyət sıxlıq baxımından müəyyən qədər ürəkaçandır, lakin elə bölgələr var ki, orada əhalinin sayı xeyli aşağıdır. Buna nümunə olaraq Xızı və Xocavənd rayonlarını göstərə bilərik. Buradan belə qənaətə gəlirik ki, Səhiyyə müəsisələrinin və xəstəxanaların maliyyələşdirməsi, həkim kadrlarının təmin olunması ilk növbədə əhalinin daha çox yerləşdiyi iri şəhərlərdə, o cümlədən Bakı şəhərində cəmlənməlidir.

Azərbaycan Respublikasının əhalisinin cinslər üzrə və yaşa görə tərkibini təhlil etdikdə məlum olmuşdur ki, 2019-cu və 2023-cü ildə doğulan körpələrin sayı 10-15 il əvvəlki göstəricidən aşağı olmuşdur. Məktəbəqədər yaş dövründə olan uşaqların sayı artıq 2023-cü ildə 20-25 yaş intervalına daxil olan insanlarla eyni səviyyəyə çatmışdır. Əhali tərkibinin cinslər üzrə fərqləri isə dünyanın digər ölkələri ilə oxşar tendensiyadadır. Belə ki, məktəbəqədər yaş dövründə olan əhali arasında kişi cinsi (oğlanlar) müəyyən qədər çoxluq təşkil edir. Lakin 25 və daha yuxarı yaşlarda bu fərq kəskin şəkildə dəyişir. Belə ki, 20-24 yaş intervalında kişi əhalisi (334,3 min) qadınlardan 30 min çoxdursa, qadınların sayı artıq 25 və yuxarı yaşda 30 min nəfər çoxdur. 40-44 yaşda bu fərq minimallaşır və 4 minə bərabər olur. Bununla da 7,5 dəfə azalmış olur. Növbəti kateqoriyalarda artıq bu fərq o qədər kəskin enmə və yüksəlmələrlə müşahidə olunmur. Yekun nəticədə qadınların ahıl yaşa (>80 yaş) çatma ehtimalı daha çoxdur - 60%.

Əhalinin demoqrafik göstəriciləri arasında ilk növbədə doğum və ölüm əmsalı öyrənilməlidir. Onlar ölkənin rifahının və əhalinin nə qədər cavan qalmasının əsas göstəricilərindən sayılır. Bu göstəricilərdə də maraqlı dinamika müşahidə olunur.

Ölüm əmsalı nə qədər kiçik dalğavari şəkil alırsa, doğum əmsalı bir qədər daha kəskin dəyişikliklərlə əks olunur. Respublikamızda 2000-ci ildə doğum əmsalı əhalinin hər 1000 nəfərinə görə 14,7 olmuşdursa, 2010-cu ildə 17,4 nəfərə qədər (3,8 vahid) yüksəlmişdir. 2010-cu ildən 2019-cu ilə qədər isə nisbi yüksək səviyyədə qalmaqda davam edir. Lakin 2020-ci ildə kəskin enməklə 4,8 vahid azalır. 2021-ci ildən sonra isə yenə artan dinamika müşahidə olunur. Ölüm əmsalı isə 2021-ci ildə son 60 ilin ən yüksək göstəricisinə - hər 1000 nəfərə görə 7,7-a çatır. 2022-ci ildə isə əvvəlki normaya - 6,0 göstəricisinə qayıdır.

Əhalinin cavanlılıq göstəricilərinin təhlili göstərmişdir ki, Azərbaycan (22,7%) Avropa ölkələrindən Kosovo (25%) və Türkəyədən (25,2%) sonra III yer tutur.

Doğum və ölüm əmsalına bənzər dinamika digər bir daha az vacib olmayan gözlənilən ömür uzunluğunda (yaş sayı) da müşahidə edilə bilər. Belə ki, 2015-ci ildə o, son 50 ilin ən yüksək göstəricisinə (73,4-77,9 yaş) çatdıqdan sonra Covid-19 pandemiyası dövründə kəskin şəkildə aşağı düşmüşdür. Bu, kişilərdə daha qabarıq şəkildə görünür və 2022-ci ildə ən yüksək rekord rəqəmə - 78,4 yaşa qədər yüksəlir. Dinamikada baxdıqda, 2020-ci ildə olan düşüşə bənzər hal 1995-ci ildə də təkrarlanır. Əhalinin ömür uzunluğunda baş verən düşüşlər ehtimal olunduğu kimi müxtəlif səbəblərdən (I-si - 1-ci Qarabağ müharibəsi, II-si – KOVİD-19 pandemiyası ilə əlaqədar) qaynaqlansalar da, göstəricilərin əvvəlki vəziyyətə qayıtması çox da özünü gözlətmədi.

Əldə etdiyimiz məlumatların təhlili bizə aşağıdakıları söyləməyə əsas verir:

1. 2000-ci ildə şəhər və kənd əhalisi cüzi fərqlə bərabərdir. Növbəti illərdə göstəricilər nisbətən sabitdir. 2018-ci ildə kənd əhalisi azalır, şəhər əhalisi isə artır.
2. Əhalinin yaş və cins tərkibinin təhlili göstərir ki, məktəbəqədər yaş dövrünə aid olan əhalinin kişi cinsi bir qədər çoxdur. 20-24 yaşda kişi əhalisi 30 min çoxdursa, qadın əhalisi 25 və yuxarı yaşda 30 min çoxdur. 40-44 yaşda fərq minimallaşır (4 minə qədər).
3. Ölüm əmsalının illər üzrə dinamikada dəyişməsi minimaldırsa, doğum əmsalı dalğavari bir şəkildə artıb-azalır. Lakin doğum əmsalını digər göstəricilərlə müqayisə etdikdə onlar arasındakı mütənasibliyi görürük. Doğum əmsalı körpə ölüm əmsalı ilə düz, gözlənilən ömür uzunluğu ilə tərs aslıdır. Ölkədə rifah dərəcəsi artıqca, doğum əmsalında ya stabillik, ya da enmə müşahidə olunur.
4. Gözlənilən ömür uzunluğu (yaş sayı) 2015-ci ildə ölkədə son 50 ilin ən yüksək nəticəsinə çatdıqdan sonra KOVİD-19 pandemiyası dövründə kəskin enmişdir. Bu, kişilərdə daha qabarıq nəzərə çarpır. 2022-ci ildə göstərici artıq yeni rekord vurur.
5. Körpə ölüm əmsalı dinamikada azalmağa doğru dəyişir. Bu göstəricinin variasiyası körpə ölümlərinin səbəbinin dəyişməsi ilə müşayiət olunur. Belə ki, 1995-ci ildə ölümün əsas səbəbi tənəffüs sisteminin xəstəlikləri idisə, 2022-ci ildə bu, perinatal patalogiyalar olmuşdur.
6. Patalogiyalar arasında ən yüksək göstərici qan-damar sisteminin xəstəlikləri üzrə qeydə alınmışdır. O, 2015-ci ilə qədər mütəmadi şəkildə artır. 2015-də isə azalma baş versə də, 2020-də bu göstərici 75%-ə qədər yüksəlir. Lakin 2022-də əvvəlki səviyyəyə qaydır.
7. Yenitörəmələrin (şişlərin) diaqnozunun göstəricilərində ilk görünən fərq 2000-2005-ci illərdə hiss olunur. Növbəti illərdə xəstələnmənin səviyyəsi stabildir. 2020-ci ildə diaqnozun qoyulması 77%-ə qədər artmış və pik rəqəmə çatmışdır.
8. Tənəffüs xəstəlikləri çoxillik dinamikada azalmağa doğru davam etmiş, 2020-ci ildə 43% artmış, 2021-ci ildə ən yüksək səviyyəyə çatmışdır.
9. İnfeksion və parazit xəstəliklər 2020-də 86% artmış, lakin 2021-də pik rəqəmə çatmışdır.

Başqa araşdırma Çinin Uhan Mərkəzi Xəstəxanasında aparılmışdır. Laboratoriyada təsdiqlənmiş 874 COVİD-19 viruslu xəstələrin 2. 5%-i, yəni 22 nəfəri həm də M. pneumoniae co-infeksiyasına yoluxmuş idi. Bu tədqiqat zamanı 88 xəstə təkcə COVİD-19 viruslu xəstələr idi. İki qrup yaradıldı: birində təkcə COVİD-19 viruslu xəstələr (88 nəfər), digərində isə həm COVİD-19, həm də M. Pneumoniae-lı olan xəstələr (22 nəfər) ayırd edildi. Hər iki qrupdakı xəstələrin yaşı təxminən 50-65 yaş arasında idi. Xəstəxanaya daxil olarkən bu iki qrupun xəstələrinin şikayətləri demək olar ki, bənzərdi: hərarət, öskürək, nəfəs darlığı, yorğunluq, ishal və s. Lakin mono-infeksiyalı xəstələrdən biri sinədə ağrıdan, co-infeksiyalı xəstələrdən biri isə baş gicəllənmədən şikayət etmişdilər. Mikoplazma qrupundakı olan revmatoid-artritli xəstə istisna olmaqla hər iki qrupda digər xəstəliklər oxşar idi. Bu da mikoplazma qrupundakı revmatoid-artritli xəstənin ağciyərlərində pnevmoniyanın, digər qrupdakı xəstələrin ağciyərlərindəki pnevmoniyadan daha ağır və ölüm proqnozunun daha yüksək olduğunu göstərdi.

Xəstələrin hamısında limfopeniya, C-reaktiv zülal, ferritinin, alanin dehidrogenaza fermentinin yüksək olduğu görünmüşdür. Hər iki qrupdakı xəstələrin 95.5%-də orta dərəcədə sətəlcəm müşahidə edildi. Co-infeksiyalı xəstələrdə öskürək daha uzunmüddətli oldu, bu səbəbdən də onların xəstəxanada qalma müddəti tək COVİD-19 viruslu xəstələrə nisbətən 4 gün daha artıq oldu. Co-infeksiya olan qrupda 1, mono-infeksiya qrupunda isə 2 ölüm hadisəsi baş verdi. [11]

Növbəti bir araşdırma Tayvanda aparılmışdır. 61 yaşlı kişi iki günlük quru öskürək və ümumi halsızlıq əlamətləri ilə 15 mart 2020-ci ildə təcili yardım şöbəsinə müraciət etdi. Xəstədə hipertoniya, Hepatit B və eşitmə qüsuru vardı. Xəstə 3-12 mart 2020-ci il tarixləri arasında Misirə səyahət etdiyini və səfər zamanı başqa bir nəfərin COVİD-19 testinin pozitiv olduğunu bildirdi.

Xəstəxanada müalicəsi zamanı bu xəstədə eyni zamanda ishal və tənəffüs çətinliyi meydana gəldi. Xəstənin müayinəsi zamanı döş qəfəsinin rentgenoqrafiyasında hər iki ağciyərin infiltrasiyasının artdığı görüldü, ikitərəfli "buzlu şüşə" inkişafını göstərdi. Terapiyadan sonra heç bir mənfi hadisə müşahidə edilmədi. Xəstənin klinik vəziyyəti və radioqrafik əlamətləri yaxşılaşdı. 30 mart tarixində təkrar müayinələrdə IgM və IgG (mikoplazma üçün) səviyyələri normala döndü (471,3U/ml və 154,1 U/ml). Nazofarengial yaxma RV-PZR-də SARS-CoV-2 üçün neqativ oldu.[4]

Bütün bu araşdırmalarda COVİD-19 virusunun təyini Polimeraz Zəncirvari Reaksiya (PZR) vasitəsilə, Mycoplasma pneumoniae diaqnozu isə əsasən seroloji üsulla IgM və IgG formalarının təyini vasitəsilə aparılmışdır.

Nyu-York Tibb Tədris Xəstəxanasında həm COVİD-19, həm də M. pneumoniae-lı 6 xəstədə COVİD-19 virusu üçün PZR testi qoyulmuşdur. Seroloji üsulla M. pneumoniae-sı üçün IgM və IgG formaları təyin olunmuşdur. Xəstələr arasında IgM 909-1737 U/L, IgG 657-955 U/L arasında dəyişmişdir [2].

Çinin Uhan Mərkəzi Xəstəxanasında 22 COVİD-19 və M. pneumoniae-lı xəstələrin müayinələri COVİD-19 virusu üçün PZR testi ilə, M. pneumoniae-sı üçün isə həm PZR, həm də IgM formasının təyini hemilüminesans immunitet analizi (M.P.IgM "+" və antikor titri 1:160) vasitəsilə aparılmışdır [11].

Tayvandakı xəstəyə qrip üçün PZR, M. pneumoniae-sı üçün IgM, IgG, PZR və SARS-CoV-2 virusu üçün Real-Vaxt Polimeraz ZəncirvariReaksiya (RV-PZR) analizləri aparılmışdır. Nazofarengial yaxma RV-PZR SARS-CoV-2 olduğunu təsdiqlədi. M. pneumoniae üçün IgM "+" (1054. 4 U/L), IgG (242. 5 U/L) oldu. Lakin M. pneumoniae üçün PZR nəticəsi "+", "-" olmuşdur. [4]

Məqalələrdən birində İtaliyanın şimalında Lombardiya bölgəsindəki Sandrio əyalətində yerləşən xəstəxanada eyni vaxtda aktiv vərəm olan bir sıra COVİD-19 xəstələrinin klinik radioloji və laborator xüsusiyyətlərini təsvir edilmişdir. Vərəm diaqnozu əsasən Xpert MTB/RF və sinə rentgenoqrafiyasına (CXR)əsaslanır, ardından kulturanın təsdiqlənməsi, fenotipik və genotipik dərman həssaslığl testi (DST) aparılır. Vərəm diaqnozu qoyulduqda, xəstələr HİV testi olunurlar. COVİD-19 diaqnozu nazofarenks çubuqlarla götürülən yaxmalarda SARS-CoV-2 üçün real vaxt RV-PZR nəticələrinə əsaslanır. Klinik məlumatlar ilk müsbət cavabdan sonra 6-41 gün davam edən bir izləmə müddətində qeyd edildi. Tədqiqat Monza+Brinza-nın etik komitəsi tərəfindən təsdiqlənmişdir. (kod3377) Aktiv vərəm diaqnozu qoyulmuş 24 xəstənin arasında COVİD-19 aşkarlanan 20 hadisə müəyyən edilmişdir. Bunlardan 14 xəstə İtaliyanın şimalındakı digər xəstəxanalara göndərilmiş və3-28 mart 2020-ci il tarixləri arası qəbul edilmişdir. Qəbul zamanı 8 xəstədə yanaşı xəstəliklər vardı, lakin heç birində HİV infeksiyası yoxdu. 3 xəstə Calmette-Guerin basillusu ilə peyvənd olunduğu bildirilir. 19 xəstədə PTB var idi və bunlardan 3-ü ağciyərdən kənar 2 xəstədə böyrək, nevroloji (Tb meningeal absesi və kiçik beyin qranuloması olan Vərəm meningiti və ensefaliti) lokalizasiya, 1 xəstədə perikard, plevral, dalaq və sümük vərəminin yayılmış forması olmuşdur. Vərəmə Xpert MTB/RF istifadə edərək diaqnoz qoyuldu. 14 xəstədə diaqnoz kulturasiya ilə təsdiqləndi. 1 xəstədə diaqnoz sümük biopsiyası ilə təsdiqləndi. Qəbul zamanı 12 xəstədə çox tərəfli bir yayılma qeydə alındı. 1 xəstədə isə iynə aspirasiyası yolu ilə diaqnoz qoyulmuş müstəsna ağciyər xaricində vərəm (qarın limfa düyünləri) var idi. 5 xəstə vərəmin dərmana davamlı bir ştamına yoluxmuşdur:3 xəstədə izoniazidə(1 xəstədə genotipik DST yolu ilə) və 2 xəstədə çox dərmana davamlılıq vardı. Standart vərəm əleyhinə müalicə rejimi (izoniazid, rifampisin, etambutol və pirazinamid) 14 halda tətbiq edilmişdir. 6 xəstədə terapiya klinik xüsusiyyətlərə və DST nəticələrinə əsasən hazırlanmışdır. Hidroksixlrorokin (gündə 2 dəfə 200 mq.) COVİD-19 birgə infeksiyası olan bütün xəstələrə tətbiq olundu və yaxşı tolerə edildi. Bu xəstələr EKQ vasitəsilə izlənildi və QT aralığının uzanması müşahidə edilmədi. COVİD-19 diaqnozundan sonra CXR ilə son diaqnozun müqayisəsi (orta hesabla 32 gün əvvəl, 7-88 gün arasındadır)12 xəstədə orqan və toxumaların vərəm zədələnmələrinin (vərəm lezyonları) azaldığını (ortalama 30 gün əvvəl, 7-70 gün arası) göstərdi. 7 xəstədə orqan və toxumaların vərəm zədələnmələrinin ağırlaşmaları oldu. (ortalama 32 gün əvvəl, 14-57 gün arası) Ağ ciyər xaricində vərəm olan xəstədə dəyişiklik olmadı. CXR-də 3 xəstədə COVİD-19 ilə əlaqəli yüngül-orta dərəcədə interstsial qalınlaşma, 1 xəstədə isə COVİD-19 ilə əlaqədar buzlu şüşə naxışları müşahidə edildi. Ümumi limfositopeniya 13 xəstə və 1 xəstə trombositopeniya idi. Əvvəllər vərəm əleyhinə dərmanların qəbulu ilə əlaqədar Hepatitdən əziyyət çəkən 2 xəstədə transaminazinin (həm aspartat aminotransaminaz, həm də alanin aminotransaminaz) qanda artması qeyd olundu. 19 xəstədə D-dimer səviyyəsi yüksək oldu. (>250 ng. ml^{-1}, 5 xəstədə >2000 ng. ml^{-1}) və onlardan 11 xəstədə qanda artan ferritin konsentrasiyası vardı. (>300 ng. ml^{-1}) Oraq hüceyrəli anemiyadan təsirlənmiş 1 xəstədə ferritin səviyyəsi 5039 ng. ml^{-1} idi. Qəbul zamanı 4 xəstəyə oksigen əlavə tələb olundu. 3 xəstədə tezliklə dayandırıldı. 1 xəstədə isə 2-dən 1L-nin^{-1} endirildi. 3 xəstəyə aşağı hemoqlobin səbəbi ilə oksigen tədarükü görüldü. 2 xəstədə tənəffüs çətinliyi var idi:birində subplevral qanaxmaların pozulması səbəbindən pnevmotoraks, döş qəfəsi drenajına qədər müvəqqəti oksigen əlavə edildi. Yaşlı bir xəstə inkişaf etmiş PTB və kaxeksiya ilə inkişaf etmiş COVİD-19 pnevmoniyası müşahidə edildi və ağır hipoksi COVİD-19 diaqnozundan 6 gün sonra öldü. 19 birlikdə yoluxmuş xəstədə təqib laborator müayinə aparıldı. 12 xəstədə ilk burun yaxmasından 14 gün sonra test mənfi oldu. 4 əlavə xəstədən 28 gündən sonra 1-ində test mənfi oldu. 3 xəstədə 35-ci gündə və 42-ci gündə burun yaxması testi mənfi oldu.

Palatada infeksiyanın yayılma dinamikası ilə bağlı bir-neçə fərziyyə əldə edilmişdir.

I COVİD-19 diaqnozu qoyulmadan əvvəl vərəmli xəstələr cərrahi maska taxaraq palatada ümumi ərazilərdə otura bilər. Bu vəziyyət obyektlərin və səthlərin çirklənməsi yolu ilə infeksiyanın ötürülməsini asanlaşdırmışdır.

II Yoluxmuş işçilərin ekshalasiya klapanı olan FFP-3 maskaları taxmaları nəticəsində nəfəsalma zamanı virus hissəciklərinin yayılmasına səbəb ola bilər. Xəstəliyin məhdud sayda olmasına baxmayaraq 29 mart tarixinə qədər cərrahi maskalar taxaraq palataya buraxılan xəstə yaxınları tərəfindən ötürülməsi mümkündür. Hər halda bu epidemiya, vərəmli xəstələrin daha yüksək həssaslığının artdığı qeyri-kafi infeksiya nəzarəti tətbiqinin nəticəsidir. [10]

Növbəti məqalədə Vərəm və COVİD-19-a yoluxan xəstələrin ölümü ilə əlaqəli 2 qrupun məlumatları birləşdirilib. KohortA-da Belçika, Fransa, Braziliya, İtaliya, Rusiya, Sinqapur, İspaniya və İsveçrədəki 26 mərkəzdən 49 TB və COVID-19-a birgə yoluxan xəstələr, kohort B-də Şimali İtaliyada yerləşən 1 referans xəstəxanasına yatırılan 20 TB və COVİD-19-a yoluxan xəstələr qeyd olundu. Vərəm və COVID -19 ölümü ilə əlaqəli xəstəliklər və risk faktorları da daxil olmaqla demoqrafik və kli-nikdəyişənlər retrospektiv şəkildə

toplandı. Vərəm xəstələri mikrobioloji olaraq SARS-CoV-2 infeksiyası molekulyar biologiya ilə təsdiqlənmişdir. İlk diaqnoz 12. 03. 2020 tarixdə qoyuldu.

Məlumatlar 5. 05. 2020-ci il tarixdə yeniləndi. Davamlı dəyişənlər, başqa cür göstərilmədiyi təqdirdə orta (İQR-İnterquartile aralıqları) şəklində təqdim olundu. Kateqorik dəyişənlər mütləq və nisbi (%) tezliklərlə təsvir edilmişdir. Keyfiyyət dəyişənlərini müqayisə etmək üçün Chi-square və Fisher dəqiq testlərindən istifadə edilmişdir. Nəticələr:Ümumi 69 xəstədən 8-i (11,6%, 10,6%) ölmüşdür:7-xəstə A kohortdan (14, 4%) 1 xəstə B kohortdan (5%) 1xəstədən başqa hamısı median yaşı 70 (45-82 yaş arası) olan kişilərdir. COVİD-19-a qədər vərəm diaqnozu qoyulmuşdur, yalnız 8 xəstədə eyni vaxtda hər iki xəstəlik aşkar edilmişdir. 2vərəmli xəstə xərçəng xəstəliyi, 1 vərəmli xəstə HİV və HBV/HDV (xroniki Hepatit B və Hepatit delta virusu) ilə birlikdə COVİD-19-a yoluxmuşdur.

69 xəstədən 43-ü miqrant A kohortdan 49 xəstədən 26-sı , B kohortdan 20 xəstədən 17-si idi. Ümumilikdə miqrantların ölüm nisbəti yerli əhaliyə nisbətən daha az idi.

A kohortdan 1 miqrant, B kohortdan 7miqrant. Ölən xəstələr arasında 3 nəfər Bacillus Colmetle- Guerin (BCG) ilə aşılanmışdır. 4 xəstə pan-həssas Mycobacterium tuberculos, 1 xəstə isə pirazinamidə davamlı olan Mycobacterium bovis -ə yoluxmuşdur. 2016-cı ildə vərəm diaqnozu qoyulmuş və müalicə sonrası nəticələrdən təsirlənmiş, COVİD-19 və TB-un eyni vaxtda diaqnozu olan 3 xəstə xaricində qalan xəstələrdə 7-75 gün arasında vərəm diaqnozundan sonra SARS COV-2 infeksiyası nozokonial idi. Yalnız 1 xəstədə birtərəfli infiltratlar olduğu halda digərlərində ikitərəfli zədələnmələr var idi. Vərəmə qarşı birinci dərəcəli dərmanlardan istifadə edilərək müalicə edilən 5 xəstə COVİD-19 üçün hidroksilo-rokinləmüalicə edildi. 4 xəstənin üz maskası ilə oksigen terapiyasına ehtiyacı olub və 1xəstədə qeyri-invaziv ventilyasiya aparılıb. TB və COVİD-19 müvafiq insan və iqtisadi qaynaqları özündə cəmləşdirdirir, kohortun nisbətən kiçik olmasına baxmayaraq konkret nəticə çıxarmağa mane olur [10].

Müzakirə:COVİD-19 və ikincili infeksiyalı xəstələrdə kliniki oxşarlıqlar və fərqlərin nəzərə alınması, ilkin diaqnozun düzgün qoyulması vacibdir [9,10]. Odur ki, həkimlər xəstə qəbul edərkən qeyd olunanları nəzərə almalı və COVİD-19 kimi qəbul etdikləri xəstələri ətraflı müayinədən keçirməlidirlə. [4,12].

Bütün bunları nəzərə alaraq, hər iki infeksiyanın COVİD-19 viruslu xəstələrə təsirini araşdıran məqalələri təhlil etdik.

SARS-CoV-2 virusu hərarət, öskürək, nəfəs darlığına səbəb olan və böyük sürətlə yayılan bir xəstəlikdir. Bu virusa ətraf mühitdə digər mikroorqanizmlərlə birgə rast gəlinə və bu da xəstəliyin gedişini dəyişə bilər.[2]

Çinin Uhan Mərkəzi Xəstəxanasında təsdiqlənmiş 874 COVİD-19 viruslu xəstələrdə araşdırma aparılmışdır. Bu araşdırmada tək COVİD-19 viruslu xəstələr bir qrupa, co-infeksiyalı xəstələr isə digər qruplara ayrılmışdır. Bu qruplardan biri də COVİD-19 viruslu xəstələrdə yanaşı gedən Mycoplasma pneumoniae infeksiyası idi. Araşdırmadan məlum oldu ki, M.pneumoniae qoşulmuş COVİD-19 viruslu xəstələrdə öskürək daha uzunmüddətli oldu və xəstəxanada qalma müddəti də tək COVİD-19-lu xəstələrə nisbətən daha artıq oldu.[11]

ABŞ-da aparılan araşdırmalardan birində (Nyu-York Tədris Xəstəxanası) 350 COVİD-19 viruslu xəstələrin 6-da həm də M.pneumoniae-yə rast gəlinmişdir. Xəstələrin hamısı orta-ağır vəziyyətdə idilər. Bütün xəstələrdə hərarət, limfopeniya, ferritin, EÇS-nin, C-reaktiv zülalın, D-dimerin yüksəlməsi, rentgen zamanı ağciyərlərin ikitərəfli infiltratı müşahidə edilmişdir. Xəstələrin çoxunda (83.3%) öskürək, nəfəs darlığı, yorğunluq var idi. Bir xəstənin vəziyyəti daha kritik olduğu üçün xəstə həyatını itirdi [2].

Mycoplasma pneumoniae insanlarda tənəffüs orqanları xəstəliyini yaradan patogen bakterial infeksiyadır. Covid-19 virusu ilə yanaşı gedən M.pneumoniae xəstəliyinə ədəbiyyatlarda çox az məlumat verilmişdir. Bu xəstəliklərin simptomları bənzər olduğu üçün onların bir yerdə gedişi çox da araşdırılmamışdır.

Tuberkulozun müalicəsi üçün tələb olunan profilaktik tədbirlər COVİD-19 üçün tələb olunanlardan fərqlənmir. Sərt infeksiya nəzarəti tədbirləri və fərdi qorunma cihazları əhalinin xəstəxanada yoluxma riskinin qarşısını alır.

Aparılan araşdırmalardan görünür ki, COVİD-19 virusu ikinci bir tənəffüs patogenləri ilə birləşdikdə daha ciddi vəziyyət yarana bilər. İkincili infeksiya ilə birgə gedən COVİD-19 xəstəliyi uyğun müalicə edilmədikdə ölümlə nəticələnə bilər [2].

ƏDƏBİYYAT

1. Udwadia Z.F., Vora A., Tripathi A.R. et al. Indian COVID-19 -Tuberculosis interactions: When dark forces collide // J. Tuberc., 2020, v.67(4S), p.155-162

2.Gayam V., Konala V.M., Naramala S. et al. Presenting characteristics, comorbidities, and outcomes of patients coinfected with COVID-19 and Mycoplasma pneumoniae in the USA // J Med Virol., 2020, v.92(10), p.2181-2187.

3. Chopra K.K., Arora V K., Singh S. Indian COVID 19 and tuberculosis // J.Tuberc., 2020, v.67(2), p.149-151

4. Huang A.C.C., Huang C.C., Yang C.T. Concomitant infection with COVID-19 and Mycoplasma pneumoniae // Biomed J., 2020, v.43(5), p.458-461

5. Sarınoğlu R.C., Sili U., Eryuksel E. et al. Tuberculosis and COVID-19: An overlapping situation during pandemic // J. Infect Dev Ctries., 2020, v.14(7), p.721-725

6.Текущая статистика по коронавирусу во всем мире.Сведение ВОЗ 2021

7.Stochino C., Villa S., Zucchi P. et al. Clinical characteristics of COVID-19 and active tuberculosis co-infection in an Italian reference hospital // Eur Respir J., 2020, v.56(1), p.2001708.

8. Waites K.B., Talkington D.F. Mycoplasma pneumoniae and its role as a human pathogen // Clin Microbiol Rev., 2004, v.17(4), p.697-728

9. Saunders M.J., Evans C.A. COVID-19, tuberculosis and poverty: preventing a perfect storm. European Respiratory Journal 2020, v.56(1), p.2001348.

10. Motta I., Centis R., D'Ambrosio L. et al. Tuberculosis, COVID-19 and migrants: Preliminary analysis of deaths occurring in 69 patients from two cohorts // Pulmonology, 2020, v.26(4), p.233-240.

11.Lei Z., Shen J., Tefsen B. et al. Clinical features and outcomes of adult COVID-19 patients co-infected with Mycoplasma pneumoniae // J Infect. 2020, v.81(3), p.12-15.

12. Carbone J., Bui T.L., Han E. et al. COVID-19 Coinfection with Mycoplasma Pneumoniae University of California Irvine, Orange, CA USA

13. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi. Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi. Covid-19. Tibb işçiləri üçün müvəqqəti rəhbərlik. Bakı, 2020

14. Pal M., Berhanu G., Desalegn C. et al. Severe Acute Respiratory Syndrome Coronavirus-2 (SARS-CoV-2) // Cureus. 2020, v.12(3), p.7423.

Резюме

Вторичные инфекции, сопровождающие вирус Covid-19.
Mycoplasma pneumoniae, Mycobacterium tuberculosis

С.Ф. Агаева, Н.Э.Ибрагимхалилова

Микоплазменная пневмония составляет около 40% других пневмоний. В целом ежегодно этим заболеванием заражаются 2 миллиона человек во всем мире, из них 100 000 госпитализируются. Исследования показывают, что более серьезное состояние может возникнуть, когда вирус COVID-19 сочетается со вторым респираторным возбудителем. Заболевание COVID-19, которое сопровождается вторичной инфекцией, может привести к смерти, если не лечить его должным образом. Авторы проанализировали различные источники, написав обзор, посвященный изучению инфекционных патологий в этот период, когда проблема COVID-19 остается актуальной.

Summary

Secondary infections accompanying the Covid-19 virus.
Mycoplasma pneumoniae, Mycobacterium tuberculosis

S.F. Agayeva, N.E. Ibrahimhalilova

Mycoplasma pneumonia accounts for about 40% of other pneumonias. In total, 2 million people worldwide are infected with the disease each year, of whom 100,000 are hospitalized. Research suggests that a more serious condition may occur when the COVID-19 virus combines with a second respiratory pathogen. COVID-19, which is accompanied by a secondary infection, can cause death if not treated properly. The authors analyzed various sources, writing a review devoted to the study of infectious pathologies during this period when the problem of COVID-19 remains relevant.

Daxil olub: 08.01.2024

Причины и последствия инсулинорезистентности при ожирении и особенности ее лечения

С.Н. Алиметов, Г.А. Абиев, Х.И. Курбанова, Г.М. Имамалиев, А.Н. Гумбатова, Э.А. Новрузов, Л.Г.Амрахова
Азербайджанский Медицинский Университет, Баку

Açar sözlər: piylənmə, insulinə rezistentlik, səbəblər, nəticələr, müalicə.
Ключевые слова: ожирение, инсулинорезистентность, причины, последствия, терапия.
Key words: obesity, insulin resistance, pathogenesis, effects, therapy, prevention.

По данным Международной Федерации Диабета, на конец 2019 года зарегистрировано порядка 463 млн больных сахарным диабетом, из них более 90% - пациенты с сахарным диабетом 2 типа [1]. При этом среди лиц с ожирением (ИМТ≥30 кг/м^2) распространенность данных нарушений углеводного обмена составила 45,3%. ВОЗ сообщает, что около 2 млрд человек в мире имеют избыточную массу тела и около 650 млн из них страдают ожирением, 227 млн – инсулинорезистентностью [2]. В Азербайджане статистика также не утешительна: каждый третий азербайджанец на сегодняшний день имеет избыточную массу тела; по данным Машадиевой-Байрамовой С.А. и др. [3] 23,7% наших граждан страдают ожирением; процент с инсулинорезистентностью за последнее время увеличился в три раза и составляет 19,6%.

Многочисленные научные исследования показывают, что основой ассоциации ожирения и нарушений углеводного обмена валяется развитие вторичной инсулинорезистентности на фоне гипертрофии и дисфункции жировых клеток [1,2,3,4]. Гиперинсулинемия, неизбежно развивающаяся на фоне инсулинорезистентности, приводит к увеличению массы тела, замыкая порочный круг и вызывая целый спектр других патофизиологических осложнений, включая артериальную гипертензию, гиперлипидемию, атеросклероз и др. [5,6,7].

Инсулин - индуцированный метаболизм в норме и развитие инсулинорезистентности при ожирении. Благодаря результатам исследований, проведенных в последние год [5,6,7,8] твердо определено, что инсулин является гормоном, оказывающим влияние на все виды обмена, с выраженным анаболическим эффектом. По данным Скудаева Е.С. и др. [9] в рамках жирового обмена под действием инсулина стимулируется поступление глюкозы в адипоциты, образование жирных кислот, триглицеридов и глицерофосфата; при этом подавляется липолиз. Николаев А.Я., Осипов Е.В., Кцоева С.А. [10] считают, что эффект инсулина реализуется посредством целого ряда каскадных реакций при активации инсулиновых рецепторов, Количество данных рецепторов в клетках различно, больше всего их в гепатоцитах, адипоцитах, миоцитах и панкреатоцитах. По данным Дедова И.И. и др. [11] инсулиновый рецептор состоит из двух альфа-субъединиц, обладающих сродством к инсулину и двух каталитических бета субъединиц, обладающих тирозин - протеинкиназной активностью. Активированный инсулиновый рецептор взаимодействует с цитоплазматическими белками, вследствие чего активируется фосфатидилинозитол-3-киназа, которая, в свою очередь, стимулирует транслокацию основного переносчика глюкозы - GLUT4 (Glucose transporter type 4) - из цитоплазмы на мембрану, при участии которого и осуществляется трансмембранный перенос глюкозы в клетки; одновременно в жировых клетках активация фосфатидилинозитол-3-киназы инсулином, приводит к ингибированию липолиза [5,7,9,10,11].

Дисбаланс секреции метаболитов жировой ткани при ожирении и его последствия. Rearen G.M. [8] отмечает, что значительное увеличение размеров и гиперплазия адипоцитов при ожирении сопровождаются выраженными изменениями их секреторной активности. При этом происходит дисбаланс секреции адипоцитов с увеличением экскринии провоспалительных цитокинов, свободных жирных кислот, активных форм кислорода и других метаболитов. По-видимому, все это приводит к развитию медленно прогрессирующего воспаления, оксидативного стресса, дисфункции эндотелия и т.д. В результате сказанного увеличивается риск развития инсулинорезистентности, развития сахарного диабета, геперлипидемии, атеросклероза, артериальной гипертензии [6,9].

Согласно материалам 26-го Конгреса International Federation for the Surgery of Obesity and Metabolic Disorders [13] инсулинорезистентность при ожирении проявляется в снижении индуцированного инсулином транспорта и метаболизма глюкозы в адипоцитах, склетных мышцах и печени; при этом

отмечаются хроническое медленно прогрессирующее воспаление, апоптоз β-клеток, снижение секреции инсулина, оксидативный стресс, клеточная пролиферация, дисфункция эндотелия, ослабление вазорелаксации, ригидность сосудистой стенки, вазоконстрикция и тому подобное. Эти функциональные дефекты, частично вызванные нарушением трансдукции инсулинового сигнала во всех тканях - мишенях, происходят наряду или вследствие ингибирования транслокации и регуляции действия GLUT4, уменьшения количества инсулиновых рецепторов в миоцитах и адипоцитах, нарушения аутофосфорилирования рецепторов, сниженя активности тирозинкиназы и фосфорилирования insulin -receptor substrate [13]. В работах Lukaszewicz A., Gluszinska P., Dirmieszezuk I., Golaszewski P, Chilmonczuk J., Lukaszewicz J., Razak Hady H. [13] показана взаимосвязь между уровнем адипонектина и развитием инсулинорезистентности. Кроме того, есть данные о влиянии лептина на секрецию инсулина при ожирении и инсулинорезистентности [14].

Таким образом, именно инсулинорезистентность является одним из важнейших звеньев патогенеза целого ряда основных, ассоциированных с ожирением метаболических и гемодинамических нарушений, в патогенезе которых дисфункция жировой ткани и инсулинорезистентность тесно переплетены.

Последствия инсулинорезистентности при ожирении:

-инсулинорезистентность является независимым фактором риска развития артериальной гипертензии даже у людей с нормальной массой тела [10];

-при ожирении инсулинорезистентность усугубляет развитие воспалительной реакции, усиливает гиперактивацию симпатикоадреналовой системы, РААС, способствует увеличению ОЦК, повышению реабсорбции Na^+, возрастанию сердечного выброса, повышению ОПСС [6];

-развивается дисфункция эндотелия, приводит к подавлению синтеза NO, простациклина, увеличивается синтез вазоконстрикторов [8];

-хроническое воспаление, снижение синтеза NO, вазоконстрикция, оксидативный стресс оказывают существенное влияние на развитие атеросклероза, ИБС, инфаркта миокарда, гиперкоагуляции крови, отмечается повышение фибриногена, активности ингибитора тканевого активатора плазминогена-1, снижение фибринолитической активности, развитие тромбозов; значительно увеличиваются кардиоваскулярные риски [3,6,13];

-снижения чувствительности миоцитов к инсулину захватывает все типы мышечной ткани, в том числе и кардиомиоциты; усугубляется дисфункция митохондрий, снижается энергетический запас, развивается дисфункция левого желудочка сердца [2];

-при инсулинорезистентности возрастают уровни триглицеридов, ЛПОНП, свободных жирных кислот, ЛПНП; снижается уровень ЛПВП, активность липопротеинлипазы, триглицеридлипазы; замедляется удаление ЛПОНП из кровотока; в свою очередь дислипидемия усиливает инсулинорезистентность, еще больше снижается число рецепторов к инсулину [13];

-значительно страдают функции печени, развивается неалкогольная жировая болезни печени, нарушаются репродуктивные функции как у женщин, так и у мужчин; стимулируется синтез яичниковых андрогенов, нарушает развитие плода, способствует развитию гистационного сахарного диабета; у мужчин развивается андрогенный дефицит, уменьшается количество и подвижность сперматозоидов, развивается бесплодие [11,14];

Современная терапия синдрома инсулинорезистентности.

– Ключевым аспектом лечения инсулинорезистентности при ожирении является снижение массы тела [4];

– В основе терапии лежит сбалансированное питание, индивидуальный подбор калорийности суточного рациона и борьба с гиподинамией, превышение расхода энергии при сохранении полноценности и разнообразия питания [1,2];

– Применение лекарственных препаратов для снижения массы тела, таких как Орлистат, Сибутрамин; Мираглутид; в соответствии с инструкцией и с учетом противопоказаний [3,4,8];

– При морбидном ожирении и в случае ИМТ≥35 кг/м^2 при наличии осложнений возможно оперативное лечение с применением различных методов бариатрической хирургии [13];

– препараты, снижающие инсулинорезистентность (бигуаниды, тиазолидиндионы, ингибиторы АПФ) применяются в случае диагностированного преддиабета, СД2, АГ [3];

Заключение. Таким образом, инсулинорезистентность, развивающаяся на базе избыточной массы тела и ожирения, является, с одной стороны, независимым, а с другой-усугубляющим фактором развития ассоциированных с ожирением заболеваний, таких как СД, ИБС, АГ; неалкогольная жировая

болезнь печени, нарушения репродуктивных функций, дислипидемии, хронического воспаления и др., находящихся в тесной патогенетической взаимосвязи друг с другом. Основой терапии и профилактики ожирения и нарушений углеводного обмена является модификация образа жизни.

ЛИТЕРАТУРА

1. International Diabetes Federation. IDF Diabetes Atlas, 9th ed. Brussels: IDF; 2019.
2. WHO int. [internet] Obesity and overweight [cited 2018 June 30]. Available from: http://www.who.int/mediacentre/factsheets/fs311/en.
3. Məşədiyeva-Bayramova S.Ə., Alimetov S.N., İbrahimova Ş.S., Şəkərli diabet (monoqrafiya). "Elm vəTəhsil", Bakı, 2023, 368 s.
4. Ohwaki K., Endo F., Yano E. Relationship between body mass index and infertility in healthy male Japanese workers: a pilot study // Andrologia, 2019, v.4(41), p.100-104.
5. Корнеева О.Н. Драпкина О. М. Патогенетические взаимосвязи артериальной гипертензии и инсулинорезистентности. // Российский кардиологический журнал, 2023, №10, с.100-105
6. Bonora E., Kiechli S., Willeit J. et al. Prevalence of insulin resistance in metabolik disorders: the Bruneck Study // Diabetes, 2018, v.17(10), p.1643-1649.
7. Osegbe I., Okpara H., Azinge E. Relationship between serum leptin and insulin resistance among obese Nigerian Women // Ann Afr Med., 2016, v.15(1), p.14-19.
8. Reaven G.M. Pathophysiology of insulin resistanse in human disease // Phyziol Rew, 2015, v.75, p. 473-486.
9. Скудаева Е.С., Пашенцева А.В., Вербовой А.Ф. Уровни резистина, адипонектина и инсулинорезистентности у пациентов с разной степенью нарушений углеводного обмена // Ожирение и метаболизм, 2021, №3, с. 57-60.
10.Николаев А.Я., Осипов Е.В., Кцоева С.А. Биохимия инсулинозависимого сахарного диабета. М. Медицина 2023 [in Russ].
11.Дедов И. И, Мельниченко Г.А., Бутрова С.А. Жировая ткань как эндокринный орган // Ожирение и метаболизм. 2022, №1, с. 6-13.
12.Despres J.P., Lamarche B., Mauriege P. et al. Hyperinsulinemiya as an independent risk factor for ischemik heart disease // N.Engl.J.Med. 2016, v.334(15), p.952-957.
13.XXVI IFSO World Congress Of Barıatrıc And Metabolıc Surgery, Naples, Itali, august 30-September 1, 2023. Abstracts book; www.ifso2023.org.
14.Osegbe I., Okpara H., Azinge E., Relationship between serum leptin and insulin resistance among obese Nigerian women // Ann. Afr. Med., 2016, v.15(1), p.14-19

Xülasə

Piylənmə zamanı insulinə resistentlik: səbəbləri, nəticələri və müalicəs

S.N.Alimetov, H.Ə. Əbiyev, X.İ. Qurbanova, Q.M. İmaməliyev, A.N. Hümbətova, E.A. Novruzov, L.Q.Əmrahova

Bədən çəkisi indeksinin artması və piylənmə fonunda inkişaf edən insulinə resistentlik, bir tərəfdən sərbəst, digər tərəfdən isə piylənmə ilə assosiasiyalı şəkərli diabet, ürəyin işemik xəstəliyi, arterial hipertenziya, qaraciyərin qeyri-alkoqol piylənmə xəstəliyi, disreproduksiya, dislipidemiya və sair patologiyalar kimi halları ağırlaşdıran amildir. İnsulinə rezistentliyin profilaktikası və terapiyası üçün əsas şərt həyat tərzinin müvafiq şəkildə dəyişdirilməsidir.

Summary

Insulin resistance in obesity: pathogenesis, effects, therapy and prevention.

S.N. Alimetov, H.A. Abiyev, K.I. Gurbanova, G.M. Imamaliyev, A.N. Khumbatova, E.A. Novruzov, L.Q.Amrahova

The actual problem of modern medical and biological sciences is the analysis of existing methods employed in treatment of insulin resistance in obesity. It is associated with increased hospital utilization, length of stay, hospital charges and increased risk of common admission diagnoses and necessary procedures during their stay. In study, current publications, research trends and trends related to insulin resistance in obesity were analysed with bibliometric analysis; insulin resistance is a factor that reduces the healthcare system.

Daxil olub: 06.02.202

İdmançılarda qasıq ağrıları və qasıq zədələnmələri

N.N. Süleymanov
Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası, Bakı

Açar sözlər: qasıq ağrısı, idman yaralanmaları, simfizit, reabilitasiya
Ключевые слова: боль в паху, спортивные травмы, симфизит, реабилитация
Key words: groin pain, sports injuries, symphysis, rehabilitation

Qasıq zədələri bütün idman zədələrinin 5-10%-ni təşkil edir [1]. Bu zədələr topa zərbə vurmaq, yüksək sürətli istiqamət dəyişmələri və konki sürmə kimi sürüşmə hərəkətləri tələb edən idmanlarda olduqca yayılmışdır. Bu idman növündə qasıq zədələri bütün zədələrin 10-23%-ni təşkil edir. Futbol və buz hokkeyinə baxdığımızda, müntəzəm olaraq mövsümdə oyunçularda qasıq zədələrinin müvafiq olaraq hər 1000 saata 1,1 saat və 1000 saata 1,3 saat [2] meydana gəldiyi bildirildi. İdmanla əlaqəli əksər qasıq zədələrində yaralanmalar omba adduktorlarının payına düşür/ Bunun səbəbi, sürətli dəyişən hərəkətlər və topa vurma kimi zədələrə həssas olan əzələ-vətər kompleksini meydana gətirən strukturlarda yüksək eksentrik qüvvələr görülür [3]. Kişi və qadın idmançıların zədələnmə tezliyi müqayisə edildikdə, qadın futbolçularda zədələrin daha az olduğu ifadə edilir. Cari tədqiqatlar göstərir ki, qasıq ağrısının yayılması bir mövsüm ərzində 70%-ə çata bilər [4]. Bundan əlavə, əksər oyunçuların qasıq ağrısı ilə oynamağa davam etdiyi bildirilir [5]. Qasıq zədələrinin qarşısının alınması xüsusilə futbol və buz hokkeyi kimi idmanlarda böyük əhəmiyyət kəsb edir, çünki bu zədələr əhəmiyyətli əlilliyə, idmandan uzaq itirilmiş vaxta, yenidən zədələnməylə bağlı xronikiliyə səbəb olur [6].

Risk faktorları. Qasıq xəsarətləri üçün risk faktorlarını araşdırdığımız zaman, əvvəlki qasıq zədəsi gələcək qasıq zədəsi üçün məlum risk faktorudur [7]. Bu sahədə sistematik bir araşdırma, müxtəlif aşağı ətraf əzələləri (quadriseps, hamstring,baldır, ayaq biləyi) və zədə arasında əlaqə olduğunu göstərdi [8]. Başqa bir araşdırma, əvvəlki diz zədəsi ilə sonrakı qasıq zədəsi arasında əlaqəni göstərdi [9]. Son illərdə aparılan başqa bir sistematik araşdırma idmançılarda qasıq zədələnməsinin inkişafı ilə əlaqəli amil kimi hər iki bud-çanaq oynağının aşağı hərəkət diapazonunu (ROM) müəyyən etdi. Əvvəlki araşdırmalar, qasıq ağrısı olan idmançıların futbola qayıdış zamanı topa vuruş zamanı omba daxili rotasiyasının azaldığını [10] və omba oynaqlarının hərəkət diapazonunun azaldığını bildirmişdir.

Zədələnmə mexanizmi. Futbolun təbiətinə görə, topa zərbə endirmək ən böyük zədə səbəbidir. Futbolda əsasən ən böyük hesabla 81% hallarda topa zərbə vuran ayağın təpik hərəkəti əsnasında adduktor longus əzələsi olduğu müəyyən edilmişdir. Ön çarpaz bağ zədələri əsasən istiqamət dəyişmələri [11] və performans [12] ilə bağlıdır. Kəskin qasıq zədələrində ümumi zədələnmə mexanizmi olsa da, istiqamətin sürətlə dəyişməsi zamanı zədəyə səbəb olan digər amillər haqqında məlumat hələ də yoxdur. Ümumiyyətlə, qasıq zədələrinin ümumiyyətlə idmanda topa zərbə endirmə, istiqamət dəyişməsi, dayaq ayağın fırlanması və ani dönüşlər nəticəsində meydana gəldiyi vurğulanır [13] (Şək. 1).



Şək. 1. Futbolçunun zərbəsi zamanı rektus abdominis və adduktor əzələləri arasında balanssızlıq səbəbindən ön çanaqda əmələ gələn qüvvələr

Qasıq zədələrinin profilaktikası. Qasıq zədələrinin idman üçün baha başa gəldiyini və idmançılara səbəb olduğu vaxt itkisini nəzərə alsaq, bu zədələrdən qorunmaq günümüzdə daha artıq əhəmiyyət kəsb edir. Düzgün məşq proqramının idmançılarda qasıq zədələnməsinin qarşısını almaq üçün faydalı olacağı geniş şəkildə ifadə edilir, lakin məşq proseslərinin effektivliyi ilə bağlı ziddiyyətli sübutlar var. Yalnız iki tədqiqat qasıq zədələnməsinin qarşısının alınması üçün məşq prosesinin prospektiv olaraq qiymətləndirmişdir. Mövcud sübutlar həmçinin kişi həvəskar futbolu [14] və peşəkar buz xokkeyi [5] idmançıları ilə məhdudlaşır. Holmich və həmkarları, hər həftə məşqdən əvvəl müntəzəm olaraq həyata keçirilən omba və qarın gücləndirilməsi və tarazlığın daxil olduğu bir fazalı məşq proqramından istifadə etdilər. Məşq proqramının parametrlərinin ətraflı izah edildiyi araşdırmada proqramların heç birində xarici mühitdən heç bir əlavə yük daxil edilməyib və proqramın səviyyəsi tədricən artırılmayıb. Bu çatışmazlıq məşq qrupunda nəzarət qrupu ilə müqayisədə qeyri-əhəmiyyətli fərq ilə nəticələnib. Tayler və onun həmkarları omba və qarın əzələlərini hədəf alan məşqlərdə əlavə olaraq müxtəlif müqavimət rejimləri ilə xarici yük, elastik bandlar, trenajor və sərbəst çəkilərlə istifadə edilmişdir. Fərqli idmançı populyasiyaları və idman səviyyələri bu işdə bildirilən xarici yükdən istifadə edərək məşq müdaxilələrinin effektivliyinə səbəb ola bilər [5].

Qasıq zədələrinin diaqnozu. Qasıq nahiyəsində diaqnostik olaraq dəqiq nişan əlamətlərini və simptomlarını dəstəkləyən sübutlar məhduddur və praktik təlimatlarında uyğunsuzluqlar qeyd olunur [15]. Klinisistlər qasıq ağrısını təqlid edən qarın və çanaq nahiyəsinin zədələrindən xəbərdar olmalıdırlar [16]. Qasıq ağrısına səbəb olan ciddi patologiyalara avaskulyar nekroz, bud sümüyü boynu sınığı ola bilər [17]. Avaskulyar nekroz üçün skrininqlə bağlı məlumat məhduddur, lakin normal omba hərəkət diapazonunun (ROM) olması bu vəziyyəti istisna etmək üçün faydalı olduğu irəli sürülür. Ciddi əsas patoloji şübhəsi varsa, həmişə xüsusi radioloji görüntüləmə aparılmalıdır. Düz rentgenoqrafiya skelet neoplazmalarını aşkar etmək üçün effektiv bir ilkin müayinədir. Görünən sağlam idmançılarda belə, müalicə ilə yaxşılaşmayan, izah olunmayan və ya uzun müddət davam edən qasıq ağrısı üçün bu nəzərə alınmalıdır. Stress sınığı nəzərə alınarsa, rentgenoqrafiyalar xüsusilə erkən mərhələlərdə çox vaxt mənfi olur və buna görə də bu zədələri istisna etmək üçün istifadə edilməməlidir [18]. Alternativ olaraq maqnit rezonans görüntüləmə (MRT) tövsiyə olunur ki, bu da sümük stress reaksiyalarını erkən mərhələdə, xüsusilə də yüksək riskli bölgələrdə görüntüləyir. Skelet cəhətdən yetişməmiş yeniyetmə idmançılarda əzələ-vətər distraksion zədələrdə sümük avulsiyalarını aşkar etmək üçün düz rentgenoqrafiyadan istifadə olunur, avaskulyar nekroz və bud sümüyü boynunun epifiziolizi müşahidə edilə bilər [19].

Qasıq zədələnmələrinin fiziki müayinəsi. Ciddi patologiyanın əlamətləri istisna edildikdə, klinisist subyektiv xəstəlik tarixi və yüksək həssas klinik müayinə testlərindən istifadə edərək, potensial bel-oma və sakroiliak oynaq (SIE) ilə əlaqəli patologiyaları yoxlamalıdır. Təkrarlanan bel ROM testi və mənfi düz ayaq qaldırma [97% həssaslıq, 0.05 mənfi ehtimal nisbəti] və Slump testi [həssaslıq 83%, mənfi ehtimal nisbəti 0.32] diskogen/radikulopatiya patologiyasının potensial mövcudluğunu istisna etməyə kömək edir [21]. Qasıq ağrısı olan idmançıların müayinəsinə dair "Doha razılaşması" idmançıların ağrı testlərinə əsaslanaraq müəyyən klinikalara görə təsnifatını tövsiyə edir [22]. Qasıq nahiyəsində, qasıqda, qasıqda və iliopsoasda ağrının müəyyən edilmiş klinik təzahürlərinə palpasiya zamanı həssaslıq daxildir. Adduktor ilə əlaqəli qasıq ağrısı kimi təsnif edilmək üçün, adduktor bölgəsində müqavimət testi zamanı ağrı hissi bu təsnifata aiddir. Bu tədqiqatlar göstərir ki, klinik müayinə müxtəlif adduktor testləri üçün tez-tez 90% -dən çox dəqiqliklə adduktorların kəskin zədələrini aşkar etməkdə dəqiqdir [23]. Kəskin bud-çanaq fleksor zədələrində iliopsoas və ya proksimal rektus femorisin zədələnmələrini ayırd etmək bəzən çətin ola bilər. Buna görə də, ən yaxşı mövcud sübuta qasıq ağrısı ilə müraciət edən idmançılar üçün bütün qasıq nahiyəsinin hərtərəfli müayinəsi (subyektiv xəstəlik tarixi, görüntüləmə, fiziki müayinə) daxil edilməlidir. Diaqnozun qoyulması üçün istifadə edilən fiziki müayinə manevrlərinin 90%-dən çoxuna aşağıdakılar daxildir: palpasiya (77%) və fleksiya, adduksiya və daxili fırlanma testi (Anterior Impingement Test) (13%) [24] (şəkil 2)

Şək. 2. Qasıq zədələnmələri zamanı "Sıxma Testi"

Qasıq zədələri və ağrıları üçün reabilitasiya. İdmançılarda qasıq ağrısı və zədələri üçün qeyri-cərrahi və cərrahi müdaxilələri müqayisə edən klinik sınaqlara əsaslanan məhdud sübutlar var, lakin son sistematik araşdırma qeyri-cərrahi və cərrahi müdaxilələrin oxşar oyuna qayıtma vaxtlarına malik olduğunu. Bu səbəbdən, ümumiyyətlə, omba və qasıq ağrısı olan idmançılar üçün ilk növbədə qeyri-cərrahi müalicə üsullarının sınanması tövsiyə olunur [25].

Qasıq zədələri üçün Kopenhagen Məşq Metodu. Kopenhagen Adduction Təlimləri xüsusilə idman tibb ictimaiyyətində populyarlıq qazanmışdır. Bu məşğələlər çox faydalı görünür, çünki onlar hətta avadanlığa ehtiyac olmadan da həyata keçirilə bilər. Təlimlər adduktor longus əzələsində yüksək əzələ fəaliyyətini təmin edir və omba adduksiyasının ekssentrik qüvvəsini artırır. Bu faydaları daha aydın şəkildə ortaya çıxarmaq üçün Haroy və digərləri tərəfindən araşdırma aparılıb. Kopenhagen Adduction Məşq Protokolunun futbolçulara tətbiqindən sonra qasıq bölgəsində yaşanan problemlərin 41% azaldığını bildirən nəticələr ortaya qoyulub. Təlimlər mövsümdən əvvəl başlamış və mövsüm ərzində davam etdirilib. Kopenhagen Məşqi zamanı irəliləyiş əsasən məşq intensivliyini artırmaqdan daha çox təkrarların artırılmasına əsaslanır. Buna görə də, Kopenhagen Adduction məşqi üçün təkrarların sayının artırılması ən mühüm təkmilləşdirmə meyarı hesab edilsə də, onun omba adduksiyasının gücündə irəliləyişlərlə əlaqəsini və risk faktorlarının azaldılmasındakı rolunu aydın şəkildə nümayiş etdirmək üçün gələcək tədqiqatlara ehtiyac olduğu vurğulanır [26] (Şək. 3).



Şək. 3. Kopenhagen Adduction təlimləri

Pandey və digərlərinin 40 həvəskar futbolçu üzərində apardıqları araşdırmada, qasıq zədələrindən sonra qapalı və açıq kinetik məşqlərin ağrı və həssaslıq parametrlərini araşdırdılar. Bundan əlavə, əzələ gücünə də nəzər salan müəlliflər, araşdırma nəticəsində yalnız qapalı kinetik məşqlər yerinə açıq və qapalı kinetik məşqlərin birlikdə tətbiqinin ağrı və həssaslığın azaldılmasında ağrı və həssaslığın azaldılmasında əhəmiyyətli təsir göstərdiyini ifadə etdilər [27].

Zədədən sonra idmana geri dönüş. İdmançıların hər hansı zədədən sonra idmana qayıtması və zədədən əvvəlki performansını qoruyub saxlaması vacibdir. 2010 və 2019-cu illər arasında 65 fərqli NBA oyunçusunun daxil olduğu Patel və başqalarının araşdırmasında onlar idmana qayıdış və geri qayıtdıqdan sonrakı performansı araşdırdılar. Tədqiqat nəticəsində müəlliflər qasıq zədələrinin hər hansı əsas statistik kateqoriyada

(xallar, asistlər, ribaundlar, bloklar, top ötürmələri, sahədəki qol faizi) və oyunçunun effektivlik reytinqinə (PER) heç bir əhəmiyyətli dəyişikliklərə səbəb olmadığını bildirdilər. Həmçinin qeyd olunub ki, qasıq zədəsindən sonra NBA oyunçuları orta hesabla 16-17 gün və ya 7-8 oyunu buraxdıqdan sonra oyuna qayıdırlar. Qasıq zədəsinin də oyunçu performansına, karyera uzunömürlülüyünə təsir etmədiyi deyilir [28].

Nəticə. Mütəxəssislərin klinik qərar vermə baxımından ən çətin problemlərdən biri olan qasıq zədələri və ağrılar idmançı populyasiyasında performansı azaldan və vaxt itkisinə səbəb olan aparıcı zədələr sırasındadır. İdmançı populyasiyasında risk faktorlarını və zədə mexanizmlərini bilmək, hansı nahiyədə ağrının olduğunu müəyyən etmək və buna uyğun reabilitasiya proqramını tərtib etmək bu zədələrlə bağlı xərcləri azaldacaq və idmançıların meydançadan uzaq qalmasının qarşısını alacaq və onların performansını artıracaq baxımından çox əhəmiyyətli olacaq.

ƏDƏBİYYAT

1. Grote, K., Lincoln, T.L., Gamble, J. G. Hip Adductor Injury in Competitive Swimmers // American Journal of Sports Medicine, 2004, v.32(1), p.104-108.
2. Emery C.A., Meeuwisse, W.H. Risk factors for groin injuries in hockey // Medicine and Science in Sports and Exercise, 2001, v.33(9), p.1423–1433.
3. Charnock B.L., Lewis C.L., Garrett W.E. Adductor longus mechanics during the maximal effort soccer kick // Sports Biomechanics, 2009, v. 8(3), p.223-234
4. Thorborg K., Couppé C., Petersen J. et al. Eccentric hip adduction and abduction strength in elite soccer players and matched controls: a cross-sectional study // Br J Sports Med., 2011, v.45(1), p.10-3.
5. Tyler T.F., Thomas G.C., Nicholas S.J. et al. Addition of isolated wrist extensor eccentric exercise to standard treatment for chronic lateral epicondylosis: a prospective randomized trial // J Shoulder Elbow Surg., 2010, v.19(6), p.917-22
6. van Beijsterveldt A.M., van de Port I.G., Krist M.R. et al. Effectiveness of an injury prevention programme for adult male amateur soccer players: a cluster-randomised controlled trial // Br J Sports Med., 2012, v.46(16), p.1114-8
7. Whittaker J.L., Small C., Maffey L. et al. Risk factors for groin injury in sport: an updated systematic review // Br J Sports Med., 2015, v.49(12), p.803-9
8. Toohey L.A., Drew M.K., Cook J.L. et al. Is subsequent lower limb injury associated with previous injury? A systematic review and meta-analysis // Br J Sports Med., 2017, 51(23), p.1670-1678
9. Verrall G.M., Slavotinek J.P., Barnes P.G. et al. Clinical risk factors for hamstring muscle strain injury: a prospective study with correlation of injury by magnetic resonance imaging // Br J Sports Med. 2001, v.35(6), p.435-440.
10. Mosler A.B., Agricola R., Weir A. et al. Which factors differentiate athletes with hip/groin pain from those without? A systematic review with meta-analysis // Br J Sports Med., 2015, v.49(12), p.810
11. Hewett T.E., Torg J.S., Boden B. P. Video analysis of trunk and knee motion during noncontact anterior cruciate ligament injury in female athletes: Lateral trunk and knee abduction motion are combined components of the injury mechanism. British Journal of Sports Medicine, 2009, 43(6), 417–422.
12. Brughelli M., Cronin J., Levin G. et al. Understanding change of direction ability in sport: a review of resistance training studies // Sports Med., 2008, v.38(12), p.1045-63.
13. Morelli V., Smith V. Groin injuries in athletes // Am Fam Physician. 2001, v.64(8), p.1405-14
14. Hölmich, P., Larsen, K., Krogsgaard, K. et al. Exercise program for prevention of groin pain in football players: A cluster-randomized trial // Scandinavian Journal of Medicine and Science in Sports, 2010, 20(6), p. 814-821.
15. Poitras, V.J., Gray, C.E., Janssen, X. et al. Systematic review of the relationships between sedentary behaviour and health indicators in the early years (0–4 years) // BMC Public Health, 2017, v.**17**, p. 868
16. Cibulka M., Rojas S. Hamstring Muscle Strain Treated by Mobilizing the from by guest on Want more papers like this? In academic.oup.com. Retrieved May 23, 2021, from http://ptjournal.apta.org/
17. Gabbe, B. J., Bailey, M., Cook, J. L. et al. The association between hip and groin injuries in the elite junior football years and injuries sustained during elite senior competition // British Journal of Sports Medicine, 2010, v.44(11), p.799-802.
18. Knapik J.J., Bauman C.L., Jones B.H. et al. Preseason strength and flexibility imbalances associated with athletic injuries in female collegiate athletes // Am J Sports Med. 1991, v.19, p.76-81.

19.Georgiadis A.G., Zaltz I. Slipped Capital Femoral Epiphysis: How to Evaluate with a Review and Update of Treatment // In Pediatric Clinics of North America, 2014, 61 (6), p. 1119-1135

20.van der Windt D.A., Simons E., Riphagen I.I. et al. Physical examination for lumbar radiculopathy due to disc herniation in patients with low-back pain // Cochrane Database Syst Rev. 2010, 17 (2):CD007431.

21.Hölmich Per. Long-standing groin pain in sportspeople falls into three primary patterns, a "clinical entity" approach: A prospective study of 207 patients. British Journal of Sports Medicine, 2007, 41(4), 247–252

22.Weir A., Brukner P., Delahunt E. et al. agreement meeting on terminology and definitions in groin pain in athletes // Br J Sports Med., 2015, v. 49(12), p.768-74.

23.Serner A., Mosler A.B., Tol J.L. et al. Mechanisms of acute adductor longus injuries in male football players: a systematic visual video analysis // Br J Sports Med., 2019, v.53(3), p.158-164.

24.de Sá L.D., Oliveira M., Ribeiro F. et al. Studies of the effects of microplastics on aquatic organisms: What do we know and where should we focus our efforts in the future? // Science of the Total Environment, 2018, v. 645, p.1029-1039

25.King P.A., Foster L.V., Yates R.J. et alş Survival characteristics of 771 resin-retained bridges provided at a UK dental teaching hospital // Br Dent J., 2015, v.218(7), p.423-8

26.Ishøi L., Thorborg K., Ørum M.G. et al. How Many Patients Achieve an Acceptable Symptom State After Hip Arthroscopy for Femoroacetabular Impingement Syndrome? A Cross-sectional Study Including PASS Cutoff Values for the HAGOS and iHOT-33 // Orthop J Sports Med., 2021, v.9(4):

27.Pandey D. Work Stress and Employee Performance: An Assessment of Impact of Work Stress // International Research Journal of Human Resource and Social Sciences, 2010, v. 7, p.124-135.

28.Patel J.A., Nielsen F.B.H., Badiani A.A. et al. Poverty, inequality and COVID-19: the forgotten vulnerable // Public Health, 2020, v.183, p.110-111.

Резюме
Боль и травмы в паховой область у спортсменов
Н.Н. Сулейманов

